SLAVYAN ÖLKƏLƏRİ TARİXİ



Tahir Baxşəliyev

# BOLQARISTAN

## 1800–2025



**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**TAHİR BAXŞƏLİYEV**

# SLAVYAN ÖLKƏLƏRİ TARİXİ. BOLQARISTAN 1800–2025

**Ali məktəblərin bakalavriat səviyyəsi üzrə**
**“050206 – Tarix” ixtisası üçün**
**DƏRSLİK**

*Azərbaycan Respublikası Təhsil nazirinin 10.02.2016-cı il tarixli 76 saylı əmri ilə təsdiq edilmişdir.*

NƏŞRİYYAT-POLİQRAFİYA

**BAKI–2025**

**Elmi redaktor:**

**H.N.Məmmədov**
***t.e.d., prof.***

**Rəyçilər:**

**A.H.Cəlilov**
***t.e.n., dos.***

**A.Ş.Şahmuradov**
***t.e.n., dos.***


**Baxşəliyev Tahir.**

**B31 Slavyan ölkələri tarixi. Bolqarıstan 1800–2025.** *Ali məktəblərin bakalavriat səviyyəsi üçün dərslik.* Düzəliş və əlavələrlə 3-cü seriya nəşri. Bakı, "Təhsil Nəşriyyat-Poliqrafiya" MMC, 2025, 384 səh.


Dərslikdə tarix elminin müasir tələbləri nəzərə alınmaqla Bolqarıstan tarixinin 1800–2025-ci illərdəki hadisə və prosesləri xronoloji ardıcıllıqla şərh edilir. Bolqarların milli oyanışına, ölkənin qurtuluşuna, müharibələrin alovları içərisindən keçməsinə, Bolqarıstan Xalq Respublikasının yaranması və süqutuna, müstəqil Bolqarıstanın meydana gəlməsinə əsas diqqət yetirilmişdir.

Tələbələr, müəllimlər, o cümlədən Bolqarıstanın yeni və ən yeni tarixi ilə maraqlananlar üçün nəzərdə tutulmuşdur.


**B $\frac{4306020600}{053}$ 2025**

**ISBN: 978-9952-576-53-5**



**© Tahir Bəxşəliyev**

## MÜNDƏRİCAT

Giriş ......................................................................5–14

### I FƏSİL

Bolqar milli oyanışının ilkin şərtləri və başlanğıcı ..............................................................15–44

### II FƏSİL

Milli azadlıq hərəkatının yüksəlişi.............................45–102

### III FƏSİL

1877–1878-ci illər Rusiya–Türkiyə müharibəsi və Bolqarıstanın azad edilməsi ..................................103–25

### IV FƏSİL

Bolqarıstan qurtuluşundan XIX əsrin sonuna qədər ..........................................................126–158

### V FƏSİL

XX yüzilliyin əvvəllərində .....................................159–202

### VI FƏSİL

Bolqarıstan üç müharibənin atəşində......................203–234

## VII FƏSİL

Bolqarıstan 1918–1939-cu illərdə...........................235–278

## VIII FƏSİL

Bolqarıstan İkinci dünya müharibəsi
illərində.....................................................................279–289

## IX FƏSİL

Bolqarıstan 1940-cı illərin
ortaları – 1980-ci illərin sonlarında ........................290–319

## X FƏSİL

Bolqarıstan Respublikası 1989–2025-ci illər..........320–348

İstifadə edilmiş ədəbiyyat siyahısı.................................349

***Əziz və sevimli nəvələrim Baxşəlibəyov Aron Turqut oğlu və Veber–Baxşəlibəyova Ella Stiv qızına həsr edirəm!***

# GİRİŞ

XVIII–XIX əsrlərin hüdudlarında Osmanlı imperiyasının tərkibinə daxil olan Bolqarıstanda tarixin yeni mərhələsinin meydana gəlməsilə burjua münasibətlərinin ilkin şərtlərini səciyyələndirən əmtəə-pul münasibətlərinin yaranması, kapitalist münasibətlərinin ilk cücərtilərinin bərqərar olması müşahidə edilirdi. Kənd təsərrüfatı, sənətkarlıq, daxili və xarici ticarət tədricən inkişaf edirdi. Osmanlı dövlətinin modernləşdirilməsi və möhkəmləndirilməsi məqsədilə tənzimat, yəni islahatlar dövrünün başlaması xüsusilə iqtisadi sahədə təşəbbüslərin inkişafı üçün müəyyən təkan oldu.

Bolqar torpaqlarında kapitalist münasibətlərinin meydana gəlməsilə yeni ideoloji proqrama malik burjua sinfinin tədricən bolqarların birliyi ideyasının, Bolqarıstanın Osmanlı asılılığından azad olması məqsədinin önə çıxması diqqəti cəlb edir.

Hilendar monastırının rahibi Paisi 1762-ci ildə yazdığı "Slavyan–Bolqar tarixi bolqar tarixi və çarları haqqında" əsərində bolqar milli oyanışının əsasını qoyaraq xalqın və dövlətin tarixinə nəzər salmaqla bolqarları mənəvi və siyasi azadlıq

uğrunda mübarizəyə, qurtuluşa səsləyirdi ki, bu da formalaşmaqda olan bolqar burjua xalqının milli ideologiyasının bayrağı olmuşdur.

Bolqarların mənəvi və siyasi azadlığı uğrunda mübarizəsində bolqar torpaqlarında təhsil və maarifin yayılması, ədəbiyyatın, incəsənət və memarlığın, rəssamlığın, musiqinin, kitab nəşri və s. əsasının qoyulması ilə diqqəti cəlb edirdi ki, bunlar da xalqın mənəvi oyanışını şərtləndirirdi.

Bolqarıstan torpaqlarında formalaşan xalqın maraq və istəklərinə uyğun olaraq asılılıqdan sonra müstəqilliyi ləğv edilən bolqar kilsəsinin muxtariyyəti uğrunda mübarizə ön plana keçmişdir. Krım müharibəsindən sonra avtokefal kilsə üçün hərəkat daha geniş miqyas almışdır. Bütün çətinliklərə baxmayaraq müstəqil bolqar kilsəsini yaratmaq uğrunda mübarizənin nəticəsi olaraq 1870-ci ilin fevralında Sultan müstəqil Bolqar kilsəsinin yaradılması haqqında fərman verdi ki, patriarxlıq bolqar ekzarxatını tanımaqdan imtina etmişdir. Müstəqil kilsə uğrunda mübarizə bolqarlar üçün mənəvi milli-mədəni müstəqilliyin və milli birliyin simvoluna çevrilmişdir.

XVIII–XIX əsrlərin kəsişməsində bolqar xalqının Osmanlı asılılığına qarşı siyasi azadlıq uğrunda mübarizəsi daha çox kortəbii, epizodik mahiyyət daşıyaraq özünü əsasən təhsil və mədəniyyət sahəsində, mənəvi oyanışda, orta əsrlər ənənələrindən və ehkamlarından azad olmaqda, humanizm və bərabərlik ideyalarının mənimsənilməsində göstərmişdir. Azadlıq mübarizəsinin əsas formaları kimi milli maarifçilik hərəkatı, təsis edilən müstəqil kilsə təşkilatı, durmadan artan silahlı

üsyanlar XIX əsrin ikinci yarısında daha geniş miqyas almışdır. Azadlıq mübarizəsinin müxtəlif kütləvi formalarının demokratik mahiyyəti bolqar demokratik inqilabçılarının geniş ideoloji və praktik fəaliyyəti ilə birləşirdi.

Sultan Türkiyəsinin asılılığında olan Balkan xalqlarının, o cümlədən bolqarların müqavimət hərəkatı Şərq məsələsini son dərəcə kəskinləşdirərək1877–1878-ci il Rusiya–Türkiyə müharibəsinə səbəb oldu. Müharibə başa çatdıqdan sonra imzalanmış Berlin traktatına əsasən Bolqarıstan Knyazlığı və Şərqi Rumeli vilayəti təşkil edirdi.

1879-cu il aprelin 16-də (28-də) Bolqarıstanın orta əsrlər paytaxtı Tırnovoda Təsis Məclisi yeni yaranmış Bolqarıstan Knyazlığının Konstitusiyasını qəbul etdi ki, bu sənədə görə Bolqarıstan konstitusiyalı monarxiya elan edildi. Həmin il aprelin 17-də birinci Böyük xalq məclisi fəaliyyətə başladı. 1879-cu il iyulun 7-də ölkə Konstitusiyasına sadiqlik andı içmiş Hessen şahzadəsi Aleksandr Battenberq knyaz seçildi.

Cənubi Bolqarıstan torpaqlarını əhatə edən Şərqi Rumeli Osmanlı dövlətinin tərkibində məhdud siyasi muxtariyyətə malik ərazi statusu almışdı ki, Bolqarıstanın süni şəkildə cənub və şimal hissəsinə parçalanması bolqarların siyasi, mənəvi və iqtisadi birliyini pozurdu. Təbii olaraq Şərqi Rumelinin Knyazlığa birləşdirilməsi hərəkatı bolqar xalqının milli-azadlıq mübarizəsində önə çıxaraq yeni mərhələ təşkil etmişdir. 1885-ci il sentyabrın 5-dən 6-na keçən gecə əli silahlı əhali yerli hakimiyyəti Plovdivdə devirdi. A.Battenberq dərhal birləşmə və "Şimali və Cənubi Bolqarıstan knyazı" titulunun

qəbul edilməsi haqqında manifest verdi. Knyazlığın qoşunları Şərqi Rumeli ərazisinə daxil oldu. Bolqarıstanın birləşməsi böyük mütərəqqi mahiyyət kəsb edirdi ki, vahid Bolqarıstanın beynəlxalq əhəmiyyəti kəskin şəkildə artmışdır. 1887-ci ilin iyulunda Böyük xalq məclisi avstriyalı zabit, irsi alman aristokratı Ferdinand Koburqu knyaz seçdi, avqustda o, ölkəyə gələcək Bolqarıstan Konstitusiyasına sədaqət andı içdi.

Bolqarıstan burjua dövləti bir çox hökumətlərin antidemokratik və mürtəce fəaliyyətinə baxmayaraq XIX əsrin sonu – XX əsrin əvvəllərində müstəqillik qazanmış bolqar xalqının böyük zəhməti sayəsində yüksələn xətt üzrə inkişaf edərək ilk növbədə iqtisadiyyat sahəsində mühüm nailiyyətlər qazanmışdır. Təsadüfi deyil ki, 1908-ci il sentyabrın 22-də (oktyabrın 5-i) Böyük Tırnovoda təntənəli şəkildə Bolqarıstanın müstəqilliyi elan olundu, Tırnovo mitropoliti Ferdinandın başına kral tacını qoydu.

Osmanlı asılılığından azad olan bolqar xalqı müstəqil dövlət yaratmaqla mədəniyyətin, təhsilin, maatifin inkişafı üçün yeni imkanlar açılmaqla yanaşı XIX–XX əsrlərin qovuşuğunda ölkənin siyasi həyatında yeni bir təbəqənin, proletariatın meydana çıxması ilə onun da mədəniyyətinin əsasları formalaşmışdır.

XX yüzilliyin əvvəllərində Sultan Türkiyəsinin tərkibində olan məzlum xalqların Sultanın Balkan mülklərində milli-azadlıq hərəkatı güclənərək müstəqil Balkan ölkələrinin dəstəyini qazandı. 1912-ci il oktyabrın 5-də (18-də) Bolqarıstan, Yunanıstan və Serbiya Sultan Türkiyəsinə müharibə elan etdilər ki, bundan doqquz gün əvvəl isə Monteneqro hərbi

əməliyyatlara başlamışdır. Beləliklə, birinci Balkan müharibəsi başladı və Bolqarıstan və onun müttəfiqləri Sultan Türkiyəsi üzərində qələbə çaldılar. Lakin 1913-cü il mayın 17-də (30-da) imzalanmış London sülh müqaviləsi əmin-amanlıq gətirmədi, ərazi iddiaları ilə bağlı 1913-cü il iyunun 16-da (29-da) Makedoniyadakı bolqar qoşunlarının serblərə və yunanlara hücum etməsilə İkinci Balkan müharibəsi başladı və Bolqarıstanın məğlubiyyətilə başa çatdı. Bolqar xalqının yaddaşında ilk milli fəlakət kimi qaldı.

1915-ci ilin avqustunda demək olar ki, bir il ərzində iki müharibə edən Bolqarıstanın hakimiyyəti bir sıra ərazi iddialarını təmin etmək məqsədilə mərkəzi Avropa dövlətləri tərəfindən Birinci Dünya müharibəsinə girməyə qərar vermişdir. Almaniya, Avstriya-Macarıstan və Sultan Türkiyəsi Bolqarıstanın müttəfiqi oldu. Uzun sürən müharibə Bolqarıstanın iqtisadiyyatına ağır təsir göstərərək siyasi, sosial və mənəvi vəziyyəti kəskinləşdirdi, xalqın siyasi fəallığı artdı.

XX yüzilliyin ikinci onilliyində Bolqarıstanın iştirak etdiyi Balkan müharibələri və Birinci Dünya müharibəsi ölkəni gücdən salaraq siyasi və sosial-iqtisadi böhranı daha da dərinləşdirdi. Birinci Dünya müharibəsindəki məğlubiyyətdən sonra ölkəni 30 ildən çox idarə etmiş çar Ferdinand 1918-ci il oktyabrın 3-də taxtdan oğlu Borisin (1894–1943) xeyrinə əl çəkdi və Bolqarıstanı tərk etdi.

1919-cu il oktyabrın 6-da təşkil edilən A.Stamboliyski hökuməti Neyi sülh müqaviləsinə əsasən Birinci Dünya müharibəsindən çox böyük əhali, ərazi və maddi itkilərlə çıxan Bolqarıstanı

böhrandan xilas etmək, sosial gərginliyi aradan qaldırmaq məqsədilə bir sıra tədbirlərə imza atsa da uğur qazanmadı. Hökumət 1923-cü il iyunun 9-da hərbi çevriliş nəticəsində devrildi.

1923–1931-ci illərdə mövcud olmuş Demokratik saziş rejimindən sonra 1934-cü il mayın 18-dən 19-na keçən gecə Hərbi İttifaq və 1932-ci ildə yaradılmış "Zveno" təşkilatının birgə hazırladığı növbəti dövlət çevrilişi baş tutdu, hakimiyyət polkovnik Kimon Georgiyevin başçılığı altında hərbi dairələrin əlinə keçdi. K.Georgiyev hakimiyyətdən uzaqlaşdırlıdıqdan sonra çar III Boris monarxiya-faşist diktaturası bərqarar edərək "oyuncaq" hökumətləri hakimiyyətə gətirmişdir.

1919–1939-cu illərdə Bolqarıstan zəif inkişaf etmiş sənayesi ilə birlikdə geri qalmış kənd təsərrüfatı ölkəsi olaraq qalırdı ki, kənd təsərrüfatının əsasını da xırda torpaq mülkiyyəti təşkil edirdi.

1941-ci il martın 1-də Vyanada Bolqarıstan Roma-Berlin-Tokio paktına qoşulmasına dair sənəd imzalayaraq İkinci Dünya müharibəsinə daxil olmuşdur. 1944-cü il sentyabrın 5-də SSRİ Bolqarıstana müharibə elan edərək ölkə ərazisinə daxil olmuşdur. 1944-cü il oktyabrın 28-də Moskvada Bolqarıstanla SSRİ arasında barışıq imzalanmışdır.

1946-cı il sentyabrın 15-də Xalq Məclisi Bolqarıstanı Xalq Respublukası (BXR) elan etdi və çar ailəsi ölkəni tərk etdi. 1947-ci il dekabrın 4-də BXR-in Konstitusiyası Böyük Xalq Məclisi tərəfindən qəbul edilmişdir.

Bolqarıstanda hakimiyyətini möhkəmləndirən Kommunist partıyasının rəhbərliyi İ.V.Stalin tərəfindən müəyyənləş-

dirilmiş kursu, sosializm quruculuğu planını tətbiq etməyə hazır olan, özlərini İ.V.Stalinin öyrənciləri hesab edən şəxslərdən ibarət idi. Aqrar və aqrar-sənaye ölkəsi olan Bolqarıstanda sürətlə sənayeləşdirmə, ilk növbədə ağır sənaye yaratmaq siyasəti yeridilirdi ki, bu da ölkə iqtisadiyyatının əsaslı sürətdə dağılması ilə müşahidə olunurdu. Beləki, sənayeləşdirilmənin həyata keçirilməsinin mənbələrindən biri aqrar bölmənin ictimailəşdirilməsindən ibarət idi ki, bu məqsədlə də 1949-cu ildə Bolqarıstanda kollektivləşdirmə prosesi başlamışdır. Sənayeləşdirmə və kənd təsərrüfarındakı dəyişikliklər sayəsində ölkənin partiya və dövlət rəhbərliyi Bolqarıstanın rəsmi olaraq aqrar ölkədən sənaye-aqrar ölkəsinə çevrildiyini bəyan etdilər. BKP-nin 1986-cı ildə keçirilən XIII qurultayı konkret olaraq heç bir şey təkilf edə bilməsə də, "yeni iqtisadi mexanizmə" keçilməsini və elmi-texniki inqilabın nailiyyətlərinin tətbiqinin zəruriliyini önə çəkmişdir.

Sovet qoşunlarının Bolqarıstana daxil olduğu İkinci Dünya mühribəsinin sonlarında başlayaraq 1944–1948-ci illəri əhatə edən xalq demokratik inqilabı dövrü mühüm siyasi, sosial və inqilabi dəyişikliklərdən sonra sovet nümunəsi üzrə sosializm cəmiyyəti quruculuğuna, yəni "real sosializm" uğrunda mubarizəyə keçmişdir. İ.V.Stalinin sosializmə yaxınlaşdıqca sinfi mübarizənin kəskinləşməsi haqqındakı nəzəriyyəsinə əsaslanan Bolqarıstan rəhbərliyi ölkədə Moskvadan idarə edilən cəza sisteminin tətbiqinə başladı. Çoxlu sayda görkəmli partiya və dövlət xadimi, sıravi partiya üzvləri cəzalandırıldı.

1949-cu ildə G.Dmitrov SSRİ-də məlum olmayan səbəblər üzündən öldü. Köhnə kommunist, İ.B.Titonun dostu, Yuqoslaviya və Bolqarıstanın vahid Cənubi Slavyan dövlətində birləşməsinin tərəfdarları olan G.Dmitrovun ölümü ilə Bolqarıstanda repressiyalar son həddə çatdı. 1950-ci illərin əvvəllərində məhkəmələr siyasi cinayətə görə ildə 280 ölüm hökmü çıxarmışdır.

BKP-nin həyata keçirdiyi təmizləmə nəticəsində 1951-ci ilin aprelinə qədər onun üzvlərinin sayı 100 min nəfərə kimi azalmışdır. Partiyadan xaric edilənlərin böyük əksəriyyəti əmək düşərgələrinə göndərilmişdir ki, onların da arasında MK-nin 13 üzvü, Siyasi Büronun 6 üzvü və hökumətin 10 nəfər naziri var idi və s.

İ.Stalinin ölümündən sonra SSRİ-də baş verən dəyişikliklər BKP-nin rəhbərliyini əvvəlki siyasi xəttinə yenidən baxmağa məcbur etdi. 1953-cü ilin sentyabrında partiya və hökumətə başçılıq edən möhkəm stalinist Vilko Çervenkov Yuqoslaviya, Yunanıstan və ABŞ-la əlaqələrin nizama salınmasına hazır olduğunu bəyan etmişdir. 1954-cü ildə əmək düşərgələri ləğv olundu, bir sıra dərəcədən olan fəhlələrin əməkhaqqı artırıldı, gündəlik tələbat mallarının qiyməti aşağı salındı və s.

BKP-nin 1954-cü ilin fevral-martında çağırılmış VI qurultayı Baş katib vəzifəsini ləğv edib onun yerinə 3 nəfərdən ibarət katiblik yaratdı, Todor Jivkovu BKP MK-nin Birinci katibi seçdi. 1971-ci ildə Bolqarıstanın yeni Konstitusiyası qəbul edildi, ali hakimiyyət orqan olan Dövlət Şurası yaradıldı. 1971-ci ildə T.Jivkov qanunverici və icraedici orqanların

funksiyalarını birləşdirən, bütövlükdə ölkənin daxili və xarici siyasətinə rəhbərlik edən Dövlət Şürasının sədri oldu. Bolqar türklərinə qarşı dövlət səviyyəsində tətbiq edilən milli ayrı-seçkilik siyasəti nəticəsində T.Jivkovun kommunist rejiminin dağılması sürətləndi. 1989-cu il noyabrın 10-da T.Jivkov BKP-nin Baş katibi və Dövlət Şurasının sədri vəzifələrindən istefa vermişdir.

1980-ci illərin sonlarına doğru Şərqi Avropanın sosialist ölkələrini bürümüş böhran Bolqarıstanı da əhatə edərək ölkəni iqtisadi və sosial-siyasi ziddiyyətlərlə qarşılaşdırmışdır. BKP-nin 1990-cı il yanvarın 30-dan fevralın 2-dək davam edən növbədənkənar XIV qurultayı sosializm cəmiyyətinin yeniləşməsini partiyanın əsas vəzifəsi elan etdi və partiyanın rəhbər rolundan imtina etdi, partiya özü isə adını dəyişərək Bolqarıstan Sosialist Partiyası (BSP) oldu. 1990-cı ilin iyununda Böyük Xalq mıclisinə seçkilər oldu, P.Mladenov yenidən ölkə prezidenti seçildi.

Müxalifət dərhal hücuma keçdi, P.Mladenov 1990-cı ilin iyulunda istefa verməyə məcbur oldu, avqustda DQİ-nin lideri dissident Jelyu Jelev Böyük Xalq məclisində Bolqarıstanın prezidenti seçildi. 1990-cı il noyabrın 15-də ölkə Bolqarıstan Respublikası adını qəbul etdi.

1991-ci il iyulun 12-də Bolqarıstan Respublikasının yeni Konstitusiyası qəbul edilmişdir. Dövlətin başçısı prezident ümumi, birbaşa seçki əsasında iki dəfədən çox olmayaraq 5 il müddətinə seçilirdi. 240 deputatdan ibarət bir palatalı ali qanunverici orqan – Xalq Məclisi 4 il müddətinə seçilirdi.

İcraedici orqan Nazirlər Şurası idi ki, bu da Baş nazir və nazirlərdən təşkil olunurdu.

Bolqarıstanda 1990-cı ildən başlanan özəlləşdirmənin nəticəsində 2000-ci ilin iyununda dövlət mülkiyyətində olan müəssisələrin yarıdan çoxu, sənaye müəssisələrinin 82,2%-i mülkiyyət formasını dəyişdirmişdir. Xüsusi bölmənin çəkisi ümumi daxili məhsul istehsalında, təqribən 70%-ə çatmışdır. Aqrar bölmə təsərrüfatlarının 65,9%-i xüsusi bölmənin payına düşür. 2003-cü ildə Bolqarıstan əhalisinin 74,8%-i xüsusi bölmədə çalışırdı.

Bolqarıstan Respublikası 2004-cü il aprelin 2-dən NATO, 2007-ci il yanvarın 1-dən Avropa İttifaqının üzvüdür. Xarici siyasət sahəsində Azərbaycanla Bolqarıstan arasında strateji əməkdaşlıq yüksələn xətt üzrə inkişaf edir, hər iki ölkə arasında siyasi, iqtisadi və mədəni əlaqələr intensiv olaraq artmışdır.

Bolqarıstan Respublikası bu gün çoxpartiyalı sistemə malik olub, bazar iqtisadiyyatına və demokratiyaya əsaslanan vətəndaş cəmiyyəti quruculuğu yolu ilə davam edərək, xarici siyasətdə yeni dünya qaydası ilə yaşamağa və mübarizə aparmağa başlamışdır.

"Slavyan ölkələri tarixi. Bolqarıstan 1800–2025" dərsliyi ali məktəblərin bakalavriat səviyyəsi üçün nəzərdə tutulmuşdur və bəhs edilən mərhələdə bolqar xalqının keçdiyi tarixi yolun mühüm siyasi, iqtisadi, sosial və mədəni nəticələrini elmi nöqteyi-nəzərdən təhlil edib öyrənməkdən ibarətdir.

***Müəllif***

# I FƏSİL

## XVIII ƏSRİN SONU – XIX ƏSRİN I YARISINDA BOLQAR MİLLİ OYANIŞININ İLKİN ŞƏRTLƏRİ VƏ BAŞLANĞICI

Osmanlı imperiyasının tərkibinə daxil olan Bolqar torpaqları XVIII əsrin sonu – XIX əsrin I yarısında yeni tarixi hadisələrə şahid olmuşdur. Beləki qüdrətli Osmanlı imperiyası hərbi, siyasi və sosial baxımdan getdikcə zəifləyir, mərkəzdənqaçma qüvvələrin artması nəticəsində yerli hökmdarların, feodal paşaların təsir və fəallığı güclənirdi.

Dövlət aparatının zəifləməsi, qeyri-müsəlman əhaliyə qarşı milli və dini ayrı-seçkilik, yerli hökumət orqanlarının artan vergi və başqa tələbləri, yerli satrapların və müsəlman fanatik dəstələrinin ("Başıpozuqlar") qarətləri imperiyanın Balkan mülklərinin mərkəzində yaşayan bolqarların bir hissəsinə evlərini tərk edərək dövlətin başqa bölgələrinə, o cümlədən paytaxt Konstantinopola köçməyə məcbur edirdi. Şimal-şərqi Bolqarıstandan olan kəndlilərin əhəmiyyətli bir hissəsi qonşu ölkələrə, o cümlədən Valaxiya və Moldovaya, daha sonra qismən Rusiyaya köçdülər. Bu proses xüsusilə XVIII əsrin sonu – XIX əsrin əvvəllərindəki Rusiya–Türkiyə müharibələri

dövründə daha intensiv olmuşdur. Bir çox varlı bolqar tacirləri də imperiyanı tərk edərək Odessa, Moskva, Vyana, Buxarest və digər xarici mərkəzlərə köçdülər.

Bunula belə, əlverişsiz şəraitə baxmayaraq Bolqar torpaqlarında kapitalist münasibətlərinin ilk əlamətləri meydana gəlir, sənətkarlıq, ticarət və sair fəaliyyət sahələri canlanırdı. Avropanın daha inkişaf etmiş ölkələrilə ticarət mübadiləsinin artması, kənd təsərrüfatı məhsullarına əmələ gələn tələbat XVIII əsrin sonu XIX əsrin əvvəllərində Bolqarıstan torpaqlarında çiftliklərin sayını artmasını sürətləndirmişdir. Belə təsərrüfatların sahibləri ("çiftlikçi") bazar münasibətlərinə uyğunlaşaraq əmtəəlik məhsul istehsal etməyə başlamışdır. Eyni zamanda Bolqar torpaqlarında kənd təsərrüfatının xüsusi sahəsi olan əmtəəlik maldarlıq da inkişaf edirdi. Yüksək dağlıq ərazilər olan Balkan silsiləsi, Rodop və s. yerlərdə iri və xırda buynuzlu mal-qara otarılırdı. Heyvandarlıq məhsulları yalnız imperiyanın şəhərlərinə deyil, həm də xarici ölkələrə ixrac edilirdi.

Bolqar sənətkarlığının kənd təsərrüfatı xammalının emalı ilə bağlı sahələri daha intensiv inkişaf etməyə başlamışdır. Onların arasında dəri sənətkarlığı, xüsusilə süvarilər üçün ayaqqabı və qoşqu əşyaları istehsalı, toxuculuq sənəti, əsasən parça istehsalı ("əbaçılıq"), milli geyimlərin bəzədilməsi üçün iplər ("qaytançılıq") hazırlanması önə çıxmışdır. Nəqliyyat vasitələri, ağac məmulatları, kətan və metal istehsalı bolqar sənətkarlığının canlanmasından xəbər verirdi. Onun ayrı-ayrı məhsulları böyük bir imperiyanın bazarına nüfuz edərək əsa-

sən türk ordusuna xidmət edirdi ki, bu da imperiyanın mərkəzi orqanlarının sənətkarlığı genişlənməsinə marağını artırırdı. Bu səbəbdən 1773-cü ildə Sultanın xüsusi fərmanı ilə sənətkarlıq emalatxanalarına (gildiyalar) bəzi muxtar hüquqlar verilmişdir ki, bunun sayəsində də mərkəzi hökumət onları yerli hakimiyyət orqanları və feodalların özbaşınalığından qorumaq məqsədilə öz müdafiəsi altına alırdı. Mərkəzi hakimiyyətin atdığı addımlar sayəsində bolqar torpaqlarının iqtisadi inkişafı sürətləndi. Bolqar sənətkarları, sahibkarlar və tacirləri şəhər əhalisinin getdikcə artan hissəsini təşkil edirdilər. Bolqar şəhərlərindəki türk əhalisinin sayı müvafiq olaraq azalmağa başlamışdır.

Osmanlı imperiyasında modernləşmə islahatlarının əsasını qoyan Tənzimat ("tənzimləmə", "yoluna qoyma") dövrü başlanmışdır. İslahatların əsas prinsipləri Sultan Əbdülməcid tərəfindən 1839-cu il noyabrın 3-də nəşr olunan "Gülxanə Xətt-i Şərif"də təsbit edilmişdir. Fərmanda Osmanlı imperiyasının bütün əhalisinin, o cümlədən xristianların da həyat, şərəf və əmlak təhlükəsizliyinin təmini elan edilirdi. Vergi hər kəsin bacarığına görə müəyyən edilməli və bundan artıq alınmamalı idi. Tənzimatda geniş sosial-iqtisadi dəyişikliklər proqramı yer tutmuşdur. Bütün məhdud xüsusiyyətlərinə və tam tətbiq olunmamasına baxmayaraq islahatlar burjua səviyyəsi kəsb edərək mərkəzi hakimiyyəti gücləndirməyə, dövlətin inkişafına xidmət edirdi.

Köhnə nizamı qoruyub saxlamaqda maraqlı olan mühafizəkar qüvvələrin müqavimətinə baxmayaraq imperiya höku-

məti, onun elan etdiyi islahatlar iqtisadi sahədə təşəbbüslərin inkişafı üçün zəmin hazırlamışdır. Məhsuldar Trakya və Dobruca bölgələrində çiftliklərin sayı artmışdır. Kənd təsərrüfatında yarı muzdlu əməyin tətbiqi genişlənirdi.  Bu əsasda kənd təsərrüfatı rayonlarının ixtisaslaşması baş verdi. Dobruca taxıl, Plovdiv və Bazarcıq rayonları əsasən düyü, Balkan bölgələri qızılgül yağı, Cənubi Trakya əsasən tütün və paxlalı bitki üzrə ixtisaslaşmışdır. Bolqar torpaqları bütövlükdə Osmanlı dövlətinin taxıl anbarına çevrilmişdir.

Sənətkarlıqda əmək bölgüsü və ayrı-ayrı rayon və şəhərlərin ixtisaslaşması ilə müşayət olunan intensiv inkişaf mərhələsinə qədəm qoymuşdu. Qoyunçuluğun inkişafı ilə bağlı parçaçılıq və başqa toxuculuq sexlərinin şəbəkəsi artmışdır. Plovdiv, Qabrovo, Sopot, Bansko, Kotel, Kalofer, Pirdon, Koprivştitsa parçaçılıq və toxuculuq mərkəzlərinə çevrilmişdir. Şumen, Stara Zaqora, Vratsa, Bazarcıq əsasən dəri sənətkarlığı üzrə önə çıxmışdır. Metal emalı, dəmir filizi hasil edilən Samokov və Nevrokop bölgələrində, eyni zamanda Sliven, Qabrovo və d. şəhərlərdə yayılmışdır.

Plovdiv, Sliven, Qabrovo, Samokov, Karlovo, Panaqyurişte və b. Bir neçə sənətkarlıq sahələrinin cəmləşdiyi mərkəzlərə çevrilmişdir. Sənətkarlıq emalatxanalarının sayı artır, istehsalın forma və mahiyyəti dəyişirdi. Hələ də əl əməyinin üstünlük təşkil etməsinə baxmayaraq bir sıra sadə əməliyyatların tətbiqi sayəsində əmək məsuldarlığı artmışdır. Bəzi iri emalatxanalar yarı müzdlu və bəzən tam muzdlu işçi qüvvəsindən istifadə edərək mərkəzləşdirilmiş və dağınıq manifak-

turalara çevrilmişdir. Dünyanın hər yerində olduğu kimi manifakturalardan sonra imperiyanın ərazisində də fabriklər meydana gəlmişdir. Bolqar torpaqlarında ilk fabrikin yaranması "fabrikant" ləqəbli Dobri Jelyazkovun (1800–1865) adı ilə bağlıdır. İstedadlı ixtiraçı və təşkilatçı D.Jelyazkov 1834-cü ildə Slivendə parça emalatxanası açdı və tezliklə onu maşınları su ilə işləyən kiçik toxuculuq fabrikinə çevirdi. İslahatçı baxışları ilə seçilən Sultan II Mahmudun dəstəyi ilə enerjili sahibkar D.Jelyazkovun rəhbərliyi altında fabrik sürətlə genişləndi və burada çalışan işçilərin sayı 400–500 nəfərə çatırdı. Mərkəzi hakimiyyətin icazəsi ilə D.Jelyazkov türk ordusu və inzibati idarədən forma istehsalı üçün sifarişlər almağa başladı.

Lakin fabrikin çiçəklənməsi üzun sürmədi. Osmanlı imperiyasında vəziyyət sürətlə dəyişdiyi üçün 1845-ci ildə fabrik dövlət mülkiyyəti elan edildi, 1853-cü ildə rəqabətçi sənayeçilər ona böhtan ataraq fabrikin idarəçiliyindən uzaqlaşdırılmasını təşkil etdilər. Uzun müddət fabrik üzərində hüququnu bərpa etmək uğrunda mübarizə aparan sahibkar 1865-ci ildə yoxsulluq içində ölmüşdür.

Bunula bərabər, maneələrə baxmayaraq sənətkarlıq istehsalının və kənd təsərrüfatının genişlənməsi yavaş və ağrılı şəkildə davam etmişdir. Daxili və xarici ticarətin artması bilavasitə bu inkişafı şərtləndirən amil idi. Dunay sahilindəki Sviştov, Vidin, Ruse kimi şəhərlər və Bolqarıstanın digər bölgələrindəki mərkəzlər ticarət yerləri kimi inkişaf etmişdir.

Sliven, Polovdiv, Bazarcıq və b. bir çox böyük şəhərlərdə hər il imperiyanın hər yerindən malların satıldığı böyük

yarmarkalar keçirilirdi. Bolqar torpaqlarının xarici ticarət əlaqələrinin mərkəzləri Burqas, Varna və Ruse idi. XIX əsrin I yarısında bolqar tacirləri Bolqar torpaqlarında daxili ticarətdə getdikcə üstünlük təşkil edərək, yunanları sıxışdırdılar. Sənətkarlığın və ticarətin inkişafı bolqar əhalisinin sosial tərkibində dəyişikliklərə səbəb olmuşdur. Əvvəllər bolqar cəmiyyəti əsasən kəndlilərdən, kiçik bir sənətkar təbəqəsindən və az sayda tacir və keşişlərdən ibarət, demək olar ki, homogen bir kütlə idi. XIX əsrin əvvəllərindən daha intensiv olaraq əhalinin strukturunda yeni sosial qrup və təbəqələrin yaranmasından xəbər verən dəyişikliklər baş vermişdir. Kəndlilər arasında təbəqələşmə nəticəsində ilk olaraq xeyli torpaq sahibi olan varlı kəndlilərin kiçik bir təbəqəsi meydana gəlmişdir. Kəndlilərin böyük bir hissəsi isə torpaqlarını itirərək başqa dolanışıq vasitələri axtarmağa məcbur oldular.

Bəhs edilən dövrdə iri bolqar tacirləri meydana çıxır, onların sayı isə zaman keçdikcə artırdı. Onlara iri emalatxanaların, daha sonra manufakturaların sahibləri, mal-qara tacirləri, sələmçilər qoşulurdu. Onlar birlikdə azsaylı bolqar mülkədarları kimi formalaşmaqda olan burjua sosial təbəqəsinin ilk elementlərini təşkil edirdilər. Formalaşmaqda olan yeni sosial təbəqə – burjua sinfinin rüşeymləri də yeni ideoloji proqram daşıyırdı. Artıq onlar arasında bolqarların birliyi ideyaları canlanır, Osmanlı asılılığından qurtuluş ümidləri yayılırdı.

1741-ci ildə Makedoniyadan olan bolqar Xristofor Jefaroviç "Stematoqrafiya" əsərində keçmiş əsrlərdəki bolqar

çarlarının gerblərini çap etdirərək müasirlərinə Bolqar dövlətinin şanlı və zəngin keçmişini yada salmışdır. Yeni yaranmaqda olan bolqar xalqının ilk oyanış proqramını Afondakı Hilendar monastrının rahibi Paisi Hilendarlı (1722–1773) hazırlamışdır. Dünyəvi adı tapılmayan Paisinin Banskoda anadan olması fərz edilir. O zaman savadlı adamlar əsasən keşiş və rahiblər arasından meydana çıxırdı ki, "xalqı oyadanlar" ləqəbli ilk bolqar vətənpərvərlər də əsasən onların sırasından əmələ gəlmişdir. Bir neçə il afon monastrında saxlanılmış orta əsrlərə aid əlyazmaların, qramotaları, sənədləri çap edilmiş kitabları araşdırıraq 1762-ci ildə əlyazma kitabı olan, "Slavyan–Bolqar tarixi bolqar xalqı və çarları haqqında" əsərlərini tamamlamışdır.

P.Hilendarlının əsəri vətənini və dilini dərindən sevən bir insan tərəfindən yazılmış bolqar xalqının və Bolqarıstan dövlətinin keçmiş tarixinə qısa bir baxışdır. Müəllif əsl bolqarları tərifləyərək, bolqar mənşəyini unudan, maddi qazanc naminə özlərini yunanların əhatəsində yunan, başqa şəraitdə digər tayfanın nümayəndəsi adlandıranların hamısı kəskin bir dildə məzəmmət etmişdir. O, bolqar xalqının qəhrəmanlıq keçmişindən, Birinci Bolqar çarlığı dövründə mədəniyyətin çiçəklənməsindən pafosla bəhs etmişdir. Tutqun rənglərlə türklərin Balkan yarımadasını fəth etməsinin rəsmini çəkmişdir. Paisi müstəqil Bolqarıstan və başqa Balkan dövlətlərinin süqut etməsi səbəbini onların daxili çəkişmə və düşmənçiliklərində görürdü. O, Osmanlı hakimiyyətinin asılılığında olan bolqarların ağır vəziyyətinə və Konstantinopoldakı Yu-

nan Patriarxlığının zülmünə işarə etmişdir. Bolqarıstanın qəhrəmanlıq tarixinin, Bolqarıstan dövlətinin keçmiş əzəmətinin faktlarını misal çəkən Paisi bolqar xalqının milli şüurunu, milli ləyaqətini oyatmağa çalışmışdır. O bir vətənpərvər kimi Bolqarıstan dövlətinin bərpası ideyasını irəli sürdü və fəaliyyət proqramı bəyan etdi.

P.Hilendarlı xalqın qurtuluş ümidlərini slavyan-pravoslav dünyasına bağlayaraq, bolqarlara mənəvi və siyasi azadlıq uğrunda mübarizə yollarını izah etmişdir. Mənəvi qurtuluş vəzifəsini Bolqar torpaqlarında təhsil və maarifləndirməni yaymaqda görən Paisi bolqar məktəblərinin yaradılmasına və bolqar ədəbiyyatının inkişafına çağırış etmişdir. Paisinin "Slavyan–Bolqar tarixi bolqar xalqı və çarları haqqında" əsəri yaranmaqda olan burjua millətinin arzularını ifadə edərək, bolqarların milli mənlik şüurunun formalaşması tələblərinə cavab verdi və yaranmaqda olan milli idealogiyanın bayrağına çevrildi.

P.Hilendarlının əsərinin ilk nüsxəsi onun fəal tərəfdarı, zəngin bolqar Kotel şəhərindən olan, sonralar Vratsa şəhərinin yepiskopu keşiş Stoyko Vladislavov (1739–1813) tərəfindən tərtib edilmişdir. Onun ardınca bir çox Paisinin davamçıları olan bolqar vətənpərvərləri əsərin əlyazmasının üzünü köçürərək yaymışdır. Bu günə kimi əlyazmasının 60-a yaxın variantı aşkar edilmişdir. Paisinin əsəri fəaliyyətə çağırış olub, məktəb və kilsələrdə oxunmağa başlandı, Bolqarıstan torpaqlarının bütün guşələrində əlyazma şəklində yayıldı və Bolqarıstan milli dirçəliş liderlərinin nəsilləri üçün təhsil, vətənpərvərlik örnəyi olaraq xidmət göstərmişdir. Paisinin əsərinin meydana çıxmağı

yeni bir ideologiyanın rüşeyminin – yaranmaqda olan bolqar burjua xalqının ideologiyasının meydana çıxması demək idi.

Paisi Hilendarlının əsərinin meydana çıxdığı zaman bolqar xalqı demək olar ki, sosial və mədəni həyatın təsir formalarından məhrum olaraq böyük əksəriyyəti cəhalət içərisində yaşayırdılar. Xalqın mənəvi həyatı əsasən folklorda və yalnız dünyəvi motivlərin keçdiyi kilsə slavyan dini yazı ənənəsində öz əksini tapmışdır. O dövrün bir çox məktəbləri monastr hüçrələrində yerləşirdi və buna görə də "hücrə məktəbləri" adlanırdı. Burada təhsil uşaqlar üçün çətin başa düşülən və sırf dini xarakter daşıyan kilsə slavyan dilində aparılırdı. Rahiblər və keşişlər uşaqlara kilsə kitablarından (Psaltir – Psalmov, Apostol və b.) istifadə edərək oxumağı və yazmağı öyrədirdilər. Artıq XIX əsrin əvvəllərində bolqar torpaqlarında 200-dən artıq hücrə məktəbi fəaliyyət göstərirdi. Zaman keçdikcə, bəzi məktəblər bolqar dilində tədris təşkil etməyə başladı. Hesabın ibtidai qaydalarını öyrətdilər, bolqar və başqa Balkan xalqlarının tarixi haqqında ilk məlumatları bildirdilər.

İqtisadi inkişaf şəraitində ibtidai savad (oxumaq bacarığı) artıq kifayət deyildir. Uğurlu ticarət (xüsusilə uzaq ölkələrlə) üçün hesab, coğrafiya və digər elmlər üzrə daha geniş bilik tələb olunurdu. Dünyəvi, daha hərtərəfli təhsilə artan maraq və tələbat bir çox varlı bolqar tacir uşaqlarını yunan məktəblərinə göndərməyə təşviq etdi. Bir sıra əlverişli coğrafi və başqa şəraitə görə yunan burjuaziyasının inkişafı və yunan burjua millətinin formalaşması prosesi bolqarlardan daha

sürətlə gedirdi. Yunanıstan cənub-şərqi Avropa ölkələrində ilk olaraq Avropanın qabaqcıl ölkələrinin maarifçilik ideyalarına və burjua mədəniyyətinə qoşulmuşdur. Buna görə də XVIII əsrin II yarısı və XIX əsrin əvəllərində yunan təhsili daha yüksək səviyyədə idi. Bəzi şəhərlərdə, xüsusəndə qarışıq əhalisi olan Plovdiv, Varna və başqalarında bolqar gəncləri orada açılan yunan məktəblərində oxumağa daxil oldu. Yunan məktəblərində oxumaq ona gətirib çıxardı ki, bolqar gənclərinin bir hissəsi ellinləşdi. Milli dirçəliş dövründə xalqına xas olan mənəvi və sosial inkişaf vasitəsi kimi təhsilə olan maraq və həvəs bolqar gənclərini  Fransa, Rusiya, İtaliya, Serbiya və s. ölkələrin də məktəblərinə cəlb etmişdir.

Bolqarların milli mənlik şüurunun oyanması və getdikcə artması ilə yunan məktəbinin ona mənfi təsiri özünü göstərirdi. Odurki dünyəvi bolqar məktəbinin yaradılması vəzifəsi daha da aktuallaşdı. Bu vəzifəni həll etmək üçün isə təcrübəli müəllimlər lazım idi. Məhz XIX əsrin əvvəllərində bolqar dünyəvi məktəbinə gedən yolda keçid mərhələsi olaraq ikidilli yunan-bolqar məktəbləri yaranmışdır. Yunan məktəblərində təhsil almış gənc bolqar müəllimləri həm yunan, həm də bolqar dillərində dərs deyirdilər. Onlar bolqar dilinin qramatikasını, hesabı, coğrafiyanı, təbiət elminin elementlərini öyrədir, eyni zamanda tələbələrin də vətənpərvərlik hislərini, bolqar xalqının mənlik şüurunu tərbiyə edirdilər. E.Vaskidoviç, İ.Selminski, K.Fotinov və b. bolqar maarifçilərinin rəhbərliyi ilə 1815–1820-ci illərdə Sliven, Kotel, Sviştov, Karlov və d. şəhərlərdə belə ikidilli məktəblərin əsası

qoyulmuşdur. Onlaın divarları arasında qısa müddətdə milli intibah dövrünün görkəmli simalarına çevrilən Petko P.Slaveykov (1827–1895), Pyotr Beron (1800–1871), Georgi S.Rakovski (1821–1867) və b. bir çox gənc təhsil almışdır. Zaman keçdikcə Bolqarıstanın Tırnovo, Plovdiv, Ruse, Vidin və s. şəhərlərində ikidilli məktəblərlə bərabər dini təhsillə yanaşı şagirdlərinə dünyəvi təhsil də verən hücrə məktəbləri tipinə aid bolqar məktəbləri də fəaliyyət göstərməyə başlamışdır.

Bolqar məktəblərində təhsil sisteminin ən mühüm islahatçısı Pyotr Beron (1800–1871) olmuşdur. O, Kotel şəhərində varlı tacir ailəsində anadan olub, hücrə məktəbində keşiş Stoyko Vladislavovun (Sofroni Vraçanski) yanında oxuyaraq, sonra Buxarestdə müəllimlik edərək, ömrünün son illərində tibb və digər elmlərlə məşğul olmuşdur. P.Beron 1824-cü ildə üz qabığı delfin siluetini təsvir edən "Balıq əlifbası" adlı kiçik bir kitab nəşr edirdi ki, bu da yeni Bolqar təhsilində bir mərhələ olmuşdur. Beron kilsə təhsilini hücrə sisteminə qarşı çıxaraq, tərbiyə metodu kimi bədən cəzasını, xüsusən falanqa adlanan günahkar bir şagirdin ayaqlarına döyülməsini qəti şəkildə pisləmişdir. O, şagirdlərin şəxsiyyətinə hörmətlə yanaşmağın zəruriyyətini təkid edərək ingilis dili müəllimləri A.Bell və C.Lankaster tərəfindən bir müddət əvvəl irəli sürülmüş ən yeni sistem əsasında məktəbin yenidən qurulmasını təklif etmişdir. "Lankaster" qarşılıqlı təhsil sisteminə görə daha inkişaf etmiş və yüksək bacarıq göstərən yetkin şagirdlərə müəllimlərin rəhbərliyi altında digər şagirdlərə dərslərdə rəhbərlik edirdilər.

Balıq ticarəti ilə məşğul olan bolqarların vəsaiti hesabına nəşr edilmiş Beronun “Balıq əlifbası”nın səkkiş bölməsində yeni bolqar dilinin qrammatikası, hesab, təbiət elmləri, o cümlədən anatomiyası, ədəbiyyat və tarix haqqında qısa məlumatlar yer almışdır. Kibçada dahi insanların həyatından müxtəlif məsləhətlər, atalar sözləri, gülməli və ibrətamiz hekayələr yerləşdirilmişdir. Uşaqlar üçün dünyəvi biliklərin bir növ qısa ensiklopediyası olan əlifba kitabı nümunəvi şəkillərlə əhatə edilmişdir. Əlifba Bolqarıstanda təhsilin inkişafına böyük təsir göstərmişdir, 1878-ci ildə Osmanlı asılılığından azad olmaqdan əvvəl dəfələrlə təkrar nəşr edilmişdir.

Qarşılıqlı təhsil metodundan istifadə edən ilk dünyəvi bolqar məktəbi 1835-ci il yanvarın 2-də Qabrovo şəhərində açılmışdır. Məktəbin yaradılması təşəbbüsü bolqar tacir, maarifçi və ictimai xadimi ixtisasca həkim Vasili Aprilova (1789–1847) məxsus olmuşdur. Qabrovodan olan V.Aprilov uşaq ikən ailəsilə birlikdə Rusiyaya köçərək yunan məktəbində oxuyub, daha sonra isə Brasovdakı alman klassik gimnaziyasında və Vyana universitetində təhsilini davam etdirmişdir. Yunan təhsilinin və ellin mədəniyyətinin təsiri altında V.Aprilov gəncliyində tədricən bolqar mənşəyini unutmağa başladığı bir zaman Zakarpatiyadan olan Yuri Venelinin “Qədim və indiki bolqarlar” əsəri ilə tanış olduqdan sonra onun milli mənlik şüurunun və özünü dərk etməsinin formalaşmasında dönüş olmuşdur. Məhz bundan sonra V.Aprilov yeni bolqar təhsili sisteminin təşkilinə böyük əmək sərf etməyə başlamışdır. Onun 1841-ci ildə nəşr edilmiş “Yeni bolqar təhsilinin

üfiqi" və 1847-ci ildə çap olunan "Müasir bolqar təhsili haqqında fikirlər" kitablarında yeni bolqar təhsili sisteminin təşkili və yayılmasına geniş yer verilmişdir.

V.Aprilovun və Qabrovodan olan digər bolqar vətənpərvərlərin fəal iştirakı ilə Qabrovo dünyəvi məktəbinin tikintisi məqsədilə vəsait toplanaraq, məktəb üçün dərsliklər, dərs vəsaitləri və digər ədəbiyyatlar toplanmışdır. Yeni açılmış Qabrovo məktəbinə məşhur pedaqoq, təcrübəli müəllim, bir çox dərsliklərin müəllifi Neofit Rilski (təq.1793–1881) direktor və müəllimlik etmişdir. Məktəbə əvvəllər Bolqarıstanın müxtəlif yerlərindən şagirdlər daxil olmuşdur. Tezliklə, qısa onillik bir zaman kəsiyində Bolqarıstan torpaqlarında 50-dən çox dünyəvi məktəb açılmışdır ki, burada da təhsil qarışıq öyrənmə metodu ilə aparılırdı. Həmin dövrdə qızlar üçün ilk məktəblər yaradılmışdır. Əvvəllər isə qızlar yalnız bəzi məktəblərdə oğlanlarla birlikdə oxuyurdular.

Bolqar təhsililnin inkişafında növbəti addım 1846-cı ildə Koprivştitsa sənətkarlıq və ticarət şəhərində onun sakini, N.Rilskinin tələbəsi, ictimai xadim və pedaqoq Nayden Qerovun (1823–1900) avropa tipli yeni məktəb açması olmuşdur. Burada şagirdlər artıq yaşa görə siniflərə bölünmüşdülər ki, bu da sinif məktəbi adını almışdır. Tezliklə belə avropa tipli məktəblər ilk növbədə iqtisadi cəhətdən inkişaf etmiş ərazilərdə, o cümlədən Şimali bolqar torpaqlarının şəhər və qəsəbələrində, Dunay boyu və Balkan silsiləsinin hər iki tərəfində yayılmışdır.

XIX əsrin 20–30-cu illərində yaranan yeni bolqar maarifçilik hərəkatı yalnız təhsil məqsədi və mahiyyəti daşımırdı.

Sayları getdikcə artan yeni açılan məktəblər dünyəvi, milli və demokratik xüsusiyyətə malik olub aşağıdan gələn təşəbbüslə bolqar xalqının müxtəlif təbəqələrindən olan vətənpərvərlərin könüllü ianələri əsasında yaranmışdır. Beləliklə, yeni bolqar məktəbləri formalaşmaqda olan millətin milli, demokratik mənlik şüurunun formalaşması, mədəni özünütəsdiqin mühüm mərkəzinə və vasitəsinə çevrilmişdir. Konstantinopolda isə patriarxlığın rəhbərlik etdiyi kilsənin himayəsi altında hücrə məktəbləri yaradılmışdır.

Bolqar torpaqlarındakı təhsil sistemində dünyəvi məktəblərin formalaşması ilə yanaşı, yunan təsiri tədricən rus mədəniyyətinin təsirilə əvəz olunmuşdur. Buna Rusiya hökumətinin məqsədyönlü siyasəti səbəb olmuşdur. Artıq XIX əsrin 30–40-cı illərində Rusiyada təhsil almağa gələn gənc bolqarlara təqaüd verilməyə başlandı. Rusiyadakı məktəblərdə, gimnaziyalarda, seminariyalarda, universitetlərdə və s. təhsil müəssisələrində təhsil alan bolqarların sayı getdikcə artmışdır. Bir çox bolqar tacirləri də bolqar gənclərinin təhsilinin maliyyələşdirilməsinə xeyli töhfə vermişdir. Belə ki zəngin Moskva taciri, əslən Sofiyadan olan İ.N.Denkoğlu xüsusi fond yaradaraq Odessa şəhərinin gimnaziyasında oxumağa gələn bolqarlar üçün və Moskva Universitetində təhsil almağa gələn Sofiyadan olan gənclər üçün təqaüd ayırmışdır. Məhz onun vəsaiti ilə Sofiyada məktəb də tikilmişdir. Gənc bolqar ziyalılarının ilk dəstələri Rusiyada, qismən Yunanıstan və Valaxiyada, eləcə də Fransa, İtaliya, Serbiya və s. ölkələrdə təhsil almışdılar. Təhsil sahəsində tərəqqi ilə əlaqədar mənəvi

mədəniyyətin bir çox sahələri, ilk növbədə dil və ədəbiyyat da inkişaf etmişdir. Bolqar təhsilinin formalaşması və inkişafı, xüsusən də tədris ədəbiyyatının yaradılması ilk növbədə uşaqlara hansı dildə bilik verilməsi problemin gündəmə gətirmişdir. Canlı danışıq və kilsə slavyan, o cümlədən yunan dillərinin tərəfdarları arasında uzuzn mübarizə getmişdir. Nəhayət danışıq bolqar dilində tədrisin tərəfdarları qalib gəldilər ki, bu da onun əsasında ümumi bolqar ədəbi dilinin formalaşması üçün əlverişli şərait yaratmışdır.

Bu dövrdə kitab çapının əsası qoyulmuşdur. Yeni bolqar dilində ilk çap kitabı 1806-cı ildə Valaxiyada Sofroni Vraçanski tərəfindən nəşr edilmişdir. Bu “Nedelnik” (“həftə” – “bazar günü”) adlı yunanca nəşrlərdən yenidən işlənmiş tərcümələr və ibrətamiz bayram hekayələr toplusu kimi bolqar torpaqlarında geniş yayılmışdır.

S.Vraçanski Paisidən sonra Bolqar Milli Dirçəlişində ən böyük, parlaq və çoxşaxəli şəxsiyyət olmuşdur. Ömrünün ilk çağlarında təhsil fəaliyyətilə məşğul olaraq P.Hilendarlının kitabını və başqa kitabların üzünü köçürərək bolqarlar arasında yayılmasını təmin edib, uşaqlara ana dili öyrətmişdir. Hakimiyyət və patriarxlığın yüksək mənsəb sahibləri tərəfindən vətənpərvərlik görüşlərinə görə təqib edilən Sofroni yaşayış yerini dəyişmək məcburiyyətində qalaraq daha sonra işlə məşğul olduğu Valaxiyaya mühacirət etmişdir. S.Vraçanski “Nedelnik”ə daxil olan əsərlərlə bərabər, yunan dilindən yeni bolqar dilinə bir sıra əsərləri, o cümlədən Erop təmsillərini də tərcümə etmiş, bir neçə orjinal publisist və başqa

əsərlər də yaratmışdır. Bunlardan ən əhəmiyyətlisi o dövrdə Bolqarıstan həyatının tərcümeyi-hal şəklində panoraması olan "Günahkar Sofroninin həyatı və iztirabları" idi. O, Avropa maarifçiliyinin humanist ideyalarını təbliğ edir, cəmiyyətdə dəyişikliklərə, cəhalətin, rutinliyin, qaranlığın aradan qaldırılmasına ümidlərini ifadə etmişdir.

Çap kitablarının məzmunu dəyişdi. Kilsə kitabları dünyəvi kitablarla, ilk növbədə maarifləndirici ədəbiyyatla əvəz olunmuşdur. Dərsliklərin hazırlanmasında və baxılmasında N.Rilskinin, V.Aprilovun, N.Bozvelinin və b. maarifçilərin böyük xidmətləri olmuşdur. Artıq XIX əsrin 40-cı illərinin II yarısında Samokov və Konstantinopolda Bolqar kitablarının nəşri üçün xüsusi mətbəələr yaradıldı.

XIX əsrin 40-cı illərin ortalarında ilk bolqar dövri nəşrləri çıxmağa başladı. 1844–1846-cı illərdə maarifçi K.Fotinov Smirna şəhərində bolqar dilində ilk dəfə dəyişik məzmunlu "Lyubosloviye" jurnalını nəşr etdirdi. Jurnal maarifin inkişafında əhəmiyyətli rol oynayan milli mənlik şüurunu möhkəmlənməsinə töhfə verən zəngin illüstrasiyalı nəşr idi. Yazıçı və Pedaqoq İvan Boqorov 1846-cı ildə Leypsiqdə qısa zamanda ilk bolqar qəzetini çap etdirdikdən sonra Konstantinopolda "Çariqrad xəbərləri" qəzetinin nəşrinin əsasını qoymuşdur. Dövri mətbuat səhifələrində dərc olunan bolqar ziyalıları Paisi və Sofroni ənənələrini davam etdirərək humanizm və maarifçilik ideyalarını inkişaf etdirmiş, bolqar xalqının və bolqar mədəniyyətinin mənəvi müstəqilliyinin vacibliyini müdafiə etmişlər.

Milli intibah dövrünün ilkin mərhələsində bolqar ədəbiyyatında mədəniyyətin bütün sahələrində olduğu kimi slavyan əsaslarının bərqərar olması yolunda mübarizə getmişdir. Sonradan dini ənənə və motivlərin üstünlük təşkil etdiyi ədəbiyyat tədricən rasionalizm, humanizm və maarifçilik ideyalarından qaynaqlanan dünyəvi bədii ədəbiyyatla əvəz olunmuşdur. XIX əsrin II rübündə ilk bolqar şairləri D.Çintulov, Petko R.Slaveykov, N.Gerovun şeirləri meydana çıxmışdır. İlk bolqar yazıçı və şairləri Milli Oyanış dövrünün bir çox mədəniyyət xadimləri kimi fəaliyyətlərinin və maraqlarının çoxşaxəliliyi ilə seçilirdilər. Məsələn, Sofroni Vraçanski və P.Beron özlərini sosial və mədəni həyatın müxtəlif sahələrində göstərmişdir. N.Gerov şair, maarifçi, lüğətşunas, folklorşünas, sonralar isə jurnalist və diplomat olmuşdur. İvan Boqorov şair və jurnalist olmaqla yanaşı bolqar dilinin qramatikasına dair əsər nəşr etdirib, bir vaxtlar həkimlik və folklorla məşğul olmuşdur.

İlk bolqar elmi əsərlərinin meydana gəlməsi XIX əsrin 40–50-ci illərinə təsadüf edir. Birinci növbədə folklorun əsasları qoyuldu, V.Aprilov, N. Rilski və İ.Boqorov bolqar xalq mahnılarını, atalar sözlərini və məsəllərini nəşr etdirdilər. N.Gerov və N.Rilski gələcək lüğətləri üzərində işə başladılar. Spiridon N.Palauzovun Birinci bolqar çarlığının tarixinə dair o dövrün tarix elmi səviyyəsində əsəri nəşr olundu. Avropa ölkələrində yaşamış P.Beron, N.Pikolo yunan dilinin təbiətşünaslığı və etimologiyası ilə bağlı əsərlər dərc etdirmişlər. İ.Seliminskinin fəlsəfi və publisistik əsərləri yunan dilində nəşr edilmişdir.

Bolqar incəsənəti və memarlığının inkişafında da yeni canlanma diqqəti cəlb edir. XIX əsrin 30-cu illərində bolqar torpaqlarında hakimiyyət orqanlarının icazəsindən sonra varlı tacir və sənətkarlar daha böyük yaşayış binaları tikməyə başladılar. Köhnə kilsə və monastr, məktəb binaları tikilir, bərpa edilir və yenidən qurulurdu. Bəhs edilən dövrün bolqar memarlığının əlamətdar abidəsi 1834–1837-ci illərdə Bolqarıstanın müxtəlif yerlərindən gələn ianələrlə Rila monastırının yanğından sonra bərpa edilmiş binası olmuşdur. Orijinal memarlıq strukturu külçə inşaatçısı Nikola Fiçev (1800–1880) tərəfindən yaradılmışdır.

XVIII əsrin sonu – XIX əsrdə Samokov şəhərində ikona rəssamlığı məktəbi çiçəklənmişdir. Bəhs olunan məktəbin rəssamları arasında Zaxari Zoqraf xüsusi məharət və istedad ilə seçilirdi. Rəssam monastır və kilsələrdə çoxlu dəyərli rəsmlər, Bolqarıstan oyanışının ikona və portretlərini yaratmışdır. Bolqar torpaqlarında ağac üzərində oyma, zərgərlik və s. sənətkarlıq sahələri çox inkişaf etmişdir.

İlk musiqi orkestri Macarıstanda 1848-ci il inqilabının məğlubiyyətindən sonra Bolqarıstana mühacirət etmiş macar və polyak inqilabçılarının təşəbbüsü ilə Şumen şəhərində yaranmışdır. İki il sonra isə məhz Şumendə bolqar musiqiçilərindən ibarət orkestr meydana çıxmışdır. Bədii yaradıcılıq sahəsində baş verən dəyişikliklər ilk növbədə orta əsr ənənələrinin aradan qaldırılması, Milli Oyanış dövrünə xas olan yeni, humanist və vətənpərvərlik çalarların meydana çıxması ilə bağlı idi.

Bolqarıstan əsarət altına alındıqdan sonra Osmanlı hökuməti Tırnovo Patriarxiyasını ləğv edərək Bolqar Kilsəsinin müstəqilliyinə son qoymuşdur. Bolqarıstan torpaqlarındakı bütün yeparxiyalar Konstantinopol Patriarxlığına tabe edilmişdir. Sultan hakimiyyəti onu imperiyanın bütün xristian, o cümlədən bolqar əhalisinin yeganə rəsmi nümayəndəsi hesab edirdi. Balkanlarda Osmanlı hakimiyyətinin ilk dövründə bütün xristian xalqları Sultan tabeçiliyindən nisbətən bərabər əziyyət çəkdikləri üçün onlar arasında antoqonizm o zaman özünün büruzə verməmişdir. Konstantinopol Patriarxlığının rəhbərlik etdiyi Şərqi Provoslav Kilsəsi o zamanlar inanc və ümumən milli ənənələri dəstəkləyən amil olmuşdur. Yeni dövrdə, XVIII–XIX əsrlərdə əvvəlcə ideoloji, sonra isə siyasi fikir ayrılıqları və qarşıdurmalar meydana çıxmışdır. Artıq XVIII əsrin sonu – XIX əsrin əvvəllərində tədricən mühafizəkar qüvvəyə çevrilməkdə olan Konstantinopol Patriarxlığının da dəstəyilə demokratiya və maarifçilik ideyalarını müdafiə edən yunan burjuaziyası müstəqil olaraq fəaliyyətə başladı. Nisbətən sonralar formalaşmış bolqar burjuaziyası bu mərhələdə yunanlarla əməkdaşlıq edirdi. Sultana illik vergi ödəyən patriarxlıq Osmanlı hakimiyyətindən xristian əhalisinin müxtəlif vergi və rüsumlar toplamaq hüququ alaraq tədricən mövcud nizam-intizam qorumaqda müəyyən dərəcədə maraqlı olan qüvvəyə çevrilmişdir.

1830-cu ildə Yunanıstanın müstəqilliyi təsdiq olunandan, Yunan burjuaziyasında pan-ellinizm ideyası və “Böyük Yuna-

nıstan" arzusu yarandıqdan sonra vəziyyət əhəmiyyətli dərəcədə dəyişdi. Pan-ellinizm ideyası yunan burjuaziyasının bir hissəsinin patriarxlığın liderlikləriIə yaxınlaşmasına səbəb oldu. Onları Bizans imperiyasının varisi kimi müxtəlif Balkan xalqlarının yaşadığı ərazilərin də daxil edilməsilə "Böyük Yunanıstan"ı yenidən yaratmaq arzusu birləşdirirdi. Bolqar maarifçiliyinin yüksəlişi məhz həmin dövrə təsadüf edir. Bu zaman Patriarxlıq Bolqar Milli Oyanışına düşmən olan qüvvəyə çevrilir.

Bolqarıstan torpaqlarında yunan keşişləri və ya ellinləşmiş bolqarlar, yəni "qrekomanlar" bütün rəhbər, o cümlədən orta səviyyəli kilsə vəzifəlilərindən idilər. Bir çox yerlərdə kilsə slavyan dili ibadətdən sıxışdırılaraq yunan dililə əvəz edilmişdir. Artıq patriarxlığın bir çox rəhbərləri bolqar keşişlərini və müəllimlərini fəal şəkildə təqib etməyə, bolqar təhsililnin inkişafına mane olmağa başladılar. Bu işdə onlara yunan burjuaziyasının üzvləri və Bizans aristokratlarının nəsillərini təmsil edən nümayəndələr kömək edirdi. Patriarxlığın iqamətgahı, bir çox varlı yunan tacir və bankirlərinin ofisləri Konstantinopolun Fanar məhəlləsində yerləşdiyi üçün, "Böyük Yunanıstan" siyasətinin tərəfdarları, ilk növbədə patriarxlığın nümayəndələri "fanariatlar" adlandırlmışdır. Hakimiyyət orqanlarının bitərəf siyasətindən istifadə edən fanariatlar inzibati və kilsə muxtariyyətinə malik olmayan slavyanları, o cümlədən bolqarları ellinləşdirmək siyasəti həyata keçirməyə başladılar.

Bolqar burjuaziyasının böyüməsilə patriarxlığın ellinist siyasəti Bolqar torpaqlarında müxalifət və müqavimətlə üz-

ləşdi. Bolqarların formalaşmaqda olan milli şüurunun təzahürünün ən mühüm forması təhsil və mədəniyyət sahəsində baş verən tərəqqi idi. Bolqar xalqının mənəvi oyanışı bolqar torpaqlarında yaşayan xalqın maraq və arzularına uyğun olaraq kilsənin islah edilməsi ideyasının meydana çıxmasını şərtləndirmişdir.

Yeni hərəkatın ilk xəbərçisi 1824-cü ildə və sonrakı illərdə Vratsa, Samokov, Kazanlık və b. şəhərlərdə baş verən kortəbii üsyanlar olmuşdur. Bolqarlar yerli yunan keşişlərindən narazılıqlarını açıq və qətiyyətlə bildirərək, onların bolqar keşişlərilə əvəz olunmasını tələb edirdilər. Patriarxlıq əleyhinə çıxışların növbəti, daha kəskin alovlanması 1830-cu illərin sonunda baş vermişdir. Bunun üçün təkan 1838-ci ildə yeni təyin edilmiş Tırnovo Mitropoliti ilə yerli sakinlər arasında yaranmış münaqişə oldu. Yeni Mitropolitin özünü patriarxlığın ekstremist qanadının anti-bolqar assimiliyasiya xəttinin kobud və qəddar davamçısı kimi göstərməsi yerli əhali arasında güclü narazılığa səbəb oldu.

1839-cu ildə Tənzimat çərçivəsində Sultanın bütün təbəələrə bərabər hüquqlar elan edən fərmanı yayımlandı. Mahiyyət etibarilə fərman imperiyadakı vəziyyəti əsaslı olaraq dəyişməsə də, metropol əhalisinə şikayət üçün qanuni əsas verirdi. Konstantinopolun mərkəzi orqanlarına müvafiq petisiya göndərildi. Bolqarların mitropolit vəzifəsinə bir bolqar keşiş təyin etmək istəkləri rədd edildi. Buna cavab olaraq digər bolqar əhalisinin yaşadığı şəhərlərin əhalisi də fanariotlara qarşı çıxdı.

Tırnovoda bolqarların mitropolitə və onun arxasında dayanan patriarxlığa qarşı mübarizəsi gedişində gəncliyində rahib olmuş 55 yaşlı maarifçi və ictimai xadim Neofit Bozveli (təq. 1785–1848) önə çıxmışdır. Tırnovodakı münaqişədən əvvəl o, xütbələrində, şagirdlər üçün dərsliklər və jurnalist əsərlərində bolqar xalqının mənəvi müstəqilliyinin formalaşmasını, milli mənsubiyyətinin möhkəmlənməsini, vətənpərvərlik hisslərini tərənnüm edərək fanariotlara qarşı mübarizə aparmışdır. N.Bozveli hesab edir ki, Bolqar xalqına qarşı üç qüvvə, Türkiyə hökuməti, yunan ruhaniləri, Çorbacı adlandırılan bolqar icmalarının ağsaqqallarının vəzifələrini yerinə yetirən şəxslər əks mövqe tutaraq fəaliyyət göstərirdi. Çorbacıların çoxu zənginləşərək rejimə uyğunlaşdılar, bolqar vətənpərvərlik hisslərindən uzaqlaşaraq türk yönümlü istiqamətə xidmət etməyə və yaxud yunanlara qoşulmağa üstünlük verdilər.

Böyük enerjiyə, israr və cəsarətə, mühüm ictimai xüsusiyyətə malik olan N.Bozveli Tırnovo bolqarlarının fanariotlara qarşı hərəkatına rəhbərlik edirdi. Bozvelinin fəal və əyilməz milli mövqeyi patriarxlığın qəzəbinə səbəb oldu. Bozvelinin, "təhlükəli üsyançı" olduğunu mərkəzi hökumətə xəbər verən fanariotların danosuna əsasən o, həbs edilərək monastıra göndərildi. Əsirlikdə 1841-ci ildən 1844-cü ilə kimi keçirdiyi dörd il alovlu vətənpərvərin ruhunu qıra bilmədi. Əsirlikdən azad olduqdan sonra Konstontinopola gəldi və yenidən mübarizəyə rəhbərlik etdi.

Hərəkat daha geniş miqyas aldı. Qarşıda dayanan vəzifə kilsə məsələsində bolqarların bərabərliyinə nail olmaq idi.

Hərəkatın əsas dəstəyi Bozvelinin sayəsində artıq Konstantinopolun bolqar sakinləri idi. İmperiyanın paytaxtında yerləşən Bolqar kaloniyası sənətkarlar, tacirlər, tərəvəz becərənlər, balıqçılar və b. peşələrin nümayəndələrindən ibarət idi. Neofit Bozveli və onun gənc həmkarı İlarion Makariopolski paytaxtdakı bolqar sənətkarlarının bir neçə böyük gildiyasının dəstəyini və hətta rəsmi səlahiyyətlərini belə aldılar. Rəsmi səlahiyyət sahibləri olan Neofit və İlarion 1844 və 1845-ci illərdə hər biri ayrı-ayrılıqda Sultana xüsusi ərizələrlə müraciət etdilər. Onlar bolqar xalqının arzularını ifadə edərək kilsə işlərində olnların bərabərliyə nail olmaq istəklərini bildirdilər.

Görünür bolqar liderləri bu mərhələdə hələ bolqar kilsəsinin müstəqilliyi məsələsini qaldırmayaraq, bolqar dilində mərasimləri qeyd etmək üçün rəsmi icazə istədilər. Müraciətdə bolqar torpaqlarında yunan yepiskop, mitropolit və keşişlərinin bolqarlarla əvəz edilməsi, paytaxtda hökumət qarşısında bolqarların maraqlarını təmsil ediləcək kilsə işləri üzrə dörd nəfərdən ibarət xüsusi komissiyasının yaradılması, Konstantinopolda bolqar kilsəsinin tikilməsi və b. istəklər yer almışdır. Eyni zamanda paytaxtda bolqar dilində qəzet çıxarmaq, bolqar kitabları çap etmək, müasir bolqar məktəbləri yaratmaq üçün icazə istəyirdilər.

Patriarxlıq bu tələbləri düşmənçiliklə qarşıladı. Fanariotlar yenidən bolqar liderlərini hakimiyyət orqanlarının gözündə “qiyamçı” kimi gözdən salmaq üçün işlənən üsula əl atmağa tələsirdilər. Onlar tutularaq qandallandı və monastıra salındı. Həbsdə olarkən, yaşı artıq 60-cı ötmüş N.Bozveli yeni çətin-

liklərə dözə bilməyərək vəfat etdi. Bolqarların kilsə işçilərində bərabərlik uğrunda hərəkatı getdikcə güclənir və kütləviləşirdi. Mübarizə yalnız patriarxlığa qarşı yönələrək, qanun və legitimlik çərçivəsində inkişaf edirdi. Bundan əlavə, onun rəhbərləri Sultana sadaqət hisslərinə dair zəmanət verirdilər. Mərkəzi hökumət Porto yunan-bolqar ziddiyyətlərindən istifadə edərək fanariotları qismən sıxışdırıb bolqarlara kiçik güzəştlər vermək qərarına gəldi. Beləki, 1848-ci il yanvarın birindən Konstantinopolda bolqar qəzeti "Çariqrad xəbərləri" nəşr olunmağa başladı. Növbəti il, Sultanın xüsusi fərmanına əsasən, paytaxtda müqəddəs Stefan bolqar kilsəsinin açılmasına icarə verildi. Burada bolqar mətbəəsi də fəaliyyətə başladı.

Hərəkat getdikcə daha geniş miqyas aldı və tədricən kilsə bərabərliyinin tələblərindən kənara çıxmağa başladı. 1851-ci il mayın 24-də (yeni üsulla) bolqar intibahının görkəmli xadimi N.Gerovun təşəbbüsü ilə Plovdivdə slavyanların ilk müəllimləri Kirill və Mefodinin şərəfinə tənətənəli tədbir təşkil edilmişdir.Bu güclü və dərin bir ənənəsinin başlanğıcı oldu, belə ki hər il Bolqarıstan torpaqlarında mayın 24-ü Kirill və Mefodi günü kimi salavyan yarışı, bolqar mədəniyyəti və maarifinin bayramı olaraq qeyd edilməyə başlandı.

XVIII əsrin II yarısı – XIX əsrin əvvəllərində Osmanlı feodallarının hakimiyyətinə qarşı siyasi müqavimətin geniş yayılmış forması olaraq haydutluk hərəkatı güclənmişdir. Boyço, Vılçan, Çakır, Donço, Kara Tanasi, Straxil, Çavdar kimi əfsanəvi voyevodaların, o cümlədən Boyka və Stoyanka kimi qadın voyevodaların rəhbərliyi ilə haydut başçıları dəstələrilə

dağlarda və meşələrdə gizlənərək zaman-zaman hücum edərək hakimiyyət nümayəndələrinə ağır zərbə vururdular. Haydutların qoçaqlıq və məharətləri xalq mahnılarında və əfsanələrində tərənnüm edilirdi. Bolqar xalqının azadlığa doğru atdığı ilk addımlar onun nümayəndələrinin və qruplarının rus-türk müharibələrində, digər Balkan xalqlarının milli-azadlıq üsyanlarında iştirakı ilə də özünü göstərmişdir.

1768–1774-cü illərdə Rusiya-Türkiyə müharibəsi ərəfəsində imperatriça II Yekaterinanın Türkiyəyə qarşı hərəkətə keçməyə çağıran müraciəti bolqar əhalisi arasında yayılmışdır. Müraciətə müsbət cavab verən bolqar könüllü dəstələri P.A.Rumyantsev–Zadunayskinin ordusunun sıralarında yer alaraq türklərə qarşı döyüşürdülər. Bir sıra döyüşlərdən sonra 1774-cü ildə rus ordusunun ön dəstələri Balkan silsiləsinə çatdı. 1774-cü il Kiçik Qaynarca sülhünə görə Rusiya Osmanlı imperiyasının xristian əhalisi üçün müəyyən müdafiə hüquqları aldı. Bəhs edilən dövrdə getdikcə zəifləyən Osmanlı imperiyasının Balkan mülklərinin taleyi ilə bağlı Şərq məsələsi deyilən problem önə çıxmışdır. Bölgədə formalaşan beynəlxalq münasibətlər Balkan xalqlarının azadlıq mübarizəsinin gedişinə öz təsirini göstərmişdir. Balkanlarda Rusiyanın təsirinin güclənməsilə bolqarların da rus silahlılarının köməyilə qurtuluş ümidləri artmışdır. 1787–1791-ci illərdə Rusiya-Türkiyə müharibəsi zamanı bolqar könüllüləri rus ordusu sıralarında türklərə qarşı döyüş əməliyyatlarında iştirak edirdi. Müharibə nəticəsində bağlamış 1791-ci il Yassi sülh müqaviləsi Osmanlı imperiyasının xristian xalqlarının qorumaq

hüquqlarını təsdiq etdi. Əsrlər boyu Osmanlı tabeliyində olan Balkan xalqlarının ortaq taleyi bolqar vətənpərvərlərinin qonşu xalqların azadlıq mübarizəsi ilə həmrəylik ruhunu oyatmışdır. Bolqar könüllüləri 1804–1814-cü illərdə serb xalqının azadlıq üsyanında iştirak etmişdir.

1806–1812-cil illər rus-türk müharibəsi zamanı bolqar vətənpərvərlərinin, o cümlədən xaricdə olan bolqarların fəaliyyəti güclənmişdir. Ömrünün son illərini Buxarestdə yaşayan Sofroni Vraçanski bolqarların azadlıq arzularını əks etdirən sənədlə iki nəfər nümayəndəni Rusiya hökumətinə təqdim etmək üçün Sankt-Peterburqa göndərmişdir. Eyni zamanda Sofroni 1810-cu ildən bolqar xalqına müraciət edərək onları rus qoşunlarına kömək etməyə çağırdı. S.Vraçanski və onun tərəfdarlarının köməyilə rus ordusunun tabeliyində bolqar könüllü dəstələri təşkil edilmişdir. 1811-ci ildə isə onlar öz bayrağı və möhürü olan altı batalyondan ibarət "Bolqarıstan Quru Qoşunları" ayrıca hərbi hissə təşkil etmişdir. Bolqar könüllü dəstələrindən biri cəsur döyüşçü Georgi Mamarçev (1786–1846) Silistr qalasına hücumda iştirak etmişdir. Bolqar könüllülərinin bu müharibələrdə iştirakı bolqarların milli kimliyinin formalaşmasında əhəmiyyətli rol oynamışdır.

Yunan xalqının azadlıq mübarizəsində də bolqar vətənpərvərlərinin xeyli hissəsi iştirak etmişdir (1821–1829-cu illər). İmperiyanın qarışıq əhalisi olan bəzi şəhərlərində bolqarlar 1814-cü ildə yaradılmış yunan gizli inqilabı təşkilatı olan "Filiki eteria"ya qoşuldular. Daha sonra 1821-ci ildə xeyli bolqar könüllüləri türk hakimiyyətinin tərəfdarları olan

yerli feodal və fanariotarlara qarşı T.Vladimireskunun başçılığı ilə Valaxiya üsyanında iştirak etdilər. Osmanlı tabeliyinə qarşı mübarizə aparmaq üçün Dunay knyazlıqlarının ərazisində fəaliyyət göstərən rus ordusu zabiti A.İpsilantinin dəstəsində bolqar könüllüləri də var idi. 1821-ci ildə Yunanıstanın özündə yunan xalqının üsyanına bolqarlar da qoşulmuşdur. Onların arasında yunan üsyançı ordusunun bir neçə komandiri fərqləndiki, onlar da sonradan Yunanıstan dövlətinin yaradılmasında iştirak etmişdir.

1928–1829-cu illər Rusiya-Türkiyə müharibəsi zamanı general İ.İ.Dibiçin rus ordusu Şimali Bolqarıstanın bir sıra şəhərlərini tutdu, Balkan dağları silsiləsini keçərək Adrianopolu aldı. Osmanlı qüvvələrinin Bolqarıstan torpaqlarında məğlubiyyəti bolqarların azadlıq mübarizəsinə zəmin hazırladı, rus silahı ilə silahlanmış könüllü dəstələri yaradıldı. Könüllü dəstələrdən birinə rus ordusunun zabiti Q.Mamarçev rəhbərlik edirdi ki, Şimali-Şərqi Bolqarıstanda fəaliyyət göstərən 1,5 min nəfərdən ibarət olan dəstə Silistrə hücum zamanı fərqləndi. Bolqar vətənpərvərlərinin hərbi əməliyyatlarda iştirakı ilə yanaşı bolqarların muxtariyyət arzusu Rusiya hakimiyyət orqanlarına ünvanlanmış kollektiv və şəxsi müraciət və məktublarda da öz əksini tapmışdır.

1828–1829-cu illər Rusiya–Osmanlı müharibəsi başa çatdıqdan sonra 1829-cu il Ədirnə sülh müqaviləsinə əsasən Yunanıstan geniş muxtariyyət alaraq bir neçə aydan sonra müstəqil oldu. Serbiya və Dunay knyazlığının muxtariyyəti təsdiqləndi və genişləndi. Bolqarıstanın muxtariyyəti məsələsi

isə müqavilədə öz əksini tapmadı. Sülh müqaviləsi imzalandıqdan sonra Şimal-Şərqi Bolqarıstandan, əsasən də Dobrucadan olan on minlərlə bolqar Dunay knyazlığına, Bessarabiyaya, Cənub-Qərbi və Cənubi Rusiya torpaqlarına mühacirətə tələsirdi.

Ədirnə (Andrianopol) sülhünün şərtlərindən məyus olan bir qrup bolqar vətənpərvəri Silistr və Tırnovoda üsyan hazırlığına başladılar. Qəsdin başçısı rus qoşunları tərəfindən azad edilmiş Silistin kmeti (meri) kapitan Q.Mamarçev Tırnovo vərənpərvərləri ilə əlaqə yaradaraq yerli tacir və maarifçi Velço Atanasovun rəhbərlik etdiyi tacir və sənətkarlardan ibarət gizli komitə yaratdılar. Qəsdçilər Rusiyanı müdaxiləyə təhrik edərək, onun köməyilə muxtar Bolqar knyazlığının yaradılmasına nail olmaq məqsədilə üsyan hazırlığına başladılar. 1835-ci ilin yazında bir xainin xəbərçiliyilə "Velço (Atanasov) qəsdi"nin üstü açıldı, onun rəhbərləri asıldı, yalnız rus təbbəsi olan Q.Mamarçev salındığı həbsxanada 1846-cı ildə öldü. Qəsd sübut etdi ki, bolqar vətənpərvərləri azadlıq mübarizəsində serb və yunan üsyanlarının təcrübəsini nəzərə alaraq ölkədə qeyri-leqal təşkilat yaratmağa nail olmalıdırlar.

Uğursuz üsyan hazırlığından sonra şimal-qərbi Bolqarıstan torpaqlarının bir sıra rayonlarını kəndli çıxışları bürüdü. 30-cu illərində Porto tərəfindən elan edilmiş aqrar islahata əsasən kındlilər becərdikləri torpaq sahələrinin bilavasitə sahibi olmalı idilər. Lakin şimal-qərbi Bolqarıstanın bölgələri faktiki olaraq islahatdan yararlanmadı. Narazı kəndlilər uzun zaman onlara məxsus olan torpaqlar üzərində hüquqlarını son

gücü ilə qorumağa çalışırdılar. 1834–1835-ci, sonra 1836 və 1937-ci illərdə Niş paşalığının kəndliləri ayağa qalxdılar. Zəif silahlanmış kəndlilərin kortəbii və dağınıq çıxışları Osmanlı qoşunu və başıpozuqlar tərəfindən məğlub edildi və dağıdıldı.

1841-ci ildə Albaniyadan Egey dənizindəki adalara və Kiprə kimi Osmanlı imperiyasının bir çox bölgələrində güclü üsyan dalğası alovlandı. Niş paşalığında kəndli üsyanları yenidən daha geniş vüsət aldı. Vidin, Pirotsk və b. yerlərdə bolqar və serb kəndliləri ayağa qalxdılar. Əhalinin qarışıq yaşadığı ərazilərə iddia edn Serbiya dövlətinin hakimiyyət təmsilçiləri öz cəsuslarını o bölgələrə göndərərək kənlilərə kömək vəd edərək onları etiraza sövq edirdi. Zəif silahlanmış, vahid təşkilatı olmayan, çıxışları kortəbii xüsusiyyətə malik olan kəndli çıxışları imperiyanın nizami ordusu tərəfindən darmadağın edildi.

1848–1894-cü illərdə bir sıra Avropa ölkələrində feodal mütləq rejimlərə qarşı kütləvi inqilabi üsyanlardan sonra 1850-ci ildə Bolqarıstanın şimali-qərbində kəndli üsyanları yeni vüsət aldı. Vidin, Beloqradçik, Lomsk və d. rayonların sakinləri silahlı mübarizənin önündə yer almışdır. Ts.Todorov, İ.Kulin və P.Marinovun rəhbərlik etdiyi təşəbbüs qrupu kütləvi kəndli çıxışlarını istiqamətləndirərək Vidin, Beloqradçik, Lomski şəhərlərin mühasirəyə alıb ələ keçirməyə səy etsələr də məqsədlərinə çata bilmədilər. Osmanlıların zərbələrinə tab gətirə bilməyən üsyançılar məğlub oldular və dağıldılar.

Lakin imperiya hökuməti, Porto bolqarların icma özünüidarəsi sahəsində hüquqlarının genişləndirilməsində, Vidin vilayətində aqrar münasibətlərdə qaydaların nizamlanmasında bir sıra güzəştlərə getdi. Kəndlilərin faktik olaraq istifadəsində olan torpaq sahəsi üzərindəki hüququ təsdiq edildi, eyni zamanda onlar müəyyən edilmiş müddətdə torpaq haqqı ödəməyə borclu idilər ki, bu da iri türk torpaq sahiblərinin xeyrinə idi.

Beləliklə, XVIII əsrin ikinci yarısı – XIX əsrin birinci yarısında bolqar xalqının siyasi azadlıq mübarizəsi kortəbii və epizodik mahiyyət kəsb edirdi. Bolqar xalqının formalaşması prosesi əsasən orta əsr ənənə və ehkamından azad olaraq, humanizm və bərabərlik ideyaların ehtiva edən maarif, mədəniyyət və mənəvi oyanışda öz əksini tapmışdır.

# II FƏSİL

## MİLLİ AZADLIQ HƏRƏKATININ YÜKSƏLİŞİ

Krım müharibəsi Bolqar torpaqlarındakı duruma əhəmiyyətli təsir göstərmişdir. Müharibə zamanı Osmanlı imperiyası ərazisindəki bolqarların xeyli bir hissəsi və bolqar mühacir burjuaziyası rusiyapərəstlik nümayiş etdirmişdir. Odessada, Buxarestdə və d. xarici bolqar mühacir mərkəzlərində yaradılmış komitələrin təşəbbüsü ilə Rusiya tərəfindən müharibədə iştirak etmək üçün bolqar könüllülərindən ibarət xüsusi dəstələr yaradılmış, imperiya ərazisində isə qeyri-leqal vətənpərvər qruplar və komitələr meydana gəlmişdir. Lakin Türkiyəni müdafiə edən Fransa, İngiltərə, Sardiniya krallığı və daha sonra onlara qoşulan Avstriyanın daxil olduğu koalisiya hərbi qüvvələri Rusiyanı məğlub edərək bolqar vətənpərvərlərinin də ümidlərini puç etdi.

Krım müharibəsinin sonunda Osmanlı Türkiyəsinin bütövlüyündə maraqlı olan İngiltərə, Fransa və Avstriya hökumətləri Portonu islahatlar yoluna sövq etdi. 1856-cı ilin fevralında bəhs edilən ölkələrin səfirləri böyük vəzir ilə birlikdə hazırladıqları islahat aktı layihəsi Sultanın adından manifest – xətti humayun kimi nəşr edildi. Tənzimat dövrünü bərpa etmək, siyasi sistemdə islahat aparmaq məqsədi Osmanlı imperiyası

ərazisində yaşayan xalqların milli-azadlıq hərəkatını zəiflətmək və bununla da imperiyasının böhranını, süqutunu dayandırmaq siyasəti güdürdü. Sultan 1839-cu ildə elan edilmiş milli və dini mənsubiyyətindən asılı olmayaraq təbəələrin canları, malları və şərəflərinin təhlükəsizliyini təmin edən hüququ təsdiq etdi. O, məhkəmə-hüquq islahatlarının aparılmasına, vergilərin yığılmasında sui-istifadə hallarının, rüşvətin aradan qaldırmasına, bütün sakinlərin dövlət qulluğuna bərabər çıxış imkanına və s. vəd verdi. Manifest eyni zamanda xarici kapitalın imperiyaya sərbəst giriş imkanı verdi, əcnəbilərə daşınmaz əmlak sahibi olmaq hüququ tanıdı, kapitulyasiya rejimini təsdiq etdi. Xarici kapitalın ölkəyə axını Osmanlıda iqtisadi sahədə əmtəə-pul və qisməndə kapitalist münasibətlərinin inkişafına səbəb oldu.

Manifestdən ilk növbədə Avropanın kapitalist ölkələri real fayda əldə etdilər. Aşağı tariflərdən istifadə edən Avropa firmaları imperiyanı mallarla doldurdular. Xarici kapital müxtəlif sahələrə intensiv şəkildə nüfuz etdi. London, Paris, Vyana banklarının iştirakı ilə xarici firmaların qazanc əldə etdiyi dəmir və avtomobil yollarının, limanların tikintisinə başlandı. Osmanlı imperiyasında 50–70-ci illərdə çəkilmiş dəmir yollarının təxminən yarısı, o cümlədən Ruse-Varna, Tırnovo-Seymen-Yambol xətləri Bolqar torpaqlarından keçirdi. 1850–70-ci illərdə Porto xarici banklardan ağır şərtlərlə 14 kredit aldı ki, bu da ölkənin xarici borcunun artmasına səbəb oldu və 1870-ci illərin əvvəllərində hökumət maliyyə iflası elan etmək məcburiyyətində qaldı. Osmanlı imperiyası

Qərbi Avropa güclərindən asılı bir dövlətə çevrilirdi. Bütün bunlar Bolqar torpaqlarının sosial-iqtisadi inkişafına güclü təsir göstərmişdir.

İmperiya subyektlərinin elementar qanunçuluq və təhlükəsizliyinin, dövlət aparatının siyasətində sabitliyin olmaması, xarici banklar tərəfindən soyğunçuluğun yarımmüstəmləkə üsulları Bolqarıstan iqtisadiyyatının kapitalist istiqamətdə inkişaf üçün müstəsna çətinliklər yaradırdı. Eyni zamanda, nəqliyyat şəbəkəsinin və xarici ticarət mübadiləsinin genişlənməsi iqtisadiyyata stimullaşdırıcı təsir göstərmişdir. Sənətkarlıq sahəsində əhəmiyyətli dəyişikliklər baş verdi. Ucuz xarici malların geniş vüsət alması bir çox sənət növlərinin azalmasına səbəb oldu. Lakin belə vəziyyət bəzi sənaye sahələrinə təsir etmədi və onlar inkişaf etməyə davam etdilər. Avropa sənayesinin rəqabəti sənətkarlıq müəssisələrinin yenidən qurulmasına təkan verdi. İstehsalın bəzi sahələrində əmək bölgüsü genişləndi. Yerli şərait və imkanlardan asılı olaraq ayrı-ayrı rayonların ixtisaslaşmasının dərinləşməsi müşahidə olunurdu. Sənətkarlıq müəsisələrinin mahiyyəti və miqyası, onlarda çalışan şagird və çıraqların mövqeyi də dəyişdi, yarımuzdlu və muzdlu işçi tipi formalaşmağa başladı. Xarici kapitalın axını qismən kapitalist münasibətlərinin aparılmasına kömək etdik, bu da köhnə manufakturaların genişlənməsinə, yeni dağınıq və mərkəzləşmiş manufakturaların yaranmasında özünü göstərirdi. Bolqar torpaqlarında sadə kapitalist kooperasiyasının ən geniş yayılmış növü səpələnmiş manufaktura idi. Ucuz işçi qüvvəsinin olması manufaktura sahiblərinə

çox gəlir gətirirdi. Lakin manufakturalarda işçi qüvvəsinin qeyri-iqtisadi təsir vasitələrilə isə cəlb edilməsi bütövlükdə cəmiyyətdə feodal münasibətlərinin hökmranlığından xəbər verirdi.

Ən böyük səpələnmiş manufakturaya misal olaraq Gümüşgərdənovlar müəsssisəsini göstərmək olar. Kobud yun parça istehsalı zavodunun ("aba") təsisçisi və təşkilatçısı Atanas Gümüşgərdən idi, oğlu Mixalak kiçik bir toxuculuq fabriki tikdirərək imperiyasının bir sıra bölgələrində torpaq almışdır. Lakin ailənin əsas sərvət mənbəyi səpələnmiş manufaktura şəklində ev işçilərinin əməyinin istismarı olmaqda idi. Atası kimi Mixalak da yerli hakimiyyət orqanlarının köməyi ilə Rodop kəndlərinin kiçik istehsalçılarını şirkətdə işləməyə məcbur edərək nümayəndələri vasitəsilə ev işçilərinə xam yun paylayaraq hazır məhsulu qəbul edirdilər. Gümüşgərdən ailəsi yunan əsilli idi və Osmanlı hakimiyyəti nümayəndələrilə sıx əlaqədə çalışırdı.

İlk buxar dəyirmanları, parça, toxuculuq, spirt, şüşə və s. sahələr üzrə fabriklər, zavodlar meydana çıxdı. Lakin imperiya ərazisində onların fəaliyyəti üçün normal şərait olmadığından sahibləri tez bir zamanda müflis olur, bəzən bu müəssisələr səlahiyyətli orqanlar tərəfindən müsadirə edilirdi.

Bolqar torpaqlarının kənd təsərrüfatında əmtəə istehsalının payı artdı. Şimali və cənubi Bolqarıstanda satış üçün taxıl, tütün, pambıq və s. istehsal edən çiftliklərin sayı çoxaldı. Bəzi çiftliklərdə muzdlu işçilərdən istifadə olunmağa başlandı. Bolqarıstan rayonlarında istehsal olunan kənd təsərrüfatı

məhsullarına artan tələbat hakimiyyət orqanlarını aqrar qanunvericilikdə bəzi dəyişikliklər etməyə sövq etdi ki, bu da torpaqların alqı-satqısı üçün imkan yaratdı. 1834-cü ildə sipahi sistemi ləğv edildikdən sonra kəndlilərin böyük əksəriyyəti formal olaraq azad oldular. 1830-1840-cı illərdə qəbul edilmiş aqrar islahatlara, 1850-60-cı illərdə onlara edilən əlavələrə əsasən məhdud formada olsa da, kəndlilərin torpaq hüquqları tanınırdı. Kəndlilərin ixtiyarında sahib olduqları müxtəlif ölçüdə torpaq sahələri var idi, lakin dövlət onların əsas sahibi olaraq qalırdı. Torpaqdan istifadə etdiklərinə görə kəndlilər dövlətə müxtəlif vergilər ödəməyə borclu idi ki, onların ən ağırı isə “onluq” idi. Əslində bu vergi durmadan artırdı ki, bu da bəzən yığılan məhsulun 1/3 həcmi miqdarına belə çatırdı. Bundan əlavə, kəndlilər hələ də imperiyanın hakimiyyət orqanlarının müəyyən etdiyi yollar və körpülər salmaq, Sultan və bir sıra türk mülklərində məhsul yığmağa kimi mükəlləfiyyətləri yerinə yetirməyə məcbur idilər. İmperiya torpaqlarında əkinçiliklə məşğul olanlardan vergi toplamasındakı amansız və misli görünməmiş sui-istifadə halları geniş miqyas alaraq durmadan artırdı.

Ticarət sahəsində böyük irəliləyiş əldə edilmişdir. Ayrı-ayrı rayonların ixtisaslaşması ilə əlaqədar Bolqarıstanın müxtəlif regionları arasında ticarət mübadiləsi genişləndi. Bolqar torpaqlarının Avropa ölkələrilə ticarət dövriyyəsi kəskin şəkildə artdı, lakin onların xarici ticarət mübadiləsinin mahiyyəti dəyişmədi, beləki, Bolqar torpaqları kənd təsərrüfatı xammalı ixrac edir, sənaye məhsulları idxal edirdi.

Bolqarıstanın Varna, Ruse, Tırnovo, Plovdiv, Sliven, Burqas, Sviştov və b. şəhərlərində əsasən bolqar tacirlərinin əlində olan ticarət firma və idarələrinin sayı artdı. İstehsalın və əmtəə mübadiləsinin inkişafı ilə sıx bağlı olaraq formalaşmaqda olan vahid milli bazar şəklində Bolqarıstan ərazisinin müxtəlif hissələrinin iqtisadi birliyinin əsası qoyuldu. Əvvəllər səpələnmiş yarımpatriarxal şəhər, qəsəbə və kənd icmalarının əhalisi XIX əsrdə tədricən vahid burjua xalqına çevrildi.

XIX əsrin ortalarından bu proses daha çox diqqət cəlb edən forma almışdı. Şimali Dunay torpaqlarının iqtisadi cəhətdən ən inkişaf etmiş rayonlarında və Balkan silsiləsinin hər iki tərəfindəki mərkəzi bölgələrində bu proses daha intensiv gedirdi. Məhz bu ərazilərdə inqilabi komitələrin fəaliyyəti 1870-ci illərdə milli-azadlıq şüarları altında ən fəal şəkildə cərəyan etdi və 1876-cı ilin aprelində üsyan başladı. Bolqar xalqının təşəkkülü prosesi məhz bu ərazilərdə yayıldı. Dobruca, Cənubi (Egey) Trakya və Makedoniyanın bolqar əhalisi, türklər, yunanlar, albanlar, vlaxlar və b. yanaşı birlikdə yaşadıqları üçün bolqarların bu ərazilərdə milli konsolidasiya prosesi nisbətən zəif olmuşdur.

Bolqar millətinin formalaşması əhalinin sosial və etnik tərkibindəki dəyişikliklərlə bərabər gedirdi. Şəhərlərdə sənətkarların və tacirlərin nisbətinin artması ilə əlaqədar bolqar əhalisinin nisbətində artım prosesi davam etmişdir. Krım müharibəsindən sonra Bolqarıstanın sosial-iqtisadi inkişafının sürətlənməsi əvvəlki dövrdə yaranmış burjua sosial təbəqəsinin güclənməsinə səbəb olaraq onun sinfə çevrilməsinə

şərait yaratmışdır. Bu ilk növbədə sayca və iqtisadi cəhətdən artan tacir təbəqəsinin fəaliyyəti ilə bağlı olmuşdur. Daxili və xarici ticarət əlaqələrinin gücləndiyi şəraitdə iri ticarət evləri formalaşırdı. Geşovların, Nikiforov, Pulevlərin, Tıpçileştov qardaşlarının şirkətləri imperiyada fəaliyyət göstərirdi, Georgiev, Toşkoviç qardaşları, F.Sakelariev və b. xaricdə yaşayaraq əsasən xarici ticarət və qismən də bank və sələmçilik əməliyyatları ilə məşğul olurdular. Bir çox iri bolqar tacirləri, o cümlədən Qabrovodan olan İ.Kalpazanov, Koprivştitsalı Madjarovlar, Tırnovodan olan D.Niçev və S.Paskalev və b. eyni zamanda manufaktura sahibləri idi. Yeni yaranan burjuaziya sinfinə həmçinin dağınıq və mərkəzləşdirilmiş manufaktura sahibləri, iri sənətkarlıq müəssisələri, fabrik və iri dəyirmanların, kənd təsərrüfatı malikanələrinin sahibləri, iri maldarlar və d. təmsil edən varlı kəndli təbəqəsi də daxil idi.

XVIII əsrin sonu – XIX əsrin əvvəllərində bolqar tacirləri arasında yunanlar və çorbacı-türkofillər əsas yer tuturdu. Bu dövrdə bolqar burjuaziyasının əsas hissəsi yadelli asılılıqdan qurtulmağa, iqtisadi, sosial və mədəni sahələrdə öz varlığını təsdiq etməyə çalışırdı. Bolqar məktəbinin və təhsilinin inkişafına fəal maraq göstərir, onlara maddi dəstək verirdi. Məsələn, Evloqi və Xristo Georgiyev qardaşları məktəblərin və qiraətxanaların, kilsələrin, xəstəxanaların tikintisi və təchizatı üçün xeyli vəsait ayırmışdır. Bəzi tacirlər bolqar dövri nəşrlərinin çapını maliyyələşdirir, milli-azadlıq hərəkatına yardım göstərirdilər.

Yeni yaranan burjuaziya tədricən Bolqar cəmiyyətində iqtisadi cəhətdən ən nüfuzlu qüvvəyə çevrilirdi. Bununla belə, imperiyada hökmranlıq edən feodal-teokratik qaydalar onun iqtisadi və sosial təşəbbüsünü sıxışdıraraq bolqar burjuaziyasının siyasi zəifliyinə, parçalanmasına səbəb olurdu.

Aristokratiya və zadəganların yoxluğunda formalaşan milli struktur demokratik mahiyyət daşıyırdı, böyük əksəriyyəti isə kəndlilər və sənətkarlardan ibarət idi. Tədqiqatçıların fikrincə, onların gəlirlərinin 50%-dən çoxu vergiyığanlar tərəfindən onların əlindən alınırdı. İmperiya hakimiyyət orqanlarının və feodal istismarı və əsasən dini basqıdan istifadə edən fanoriotların ikiqat zülmü sayəsində bolqar cəmiyyətinin demək olar ki, bütün təbəqə və sinifləri, o cümlədən formalaşmaqda olan ziyalılar əziyyət çəkirdilər.

1856-cı il manifestinin elan etdiyi islahatlara baxmayaraq, bolqarların vəziyyəti demək olar ki, yaxşılaşmadı. Dövlət aparatında əvvəlki kimi rüşvətxorluq və korrupsiya qalırdı. İslahat yolu ilə sistemi müasirləşdirmək və nizama salmaq cəhdləri müsəlmanlar arasından olan fanatik ünsürlər tərəfindən düşmənçiliklə qarşılandı. Onları imperiyanın hakim dairələrinə daxil olan müsəlman din xadimləri və feodal bürokratiyasının təmsilçiləri qızışdırırdılar ki, onlar çətinliklə də olsa, meydana çıxan burjua nüfuz dairəsinə uyğunlaşmaq istəmir və onu bacarmırdılar. Qanunsuzluq və qeyri-iqtisadi məcburiyyətdən ibarət köhnə rejim daha çox onların maraqlarına uyğun idi. Beləliklə, sosial inkişafın nəticəsində bolqar cəmiyyətində böyüyən, mənəvi-siyasi azadlığa can atan yeni

qüvvələrlə imperiyanın feodal-mütləq hakim təbəqəsinin təmsilçiləri arasında ziddiyyətlər son həddə çatmışdır.

Formalaşmaqda olan xalqın mənəvi yüksəlişi, ilk növbədə bolqar əhalisinin təhsilə və maariflənməyə olan marağı diqqət cəlb edirdi. 1850–60-cı illərdə Bolqarıstanın şəhərlərində və bir çox kəndlərdə qarşılıqlı təhsil üçün ibtidai məktəblər açıldı ki, 1876-cı ilə kimi təxminən 1,5 min belə məktəb var idi. Bunlarla yanaşı, daha böyük şəhərlərdə oğlanlar üçün 50-yə yaxın, qızlar üçün 20-yə yaxın iki, üç, dörd və beş sinifli məktəblər açıldı. Belə məktəblərlə bərabər Plovdiv, Şumen, Qabrovo, Sviştov və s. iri mərkəzlərdə bir neçə gimnaziya və pedaqoji, teoloji, kommersiya orta ixtisas təhsil müəssisələri təşkil edilmişdir.

Bolqarıstan təhsili və maarifi bir çox maneələrlə qarşılaşmışdır. Əsas çətinlik mərkəzi və yerli hakimiyyət orqanları tərəfindən dəstəyin olmaması idi. Patriarxlığın başçılıq etdiyi yunan ruhaniləri də bolqar məktəbinə hər cür əngəllər törədirdilər. 1860-cı illərdə Dunay vilayətinin valisi Midhət Paşa bolqar dilini türk dili ilə birləşdirərək vahid məktəblərin yaradılması layihəsini irəli sürdü. “Osmanlılaşdırma” siyasəti təhlükəsindən ehtiyat edən Bolqarıstan ictimaiyyəti bu layihənin əleyhinə çıxdı. Müsəlman dini xadimləri də bu ideyanı onların türklər üzərində mənəvi hökmranlığına təhlükə hesab edərək qəbul etmədilər. Eyni zamanda hakim dairələr partriarxlığın dəstəyi ilə 1870-ci illərdə Bolqarıstan ziyalılarının Bolqarıstanda ali təhsil müəssisəsi yaratmaq ideyasının həyata keçirilməsinə mane oldular.

Görkəmli şair və inqilabçı publisist Xristo Botevin (1847-1876) qeyd etdiyi kimi Bolqarıstanda yaranmış "bolqar məbədi" milli məktəbi yalnız Bolqarıstan ictimaiyyətinin fədakar səyləri sayəsində fəaliyyət göstərmişdir. Binaların tikintisi, müəllimlərin məvacibinin ödənilməsi və ümumiyyətlə məktəblərin saxlanması xərcləri burjuaziya və geniş xalq kütlələrinin könüllü ianələri hesabına ödənilirdi. Rusiyanın imperiyasının dövlət siyasətinə uyğun olaraq göstərdiyi dəstək mühüm əhəmiyyət kəsb edirdi. Bolqar mütəxəssislərini hazırlanmasında Rusiya imperiyasının Slavyan komitələri və rəsmi orqanlar təsirli köməklik göstərirdi. Moskva, Sankt-Peterburq, Kiyev, Odessa, Kişinyov və b. şəhərlərtdə ali və orta ixtisas təhsil müəssisələrində oxuyan bolqar tələbələrə ayrılan təqaüdlərin sayı artır, onlar təhsil haqlarından azad edilir, kitabların alınmasına görə əlavə pul müavinatları alırdılar. Bununla, Rusiya hökuməti bolqar xalqına təsirini gücləndirməyə çalışırdı. Eyni zamanda bu siyasət Bolqar təhsilinin və mədəniyyətinin inkişafına faydalı təsir göstərmişdir. Bolqar icmaları və ayrı-ayrı varlı bolqarlar da təqaüdlərin ayrılmasında fəal iştirak etmişdir.

Təhsil və maarifin yayılması ilə bağlı atılan addımlar sayəsində əsasən yoxsul ailələrindən olan bolqar gəncləri yaxşı təhsil almaq imkanı qazandılar. Məhz onlar formalaşmaqda olan bolqar ziyalılarının əhəmiyyətli hissəsini təşkil edərək, bolqar mədəniyyətinin qurulmasında və milli azadlıq mübarizəsində fəal iştirak etmişdilər. Formalaşmaqda olan bolqar ziyalılarının xeyli hissəsi  Avstriya, Fransa, İtaliya,

Serbiya, Rusiya, Rumıniya və d. ölkələrin təhsil müəssisələrində habelə Osmanlı Türkiyəsinin şəhərlərində açılmış məktəb və kolleclərdə İngiltərə, ABŞ, Fransa kimi ölkələrin missionerləri hesabına təhsil alırdılar.

Bolqar icmaları ümumilikdə təhsilin və maarifin inkişafında böyük rol oynamışdı. 1856-cı il manifestindən sonra icmalar Bolqarıstanın bütün şəhərlərində və bir çox kəndlərində öz fəaliyyətlərini gücləndirdilər. Hakimiyyət icmaların fəaliyyətinə icazə versə də tezliklə onların fəaliyyət dairəsini məhdudlaşdırdılar. Buna baxmayaraq, bolqar xalqı icmalardan milli və mədəni kimlik mərkəzi kimi istifadə etməyi bacardı.

Krım müharibəsindən sonra icmaların təşəbbüsü və dəstəyilə yeni milli mədəni-maarif fəaliyyət mərkəzləri – oxu yerləri yarandı. Klub kimi fəaliyyət göstərən orijinal kitabxanalar – oxu otaqları adlandırıldı və icmaların hesabına alınan qəzet və jurnalları, kitablar, dərsliklər hər bir kəsə verilirdi. Müəllim-tərbiyəçilər burada savadsızlar və təhsil səviyyəsini artırmaq istəyənlərlə bazar günü dərsləri keçirdilər. Ümumi mədəni və tarixi-vətənpərvərlik mövzularında söhbətlər təşkil edirdilər. Qiraətxanalar eyni zamanda bədii özfəaliyyət sənətinin inkişafı üçün əsas oldu və xalqın ictimai-mənəvi həyatının mərkəzlərinə çevrildi. Onların fəaliyyətində tanınmış maarifçilərlə yanaşı inqilabçılar da fəal iştirak edirdilər ki, bu zaman Bolqarıstanda 130-dan çox qiraətxana mövcud olmuşdur.

Oxu mərkəzlərilə yanaşı başqa mədəni-maarif cəmiyyətləri, xeyriyyə təşkilatları və dərnəkləri meydana gəldi. Bolqar qadınları üçün bərabərlik tələb edən, onların təhsil və mədəni

səviyyələrini yüksəltməyi qarşıya məqsəd qoyan qadın təşkilatları da yarandı. Belə təşkilatlar və birliklər yalnız bolqar torpaqlarında deyil, xarici ölkələrdə də yarandı. Bolqarların Buxarest, Moskva, Odessa, Vyana və b. şəhərlərə kütləvi mühacirəti nəticəsində burada iri bolqar koloniyaları meydana gəldi ki, onlar da çoxlu sayda bolqar tələbə gənclərin bir yerdə toplanmasına səbəb olmuşdur. Bu isə bolqar mühacirlərinin bir çox xarici mərkəzlərinin bolqar xalqının milli dirçəlişində rolunun artması demək idi.

1869-cu ildə Breildə "Bolqar kitab dostluğu" (BKD) adı altında gələcək Bolqarıstan Elmlər Akademiyasının rüşeyminə çevrilən ədəbi-elmi birlik yaradıldı. BKD-nin fəaliyyətinin və inkişaf perspektivlərinin müəyyən edilməsində onun birinci sədri, Xarkov Universitetinin tarixçi professoru Marin Drinov (1838–1906) mühüm rol oynamışdır. M.Drinov bolqarların mənşəyi, Balkan yarımadasında slavyanların məskunlaşması, slavyan-Bizans münasibətləri və s. haqqında sanballı elmi əsərləri ilə tanınır. 1870-ci ildən BKD özünün "BKD-də vaxtaşırı hesabdan silmə" ("Периодическое списание на БКД") cari orqanını nəşr etdirir ki, onun da ətrafında bolqar xalqının dilini, folklorunu, tarixini, etnoqrafiya və arxeologiyasını tədqiq edib öyrənən fəal müəlliflər qrupu formalaşırdı. İctimai xadim, publisist və yazıçılar Q.Rakovski, P.R.Slaveykov, L.Karavelov, N.Gerovun əsərləri bu nəşrlərdə çap edilmişdir.

Təhsil sahəsindəki irəliləyişlər kitab nəşrinin genişlənməsilə müşayiət olunurdu. İlk bolqar nəşriyyatının yaradıcısı

1857-ci ildə Plovdivdə kiçik bir şirkət quran müəllim və pedaqoq Xristo Danov (1828–1911) hesab olunur. Bütün həyatını bolqar kitabının nəşrinə və yayılmasına həsr etmiş X.Danovun mətbəəsində dərsliklər, müxtəlif məzmunlu ədəbiyyat, o cümlədən bədii ədəbiyyat çap olunurdu. Bolqar dilində kitab və dövri nəşrlərin çapı üçün mətbəələr Samokov, Konstantinopol, Buxarest və d. şəhərlərdə fəaliyyət göstərirdi.

Qəzet və jurnal çapı inkişaf edirdi. Bolqar dilində cari nəşrlər əsasən Ruse, Konstantinopol, habelə Buxarest, Breil və böyük bolqar koloniyalarının mövcud olduğu başqa xarici mərkəzlərdə varlı bolqarların cəmlədiyi yerlərdə nəşr olunurdu. Bu nəşrlər xalqın müxtəlif təbəqə və siniflərinin mühafizəkarlardan inqilabçılara kimi qruplarını əhatə edən insanların mədəni və siyasi təşkilatlarının maraqlarını təmsil edirdi. Bolqar inqilabi qəzetləri təbii olaraq, Türkiyədən xaricdə nəşr olunurdu. Q.Rakovskinin Novi Sad, Belqrad və Buxarestdə nəşr etdirdiyi "Dunay qu quşu"və "Gələcək", Lyuben Karavelovun redaktorluğu ilə Buxarestdə nəşr olunan "Azadlıq" və "Müstəqillik", H.Botevin redaktorluğu ilə Breildə və Buxarestdə nəşr edilən "Bolqar mühacirləri haqqında fikirlər" və "Şüar" qəzetləri buna misaldır. Osmanlı imperiyasında nəşr olunan bolqar qəzetlərindən ən məşhur və məzmunca radikal olan "Haydı!" ("Tuluq zurnası") onlar bağlandıqdan sonra isə "Makedoniya" olmuşdur. Onların redaktoru, yazıçı və ictimai xadim, istedadlı jurnalist Petko Slaveykov (1827–1895) senzuranın təqiblərinə baxmayaraq bolqarların vətənpərvərlik ideyalarını, mənəvi inkişafının

zəruriliyini və bolqar millətinin azadlığını təbliğ edərək yaymağa nail oldu.

Fasilələrlə 13 il işıq üzü görən "Çariqrad xəbərləri" qəzeti bolqar jurnalistikasında əhəmiyyətli iz qoymuş sanballı nəşrlərdən idi. Qəzet bolqar torpaqlarında və osmanlı Türkiyəsində baş verən cari və mədəni hadisələrlə, beynəlxalq səpkili yeniliklərlə ictimaiyyəti tanış edirdi. Uzun illər qəzeti Budapeşt və Parisdə yaxşı təhsil almış, bir neşə xarici dilə bələd olan, jurnalist və ictimai xadim Aleksandr Ekzarx redaktə edərək ona rəhbərlik etmişdir. Qəzet bolqar burjuaziyasının mötədil və mühafizəkar dairələrinin hisslərini ifadə etməklə yanaşı hakimiyyətlə əməkdaşlıq və patriarxlıqla razılaşmanın tərəfdarı mövqeyindən çıxış edirdi. "Bolqar kiçik kitabı", "Qiraətxana" və "BKD-də vaxtaşırı hesabdan silmə" jurnalları mahiyyət etibarilə əhəmiyyətli nəşrlərdən idi. Ümumilikdə 1850–70-ci illərdə ümumilikdə 100-ə yaxın qəzet və jurnal nəşr olunmuşdur ki, onların da bir hissəsi qısa müddətə çıxmış və əhəmiyyətli təsirə malik olmamışdır.

Bolqarıstanın mənəvi-ictimai həyatında XIX əsrin ortalarından müəyyənləşən yüksəliş bədii ədəbiyyatın inkişafında xüsusi olaraq özünü göstərdi. Milli intibah dövrü mədəniyyət xadimlərinin yaradıcılıq fəaliyyətinin fəallaşması ilə səciyyələnirdi. Ədəbiyyat sahəsində bir çox mühüm nailiyyətlər ictimai-siyasi xadimlər, maarifçilər və b. ziyalıların fəaliyyətilə bağlı olmuşdur. Məsələn, xalq arasında böyük nüfuza malik olan məşhur maarifçi və ictimai xadim Petko Raçev Slaveykov həm də ilk böyük bolqar yazıçısı idi. O, çoxlu

parlaq vətənpərvərlik və lirik şeirlər, poemalar, yumoristik əsərlər, o cümlədən xatirələr, folklora dair araşdırmalar və s. yazmışdır.

Görkəmli ictimai xadim, inqilabçı, alim və mütəfəkkir Lyuben Karavelov (təx. 1834–1879) müxtəlif ədəbi janrlarda parlaq iz qoyub. Bolqar ədəbiyyatında realizmin banilərindən olan L.Karavelov bədii əsərlərinin ən böyüyü olan – "Köhnə dövrün bolqarları" və başqa povestlərində Osmanlı imperiyasının asılılığında olan xalqın həyatını  doğru və canlı təsvir etmişdir.

Bəhs edilən dövrdə həm də ədəbi tənqid sahəsində ilk bolqar əsərləri meydana çıxdı. Belə əsərlərin ən sanballısı böyük yazıçı və şairlər L.Karavelov, P.Slaveykov, X.Botev ədəbiyyatşünas və folklorçu, Neşo Bonçev tərəfindən yaradılmışdır. Bolqar dramaturgiyasının banilərindən biri ictimai və kilsə xadimi, pedaqoq Vasil Drumev idi ki, o da bir sıra povestlər yazmışdır. Dobri Voynikov isə daha məhsuldar yaradıcılığa malik dramaturq idi.

Bolqar xalqında vətənpərvərlik hissinin və inqilabi şüurunun formalaşmasına töhfə verən pedaqoq və maarifçi Dobri Çintulovun inqilabi mahnıları və Georgi S.Rakovskinin "Meşə yoluçusu" poeması böyük ictimai səs doğurmuşdur. Bolqar poeziyasının zirvəsi parlaq siyasi felyetonların və publisistik oçerklərin müəllifi Xristo Botevin yaradıcılığı idi. Onun "Hacı Dimitir" balladası, iyirmiyə yaxın şeiri, o cümlədən "Haydukla", "Mübarizə", "Vətənpərvər" və b. əsərləri musiqi ilə süslənən əsl poeziya şedevrləri olmaqla onlarla dilə tərcümə

edilmişdir. Azadlıq və sosial ədalət uğrunda mübarizə ideyaları yayan X.Botevin yaradıcılığı bolqar inqilabı mübarizlərin bir çox nəsilləri üçün ilham mənbəyi olmuşdur.

Qeyd edilməlidir ki, Bolqar milli dirçəlişi ədəbiyyatının bütün sahələri bilavasitə mənəvi və milli-azadlıq mübarizəsi məqsədinə xidmət edirdi. Eyni zamanda bolqar ədəbiyyatının P.Slaveykov, L.Karavelov, X.Botevin kimi nəhəngləri 1860–70-ci illərdə yazdığı əsərlərdə Şərqi bolqar dialektinin ləhcəsinə əsaslanan dildən istifadə edərək milli müasir bolqar dilinin formalaşmasına öz töhfələrini vermişdir.

Memarlıq və incəsənət sahəsində əvvəllər mövcud olan ehkamçı ənənələrin ardından qaldırılması və dünyəvi humanist, rasional motivlərin önə çıxması diqqət cəlb edir. Burjuaziyanın əlində kapitalın cəmləşməsinin artması tikinti işlərinin intensivləşməsinə təkan verdi. Bolqarıstanın Koprivştitsa, Qabrov, Tırnovo, Yelena və b. şəhərlərində milli oyma ornamentlərilə bəzədilmiş yaşayış binaları ucaldıldı, kilsə və məktəb binalarının tikintisi kifayət qədər geniş vüsət aldı. Dryanovo, Tryavno, Trıne, Qabrovo və d. bölgələrdə sənət məktəbləri və mahir inşaatçılar sülalələri meydana çıxmışdı. Dryanovodan olan usta Nikola Fiçevin istedadı çiçəkləndi. Onun layihələri və bilavasitə iştirakı ilə Tırnovoda və qonşu şəhərlərdə memarlığın incə nümunələri olan çoxlu yaşayış və ictimai binalar, kilsələr ucaldıldı. Onun memarlıq sənətinin ən dəyərli abidələri Rositsa, Veselina, Osım və d. çaylar üzərindəki körpülər idi. N.Fiçevin ən mükəmməl işi 1865–1867-ci illərdə Bela şəhəri yaxınlığında Yantra çayı üzərində tikilmiş

körpüdür. Bir çox məşhur bolqar inşaatçıları Osmanlı Türkiyəsinin başqa ərazilərində və kənarda binaların inşasında iştirak edirdilər.

Bolqarıstanda teatr və musiqi sənəti yalnız ilk addımlarını atırdı. İlk həvəskar teatr truppaları Şumen, Ruse, Lom, Tırnovo və d. şəhərlərdə oxu mərkəzləri əsasında yarandı. Onlar V.Drumevin tarixi-vətənpərvərlik məzmunlu "İvanko – I Asenin qatili" və ya D.Voynikovun həyatın aktual problemlərindən bəhs edən "Pis başa düşülən sivilizasiya" pyesləri əsasında tamaşalar səhnələşdirirdilər. Formalaşmaqda olan musiqi mədəniyyətinin mərkəzləri Şumen və Ruse olmuşdur ki, burada da ilk nəğmə orkestrləri və xorlar yaranmışdı.

Təsviri sənətdə dünyəvi motivlərə diqqət artmışdır. İki böyük rəssam Stanislav Dospevski və Nikola Pavloviçin yaradıcılığı önə çıxmışdır. S.Dospevski təbiət mənzərələri və milli intibah dövrü xadimlərinin tablo və portretlərini ustalıqla yaratmışdır. Nikola Pavloviç portretlərlə bərabər bolqar tarixi mövzularında tablolar və litoqrafiya üsulu ilə şəkillər çəkilmişdir. Bolqar rəssamları mədəni-maarif işlərində, bir çoxu isə ictimai mübarizədə iştirak edirdilər.

Milli Dirçəliş dövründə bolqar xalqının mədəniyyətində dərin keyfiyyət dəyişiklikləri baş vermişdi. Feodal imperiyasında asılılıq şəraitində nə qədər çətinliklə olsa da yeni bir bolqar mədəniyyəti, formalaşmaqda olan xalqın dünyəvi, sosial ruhu və məzmunu ilə mütərəqqi bir mədəniyyət meydana gəlmişdir. Mədəniyyət sahəsində qazanılan uğurlar isə öz növbəsində milli şüurun yüksəlməsinə, öz müqəddəratını

təyin etmək məqsədilə azadlıq yolunda siyasi mübarizənin dərinləşməsinə əhəmiyyətli təsir göstərmişdir.

Millətin ümumi mənəvi yüksəlişi tezliklə kilsəının muxtariyyəti uğrunda mübarizədə özünü göstərdi. Krım müharibəsindən sonra avtokefal kilsə uğrunda hərəkat daha böyük güclə başladı. 1856-cı il manifestilə elan edilən islahatlar bolqarlara yeni tələbələr irəli sürmək üçün hüquqi əsaslar verdi. 1856-cı illin dekabrında Konstantinopoldakı bolqar icması digər böyük icmaları manifestin vəd etdiyi islahata əsaslanaraq müstəqil bolqar kilsəsinin yaradılmasını həyata keçirmək məqsədilə hökumətə petisiyalar təqdim etmək üçün nümayəndələrini paytaxta göndərməyə çağırdı. Yeni proqramın əsas mahiyyəti formalaşmaqda olan bolqar xalqının tanınması tələbi idi. Konstantinopol bolqar icmasının müraciətinə cavab olaraq paytaxtda toplanan 20 nümayəndə 60-dan çox petisiyanı mərkəzi hökumətə təqdim etdi.

Eyni zamanda bolqar əhalisi arasında patriarxlığa qarşı etiraz hərəkatı geniş vüsət almışdır. Yunan keşişlərinin kobudluq və rüşvətxorluğu, vəziyyətdən narazılığını bildirənlərdən hakimiyyətə xəbərçilik edilməsi, patriarxlığın təmsilçilərinin maarif və mədəniyyət sahəsində hər hansı bir bolqar təşəbbüsünə düşmən münasibəti və s. hərəkata təkan verən səbəblər idi. Bu hərəkatda bolqar xalqının müxalifət sinif və təbəqələrinin nümayəndələri, o cümlədən zəngin tacir və sənətkarlar, kəndlilər, müəllim, mədəniyyəti təmsil edən burjuaziya iştirak edirdi. Polovdiv, Sofiya, Qabrovo, Varna, Sviştov, Tırnovo, Ruse, Koprivştitsa, Loveç, Kyus-

tendil, Sliven, Veles və d. şəhərlərin icmaları böyük fəallıq göstərmişdir.

Məhz 1850-ci illərin sonlarından çoxlu bolqar icması möhürlərini dəyişdirərək əvvəllər adlandırıldığı kimi "Roma" deyil, "Bolqar icması" kimi qeyd olundu. Yerlərdə bolqar kilsəsinin müstəqilliyi uğrunda ideya tədricən genişləndi və yunan keşişlərinin qovulması uğrunda mübarizə başladı. Tırnov0 və Polovdiv dairələrinin şəhər və kəndlərində bolqar əhalisi yunan mitropolitinə vergi ödəməkdən imtina edərək kilsə və məktəb işçilərinin yerli icmalara keçməsini təmin etdilər. Bolqarlarla yunan kilsə işçiləri arasında ziddiyət dərinləşərək bəzən birbaşa toqquşmaya səbəb olmuşdur. Məsələn, 1859-cu ildə Plovdiv kilsələrinin birində dini mərasimin bolqar dilində başlaması zamanı bolqarlarla yunanlar arasında toqquşma baş verdi ki, bu zaman hər iki tərəf kilsə lomları və başqa əşyalardan bir-birinə qarşı silah kimi istifadə etmişdir. Oxşar toqquşma Xaskov və Bazarcıqda da baş vermişdi. Mərkəzi hökumətin tövsiyəsilə 1858-ci ilin sonlarında toplanan patriarxlığın məclisi uzun müzakirələrdən sonra 1860-cı ilin fevralın bolqarların hətta mötədil istəklərini belə rədd etmişdir.

Münaqişənin daha da kəskinləşməsi Bolqarıstan əhalisi arasında patriarxlıqdan əlaqənin tamamilə kəsilməsi fikrinin bərqərar olmasına səbəb oldu. Bu mübarizədə İ.Seliminski, P.Slaveykov kimi maarifçilər, Q.Rakovski və d. inqilabçılar fəal iştirak edirdilər. Yeni mərhələdə hərəkatın lideri N.Bozvelinin silahdaşı İlarion Makariopolski idi. Bacarıqlı bir

taktik olan İlarion Portonun şübhələrini oyatmadan patriarxlıqdan ayrılmaq qərarına gəldi. 1860-cı il aprelin 3-də Konstantinopoldakı Bolqar kilsəsində Pasxa mərasimini yerinə yetirərkən patriarxın adını çəkməyərək ibadət ayininin sonunda Sultanın şərəfinə təqdirəlayiq bir dua oxudu. Ertəsi gün kilsələrdə Sultanın şərəfinə dualar oxundu. Patriarxlıqdan qopma xəbəri bolqar əhalisi arasında sevinclə qarşılandı və tezliklə bütün Bolqarıstana yayıldı.

Yerlərdə kilsələrdə insanlar ibadət zamanı keşişləri Bolqar kilsəsinin başçısı kimi İlarion Makariopolskinin adını çəkməyə məcbur edirdilər. Buna müqavimət göstərən yunan keşişlər qovulurdu. Bolqar icmaları Sultana ərizələr göndərərək İ.Makariopolskini müstəqil Bolqar kilsəsinin başçısı kimi tanımağı xahiş edirdilər. Yalnız Bolqar kilsəsinin ayrılma təşəbbüsü hökumət tərəfindən tanınmaqdan çox uzaq idi. Buna patriarxlığın bolqarlara güzəştə getməməsi, Porto hökumətinin qeyri-müəyyən mövqeyi və böyük dövlətlərin siyasəti mane olurdu. Müstəqil kilsə uğrunda hərəkatın Osmanlı hakimiyyətinə qarşı olmadığına əmin olan Porto bolqarlarla yunanlar arasında düşmənçiliyi dərinləşdirmək yoluna qədəm qoyaraq zahirən məsələyə sakitliklə cavab verdi. Münaqişəni uzadaraq hakimiyyət bolqarların diqqətini siyasi mübarizədən yayındırmağa və öz mövqeyini gücləndirməyə ümid edirdi.

Qərb ölkələrinin diplomatları münaqişədən bolqarları Şərqi Provoslav kilsəsindən qopararaq Rusiyanın Balkanlarda mövqeyini zəiflətmək üçün istifadə etməyə çalışırdı.

Katolik kilsəsinin təsirini hərtərəfli gücləndirən Paris və Vyana Bolqarıstanda katolik missionerlərin fəaliyyətini dəstəkləyərək fransız və avstriyalı katoliklərin vəsaiti hesabına məktəblər açırdı ki, burada da tədris katolik keşişlər tərəfindən aparılırdı.

Sultan və patriarxlıq tərəfindən müstəqil bolqar kilsəsinin takınmaması şəraitində bolqar əhalisinin bəzi nümayəndələri arasında Vatikan tərəfindən fəal sürətdə dəstəklənən katolik kilsəsilə birləşmə (“birlik”) hərəkatı yarandı. Hərəkata radikal fəaliyyətə meyilli Draqan Tsankov rəhbərlik edirdi. O, 1859-cu ildə katolok ordeni “lazarçıların” (“лазаристов”) vəsaiti hesabına “Bolqarıstan” qəzetini nəşr edərək müstəqil kilsənin yaradılmasına dair vətənpərvər çağırışları Bolqar kilsəsinin muxtariyyət şərtilə Vatikanla “uniya” yəni birlik təbliğ etməyə başladı. Beləliklə, Konstantinopolda və bəzi digər şəhərlərdə Katolik kilsəsilə müqavilə bağlayan bolqar “birliyi” icmaları meydana gəldi. Vatikan onların bolqar dilində ibadət etmək hüququ da daxil olmaqla muxtariyyətlərini tanıyaraq katolikliyin sırasına qəbul etdi. Birlik icması, onun rəhbərləri arxiyepiskoplar bolqarların dini birliyinə qarşı olan Porto hakimiyyəti tərəfindən dərhal tanındı. Patriarxlıqdan ayrılan provoslav bolqar mitropolitləri hakimiyyət tərəfindən həbsə atılırdı. Eyni zamanda xalqın böyük əksəriyyəti hökumətin müstəqil bolqar provoslav kilsəsini tanımaq istəməməsindən məyus olsa da, hələ də birliyi dəstəkləmirdilər. Anqlikan kilsəsinin missionerlərinin fəaliyyətini həvəsləndirən ingilis diplomatiyasının siyasəti Sankt-Peter-

burqun mövqeyini zəiflədərək Osmanlı imperiyasının bütövlüyünü qorumağa yönəlmişdir. Londonda bolqarları Rusiyanın təsirindən qoparmaq üçün bolqar kilsəsindəki istənilən parçalanmasının baş verməsinin dəstəkləməyə hazır idilər.

Digər böyük dövlətlərin paytaxtlarında olduğu kimi Sankt-Peterburqda da dini amilin əhəmiyyətini bir qədər yüksək qiymətləndirərək hakim dairələr, xüsusən də Sinod Rusiyanın Balkanlarda təsirinin təminatının patriarxlığın başçılıq etdiyi pravoslav kilsəsinin tərəfdarları olan Balkan əhalisinin əksəriyyətinin birliyi olduğuna inanırdılar. Bundan çıxış edərək, muxtar kilsə uğrunda Bolqar hərəkatının ilk mərhələsində rus mötədilləri bu məsələyə təmkinlə yanaşaraq bəzən kilsədəki parçalanmaya qarşı mübarizə bayrağı altında çıxış edən patriarxatı dəstəkləməyə meyl edirdilər. Konstantinopol yerarxları rus diplomatlarını inandırırdı ki, bolqarların muxtariyyət tələbləri guya Rusiyanın düşmənlərinin oyunlarıdır. Porto və Qərbi Avropa dövlətlərinin nümayəndələrinə isə patriarxlığın rəhbərliyi bolqar kilsə hərəkatını Rusiyanın oyunları kimi qələmə verdilər. Balkanlarda kəskinləşən ziddiyyətlər şəraitində patriarxlıq bir müddət manevr edə bildi. Böyük dövlətlərin rəqabəti müstəqil kilsə uğrunda bolqar hərəkatında da öz əksini tapdı, beləki müxtəlif qruplaşmalar meydana çıxdı, onlar da ilk bolqar siyasi cərəyanlarını təmsil edirdi. Qeyd edildiyi kimi Vatikan və Qərb dövlətlərinin köməyi ilə muxtar Bolqar kilsəsinin yaradılması ideyasının tərəfdarları D.Tsankovun başçılığı ilə kiçik "Birlik" qrupu təşkil etsə də sonradan Tsankov istiqaməti dəyişərək Peter-

burqu hədəf almışdır. Rusiya siyasətinə yönəlmiş mötədil hərəkatın və patriarxlıqla kompromisin tərəfdarlarına rəhbərlik edən A.Ekzarx, T.Burmov və b. qrupu daha nüfuzlu qanad təşkil edirdilər. S.Çomakovun başçılıq etdiyi qrup isə kilsənin müstəqilliyinə Portonun xoşməramlılığına arxalanaraq qanuni yola nail olmağı məqsədəuyğun hesab edirdilər. Tədricən, müstəqil Bolqar kilsəsi yaratmaq uğrunda əməli fəaliyyətin tərəfdarları getdikcə daha çox nüfuz qazandı ki, ona da P.Slaveykov və İ.Makariopolski rəhbərlik edirdi.

Bolqarların kilsə probleminin uzanmasından meydana çıxan kütləvi narazılıq ona səbəb oldu ki, rus diplomatları arasında bolqarların dini maraqlarını təmin etmək zərurəti anlayışı getdikcə gücləndi. Eyni zamanda, Sankt-Peterburqun rəhbər şəxsləri hələ də belə hesab edirdilər ki, bolqarların dini istəklərinə pravoslav kilsəsinin dini birliyinə xələl gətirmədən, patriarxlıq ilə kompromis yolu ilə nail olmaq vacibdir. Əsasən ziddiyyətli olan bu xəttin ən fəal tərəfdarları 1864-cü ildə Rusiyanın Konstantinopolda səfiri olmuş general N.P.İqnatyev idi.

1860-cı illərin birinci yarısında bolqarların və patriarxlığın nümayəndələri arasında müxtəlif səviyyələrdə uzun sürən və nəticəsiz danışıqlar davam edirdi. Bu zaman kəsiyində Bolqarıstan bölgələrinin böyük əksəriyyətində yunan keşişləri yerli sakinlər tərəfindən dəyişdirilərək patriarxlığın nüfuzuna ağır zərbə vurulmuşdur. Buna baxmayaraq, Patriarxlıq və Porto Bolqar kilsəsinin müstəqilliyini tanınmağı gecikdirirdi.

1860-cı illərin sonlarında Sultanın Balkan mülklərində azadlıq hərəkatının artması, 1866–1869-cu illərdəki Krit üsyanı, Balkan silsiləsi rayonlarında bolqar çətələrinin (partizan dəstələri) fəallaşması, 1866-cı il çevrilişindən sonra Rumıniya hökumətinin balkan siyasətinin canlanması nəticəsində Serbiya, Yunanıstan və Çernoqoriya Portonu qərar verməyə məcbur etdi. N.P.İqnatyevin tövsiyəsilə 1870-ci ilin fevralında müstəqil Bolqar kilsəsinin yaradılması haqqında fərman imzalandı. Kilsənin başçısı ekzarx titulunu alır, o, ən yüksək bolqar kilsə rəhbərləri tərəfindən seçilərək patriarx və Sultan tərəfindən təsdiq edilirdi. Lakin patriarxlıq ekzarxatı tanımaqdan qəti şəkildə imtina edərək 1872-ci ildə kilsə məclisində bolqarları - "təfriqəçi" elan edərək kilsədən xaric etdi. Bu qərarı rus kilsəsi təsdiq etmədi, yalnız 1945-ci ildə Konstantinopol patriarxlığı onu ləğv etmişdir.

Bolqar ekzarxlığının yaradılması yeni formalaşmaqda olan bolqar xalqının qələbəsi olub, bolqarların xüsusi etnik-mədəni birlik kimi hakimiyyət tərəfindən rəsmi tanınması demək idi. Xalq hərəkatının gedişində müstəqil kilsə mənəvi, milli-mədəni müstəqilliyin və milli birliyin simvoluna çevrildi.

Krım müharibəsi bolqar milli hərəkatının tarixində keyfiyyətcə yeni mərhələyə keçid olmuşdur. Bu mərhələnin əsas məzmunu siyasi cəhətdən formalaşmış inqilabi qanadın getdikcə artan təsiri, onun fəal ideoloji, siyasi və təşkilati fəaliyyəti idi. Azadlıq mübarizəsinin əsas formaları – milli maarifçilik hərəkatı və müstəqil kilsə mübarizəsi, silahlı

üsyanlar 1850–1870-ci illərdə daha geniş miqyas almışdır. Bolqarların azad olunması məsələsi həlli tələb olunan bolqar milli problemi kimi açıq şəkildə önə çıxmışdır. Mübarizə formalarının nisbəti də dəyişərək silahlı qiyam məqsədilə ideoloji və siyasi hazırlıqlar ön plana çıxdı. Artan milli-azadlıq hərəkatında müxtəlif mübarizə formalarının eyni vaxtda inkişafı o demək deyildir ki, onun iştirakçıları arasında ideoloji və siyasi birlik əldə edilmişdir. Osmanlı feodal-bürokratik quruluşunun böhranı zamanı baş verən sosial və sinfi dəyişikliklər, bolqar cəmiyyətində burjua münasibətlərinin inkişafı milli hərəkatda ideoloji-siyasi qruplaşma prosesinin güclənməsinə səbəb oldu. Milli maarifçilik uğrunda mübarizənin siyasi istiqaməti, kilsənin rolu, bolqarların silahlı üsyanın təşkili kimi məsələlərə münasibət iştirakçılar arasında azadlıq məqsədilə bu və ya digər cərəyan və ya qrupa mənsubluğunun göstəricisi kimi çıxış edirdi.

Müstəqillik uğrunda mübarizənin beynəlxalq istiqamətləri, xüsusən də Balkanlardakı başqa milli hərəkatlarla qarşılıqlı əlaqə məsələləri, Osmanlı İmperiyası knyazlıqları Serbiya və Rumıniyanın vassal siyasəti, böyük dövlətlərin, ilk növbədə Rusiyanın bolqar xalqının Osmanlı asılılığına qarşı qurtuluş mübarizəsi zamanı rolu bolqar milli hərəkatında mövqelərin fərqləndirilməsi və uyğunlaşdırılması prosesini xeyli çətinləşdirdi.

Hətta Krım müharibəsi zamanı, bolqarların Rusiyanın köməyilə tezliklə azad olunacağına ümidləri artdıqda, Konstantinopolda Bolqarıstanın bir sıra şəhərlərində qrupları olan

"Gizli cəmiyyət", Dunay knyazlıqlarında bolqar mühacirlərini birləşdirən Buxarest komitəsi, Odessa bolqar monastır başçılığı yaradıldı. Bütün bu təşkilatların iştirakçıları bolqarların ölkənin azad edilməsinə can atmaq məqsədini ifadə edirdilər. Eyni zamanda, onların liderlərinin taktiki planları əhəmiyyətli dərəcədə fərqlənirdi. Buxarest komitəsi və Odessa bolqar monastır başçılığında əsasən varlı tacirlər rəhbərlik edirdilər. Onlar rus hərbi komandanlığı qarşısında bolqarların milli maraqlarını təmsil etmək hüququ uğrunda öz aralarında yarışaraq, rus ordusunun tərkibində bolqar könüllülərindən ibarət xüsusi dəstələrin təşkilini təşviq edirdilər. "Gizli cəmiyyət" Rusiya kəşfiyyatına kömək etməyə çalışırdı, eyni zamanda bolqar torpaqlarında üsyan hazırlamağa da cəhd etmişdir. Osmanlı imperiyasındakı bolqar burjuaziyasının liberal təbəqələrinin mövqeyi əhəmiyyətli dərəcədə fərqləndirirdi ki, onlar müharibənin əvvəlində Rusiyaya ünvanlanmış bolqar kilsəsinin müstəqilliyi, milli məktəblərin təşkili tələblərini əks etdirən, həmçinin bolqarlara başqa xalqların malik olduğu hüquqların verilməsi məsələsi kimi dağınıq petisiyaların tərtib edilməsilə məhdudlaşırdı.

Adı çəkilən bolqar təşkilatlarının fəallığı daimi deyildi. Bu, daha çox Balkan əməliyyat cəbhəsində rus ordusunun uğur və məğlubiyyətlərindən asılı idi. Müharibənin gedişində baş verən arzuolunmaz dəyişikliklər, bolqar sui-qəsdçilərinin bir sıra rəhbərlərinin Osmanlı hakimiyyəti tərəfindən həbs edilməsi nəzərdə tutulmuş planın həyata keçirilməsinə mane oldu. Buna baxmayaraq, bolqar milli hərəkatında yeni bir

istiqamət, geniş silahlı təşkilat şəbəkəsi yaratmaq məqsədi və müstəqilliyə nail olmağın əsas vasitəsi kimi silahlı mübarizə metodu önə çıxdı.

Milli-azadlıq mübarizəsinin təşkili səviyyəsinin artması, inqilab yolunun ideoloji cəhətdən əsaslandırılması və təbliği Georgi Rakovskinin (1821–1867) adı ilə sıx bağlıdır. O, tanınmış tacir ailəsindən olub, görkəmli pedaqoq Rayno Popoviçdən dərs almış, sonra Konstantinopoldakı yunan məktəbində və Afina Universitetinin gimnaziyasında təhsil almışdır. Krım müharibəsindən əvvəl G.Rakovski Bolqarıstan azadlıq hərəkatının kilsənin müstəqilliyi uğrunda mübarizə, sui-qəsd və üsyanların təşkilində iştirak kimi formalarında təcrübə qazanmışdır. Krım müharibəsi illərində Bolqar "Gizli cəmiyyəti"ni yaradanlardan biri olan G.Rakovski ilk olaraq bolqar xalqının siyasi azadlıq mübarizəsini milli miqyasda təşkil etmək məqsədilə fəaliyyətə başlayır.

Həbslər və zindanlar, qaçışlar və məşəqqətlər onun xarakterini sərtləşdirir, vətənpərvər bolqar tacirləri və ziyalıları ilə, Balkanlarda yunan, serb və d. milli hərəkatların xadimlərilə geniş əlaqələri, təhsili və hərtərəfli dünyagörüşü G.Rakovskinin Bolqarıstanda inqilabi mübarizənin təşkilatçısı və aparıcı ideoloqu roluna yüksəlməsinə səbəb olmuşdur. Onun 1857-ci ildə qələmə aldığı "Meşə yoluçusu" poeması böyük təbliğat əhəmiyyəti kəsb edirdi. Bu şeirdə Bolqarıstan azadlıq hərəkatının ibrət dərsləri ümumiləşdirilir və milli silahlı qüvvələrin yaradılmasına çağırılırdı. G.Rakovskinin öz xalqının gücünə inamı onun tarixi, filoloji və etnoqrafik nəşrlərində

də aydın əksini tapmışdır. O, azadlığa aparan yolu qısa və aydın şəkildə müəyyənləşdirmişdir: “çap edilmiş söz və qılınc”la mübarizə.

G.Rakovskinin xidmətlərindən biri də silahlı üsyanların hazırlanmasında inqilabi təbliğatla təşkilati işin birləşdirilməsi olmuşdur. O, hakimiyyətin təqiblərindən gizlənmək məcburiyyətində qalaraq tez-tez yaşayış yerini dəyişir, bolqar inqilabi qəzetinin nəşrini təşkil etmək üçün hər yerdə böyük səy göstərirdi. Avstriyada, Serbiyada, Rusiyada, Rumıniyada qısa dayanacaqlar zamanı G.Rakovski ölkə daxilindəki bolqar vətənpərvərlərlə, mühacirətdə olanlarla əlaqələr saxlamağa çalışaraq, “Bolqar gündəlikləri”, “Dunay qu quşu”, “Gələcək”, “Davaçı”, “Bolqar uzaq keçmişi” və b. çap orqanlarının buraxılmasını təmin edirdi. Bu nəşrlərin Balkanlardakı çoxsaylı müxbirləri ilə geniş əlaqələrindən istifadə edən G.Rakovski bolqar milli hərəkatının bütün aktual mövzularında çıxış edirdi. Onun 1857-ci ildə Novi Sadda, 1860–1861-ci illərdə Belqradda nəşr olunan “Dunay qu quşu” qəzetinin səhifələrində silahlı mübarizənin təbliği xüsusilə uğurlu olmuşdur. Ümummilli əhəmiyyət kəsb edən bu nəşr tribunası G.Rakovskinin elan etdiyi Porto  hakimiyyətinə qarşı açıq silahlı mübarizə ideyasından ilhamlanan inqilabi düşüncəli gənclərin səfərbər olmasına təkan vermişdir.

XIX əsrin 50-ci illərinin sonu – 60-cı illərin əvvəllərində Bolqar kilsəsinin yunan kilsəsindən ayrılması ilə bağlı hadisələrin ön plana çıxması milli-kilsə probleminə qeyri-adi geniş əks-səda verdi, geniş kütlələri siyasi mübarizəyə cəlb

edərək hərəkatın burjua demokratikləşməsi mahiyyətinə öz töhfəsini verdi. Konstantinopol patriarxlığı ilə əlaqənin tam kəsilməsini müdafiə edən və katolik kilsəsi ilə ittifaq yaratmaq ideyasının əleyhinə olan G.Rakovski bolqar torpaqlarında həmin illərdə Osmanlı hakimiyyətinə qarşı silahlı üsyanın hazırlanmasına yönəlmiş fəal ideoloji və hərbi təşkilati fəaliyyətə başlamışdı. Tarixi keçmişə müraciət edən G.Rakovski hesab edirdi ki, Osmanlı dövləti Bolqarıstan torpaqlarını fəth etdikdən sonra yalnız yadellilərə qarşı silahlı mübarizəni dayandırmayan Qayduk çətələri "bizim siyasi həyatın simvolu olub və olaraq qalır". Onun siyasi baxışlarının formalaşmasına Bolqar torpaqlarında Osmanlı hakimiyyətinin idarəetmə sisteminin tənqidi şərait yaratmışdır. O, milli-kilsə hərəkatının liberal düşüncəli liderlərindən fərqli olaraq bolqar xalqının siyasi hüquqsuzluğunu qeyd edərək ölkənin iqtisadi geriliyini aradan qaldırmaq məqsədilə Osmanlı hökumətinin apardığı islahatların yararsızlığını müəyyən edən yolların əhəmiyyətsizliyini açıq şəkildə dilə gətirmişdi. G.Rakovski türk bürokratiyası, yunan-fanarçı din xadimləri və bolqar çorbadjiyelər (varlı kəndlilər) arasında əməkdaşlığın mürtəce mahiyyətini də ortaya qoydu. Şüar və tərtibatın özünəməxsusluğuna baxmayaraq G.Rakovskinin əsas məqsədi tam aydın olaraq Bolqarıstanın hərtərəfli siyasi müstəqilliyindən ibarət idi. Şübhəsiz bu vəzifə bolqar milli hərəkatının siyasi inkişafında əhəmiyyətli irəliləyiş demək idi. O inqilabi fəaliyyətinin əvvəlindən silahlı üsyanı müstəqillik uğrunda mübarizənin əsas vasitəsi hesab edirdi. G.Rakovski əsas rolu çətələrə

ayırmışdı ki, onların da vəzifəsi bir-birindən ayrı olan qüvvələri birləşdirərək, kütlələri inqilaba cəlb etmək idi. O, öz fikirlərini ən açıq şəkildə 1861-ci ilin sonunda "Bolqarıstanın azad edilməsi planı"nda ifadə etmişdir. "Xalqın ruhunun hər yerdə Türkiyəyə qarşı üsyana hazır olduğunu" və təbliğat işlərinin ən böyük şəhərlərdə davam edəcəyini əsas götürərək, G.Rakovski Serbiya Knyazlığının ərazisindən 100 atlı və 100 artilleriyaçı da daxil olmaqla 1200 nəfərlik yaxşı silahlanmış bir alayın köçürülməsini nəzərdə tuturdu. Bu alayın Stara-Planina boyunca Qara dənizə kimi yürüşü dağ kəndlərinin əhalisini silsilənin hər iki tərəfində üsyana qaldırılmalı idi ki, G.Rakovskinin fikrincə bunun nəticəsində üsyançıların sayı artaraq, 500 min nəfərə yüksələ bilərdi. Onun planına görə azad edilmiş rayonlarda hakimiyyət Müvəqqəti Bolqar "rəisliyinə" (hökumətinə) keçəcəkdi.

G.Rakovskinin planının zəif nöqtəsi yerlərdə çıxışların təşkilinə kifayət qədər diqqət yetirilməməsi idi. Çətə taktikasının ideallaşdırılması, qonşu dövlətlərin ərazisindən dəstələrin göndərilməsi, bu tədbirin kiçik knyazlıqların Sultanın vassal siyasəti ilə əlaqələndirilməsi zərurəti və s. üsyan planının reallığını şübhə altına alırdı. Buna baxmayaraq, 1860-cı illərin əvvəllərində onun həyata keçirilməsi istiqamətində müəyyən addımlar atıldı. 1861-ci ilin yazında G.Rakovski Belqradda "Birinci Bolqar legionu" adlanan və sayları təqribən 600 nəfər olan xüsusi silahlı birləşmə yaratmağa başladı ki, onun da tətkibində tanınmış Qayduk dəstə başçıları Xristo Makedonski, İvan Kulin, Ded İlyu və b., həmçinin Bolqarıstan

və qonşu ölkələrdən gəlmiş və sonradan bolqar azadlıq hərəkatında əhəmiyyətli rol oynamış Vasil Levski, Stefan Karaca, İvan Kasabov, Vasil Drumev kimi Rakovskinin gənc tərəfdarları daxil idi.

İlk bolqar legionu 1862-ci ilin iyununda imperiyanın Serbiya ilə münaqişə zamanı Belqraddakı türk qalasının qarnizonu ilə döyüşdə birinci sınaq verdi ki, əsas serb şəhərlərində də Osmanlı imperiyasının dayaq məntəqələri mövcud idi. Osmanlı imperiyası ilə Serbiya knyazlığı arasında tezliklə müharibənin başlanmasını nəzərdə tutan G.Rakovski bolqar xalqına alovlu müraciət edərək qocadan kiçiyinə kimi hamını "əziz azadlığımız və müstəqilliyimiz uğrunda silaha sarılmağa çağırdı. Müraciətdə deyilirdi: "Azadlığımız yalnız bizdən asılıdır! Qoy müqəddəs sözlər – "azadlıq, ya ölüm!" – hər kəsin ürəyinə dərindən hopsun və hər bir kəs hazır olsun... yenilməz Bolqar aslanının bayrağı altında döyüş meydanına çıxmağa!"

Osmanlı-Serb münaqişəsinin böyük dövlətlərin vasitəçiliyilə diplomatiya vasitəsilə həlli xarici siyasət sahəsində vəziyyətin dəyişməsinə səbəb oldu. Bolqarıstan legionu dağıldı. Bolqarıstanın bir sıra şəhərlərində üsyana hazırlıqla bağlı silahlı dəstələr yaradıldı. Lakin onların hərəkətlərinin əlaqələndirilməsi qeyri-qənaətbəxş səviyyəsində idi, silahların sayının azlığı və keyfiyyətcə yetərsizliyi uğur qazanmağa ümid vermirdi. Fəallığı ilə fərqlənən Tırnovo dəstəsi 1862-ci ilin iyununda dağlara çıxdı, lakin Qabrovo dəstəsi və böyük Balkan kəndlərinin dəstələrilə birləşə bilmədilər. Çıxış etməyə

hazırlıqla bağlı məlumatı olan Osmanlı rəsmiləri təcili tədbirlər gördü. Bunun ardınca çoxsaylı həbslər baş verdi. Tırnovo dəstəsi dağıldı. Serbiyaya serb-türk münaqişəsinin sülh yolu ilə həlli vasitəsilə əlaqəli gələn xəbərlər Rakovski tərəfdarlarının yerlərdəki fəallığını ləngitdi. Balkan dağlarında olan və yerli üsyançıları səfərbər edə bilməyən, eyni zamanda Rakovskidən əməliyyat məlumatı almaq imkanı olmayan Panayot Xitovun çətələri çətin vəziyyətlə üzləşdi. Böyük çətinliklə türk cəza dəstəsinin təqiblərindən gizlənən P.Xitovun çətələri Serb torpaqlarına getdi.

1862-ci ilin uğursuzluqları G.Rakovskini və onun tərəfdarlarını ruhdan salmadı. Beynəlxalq vəziyyətin dəyişməsinə baxmayaraq, silahlı dəstələrin formalaşması davam etdi, yürüşlərə hazırlanan fəal əməliyyatların tərəfdarlarının sayı artdı. 1864-cü ildə P.Xitovun kiçik bir çətəsi Serbiyadan, Stoyan-Voevoda və Hacı Dimitrinin dəstələri Rumıniyadan Bolqarıstana yönəldi. Bu kiçik dəstələr gələcək çıxışlara hazırlaşmağı qarşılarına ən yaxın vəzifə qoydular. G.Rakovski Serbiya, Çernoqoriya və Yunanıstanla birgə fəaliyyət göstərmək məqsədilə bağlı apardığı danışıqlardan nəticə əldə etmədikdən sonra Rumıniyada jurnalist fəaliyyətini davam etdirərək zəngin bolqar tacirlərinin köməyilə Buxarestdə hərbi təşkilati iş aparırdı.

1860-cı illərin ortalarından bolqar gəncliyinin əsasən yoxsul təbəqəsinin nümayəndələri hansı ki, haydut dəstələrində döyüş təcrübəsi qazanmış və yaxud Osmanlı hakimiyyəti tərəfindən təqibə məruz qalmışdı, Buxarestdə, Rumıniyanın

başqa şəhərlərində cəmləşməyə başladılar. Bütün bunlar Rumıniyada çoxlu bolqar köçkün kütləsinin əmələ gəlməsi ilə yanaşı, bu yerlərdə bolqar fəaliyyətinin fəallaşmasi üçün əlverişli şərait yaratmışdır. Müasirlərinin məlumatına əsasən, 1860-cı illərdə Rumıniyada 200-600 min arasında bolqarlar yaşayırdı. Bolqar Buxarest Komitəsi rəsmi olaraq 1862-ci ildə xeyriyyəçilik fəaliyyətilə məşğul olan Səxavətli dəstəyə çevrildi. Bu təşkilatlar ətrafında birləşmiş bolqar mühacir tacir burjuaziyası milli hərəkatda inqilabi qanadın meydana çıxması ilə onunla hesablaşmaq məcburiyyətində qaldı.

1860-cı illərin ikinci yarısında milli azadlıq uğrunda hərəkatda idealoji təsir və liderlik uğrunda gedən mübarizədə bolqar mühacirləri arasında ictimai və siyasi qüvvələrin əhəmiyyətli dərəcədə yenidən qruplaşması baş verdi. Bu, ilk növbədə iki "köhnə" və "gənc" cərəyanların yaranmasında özünü göstərdi. Birincilər Səxavətli dostlar ətrafında birləşərək silahlı üsyana hazırlıqdan imtina etməklə öz hərəkətlərində Rusiya diplomatiyası ilə əlaqələni nəzərdə tutan taktikaya sadiq qaldılar. Bu, mühafizəkarlar arasında "köhnələr"in nüfuzunun möhkəmlənməsinə səbəb oldu, baxmayaraq ki, onlar Bolqarıstan torpaqlarında Osmanlı hakimiyyəti sisteminin "mühafizəsi" fikrindən uzaq idilər. "Gənclərin" sosial bazası fəhlələrdən tutmuş G.Rakovski tərəfindən işlənib hazırlanmış və mühacirlərin bütün vətənpərvər qüvvələrinin birləşməsini təmin edən milli inqilab ideyası ilə siyasi cəhətdən birləşmiş orta burjuaziyanın nümayəndələrini əhatə edən qüvvələrindən ibarət olaraq daha geniş idi.

G.Rakovskinin Rumıniyada tərəfdarları tərəfindən geniş yayılan “Gələcək” qəzeti “gənc” qrupun təşkilati özəyinin yaradılmasına zəmin hazırladı. G.Rakovskinin özü proqram sənədini –”1867-ci il üçün xalq meşə çətələri haqqında müvəqqəti qanun” hazırladı ki, bu da milli hərəkatın suveren orqanı kimi “Ali Xalq bolqar gizli mülki hakimiyyətinin” və silahlı qüvvələrin həmahəng sisteminin yaradılmasını nəzərdə tuturdu. Lakin həmin 1867-ci ildə G.Rakovski vərəmdən vəfat etdi.

Geniş dairələrin istəklərini əks etdirən “gənc” hərəkatın ideoloji və siyasi təsirinin artması, Rumıniya-Türkiyə münasibətlərindəki xoşməramlı vəziyyətin bolqar mühacirlərinin vəziyyətinə müsbət təsiri 1866–1869-cu illərdə “gənclər” arasında mühüm təşkilati və siyasi dəyişikliklərə səbəb oldu. Osmanlı təcavüzünə qarşı bolqar mühacirlərilə birgə müqavimət təşkil etməkdə maraqlı olan rumın hakimiyyətinin xeyirduası şəraitində bir neçə il boyu xüsusi fəallıq göstərən Gizli mərkəzi bolqar komitəsi (GMBK) 1866-cı ilin mayında təşkil edilmişdir. Lakin Türkiyə-Rumıniya münasibətlərinin tədricən nizamlanması ilə GMBK müstəqil fəaliyyətini davam etdirdi və müqavilənin hazırlanmış mətnində nəzərdə tutulmuş “rumınlar və bolqarlar arasında müqəddəs koalisiya” heç vaxt imzalanmadı. GMBK təşkilatçıları İ.Kasabov, İ.Qrudov və d. ilə Q.Rakovski arasındakı şəxsi antipatiya ilə yanaşı, getdikcə daha da dərinləşən ideoloji və siyasi ziddiyyətlər mövcud idi. Bolqar və rumın, italyan və s. cərəyanların təşkilati və siyasi inqilabi və liberal ideyalarından geniş istifadə

edən GMBK bolqar azadlıq hərəkatının inkişafında və "gənc" hərəkatın təşkilində ikili rol oynamışdır. Komitə bir tərəfdən bolqar milli məsələsi ətrafında səs-küylü təbliğat aparır, Osmanlı İmperiyasında inqilabi düşüncəli bolqar gənclərin fəallaşmasına töhfə verirdi. Digər tərəfdən, GMBK-nin Avstriya-Macarıstan nümunəsində proqnozlaşdırılan Türk-Bolqar dövləti layihəsi çərçivəsində bolqar torpaqlarının muxtariyyəti tələbi sosial cəhətdən fərqlənən "gənclərin" cərəyanında burjua-liberal istiqamətin güclənməsinə dəlalət edirdi.

Təcrübədə, mason ritualından nümunə götürərək öz üzvlüyünə qəbulun qaydasına, italyan karbonarilərin təcrübəsi əsasında nizamnamə ilə təsdiq edilmiş gizlilik və iyerarxik quruluşa baxmayaraq GMBK ciddi nizam-intizamı və dəqiq hərəkat proqramı olan mərkəzləşmiş bir təşkilat deyildir. 1866–1867-ci illərdə təşkil edilmiş bolqar komitələri yerlərdə Buxarestdəki Mərkəzi komitədən real kömək ala bilmir, onunla öz aralarında davamlı əlaqə yox idi.

Buna baxmayaraq, GMBK-nın yarandığı vaxtdan bolqar komitələrinin gücünə dair miflər yaranmağa başladı, komitələrin üzvlərinin yerinə bəzən Osmanlı hakimiyyətindən narazı olan bolqarları ifadə edən "komitələr" termini geniş istifadə olunmağa başladı. 1866-cı ilin sonu –1867-ci ilin əvvəlində GMBK formaca parlaq, lakin məzmunca qeyri-müəyyən bir sıra sənədlər dərc etdiki, bunlardan da Sultan və d. yönəldilmiş "Bolqarıstan Avropa qarşısında", "Memorandum"u göstərmək olar. Bu sənədlərdə əks edilən GMBK-nın "türk-bolqar" dualizmdən ibarət ideyasını əhatə edən siyasi proq-

ramından ibarət olsa da sənədlərdəki bolqarların Osmanlı asılılığındakı ağır vəziyyəti, bolqar milli məsələsinin həllinin aktuallığının təbliği komitənin Avropa ictimaiyyəti və Avropa dövlətlərinin diplomatları arasında geniş şəkildə tanınmasına səbəb olmuşdur. Bolqar cəmiyyətinin özündə isə qəribə olsa da Sultan hökumətilə kompromisin qəti əleyhdarı olan G.Rakovskinin GMBK-ya rəhbərlik etdiyi fikir yayılmışdır.

1867-ci ilin yazında Rumıniyada və Serbiyada, eləcə də Bolqarıstanın özündə yaradılmış bir sıra bolqar komitələri güman edilən Serb-Türkiyə müharibəsi ərəfəsində üsyana hazırlaşırdılar. Əvvəllər olduğu kimi, G.Rakovskinin irəli sürdüyü çətə taktikasına riayət etmək qərara alındı. Yeni qurulan çətələrə maddi yardım, o zamanlar "köhnə" komitə tərəfindən dəstəklənən Səxavətli dəstə tərəfindən təmin edildi. Bu təşkilat Krım müharibəsində məğlubiyyətdən sonra Balkanlarda öz fəaliyyətini tədricən yenidən artıran Rusiya diplomatlarına istiqamətlənmişdir. Səxavətli dəstə keçmiş nüfuzunu tamamilə itirmək təhlükəsi altınd milli hərəkatda hazırlanması nəzərdə tutulan hadisələrdən kənarda qala bilməzdi. Bundan əlavə, 1867-ci ilin aprelində Səxavətli dəstə rus diplomatiyasının köməyilə Serbiyanın siyasi xadimlərilə sıx əlaqə saxlayaraq, "Serb-bolqarlar (bolqar-serblər) arasında siyasi münasibətlərdən və ya onların səmimi qarşılıqlı münasibətləri proqramı"nı hazırladılar. Bu sənəd Serb knyazı tərəfindən imzalanmasa da, onun siyasi məqsədi "Bolqar-Türkiyə dualizmi" ideyasına kəskin şəkildə qarşı idi. Bolqar burjuaziyasının bu proqramda serb Obrenoviç sülaləsinin

hakimiyyəti altında Bolqarıstan-Serbiya və ya Serb-Bolqarıstan federativ cənubslavyan dövlətinin yaradılmasını nəzərdə tuturdu. Layihənin həyata keçirilməsi əvvəlcədən Serbiya knyazlığının anti-Osmanlı kursunu davam etdirməkdə qətiyyətli olması və formalaşmaqda olan Balkan ittifaqında Habusburq imperiyası təsirinin artmasına qarşı Rusiya diplomatiyasının dəstəyinin artması kimi beynəlxalq şərtlərdən asılı idi. Buna baxmayaraq, Bolqar-Serb proqramının əsas məzmunu bolqar torpaqlarında Osmanlı hakimiyyətinin devrilməsi idi.

Bolqar çətələrinin silahlı mübarizəsinin təşkil edilməsinə münasibət "qocalar" və "gənclər" arasında fərqli idi. Səxavətli dəstənin liderləri X.Georgiyev və d. hərəkatın miqyasını genişləndirməkdə və öz kapitallarını bu məqsəd naminə sərf etməkdə maraqlı deyildilər. Osmanlı imperiyasına qarşı Serbiyanın, xüsusilə Rusiyanın qətiyyətli çıxışına ümid bəsləyən "qocalar" kiçik təbliğatı ilə bolqar hərəkatında liderliyini qoruyub saxlamaqla milli məsələnin beynəlxalq diplomatik yolla həllini ümid edirdilər. Buna uyğun olaraq "qocalar" sağalmaz xəstə olan G.Rakovskini təcrid edərək, çətə hərəkatını istədikləri çərçivəyə uyğun məhdudlaşdıraraq, eyni zamanda Bolqarıstanın balkanlararası siyasi münasibətlərdə mühüm rolunu təmin etmək istəyirdilər.

"Gənclərin" düşərgəsində nə birlik, nə də fəaliyyətin təşkili var idi. GMBK Buxarestdə bitərəf mövqe tutaraq silahlı çətələrin yaradılmasına nə mane oldu, nə də töhfə vermədi, çünki komitənin bir sıra üzvləri onların təşkilini vaxtsız hesab edirdilər. Bununla belə, "gənclərin" əksəriyyəti 1867-ci ilin

yazı və yayındakı ümumi üsyana hazırlaşmağın tərəfdarı idilər. Yunanların 1866-cı ildə Krit adasındakı silahlı üsyanı və serblərin Osmanlıya qarşı çıxışı hazırlığının genişlənməsi "gənclər"in G.Rakovskinin planını təcrübədə həyata keçirməyə səfərbər etmişdir.

Bu arada Lyuben Karavelov (təq. 1834–1879) Bolqarıstan azadlıq hərəkatında böyük rol oynamağa başladı. Onun fəaliyyəti inqilabi cərəyanın təşkilati təşəkkülü və demokratikləşməsi yolunda mühüm əhəmiyyət kəsb edirdi. Zəngin, sonradan müflis olmuş tacirin oğlu L.Karavelov təhsilini davam etdirmək məqsədilə 1857-ci ildə Rusiyaya getdi. Burada onun dünyagörüşü, ideoloji fikirləri, elmi maraqları formalaşmış, yazıçı-publisist kimi yetişmişdir. O, Moskva Universitetində təhsil alarkən 1860-cı ilin əvvəllərində G.Rakovskinin ideyalarını təbliğ etməklə inqilab yolunu seçmişdir. Rus cəmiyyətində ictimai-siyasi mübarizə təcrübəsindən L.Karavelov sonralar özünün bolqar milli hərəkatında həyata keçirdiyi inqilabi-demokratik dərslərdə bəhrələnmişdir. Ölçülü liberal və mühafizəkar rus qəzetlərinin səhifələrində bolqar hərəkatının azadlıq məqsədlərini təbliğ edən L.Karavelov bədii yaradıcılığında və publisistikasında bolqar cəmiyyətinə xas sosial ziddiyyətləri açıb göstərdi. İstismar olunan xalqın əksəriyyətinin mənafeyinə uyğun olaraq inqilabi vəzifənin ideoloji əsaslandırılması bolqar siyasi fikrinin inkişafında yeni mərhələnin başlanğıcını qoydu.

1867-ci ilin əvvəllərində Balkanlara gələn L.Karavelov Belqraddan qələmə aldığı yazılarda Cənubi Slavyan xalqla-

rının Sultan hökumətinə qarşı birgə hərəkatı ideyasını rus mətbuatında təbliğ edirdi. 1867-ci ilin yazının sonlarıda L.Karavelov Serbiyanın paytaxtında Bolqarıstanda fəaliyyət göstərməyə hazır olan böyük bir çətə dəstəsin təşkil edən Bolqar komitəsini qurdu.

Çətə dəstəsinin geniş şəkildə planlaşdırılan hərbi hərəkatı, onun həyata keçirilməsi zamanı bir çox çətinliklərlə qarşılaşdı. Hərbi təşkilati hazırlıq qısa zamanda baş verdi, Odessa bolqarlarının ciddi səylərinə baxmayaraq, silah və sursat çatışmırdı, Serbiya və Rumıniya hökumətlərinin mövqeyi siyasi vəziyyətdən və çıxışın təşkilatçılarının işlərinin gedişindən asılı olaraq dəyişirdi. Rumıniya və Serbiyadan göndərilən bolqar çətələrinin, habelə Bolqarıstan daxilində yaradılmış haydut dəstələrinin fəaliyyətlərinin əlaqələndirilməsi açıq-aydın kifayət deyildir. P.Xitov və F.Totyunun müvafiq olaraq 30 və 35 nəfərlik kiçik dəstələri Bolqarıstana daxil olsa da, onları təqib edən türk dəstələrindən azad olmaq üçün müdafiə döyüşləri aparmağa məcbur oldular. F.Totyunun çətələri Vırbovka kəndi yaxınlığındakı döyüşlərdə məğlub oldular, pərən-pərən düşərək geri çəkildilər, voyevoda azsaylı ətrafı ilə P.Xitovun çətələrilə birləşərək Serbiya ərazisinə keçdilər. İtkilərə baxmayaraq, çətələrin hərbi döyüşləri bolqarların inqilabi ruhunu yüksəldərək yeni silahlı çıxışlar üçün zəmin hazırladı. “Bolqar üsyanı” xəbəri milli-kilsə mübarizəsinin yüksəlişinə təkan verdi. 1867-ci ildə çətə hərəkatının əməli nəticəsi həm də bolqar milli məsələsinin Avropa mətbuatında geniş işıqlandırılması oldu.

1867-ci ilin payızında bolqar gəncləri, eyni zamanda çernoqoriyalı, xorvat və serbləri çətə hərbi rəhbəri kimi hazırlamaq məqsədilə hərbi məktəb açıldı. 200 nəfərlik bolqar qrupu "İkinci Bolqar legionu" adı ilə tanındı. Məktəbin işinin təşkilini və maddi vəsaiti Rusiya təmin edirdi ki, bu da serb-bolqar hərbi-siyasi əlaqələrinin təşviqinə xidmət edirdi. Səxavətli dəstə İkinci legionu Serbiya hökumətilə əməkdaşlığın mühüm nəticəsi hesab edirdi.

Lakin diplomatik yollarla Osmanlı qarnizonlarının öz ərazilərindən çıxarılmasına nail olan Serbiya hökumətinin kursunun dəyişilməsindən sonra bolqar hərbi hissəsinin Belqradda qalması Serbiya üçün əlverişsiz oldu. 1868-ci ilin aprelində İkinci bolqar legionu faktiki olaraq buraxıldı. L.Karavelovun Rusiya qəzetlərində Serbiya hökumətinin siyasətini tənqid etməsi, onun o zaman Avstriya-Macarıstanın tərkibində olan Novi Sada deportasiya edilməsinə səbəb oldu. O, burada serb knyazının qətlində iştirakında şübhəli bilinərək həbs edilib və Budapeşt həbsxanasına salındı. G.Rakovskinin ölümü və L.Karavelovun həbsi, Osmanlı hakimiyyətinin repressiyaları bolqar inqilabçılarının yeni çıxışların hazırlamasına mənfi təsir göstərdi.

"Gənclərin" mətbuat orqanları olan "Dunay şəfəqləri" və "Xalqçı" qəzetlərində 1868-ci ilin əvvəllərində əllərində silah Bolqarıstana getməyə hazır olan gənclərin silahlı dəstə və qruplarını hazırlamaq məqsədilə əvvəlki illərin çətə hərəkatı haqqında məqalələr dərc edildi. 1868-ci ilin yayının əvvəlində GMBK-nın faktiki süqutundan sonra Buxarestdə "gənclərin" liberal-burjua qanadının "bolqar-türk dualizmi"ni təbliğ

edən qrupu silahlı dəstələrin yaradılmasını açıq şəkildə dəstəkləyən "Bolqar cəmiyyəti"ni yaratdılar. Onların 1868-ci ilin iyunundakı çıxışları və doğma torpaqlarındakı qəhrəmancasına döyüşləri çətə hərəkatının zirvəsi oldu.

S.Karaci və H.Dimitrinin çətələrinin döyüş əməliyyatçıları Rumıniyada dəstəklənmirdi, çünki hökumət Osmanlının təzyiqinə tabe olaraq bolqar dəstələrinin Dunay çayını keçməsinə imkan vermir, bolqar inqilabçıları repressiya və həbslərə məruz qalırdılar. Azadlıq hərəkatı iştirakçılarının, xüsusən də onun inqilabi qanadının qarşısında mübarizənin taktikasına və təşkili formasına yenidən baxılması məsələsi getdikcə daha aydın şəkildə ortaya çıxırdı.

1867–1868-ci illərdəki çətə hərəkatının dərsləri hazırlıq işlərinin ağırlıq mərkəzinin birbaşa Bolqarıstana köçürülməsini və təsirli təşkilati mərkəzin yaradılmasını tələb edirdi. Milli hərəkatda silahlı mübarizənin əhəmiyyəti, Serbiya və Rumıniyanın siyasətindən asılılıq məsələlərində "köhnə" və digər burjua-liberal təşkilatların tərəddüdlü mövqeyini yalnız başqa siyasi qüvvələrlə dəqiq ideya-siyasi və təşkilati konsolidasiya yolu ilə aradan qaldırmaq mümkün idi.

1860-cı illərin sonunda milli inqilabi cərəyanın yeni taktikası – xalq inqilabının hazırlanması işlənib hazırlanmışdır. Bolqar inqilabçılarının siyasi şüurunun yüksəlməsi və ölkədə inqilabi əhval-ruhiyyənin güclənməsi bilavasitə təşkilatçılıq işinin inkişafı üçün əlverişli şərait yaratdı.

Bolqar torpaqlarında inqilabi təşkilatın yaradılması bir çox bolqar vətənpərvərlərinin səyləri nəticəsində mümkün

oldu, bunda da Vasil Levskinin (1837–1873) xidmətləri xüsusi əhəmiyyətə malikdir. Karlovodan olan bir sənətkarın oğlu, gənc yaşlarında saçını vurdurub rahibliyi qəbul edərək diakon olmuşdu. 1862-ci ildə milli-azadlıq hərəkatının artması şəraitində V.Levski monastırdan ayrılaraq G.Rakovskinin legionuna daxil olur, sonra müəllimlik edir, 1867–1868-ci illərdə çətə hərəkatında fəal iştirak edir. 1868-ci ilin sonu və 1869-cu ildə Bolqarıstana səfərlər edərək onlarla şəhər və kəndlərdə insanların əhval-ruhiyyəsini diqqətlə öyrənərək növbəti səfərində Bolqarıstanda inqilabi komitələr şəbəkəsi yaratmağa başladı.

1869-cu il avqustun sonunda V.Levski Buxarestə gəldi, o zaman Bolqarıstan mühacirləri arasında qüvvələrin yeni qruplaşması gedirdi. Çətə hərəkatının mühacirləri sırasında fikir ayrılığı ilə nəticələnən uğursuzluğundan sonra inqilabi fəaliyyətin tərəfdarları “Qardaş məhəbbəti” cəmiyyətində birləşərək, mübarizənin davam etdirilməsinin perspektivlərini və planlarını müzakirə edirdilər. Müasirlərin xatirələrində və o dövrün mətbuatında bu qrup bəzən “Gənc Bolqarıstan” adı ilə də çıxış edirdi. Səxavətli dəstənin rəhbərləri mühacirlərə təsirlərini artırmağa çalışaraq ilk dəfə özlərinin “Vətən” qəzetinin nəşrini təşkil etdilər. Onun redaktoru kimi “qocalar” Budapeşt həbsxanasından azad edilmiş L.Karavelovu dəvət etmişdir. Dəvəti qəbul etdikdən sonra o, tezliklə başa düşdü ki, “qocalar”ın diktəsi ilə burada işləyə bilməz. “Gənc Bolqarıstan”ın bir qrup radikal üzvü öz inqilabi qəzetlərini yaratmaq ideyası ətrafında birləşdilər. Odessada yaşayan

bolqarların maddi dəstəyilə "Azadlıq" adı ilə yeni qəzetin çapına başlandı ki, onun da ilk nömrəsi 1869-cu ilin noyabrın 7-də çıxdı.

1869-cu ilin payızında Buxarestdə yaranan yeni inqilabi mərkəz inqilabi hərəkatın tərəfdarlarını, eləcə də "Səxavətli dəstə"yə müxalifətdə olan liberal düşüncəli dairələri birləşdirdi. 1868-ci ildə dağılan, bir çox radikal düşüncəli fiqurları yeni mərkəzin tərkibinə daxil olan GBMK-dən fərqli olaraq, L.Karavelov "Azadlıq" qəzetinin səhifələrində məqsədyönlü inqilabi-demokratik təbliğata başladı. Yeni mətbuat orqanının yaradılmasında iştirak edən V.Levski bu zamana kimi Bolqarıstanın özündə inqilabi təşkilat yaratmaqda artıq ciddi uğurlar qazanmışdı. Bununla belə, bütün təşkilati məsələlər, xüsusən də yeni komitənin dəqiq daxili strukturu məsələsi həll olunmadı.

Buxarestdəki sonradan "Bolqarıstan İnqilab Mərkəzi Komitəsi" (BİMK) adlandırılan yeni mərkəz öz tarixində uzun bir konsolidasiya yolu keçmişdir. Fəal inqilabi təbliğat vətənpərvər qüvvələrin "Azadlıq"ın bayrağı altında toplanmasına səbəb oldu, lakin bolqar torpaqlarında inqilabi təşkilatların yaradılması uzun və əziyyətli gizli iş tələb edirdi. 1870-ci ilin mayında V.Levski Bolqarıstana qayıtdı və burada iki il ərzində düzgün təşkil olunmuş bir neçə komitə sistemi yaratdı. Minlərlə bolqar kəndlisi, müəllimi, sənətkarı, taciri və keşişi onların fəaliyyətinə cəlb edilmişdir. Mərkəzi rol "Müvəqqəti hökumət" kimi tanınan Loveç Komitəsinə məxsus idi. V.Levskiyə kömək məqsədi ilə Buxarestdən Dimitr Obşti və Angel Kınçev göndərilmişdir. Bolqarıstanda inqilab komitələrinin

yaradılması azadlıq mübarizəsində mühüm nailiyyət idi. Ümummilli xalq üsyanına istiqamətlənmiş çoxsaylı və müstəqil bolqar təşkilatları formalaşmışdır.

Bolqarıstandakı inqilabi komitələrin dərin məxfi şəbəkəsi haqqında xaricdə çox az adam bilirdi. Ənənəyə əsasən, Avropada ictimai rəy Bolqarıstan İnqilab Komitəsini yeganə mühacir komitəsi hesab edirdi. Buxarestdəki BMİK öz proqramını 1870-ci il yayın sonu – payızının əvvəlində elan etdi. I İnternasionalın rus bölməsinin orqanına çevrilən rus xalqçılıq qəzeti "Xalq işi"nin (Cenevrədə nəşr olunurdu) avqust-sentyabr sayında Bolqarıstan İnqilab Komitəsinin proqramı nəşr olundu. Bunun ardınca bir qədər dəyişdirilmiş şəkildə o, Karavelov "Azadlığında" və "Bolqar səsi" kitabçasında (Buxarest, 1870) işıq üzü gördü.

Yeni Buxarest inqilabi təşkilatının ən mükəmməl proqram mövqeyi "Bolqar səsi"ndə ("BMİK-dən Cenevrə" qeydi ilə) ifadə edildi. Kitabçada qətiyyətlə Osmanlı islahatının və "Bolqar-türk dualizmi"nin perespektivsizliyi qeyd edilərək, mütləqiyyət idarçiliyi sistemi əsaslı tənqid edilərək, Bolqarıstan, Serbiya və Rumıniyanı əhatə edən vahid ali parlament və muxtar idarəçiliyə malik Balkan federasiyasının yaradılması təklif edilirdi. "Bolqar səsi"ndə qeyd edilirdi ki, "Bolqarıstanın azadlığı uğrunda hərəkatı bu günə qədər olduğu kimi onun hüdudlarından kənarda deyil, öz daxilində baş verməlidir". "Bolqar səsi"nin alovlu müraciəti inqilabçıların xalqı üsyana qaldırmaq əzmindən xəbər verirdi: "Xalqın azadlığı uğrunda mübarizə aparan, azad dövlətdə yaşamaq, insan hü-

quqlarından istifadə etmək istəyən hər bir şəxs cəsarətli olmalı, bütün gücünü, biliyini, vəsaitini mübarizəyə sərf etməlidir, canını əsirgəmədən silaha sarılmaq lazımdır: tüfəng, qılınc, tapança, revolver, xəncər, balta, paya, dəryaz, dəyənək – hər şeyə, nə düşsə və öz azadlığınızı, öz vətəninizi geri alın".

Bu proqram-publisistik sənədlər müəllifi L.Karavelova məxsus idi, lakin onların əsas prinsipləri V.Levski və onun Bolqarıstandakı tərəfdaşları ilə razılaşdırılmışdı. Eyni zamanda, müəyyən müddəaların kompromis mahiyyəti, xüsusən də Osmanlı hakimiyyətinə qarşı dinc mübarizə vasitələrinin əsas, silahlıların isə yalnız ehtiyac olduqda istifadə edilməsi BMİK-in mürəkkəb sosial tərkibindən xəbər verirdi, beləki, burada inqilabi nüvədən əlavə, liberal-burjua təbəqələrinin nümayəndələri də təmsil olunmuşdur.

V.Levskinin 1871-ci ildə yazdığı "Nizamnamə-layihə"də azadlıq mübarizəsinin məqsədi çox aydın şəkildə formalaşdırılmışdı: "Mövcud despotik-tiran dövlət sisteminin ümumi inqilab yolu ilə əsaslı dəyişdirilməsini həyata keçirmək, onu demokratik respublika (xalq idarəçiliyi) ilə əvəz etmək". Feodal və çorbacı istismarının aradan qaldırılacağı "müqəddəs xalq respublikası" yaratmaq məqsədi adətən burjua-demokratik inqilabın həll etdiyi vəzifələrin hüdudlarından kənara çıxırdı. V.Levski hesab edirdi ki, Bolqar torpaqlarında yaşayan bütün xalqların, o cümlədən türklərin də nümayəndələrinə siyasi və milli bərabərlik verilməlidir.

1872-ci ilin aprel-may aylarında Buxarestdə BMİK-in Ümumi (birləşdirici) yığıncağı inqilabi qüvvələrin səfərbər

edilməsində və təşkilati cəhətdən möhkəmlənməsində mühüm rol oynadı ki, onun da məqsədi xarici və daxili komitələrin səlahiyyətlərilə bağlı fikir ayrılıqlarını aradan qaldırmaq idi. V.Levskinin təklifi ilə yığıncaqda Bolqarıstandan yerli komitələrin nümayəndələri geniş şəkildə təmsil olunurdular. Onların 33 səsə (mandata) malik 25 nəfərdən ibarət idi ki, mühacir nümayəndələr isə cəmi 17 səsə malik idi. Yığıncaqda BMİK-in proqramı və nizamnaməsi qəbul edildi ki, onun da məqsədi Bolqarıstanın inqilabi yol ilə ("mənəvi və əldə silahla") azad edilməsi, xalqların tarixi, etnik və siyasi hüquqları nəzərə alınmaqla könüllü birləşmə əsasında "azad torpaqlar" federasiyasının yaradılması vəzifələrindən ibarət idi. Bolqar çorbaciləri xalq satqını elan olundu. BMİK-in birinci proqramı və Nizamnamə-layihəsindən fərqli olaraq, gələcək idarəetmə forması taktiki səbəblərdən dəqiqləşdirilmədi.

BMİK-in yerləşdiyi yer Buxarest elan olundu. L.Karavelov BMİK-in sədri, K.Tsankov –müavin, O.Panov – katib, D.Tsenoviç – xəzinədar, P.Xitov və V.Levski – üzvlər seçildi. V.Levski BMİK-in Bolqarıstan torpaqlarında baş emissarı ("apostol") təsdiq edildi və 1872-ci ilin iyulunda qarşıdakı üsyana hazırlaşmaq üçün Bolqarıstana yola düşdü.

Bolqar torpaqlarında inqilabi fəaliyyətin gücləndirilməsi işi V.Levskinin iddialı köməkçisi D.Obştinin təkəbbürlü mövqeyi sayəsində gözlənilmədən çətinliklərlə qarşılaşdı. Onun qrupunun davam etdirdiyi macəralar uğursuzluq və həbslərə səbəb oldu. D.Obştinin türk poçtunun soyulması ilə bağlı

araşdırma zamanı davranışı ağır nəticə ilə yekunlaşdı. Soyğunun siyasi akt kimi qələmə verilməsinə cəhd edən D.Obşti gizlilik qaydasını gözləməyərək yerli komitə və onun rəhbərlərinin adını çəkdi. Sonrakı həbslər və repressiyalar inqilabi təşkilatın daxilində ruh düşkünlüyünə şərait yaratdı. Vəziyyəti müzakirə etmək məqsədilə Buxarestə yola düşən V.Levski Slivendə üsyanın dərhal başlanmasını təkid edən L.Karavelovdan məktub aldı. Bolqarıstan torpaqlarının vəziyyətini yaxşı bilən V.Levski bu qərarı impulsiv hesab edərək onunla razılaşmadı. 1872-ci il dekabrın sonunda xəyanət nəticəsində türk polisi tərəfindən həbs olundu, dindirilmələr zamanı özünü ləyaqət və cəsarətlə apararaq bolqar xalqının azadlıq hüquqlarını müdafiə etdi. 1873-cü ilin fevralında Sofiyada V.Levskinin asılaraq edam edilməsi bolqar inqilabi hərəkatına ağır zərbə vurdu.

1873–1874-cü illərdəki böhran yalnız daxili Bolqarıstan komitələri əhatə etmədi, eyni zamanda onların Buxarestdəki BMİK rəhbərliyinə də təsir etdi. BMİK-in 1873-cü ilin mayında keçirilən iclası keçmiş nizamnaməni ləğv etdi ki, bu da mərkəzləşmənin zəifləməsinə və itirilməsinə səbəb oldu. Avqust ayında BMİK-in yeni tərkibi seçildi ki, X.Botev də onun tərkibinə daxil edildi. Komitənin sədri L.Karavelov ağır uğursuzluqdan sonra müstəqil bolqar üsyanının qələbəsinə inamını itirirməyə başladı. L.Karavelovun diktator səlahiyyətlərinə sahib olmaq istəyinin BMİK üzvləri arasındakı əksəriyyət tərəfindən rədd edilməsi ziddiyyətləri dərinləşdirdi. 1874-cü ilin dekabrında L.Karavelov keçmiş "Azadlıq"

qəzetini əvəz edən "İstiqlal" qəzetinin nəşrini dayandırdı və BMİK-dən çıxdığını bəyan etdi. Qələbəyə inamını itirmiş köhnə rəhbərlik V.Levskinin davamçılarından ibarət yeni rəhbərliklə əvəz olundu ki, onlar da məqsədə aparan yeganə yolu müstəqil xalq üsyanı hazırlamaq olduğunu qəbul edirdilər.

BMİK-də aparıcı rolu L.Karavelovun siyasi laqeyidsizlik mahiyyətini kəskin tənqid edən, 1875-ci ilin yanvarından bitərəf başlıqlı – "Bilik" adlı jurnalını nəşr etməyə başlayan Xristo Botev qrupu oynamağa başladı. 1874-cü ilin sonlarından inqilabçı demokrat Xristo Botevin (1848-1876) ideyaları azadlıq mübarizəsinin inkişafında həlledici əhəmiyyətə malik oldu.

Kalofer şəhərindən olan X.Botev Odessada təhsil alan məşhur bolqar müəllimi Botyu Petkovun ailəsində böyümüşdür. 1863–1866-cı illərdə o, atası kimi Rusiyada olub, bir müddət ikinci Odessa gimnaziyasında təhsil almışdır. X.Botevin əqidəsi rus inqilabçı demokratlarının ideyalarının təsiri altında formalaşmışdı. Rus inqilabçıları ilə birbaşa təmasları rus inqilabi hərəkatı təcrübəsinin bolqar xalqının azadlıq mübarizəsi təcrübəsilə birləşməsinə kömək etdi. Özünün proqram xarakterli ideoloji-siyasi müddəalarını açıqlayan X.Botev ardıcıl olaraq V.Levski və L.Karavelovun inqilabi-demokratik baxışlarına istinad edirdi. Sosial utopik ideyalar onun mövqeyinin səciyyəvi cəhətini təşkil edirdi. 1871-ci ildə X.Botev "Duma na bilqarskite emiqranti" qəzetinin nəşrini öz üzərinə götürür, həmin ilin aprelində Paris kommunasının qızğın müdafiəçisi kimi çıxış edərək "Bolqar kommunasının

inam simvolu" sənədini nəşr etdirir. 1873-cü ildə yeni nəşr etdiyi "Zəngli saat" qəzetində X.Botev L.Karavelovun inqilabi nəşrlərini təbliğ edirdi, onun səhifələrində tez-tez öz işləri də yer alırdı. L.Karavelovun inqilabi təşkilatdan ayrılmasından sonra X.Botev mahiyyətcə BMİK-in orqanı olan "Bayraq" qəzetinin nəşrini öz üzərinə götürdü. X.Botev "təcili, şiddətli xalq inqilabı" ideyasını qızğın şəkildə müdafiə edir, kəskin formada kapitalist istismarına qarşı çıxırdı. X.Botevin inqilabi romantizmi və ən incə lirizmi birləşdirən poeziyası bolqar cəmiyyətində çox populyar idi.

Beləliklə, Bolqar torpaqlarında milli azadlıq hərəkatı yarandığı vaxtdan 1870-ci illərdəki Şərq böhranına kimi mürəkkəb bir yol keçmişdir. O, bir tərəfdən milli təhsil və mədəniyyət, müstəqil kilsə təşkilatı hərəkatın, digər bir tərəfdən inzibati və siyasi muxtariyyət, müstəqillik uğrunda mübarizəni əhatə edirdi.

Bu mübarizə istiqamətləri çox zaman bir-birinə qarışırdı, müxtəlif mərhələlərdə onlardan biri və ya digəri üstünlük təşkil edirdi. Milli hərəkatın yüksəlişinin göstəriciləri kimi qurtuluş proqramlarının siyasi məzmununun səviyyəsinin yüksəldilməsi, siyasi məqsədin ideoloji əsaslandırılmasının dərinləşməsi, Osmanlı asılılığını aradan qaldırmaq məqsədi uğrunda mübarizədə xalq kütlələrinin təşkilatlanma səviyyəsini qeyd etmək olar.

Bolqar hərəkatının ideoloji və proqram-siyasi cəhətdən yetkinləşməsi burjua millətinin formalaşmasının əlamətlərindən biri kimi milli mənlik şüurunun formalaşması və möhkəm-

lənməsilə müşayiət olunurdu. Bu amil o zamanlar əsasən ticarətlə məşğul olan bolqar burjuaziyasının mürəkkəb şəraitdə yüksəlişində mühüm əhəmiyyət kəsb edirdi, çünki Avropa Türkiyəsindəki burjua dairələri öz milli tərkibinə görə qarışıq idi. Bundan əlavə, Qərbi Avropa dövlətlərinin vəsaiti Osmanlı imperiyasının iqtisadiyyatına və ticarətinə intensiv şəkildə nüfuz edirdi. Onların siyasəti məqsədli şəkildə Osmanlı imperiyasının iqtisadi və sosial-siyasi sisteminə mühafizəkar təsir göstərmək idi, çünki Qərb dövlətləri Osmanlını yarımmüstəmləkəyə çevirməkdə maraqlı idilər.

Bolqarların siyasi hüquqlarından məhrum edilməsi və Osmanlı imperiyasında məruz qaldıqları milli basqı iqtisadi təzyiqin artması ilə daha da şiddətlənmişdir. Bolqar xalqının həyat şəraitinin pisləşməsi milli hərəkatın güclənməsinə səbəb olmuşdur.

Bolqarıstanın azadlıq hərəkatının inkişafı üçün xarici siyasi şərait mühüm əhəmiyyət kəsb edirdi. Osmanlı imperiyasının periferiyasında yerləşən (Bolqarıstandan fərqli olaraq) digər Balkan xalqlarının milli hərəkatının nümayəndələrilə sıx əlaqələrə malik olmaqla, bolqarların azadlıq mübarizəsinin ideoloqları və təşkilatçıları Avropa burjua inqilabi təcrübəsindən, meydana gələn sosial təfəkkürün nailiyyətlərindən istifadə edirdilər. Bununla yanaşı, Böyük Fransa burjua inqilabı, fəhlə hərəkatının yaranması və marksizmin yayılması, 1848–1849-cu illər inqilabı, Birinci İnternasionalın və Paris Kommunasının yaranması kimi ümumavropa miqyaslı böyük hadisələr Bolqarıstanın çoxəsrlik xarici asılılığı nəticə-

sində düşdüyü əlverişsiz şərait səbəbindən Bolqarıstana yalnız dolayı olaraq təsir göstərmişdir.

Buna baxmayaraq, bolqar torpaqlarında tarixi inkişafın obyektiv gedişi burjua-milli inqilabın yetkinləşməsinə səbəb olmuşdur. Onun demokratik mahiyyəti xalq kütlələrinin milli hərəkatda geniş iştirakı ilə müəyyən edilirdi. Siyasi və ideoloji müstəvidə bu, azadlıq hərəkatında inqilabi-demokratik cərəyanın formalaşmasında öz ifadəsini tapdı. Bolqar inqilabçı demokratları yerli şəraitlə bağlı olaraq inkişaf etməkdə olan bolqar xalqının qarşısında duran tarixi vəzifələri yaradıcılıqla dərk edə bildilər. Bolqarıstan şəraitində Avropa ictimai-siyasi fikrinin mütərəqqi nailiyyətlərindən istifadə edilməsi, ilk növbədə, milli azadlıq mübarizəsini bolqar kəndliləri, sənətkarları və tacir burjuaziyası üçün daha əlverişli sosial imkanların əldə edilməsilə birləşdirmək arzusunda ifadə olunurdu.

Başqa sözlə, məzmunca obyektiv burjua, milli hərəkatı yalnız burjuaziyanın mənafeyinə uyğun gələn tarixi məqsədə çatmaqla məhdudlaşmırdı. Azadlıq mübarizəsinin xüsusilə 1850–1870-ci illərdəki müxtəlif kütləvi formalarının demokratik mahiyyəti bolqar demokratik inqilabçılarının geniş ideoloji fəaliyyətilə birləşirdi. Onlar o dövrün rus inqilabçı demokratlarının təcrübəsini, o cümlədən onların sosial utopik ideallarını, habelə İtaliyada və başqa ölkələrdəki inqilabi demokratiya təcrübəsini mənimsəmişlər. Bolqarıstan-Rusiya ictimai əlaqələrinin genişlənməsi 1876–1877-ci illərdəki hadisələrin inkişafına əhəmiyyətli təsir göstərdi.

XIX əsrin 70-ci illərində bolqar milli hərəkatında inqilabi qanad azadlıq mübarizəsində əsas rol oynamağa başladı. Bir çox daxili komitələrin məğlubiyyətinə, digər Balkan xalqlarının milli hərəkatı ilə birləşmək cəhdlərinin uğursuzluğuna Qərb dövlətləri tərəfindən Sultan hakimiyyətinə davamlı dəstəyə baxmayaraq, inqilabi qanad ümumxalq üsyanı hazırlayırdı. Bolqarıstan torpaqlarında silahlı fəaliyyət üçün təşkilati baza yaradan V.Levskinin şücaəti Bolqar inqilabi hərəkatının kulminasiya nöqtəsi olan hadisələrin başlanmasını sürətləndirdi.

G.Rakovskinin işini inqilabçı demokratlar V.Levski, L.Karavelov və X.Botev davam etdirirdilər. Onların yorulmaz təbliğatı və ideoloji fəaliyyəti inqilab əhval-ruhiyyəli kütlələrə milli və siyasi məqsədlərini dərk etməyə kömək edirdi. Bolqar demokratlarının inqilabçi maarifçiliyi milli maarifçilik mübarizəsini əsas məqsədi olan milli müstəqilliyin qazanılmasına tabe olan siyasi mübarizə səviyyəsinə qaldırmışdır. Bolqarıstan cəmiyyətinin bütün vətənpərvər qüvvələri əlverişli amillərin nəzərə alınmasını istisna etməyən xalq inqilabı vasitəsilə qurtuluş ideyası ətrafında birləşdi.

1875-ci ilin yayında Herseqovina və Bosniyada üsyan xəbəri Bolqarıstanda üsyanın başlamasını sürətləndirdi. X.Botev və onun tərəfdaşları S.Stambolov, N.Obretenov və b. təşəbbüsü ilə həmin ilin avqustunda BİMK-in ümumi yığıncağında üsyanın dərhal hazırlanması barədə qərar qəbul edildi, silahlı çıxışların əraziləri müəyyən edilərək rəhbərlər təyin edildi. Osmanlı imperiyasının paytaxtı İstanbulda (Konstan-

tinopol) eyni zamanda təxribat aksiyasının keçirilməsi də nəzərdə tutulurdu.

Lakin qırılan əlaqələri bərpa etmək məqsədilə vaxtın yetərsizliyi, yerli komitələrin bir-birindən təcrid olunması, tələsik qərarlara görə fikir ayrılıqları uğursuzluğa səbəb oldu. Üsyançıların 1875-ci ilin sentyabrında Stara Zaqoradakı çıxışı çorbacilərin xəyanəti üzündən uğurlu alınmadı, S.Stambolovun başçılığı ilə döyüşçülərin bir qrupu Dunay çayını keçərək Rumıniyaya çəkilə bildi. Rusen və Şumen bölgələrindəki başqa kiçik bölmələrin çıxışları da Osmanlı hakimiyyəti tərəfindən yatırıldı. Bütün ölkəni həbs dalğası bürüdü.

1875-ci ildə üsyanın uğursuzluğu BİMK-də ixtilafa səbəb oldu. X.Botev onun üzvlüyündən çıxdı, BİMK fəaliyyətini dayandırdı. Gyorqevdə yaradılmış bolqar komitəsi bilavasitə yeni üsyan hazırlamağa başladı. Üsyan 1876-cı il mayın 1-nə təyin edilmişdir. Dörd inqilab bölgəsindəki komitələr ən səmərəli və mütəşəkkil olaraq tanınırdı. Birinci – Tırnovo Bolqarıstanın şimalını, Qabrovo və Sevliev bölgələrini əhatə etdi. Baş təşkilatçı S.Stambolov təyin edilmişdir. İkinci – Slivenə Sliven, Yambol, Kotel rayonları daxil idi. Burada İ.Draqostinov lider oldu. Üçüncü – Vraçan əyaləti Şimal-Qərbi Bolqarıstanı və Sofiya bölgəsini əhatə edirdi. S.Zaimov əsas "apostol" kimi təsdiq olundu. Dördüncü – Plovdiv mərkəzi Panaqyurişte şəhəri seçildi. Burada əsas "apostol" və onun köməkçisi P.Volov və Q.Benkovski təyin edildi.

1876-cı ilin əvvəlində Gyorgev Komitəsinin iclaslarından sonra inqilabi rayonların rəhbərləri Bolqarıstana getdilər,

koordinasiya mərkəzinin özü isə faktiki olaraq ləğv edildi. Bu funksiyanın birinci rayonun rəhbərliyi tərəfindən yerinə yetirilməsi nəzərdə tutulsa da, sonradan məlum olduğu kimi, üsyanı idarə etmək vəzifəsi onun gücündə deyildi.

Xüsusilə dördüncü inqilab bölgəsində ciddi hazırlıq işləri aparılırdı. Burada 10 şəhər və 82 kənd komitəsi bərpa edilərək yenidən yaradıldı, rayonda üsyanın faktiki rəhbərinə çevrilən Q.Benkovskinin başçılığı ilə döyüşə hazır "uçan" dəstə yaradıldı. Aprelin 14-də Oborişte adlı yerdə planlaşdırılmış üsyanın başlamasına az qalmış, hərbi əməliyyatların aparılması planını müəyyən edən ümumi yığıncaq çağırıldı. Bu əsasən yerlərdə hakimiyyətin ələ alınmasını və müdafiə olunmasını nəzərdə tuturdu. Xəyanət üzündən üsyanı nəzərdə tutulandan əvvəl başlamalı oldu. Aprelin 20-də üsyançılar Koprivştitsa və Panaqyuriştedə hakimiyyəti ələ keçirərək üsyanın başladığını elan etdilər. Müvəqqəti hökumət təşkil edildi, üsyan bütün Tırnovo dairəsində yayılmağa başladı. Q.Benkovskinin süvari atlı dəstəsinin hücumları sayəsində qonşu kəndlərin əhalisi ayağa qalxdı. Panaqyurişte müəlliməsi Rayna Georgiyeva üsyançıların bayrağını hazırladı və bayraqdar oldu.

Aprelin 22-də Osmanlı hökuməti cəza dəstələrini səfərbər edərək bolqar inqilabçılarının çıxış etdiyi ərazilərdə hərbi qüvvələri cəmləşdirə bildi. Aprelin 26-da Klisura yıxıldı, aprelin 30-da dörd gün davam edən döyüşlərdən sonra Panaqyurişte və Koprivştitsa türk qoşunları tərəfindən tutuldu. Bratsiqova, Peruştitsa, Bataka və d. kənd və şəhərlərin müda-

fiəçilərinin qəhrəmancasına mübarizəsi göstərdi ki, bolqar xalqı azadlıq uğrunda hər cür qurban verməyə hazırdır.

Silahların çatışmaması, qüvvələrin qeyri-bərabərliyi, üsyançıların hərəkətlərinin əlaqələndirilməməsi hətta müdafiə əməliyyatlarının aparılmasını belə çətinləşdirirdi. Buna baxmayaraq, Plovdiv (Panaqyurişte) dairəsində keçirilən kütləvi çıxış Aprel üsyanının ən parlaq səhifələrindən biri idi.

Tırnovo inqilab dairəsində, Plovdiv mahalında çıxışların ilkin uğuru xəbəri S.Stambolovu çətin vəziyyətə saldı, çünki o, üsyanı elan etmək qərarını ləngitmişdir. Mərkəzi hakimiyyət bolqarların silahlı mübarizəsinin genişlənməsindən ehtiyat edərək qoşun toplamaq və başıpozuq dəstələri təşkil etmək üçün təcili tədbirlər gördü. Qorno Oryaxovitsedəki üsyançı dəstələrin bir sıra rəhbərləri həbs edildi. Yalnız Tırnovonun şimal-qərbində yerləşən kəndlərdə X.Xalaçev, Baço Kiro və X.Karaminkovun başçılığı ilə döyüşən çətə dəstələri təşkil etmək mümkün olmuşdur. Onların hərbi təlimatçısı Rusiya ordusunun ehtiyatda olan zabiti, bolqar P.Parmakov olmuşdur. Çətə dəstəsi döyüşərək Dryanovo monastırına çıxdı, lakin nizami türk qoşununun başıpozuq dəstəsinin üstün qüvvələri sayəsində müdafiə mövqeyi tutmağa məcbur oldu. On gün ərzində üsyançılar cəsarətlə döyüşsələr də məğlub oldular. Qabrovo və Sevlievsk rayonlarında və Tryavnedə səpələnmiş çıxışlar da uğursuz oldu ki, burada təşkil olunan dəstələr partizan əməliyyatları aparırdılar.

Sliven inqilab bölgəsində üsyanın vaxtından əvvəl başlaması xəbərini alan liderlər qeyri-fəallıq nümayiş etdirdilər.

Onlar Rumıniyadan bolqar dəstələrinin tezliklə gəlişi ilə bağlı yayılan xəbərlərə ümid edirdilər. Kiçik çətə qrupları yaradaraq dağlara qalxan vətənpərvərlərin kortəbii hərəkətləri geniş dəstək almadı. Çorbacilərin xəyanəti və başıpozuqların qəddarlığı üsyançılar arasında böyük itkilərə səbəb oldu. Bolqar kəndlərində repressiyalar başladı.

Üsyan bölgəsinin ətrafında yerləşən Vraçan inqilab dairəsi çıxışlara başqalarından daha pis hazırlanmışdır. Burada kəskin silah çatışmamazlığı mövcud idi. Rumıniya və Serbiyanın sərhədyanı rayonlarından bolqar çətələrinin gəlişi ərəfəsində Vratsada qiyam qaldırmaq cəhdi uğursuz oldu. Digər rayonlarda üsyan artıq yatırıldıqdan sonra Xristo Botevin çətə dəstəsi Vraçan inqilab dairəsinin ərazisinə gəldi. Bu, mahiyyətcə, qəhrəmancasına fədakarlıq aktı, Aprel üsyanının son epopeyası oldu. 200 nəfərdən ibarət olan X.Botevin dəstəsi Rumıniyada Avstriya "Radetski" paroxodunu ələ keçirərək mayın 17-də Kozloduy kəndi yaxınlığında Dunay çayının sağ bolqar sahilinə çıxdılar. Lakin Vraçan komitəsi Botevin çətəsini möhkəmləndirə bilmədi və onlar tezliklə qarşı tərəfin mobil dəstələri tərəfindən təqib olunmaq vəziyyətinə düşdülər. Döyüşərək mühasirədən çıxmaq üçün Botevin dəstəsi üstün olan rəqib qüvvələrilə qarşıdurmaya girdi. Mayın 20-də Xristo Botevin ölümü üsyançılara ağır zərbə oldu. Ayrı-ayrı qruplara bölünən çətələr, demək olar ki, iyunun sonuna kimi mübarizəni davam etdirdilər. Bundan əvvəl Rumıniyadan gəlib Şimal-Şərqi Bolqarıstanda döyüş əməliyyatı aparan X.Stoyanovun kiçik çətə dəstəsi məğlub olmuşdu. Xarici

ölkələrdən Bolqarıstana keçən çətələr Osmanlı hakimiyyəti tərəfindən yatırılan qiyamın nəticələrinə təbii ki, artıq təsir göstərə bilməzdi.

Aprel üsyanı bolqar xalqının milli-azadlıq mübarizəsinin zirvəsi, inqilabi qanadın çoxillik hazırlıq fəaliyyətinin bilavasitə nəticəsi idi. Kəndlilərin ən yoxsul təbəqələri, sənətkarlar, müəllimlər, tacirlər və kənd keşişləri üsyanın ən fəal iştirakçıları idi. Osmanlının inzibati və idarəetmə sisteminə cəlb olunmuş burjua bolqar elitasının bir hissəsi və bütövlükdə ali ruhanilər silahlı mübarizənin əleyhdarları düşərgəsində oldular. Bolqar çorbaciləri tərəfindən birbaşa xəyanət hallarına da tez-tez rast gəlmək olurdu. Üsyana qoşulan və bir sıra yerli komitələrdə mühüm rol oynayan liberal burjua nümayəndələrinin davranışlarında da qeyri-ardıcıllıq diqqət cəlb edirdi. Üsyanın əvvəlində formalaşmış qüvvələr nisbəti açıq şəkildə Qərb dövlətlərinin birbaşa dəstəyini alan Sultan hökumətinin xeyrinə idi.

Uğursuzluğunuza baxmayaraq, aprel üsyanı bolqar xalqının burjua-milli inqilabında mühüm mərhələ oldu. Kəndlilərin orada geniş iştirakı ilə müşahidə olunan onun demokratik mahiyyəti xalqın siyasi fəallığının kəskin artmasına səbəb oldu. Milli azadlıq uğrunda açıq mübarizə inqilabi demokratik qüvvələrin təşkilati və ideoloji fəaliyyəti sayəsində burjua siyasi proqramlarının məhdud çərçivəsini aşdı. Üsyan bolqar xalqının bir müddət sonra başlayan Rusiya-Türkiyə müharibəsi zamanı milli hərəkatında kütləvi iştirakına yol açdı. 1877–1878-ci illərdəki yeni şəraitdə siyasi qüvvələrin

qruplaşması fərqli idi, Osmanlı asılılığından qurtuluşun məzmununa məhz Aprel üsyanı təsir etmişdir.

1876-cı il Aprel üsyanı beynəlxalq səs doğurmuşdur. Şərq məsələsini son dərəcə kəskinləşdirən bolqar üsyanı böyük dövlətlərlə Türkiyə münasibətlərində Bolqarıstanın milli azadlıq problemini önə çıxarmışdır. Bolqarıstanda sultan hakimiyyətinin asılılığına qarşı, bolqar xalqının milli hüquqlarını müdafiə etmək məqsədilə bir sıra Avropa ölkələrində kütləvi hərəkat baş verdi ki, Rusiyada bu hərəkat daha fəal və geniş yayılmışdır. Rusiya ictimaiyyətinin çıxışları hökumət siyasətinə əhəmiyyətli dərəcədə təsir etmişdir. Bu müharibəyə səbəb olaraq Bolqarıstana azadlıq bəxş edən əsas səbəb oldu.

# III FƏSİL

## 1877–1878-ci İLLƏR RUSİYA-TÜRKİYƏ MÜHARİBƏSİ VƏ BOLQARISTANIN AZAD EDİLMƏSİ

XIX əsrin 70-ci illərin ortalarında bolqar və digər Cənubslavyan xalqlarının milli-azadlıq mübarizəsinin yüksəlişi, o cümlədən Bosniya və Herseqovinadakı 1875-ci il üsyanı, Bolqarıstandakı 1876-cı il Aprel üsyanı, Serbiya və Çernoqoriyanın 1876-cı ildəki azadlıq müharibəsi Osmanlı imperiyasının böhranını daha da dərinləşdirmişdir. Bu hadisələr, xüsusilə asılı xalqların çıxışlarının amansızlıqla yatırılması geniş beynəlxalq səs doğuraraq böyük dövlətlərin maraqlarına uyğun istifadə etmək təşəbbüsü Şərq məsələsini yenidən kəskinləşdirir.

Rus hökumətinin Balkanlarda öz nüfuzunu qoruyub saxlayaraq daha da genişləndirmək məqsədi rus xalqına ürəkdən rəğbət bəsləyən cənub slavyanların milli-azadlıq hərəkatını dəstəkləməyə sövq etmişdir. Yaranmış vəziyyətdə rus və başqa böyük dövlətlərin diplomatları Sultan hökumətinə müraciət edərək Osmanlının hakimiyyəti altında olan xristian xalqlarının ağır vəziyyətinin aradan qaldırılması üçün islahatlar keçirməyə dəvət etdilər. Ancaq 1876–1877-ci illərdə Peterburqun təşəbbüsü ilə dövlətlərin, o cümlədən çar hökumətinin islahatların keçirilməsinə dair Sultana müraciətləri Porto

tərəfindən rədd edildi. London tərəfindən gizli müdafiə edilən Porto hakimiyyəti 1876-ci ilin dekabrında Konstantinopoldakı konfransda səfirlərin hazırladığı Bolqarıstan, Bosniya və Herseqovinaya muxtariyyət verilməsi layihəsini qəti olaraq rədd etdi.

1877-ci ilin yazında diplomatik səylər boşa çıxdıqdan sonra, çar hökuməti Cənub-Şərqi Avropa və Yaxın Şərqdə öz nüfuzunu itirməmək üçün Osmanlı imperiyasına qarşı müharibəyə başlamaq qərarına gəldi. 1877-ci il aprelin 12-si (24-ü) çar II Aleksandr Türkiyəyə müharibə elan etmək haqqında manifesti imzaladı. İlkin olaraq Rusiya Avstriya-Macarıstanın birtərəfliyi və Rumıniyanın ərazisindən rus ordusunun keçməsinə dair razılıq aldı. Rumıniya ilə bu məqsədlə xüsusi razılaşma bağlandı ki, bu da rumın ordusunun müharibədə bir başa iştirakı demək idi, məqsəd isə Rumıniyanın Sultandan vassal asılılığının qalıqlarını ləğv etmək perspektivi idi.

İyunun 15-i (27-si) general M.İ.Draqomirovun Dunay ordusu Dunayı keçərək Sviştovu tutdu, Bolqarıstan ərazisi azad edilməyə başlandı. Digər bir rus ordusu Cənubi Qafqazda türk ordusuna qarşı hərbi əməliyyatlar aparırdı. Dunay ordusunun ön dəstələri general İ.V.Qurkonun komandanlığı altında iyunun 25-də (iyulun 7-si) Tırnovoya daxil olaraq Balkan dağ keçidini ələ keçirərək Cənubi Bolqarıstanı azad etməyə başladı. Lakin tezliklə bura Albaniya və Çernoqoriyadan ingilis gəmiləri vasitəsilə Süleyman paşanın güclü korpusu atıldı. Qurkonun dəstələri şimala çəkilməyə məcbur olaraq, dağ silsiləsində müdafiə keçdilər.

Avqustun 9-da (21) Şipka aşırımı uğrunda qanlı döyüşlər başladı. General N.Q.Stoletovun rəhbərliyilə rus əsgərləri və bolqar yığma qoşun döyüşçüləri dord ay ərzində Süleyman paşanın korpusunun həmlələrini dəf edərək keçidi qorudular. Şipka aşırımının müdafiəsi rus-bolqar hərbi əməkdaşlığının nümunəsi olmaqla bərabər rus qoşunlarının Şimali Bolqarıstanın əsas ərazilərinin azad etməsinə şərait yaratmışdır.

Yalnız Osman paşanın korpusunun tutduğu Pleven qalası istisna təşkil edirdi. İyul-sentyabr aylarında rus ali baş komandanı Nikolay Nikolayeviçin əmri ilə üç dəfə cəhd edilməsinə baxmayaraq qalanı almaq mümkün olmadı. Bundan sonra 1853– 1855-ci illər Sevastopol müdafiəsinin qəhrəmanı general E.İ.Totlebenin rəhbərliyilə Pleven hərtərəfdən tam olaraq mühasirə edildi. Qalanın mühasirəsində və əvvəlki hücumlarda rumın ordusu da iştirak edirdi. 1877-cil il noyabrın 28-də (dekabrın 10-u) türk qarnizonu qalanı tərk etməyə səy göstərsə də təslim olmağa məcbur oldu.

Osman-paşanın korpusunun təslim olması hərbi əməliyyatları sonrakı gedişinə əsaslı təsir göstərdi. 1877-ci ildə fevralında Türkiyə ilə sülh sazişi imzalamış Serbiya ona qarşı müharibəyə başladı. Rus qoşunları ağır qış şəraitində yenidən hücuma keçərək 1877-ci il dekabrın 23-də (1878-ci il yanvarın 4-də) Sofiyanı azad etdi. 30 dərəcə şaxtada rus birlikləri və bolqar yığma qoşunu dəstələri Balkan dağ keçidini aşdılar. 1877-ci il dekabrın 28-də (1878-ci il yanvarın 9-da) hücuma keçərək Şipka-Seynovda Vessel paşanın korpusunu əsir aldılar.

Hərbi döyüşlərin gedişində general M.D.Skobelevin diviziyası xüsusilə fərqlənmişdir.

Yanvarı 3-ü (15) – 5-də (17) Plovdiv uğrunda gedən üç günlük döyüşlərdə Süleyman paşanın korpusu məğlub edildi və Cənubi Bolqarıstanın bir sıra şəhərlərinin azad edilməsinə başlandı. 1878-ci il yanvarın 19-da (31) hələ 11 gün əvvəl azad edilmiş Adrianopolda barışıq imzalandı. Bu zamana kimi Rusiyanın 200 min nəfər əsgərinin qanı bahasına Osmanlı imperiyasının Balkanlardakı əsas hərbi qüvvəsi məğlub edilmişdir. Cənubi Qafqazda rus ordusu Ərzuruma çıxdı.

Rus ordusu Bolqarıstan ərazisinə daxil olduqdan sonra bolqarların milli-azadlıq hərəkatı daha geniş miqyas almışdır. Müharibə elan olunduqdan sonra Buxarestdəki mərkəzi Bolqar xeyriyyə cəmiyyəti bolqar xalqını Rusiya xilaskar ordusu ilə çiyin-çiyinə vuruşmağa dəvət edən müraciət dərc etdirdi. Bütün Bolqarıstan torpaqlarında könüllülər xalq yığma qoşununa qoşulmağa başladılar. Könüllülərdən, o cümlədən 1860–70-ci illərin sonlarında milli-azadlıq mübarizəsinin iştirakçılarından, eyni zamanda serb ordusu tərkibində Osmanlıya qarşı vuruşan bolqarlardan təşkil edilən dəstələrinin yaradılmasına hələ müharibənin başlanmasından əvvəl, yəni 1877-ci ilin fevral–mart aylarında Kişinyovda başlanmışdır. Mayda Samarı sakinləri iki xalqın dostluq rəmzinə çevrilmiş və 1876-cı il Aprel üsyanı zamanı hazırlanmış bayrağı yığma qoşuna təqdim etdi. 7,5 min nəfəri əhatı edən altı batalyondan ibarət olan yığma qoşun general N.Q.Stoletovun komandanlığı altında Tırnovonun azad edilməsində iştirak etməklə bərabər

Stara Zaqor, Şipka və Şeynov döyüşlərində fərqlənmişdir. Müharibənin sonunda yığma qoşunun tərkibində artıq 12 batalyon var idi.

Bundan əlavə, rus komandirlərinin köməyi, bəzən təşəbbüsü ilə rus zabitlərinin və ya bolqar voyevodalarının başçılığı altında fəaliyyət göstərən könüllü bolqar dəstələr təşkil olunurdu. Beləliklə, məsələn, Yelena şəhəri ətrafında P.Xitov, F.Totyu, Jelyu əmi, Loveç ərazisində İ.Markov, Ts.Petkov, P.Oqnyanov və b. çətələri döyüşürdü. Rus hərbi hissələrinin cinahlarında, o cümlədən kəşfiyyat əməliyyatlarında iştirak edən bolqar könüllülərindən olan yığma dəstələr xüsusilə dağlıq ərazilərdə rus ordusuna mühüm köməklik göstərirdilər.

Bolqarıstanın bir çox şəhər və kəndlərində kortəbii olaraq rus ordusunun ehtiyatlarından və ya qarşı tərəflə döyüşlərdə silah əldə edən xalq milis dəstələri yaradıldı. Onlar asayişi qoruyaraq, yaşayış məntəqələri arasındakı yollara nəzarət edir, Osmanlı ordusu hissələrinin, başibozuk dəstələrin peyda olması barədə xəbərdarlıq edir, geri qalan və ya dağlara sığınan Osmanlı əsgərlərini əsir alırdılar. Xalq milis dəstələri bəzən bir neçə yüz silahlı könüllülərdən ibarət idi ki, məsələn, Qazanlıqda onların sayı 500 nəfər, Stara Zaqorada isə 600 nəfər idi. Stara Zaqorada Osmanlı işğalına qarşı müqavimətin təşkilində görkəmli bolqar yazıçısı və ictimai xadimi, yerli məktəb müəllimi Petko Slaveyko və onun tələbələri, eyni zamanda onlardan biri Bolqarıstan sosial-demokrat partiyasının gələcək yaradıcısı D.Blaqoyev fəal rol oynadılar.

Osmanlı ordusunun arxasında təşkil edilmiş qeyri-mütəşəkkil xalq çətələri hərəkət edirdi. Müharibənin əvvələrində onlar əsasən Stara Planinanın şimal yamaclarında, daha sonra Balkan və Orta dağlardan cənubda, həmçinin Rodop və başqa ərazilərdə fəaliyyət göstərirdilər. Çətələr partizan müharibəsi apararaq, əhalini vəhşi başıpozuqlardan müdafiə edir, kiçik türk dəstələrinə, hərbi anbarlara hücum edir, teleqraf rabitələrini məhv edirdilər. Bunların ən böyüklərindən biri 1860–70-ci illərdə Bolqarıstan, İtaliya və Kritdə yadellilərə qarşı mübarizədə iştirak edən cəsurluğu ilə məşhur olan Petko-Voevodanın (P.Kiryakov) çətəsi idi. Rodop dağlarında və Qərbi Trakyada fəaliyyət göstərən Petko-Voevodanın çətəsi türk hissələrinə onlarla cəsarətli basqınlar edərək əslində ərazinin əhəmiyyətli bir hisəsini Osmanlı hakimiyyətindən azad etmişdir. Petko-Voevodanın xidmətlərinin tanınması əlaməti olaraq ona rus ordusunun kapitanı zabit rütbəsi verilmişdir. Rus hərbi hissələri irəlilədikcə xalq milis və çətələrin fəaliyyəti daha da artmışdır.

Rus ordusuna hərtərəfli yardımı vətənpərvərlik ruhu bürüyən dinc bolqar əhalisi təmin etdi. Bir çox qoçaq həyatlarını təhlükəyə ataraq, türk qoşunlarının yerləşməsi və yenidən qruplaşması barədə rus komandanlığına məlumat çatdırırdılar. Kişilər, qadınlar və uşaqlar dağılmış yolları və körpüləri bərpa edir, müdafiə tikililəri qurur, irəliləyən rus ordusu hissələrini təmənnasız olaraq at və qoşqu ilə, ərzaq və yemlə təmin edirdilər. Bəzən, məsələn, Şipka döyüşündə olduğu kimi bir çox sakin qarşı tərəfin atəşi altında əsgərlərə su,

yemək, döyüş sursatı çatdırır, yaralıları döyüş meydanından çıxarırdılar. Bolqarlar rus intendant xidmətinə yardım edir, hərbi xəstəxanaların işinə kömək edir, dağıntıların aradan qaldırılmasında, yeni həyat və yeni nizamın qurulmasında iştirak edirdilər. G.Dimitrov və V.Kolarovun qeyd etdiyi kimi, 1878-ci ildə Bolqarıstanın azad edilməsi iki qüvvənin, iki əsas amilini rus ordusunun və Bolqarıstan milli-azadlıq hərəkatının nəticəsidir ki, həlledici rol isə məhz Rusiyaya məxsusdur.

1878-ci il fevralın 19-da (martın 3-ü) Konstantinopol yaxınlığındakı San Stefanoda Rusiya ilə Türkiyə arasında sülh müqaviləsi imzalandı. Sülhün şərtlərinə əsasən Bolqarıstan Dunaydan Egey dənizinə və Qara dənizdən Oxrid gölünə kimi olan sərhədlər daxilində muxtar knyazlıq olaraq Sultanın vassalı elan edildi. Rus ordu hissələrinin iki il qalması şərtilə türk qoşunları bu ərazidən çıxarıldı. Rumıniya, Serbiya və Çernoqoriya tam müstəqillik əldə etdilər. Rumıniya Şimali Dobrucanı almaq şərtilə onların ərazisi genişləndi. 1856-cı il Paris sülh müqaviləsinə əsasən Rusiyadan alınmış Cənubi Bessarabiyanın bir hissəsi və Cənubi Qafqaz ərazisi Rusiyaya keçdi. Türkiyə Epir, Fessaliya və Albaniyada özünüidarəçiliyi genişləndirməyi, Türkiyə Ermənistanında islahatlar keçirməyi öhdəsinə götürdü.

Böyük bir Bolqar knyazlığının təşkil edilməsi Rusiyanın Balkanlarda mövqeyini gücləndirirdi. Bu baxımdan İngiltərə və Avstriya-Macarıstan San Stefano sülh müqaviləsinə qəti şəkildə qarşı çıxdı. Onun ilkin olaraq elan edildiyi və “ümumi Avropa maraqlarına” toxunan istiqamətlər üzrə beynəlxalq

konfransda müzakirəyə çıxarılması qeyd edilirdi. Sülh müqavilənin bağlanmasından 102 gün sonra, 1878-ci il iyunun 13-də İngiltərə və Avstriya-Macarıstanın təşəbbüsü ilə Berlində sülhün şərtlərinə yenidən baxılması məqsədilə beynəlxalq konqres çağırıldı. 1878-ci ilin yanvarında Mərmərə dənizinə donanma göndərən İngiltərə və Avstriya-Macarıstanla müharibə təhlükəsinə əsasən hərbi əməliyyatlar zamanı ağır itkilər vermiş Rusiya güzəştə getmək məcburiyyətində qaldı.

İyulun 1-də (13-ü) imzalanmış Berlin traktatı San Stefano sülh müqaviləsinin şərtlərini bolqar və digər Cənubslavyan xalqlarının, o cümlədən Rusiyanın zərərinə olaraq dəyişdirdi. Bolqarıstan knyazlığının ərazisi kəskin şəkildə azaldıldı, onun tərkibinə yalnız Dunaydan Stara Planinaya kimi olan Şimali Bolqarıstan və Sofiya dairəsi daxil idi. Knyazlığın başçısı böyük dövlətlərin razılığı ilə Sultan tərəfindən təsdiq edilir və onun vassalı olaraq qalırdı. Burada konstitusiya qəbul edilənə kimi rus generalı başda olmaqla knyazlığın müvəqqəti idarəsi olan Ali komissarlıq təsis edilirdi. Stara Planinadan cənubda Rodop dağlarına qədər olan Bolqarıstan bölgələri Osmanlı İmperiyası sərhədləri daxilində inzibati muxtariyyət alaraq Şərqi Rumeli vilayətini təşkil etdi. Onun valisi böyük dövlətlərin razılığı ilə xristian olmaq şərti ilə Sultan tərəfindən təyin edilirdi. Sultan bölgənin təhlükəsizliyinə təhlükə yarandıqda, öz qoşunlarını ora göndərmək hüququ aldı. Rus qoşunlarının knyazlıqda və Şərqi Rumelidə qalma müddəti doqquz aya endirildi. Knyazlıq və bölgə Osmanlının borclarının ödənilməsində iştirak etməyə borclu

idi və onlara münasibətdə kapitulasiya rejimi qorunurdu. Makedoniya, eyni zamanda Trakya və Albaniya Osmanlı imperiyasının tərkibində qaldı. Bu vilayətlərdə Sultan hökuməti yenidən islahatlar aparmağı öhdəsinə götürdü.

Bolqarıstan knyazlığının ərazisinin azaldılması xüsusən də knyazlığın hüdudlarına daxil olmayan torpaqlarda yaşayan bolqar əhalisinin kəskin narazılığına səbəb oldu ki, bu da 1878-ci ildəki Kresnen-Razlojsk üsyanında, Petko Kiryakov və digər voevodaların başçılıq etdiyi bir sıra çetlərin fəaliyyətində özünü göstərdi.

Müstəqil elan edilən Serbiyanın və Çernaqoriyanın sərhədləri San-Stefano sülhü ilə müqayisədə bir qədər dəyişdi, belə ki, Çernoqoriyanın ərazisi azaldıldı, Bolqarıstanın iddia etdiyi ərazilər isə Serbiyanın tərkibinə daxil edildi. Yunanıstanın ərazisinin artırılması qərara alındı ki, bu da 1880-ci ildə konkret razılaşma ilə başa çatdı. Rusiya və Rumınya ilə bağlı qalan ərazi dəyişiklikləri toxunulmaz saxlanıldı. Avstriya-Macarıstan Bosniya və Herseqovinanın 30 illik işğal haqqını aldı, İngiltərə, Konqresdən əvvəl Sultan hakimiyyətilə gizli konvensiya imzalayaraq Kipri işğal etdi. Bolqar və digər xalqlarla bağlı bir çox ədalətsiz qərarların qəbul edilməsinə baxmayaraq, Berlin müqaviləsi Balkan xalqlarını azad edən Rusiya-Türkiyə müharibəsinin nəticələrini tamamilə silə bilmədi və bütövlükdə balkan xalqlarının Osmanlı asılılığından siyasi, sosial və milli qurtuluşu yolunda bir addım idi.

Hələ hərbi əməliyyatların başlanmasından əvvəl rus qoşunlarının baş komandanlığı nəzdində azad edilmiş Bolqarıstan

ərazisində knyaz V.A.Çerkasskinin başçılığı ilə mülki işlər idarəsi yaradılmışdı. V.A.Çerkasskinin ölümündən sonra keçmiş təcrübəli hərbi idarəçi, Berlin müqaviləsinin imzalanmasından sonra Ali komissar titulu almış general A.M.Dondukov-Korsakov onu əvəz etmişdir. Sofiyanın birinci vitse-qubernatoru və komissarın ən yaxın müşaviri olmuş görkəmli bolqar alimi Marin Drinovun təklifilə Sofiya yeni yaradılmış Bolqar knyazlığının paytaxtı elan olundu. Rusiya komissarının idarəsində altı, yəni, məhkəmə, maliyyə, daxili işlər, xalq maarifi, hərbi və bir az sonra xarici şöbələr yaradılmışdır. Onlara əvvəlcə rus zabit və məmurları başçılıq edirdi, yalnız xalq maarifi şöbəsinə bolqar M.Drinov başçılıq edirdi. Şərqi Rumelinin əsas şəhəri Plovdivdə general A.D.Stolıpin müvəqqəti qubernator təyin edilmişdir.

Əvvəlcə rus mülki idarəsinin əsas vəzifəsi müharibə zamanı evlərini tərk etmiş, sayları ən azı 200 min nəfər olan bolqar qaçqınlarına və türk ordusu tərəfindən dağıdılmış Bolqarıstanın şəhər və kəndlərinin əhalisinə təcili yardım göstərmək idi. Onlara təmənnasız olaraq pul müavinətləri verilir, ərzaq paylanırdı. Qaçqınlar geri çəkilən Osmanlı ordu hissələri ilə birlikdə qorxu içində yerlərini tərk edən türk feodallarının evləri və torpaqlarında yerləşirdilər. Berlin müqaviləsinin şərtləri elan edildikdən sonra Sultanın birbaşa nəzarəti altında qalan ərazilərdən yeni bolqar qaçqın dalğası knyazlığa axışdı.

Rus qoşunları azad edilmiş bölgələrdə irəlilədikcə Osmanlı idarəsi yeni dövlət aparatı ilə əvəz olunurdu. Başlanğıcda əyalət və dairə idarələrinin başına rus zabitləri və yaxud məmurları, qismən də bolqarlar təyin edilirdi. Məsələn, əvvəl-

lər 20 il rus vitse-konsulu vəzifəsində çalışmış bolqar Nayden Gerov Bolqarıstanın azad edilmiş böyük şəhəri olan Sviştovda qubernator təyin edilmiş, İ.İvanov isə Slivendə ilk bolqar qubernator olmuşdur. Rus qubernatorları və vilayət rəislərinin hər yerdə müavini ilk növbədə Rusiyanın müxtəlif təhsil müəssisələrində oxumuş bolqarlardan təyin edilirdi. Məsələn, M.Drinov, T.Burmov və P.Karavelov müvafiq olaraq Sofiyada, Plovdivdə və Tırnovoda vitse-qubernator idilər. Bir qayda olaraq, mütərəqqi əqidəli bolqarlar, xüsusilə V.A.Çerkasskinin dövründə ən böyük inzibati vəzifələrə təyin edilmirdilər.

“Köhnə” bolqar burjuaziyasının mühafizəkar liderləri bəzi rus generallarının köməyilə yeni dövlətdə qeyd-şərtsiz hökmranlıqlarını qurmağa çalışırdılar. Lakin ölkədəki ümumi vəziyyət, millətin feodal boyunduruğundan azad edilməsi, geniş xalq kütlələrinin siyasi və ictimai fəallığının oyanması yenidən doğulmuş Bolqarıstanda sinfi qüvvələrin balansına həlledici təsir göstərdi. Bundan əlavə, rus mülki idarəsinin uzaqgörən rəhbərləri Rusiyanın bolqar xalqına təsirini gücləndirmək məqsədi ilə xalqın ən müxtəlif təbəqələrinin nümayəndələrini ölkənin rəhbərlik işlərinə cəlb etmək istiqamətini təyin etdilər. Nəticədə yeni seçilmiş yerli özünüidarə orqanlarının orta və ali inzibati vəzifələrinə xüsusilə mütərəqqi ünsürlərin təsirinin qaldığı ərazilərdə “gənc” xırda burjua və ziyalı təbəqəsindən olan demokratik düşüncəli insanlar geniş şəkildə cəlb edilmişdir.

Qısa müddətdə bolqar milli kadrlarını hazırlamaq vəzifəsini qarşıya qoyan rus mülki idarəsinin rəhbərləri bolqar məmurlarını hazırlamaq məqsədilə xüsusi kurslar təşkil etdilər,

bütün kargüzarlıq işlərin bolqar dilində apararaq, tədricən rus idarəçilərini bolqarlarla əvəz etdilər. 1879-cu ildə mülki idarənin ləğvi zamanı knyazlıqda 3 minə yaxın bolqar və 150-yə yaxın rus məmuru var idi. Əyalətlərdə, dairə və şəhərlərdə vəzifəli şəxslərdən və yerli əhalinin seçilmiş nümayəndələrindən ibarət idarəçilik şuraları yaradılırdı. Ən aşağı inzibati vahidin (icma) başçısı kmet (ağsaqqal, başçı, şəhər rəisi) təyin edilirdi. Onun tabeliyində əhalinin seçdiyi ağsaqqallar şurası fəaliyyət göstərirdi. Adıçəkilən şuralara seçkilərdə əmlak senzi müəyyən olundu ki, bu da orta və ali təhsilli şəxslərə şamil edilmirdi. Türk feodal məhkəməsi mahiyyətcə burjua təşkilatı olan yeni məhkəmələrlə əvəz olundu ki, aşağı (kənd) məhkəmə və apellyasiya məhkəməsində iclasçılar seçkili idi. Ümumilikdə məhkəmələrə və ağsaqqallar şuralarına əsasən xırda burjuaziya və ziyalılardan ibarət 20 minə yaxın insan cəlb edilmişdir.

Vergi sistemi dəyişdirildi, iltizamçıların vergi yığmasına son qoyuldu, Osmanlı imperiyasında bütün qeyri-müsəlman əhaliyə tətbiq edilən mənfur xüsusi vergilər ləğv olundu, natura şəklində yığılan “desyatin” dayandırıldı. Hələ 1879-cu ildə rus hökumətinin təmənnasız köməyi ilə Bolqarıstan knyazlığında ilk bank olan Bolqarıstan Xalq Bankı yaradılmışdır. Eyni zamanda, rus hakimiyyət orqanlarının köməyi ilə ölkədə poçt-teleqraf xidmətinin əsası qoyuldu.

Maarifin, elm və mədəniyyətin inkişafı üçün ilk tədbirlər görüldü. Əvvəllər mövcud olan ibtidai məktəblərin şəbəkəsi bərpa edilir və genişləndirilirdi. Bir sıra mühüm şəhərlərdə klassik gimnaziyalar və real məktəblər kimi bir neçə orta təh-

sil müəssisəsi, onlar üçün tədris planları, əsasnamələr təşkil olundu. Artıq 1878-ci ildə Sofiyada Rusiyanın Slavyan komitələrinin bilavasitə köməyi sayəsində ilk ictimai kütləvi kitabxananın (qiraət zalı ilə) təməli qoyuldu. Quberniya və dairə mərkəzlərində xəstəxanalar, apteklər açıldı.

Rusiya mülki idarəsinin rəhbərləri Bolqarıstan ordusunun yaradılmasına xüsusi diqqət yetirirdilər. Onlar başa düşürdülər ki, knyazlığa qarşı davamlı ingilis-osmanlı təxribatı şəraitində döyüşə hazırlıqlı ordu bolqar xalqının azadlığını və müstəqilliyini qoruyub saxlamaq üçün vasitədir. Bolqarıstanın müstəqilliyinin möhkəmlənməsi Rusiyanın Balkanlardakı siyasətinin maraqlarına uyğun idi. Rus zabitlərinin rəhbərliyi altında knyazlıqda xalq qoşununun bazası əsasında zemstvo qoşunu, Şərqi Rumelidə milislər yerləşdirildi. Rusiya silahlı qüvvələrinin ehtiyatlarından silah, sursat, hərbi geyim və digər texnika, o cümlədən bir neçə döyüş gəmisi verildi. Bolqar zabit kadrlarının hazırlanması məqsədilə Sofiyada rus zabitlərinin dərs dediyi hərbi məktəb yaradıldı. Çoxlu sayda bolqarlar Rusiyaya, ordunun müxtəlif sahələrini təmsil edən hərbi təhsil məktəblərinə göndərildi. Artıq 1879-cu ilin əvvəlində zemstvo ordusu 25 min nəfərə yaxın yaxşı təlim keçmiş döyüşçüdən ibarət idi.

Türk qoşunlarının hücumu təhlükəsi qarşısında Şərqi Rumelidə rus hakimiyyət orqanlarının köməyi ilə milislərdən əlavə kənd mühafizəçiləri, atıcı-gimnastik cəmiyyətlər təşkil olundu. Burada ümumən 100 min nəfərdən çox insan müxtəlif formalarda hərbi təlimlərə cəlb edilmişdir. Sultan hökumətinin Şərqi Rumelini knyazlıqdan təcrid etmək və orada

Osmanlının təsirini gücləndirmək xəttini dəstəkləyən İngiltərə və Avstriya-Macarıstan nümayəndələrindən fərqli olaraq, bölgənin bolqar əhalisinə arxalanan rus idarəçiləri onun knyazlıqla əlaqəsini qoruyub saxlamağa çalışırdılar.

Bolqarıstan ərazisində Osmanlı imperiyasının dövlət aparatının ləğv edilməsi aqrar inqilab üçün əlverişli şərait yaratmışdır. Bolqar kəndlilərinin türk mülkədarlarından və bütövlükdə Osmanlı imperiyasından feodal və yarımfeodal şəxsi asılılığının bütün formaları məhv edildi. Hələ 1877-ci ilin sentyabrında Rusiya mülki idarəsi ərzaq problemini həll etmək məqsədilə bolqar kəndlilərinə qaçan müsəlmanların torpaqlarında məhsul əkməyə icazə verdi ki, bu da kəndlilərin təşəbbüskarlığını üzə çıxarmaq üçün ilk təkan oldu. 1878-ci ilin yazından, Osmanlı ordusunun məğlubiyyətindən və San Stefano müqaviləsinin bağlanmasından sonra Bolqarıstanda türk mülkədarlarının torpaq mülkiyyətçiliyinin kütləvi şəkildə ləğvi baş verdi. Bolqar kəndliləri bir qayda olaraq, qaçan türk feodallarının (ağa və bəylərin), bəzən isə Osmanlı ordusu ilə birlikdə gedən türk kəndlilərinin torpaqlarını və təsərrüfat avadanlıqlarını ələ keçirirdilər. Bundan əlavə, dövlət fondu torpaqlarının əhəmiyyətli bir hissəsi də kəndlilərin əlində cəmləşmişdir.

Berlin konqresindən sonra müqavilənin müvafiq maddələrinə əsaslanaraq London və Vyana diplomatları türk qaçqınların Bolqarıstana qayıtmasına və əmlaklarının tam olaraq geri qaytarılmasına hər cür səy göstərdilər. Bu, Bolqarıstanda Qərb dövlətlərinin təsirinə dəstək kimi türklərin iqtisadi gücünü bərpa etmək üçün nəzərdə tutulmuş torpaq sahibliyinin

bərpası planı idi. Rusiya hakimiyyəti planın həyata keçirilməsinin qarşısını qətiyyətlə aldı. Onlar bir fərman verdilər ki, keçmişdə bolqar əhalisinə qarşı hər hansı cinayət əməli (qəsb, dağıntı, soyğunçuluq və zorakılıq) törətmiş hər bir türk geri qayıtdıqdan sonra dərhal məhkəməyə cəlb olunacaq. Üstəlik, mülkiyyət hüquqlarını bərpa etmək üçün Bolqarıstana qayıdan iki böyük türk mülkədarı ilə bağlı fərmana uyğun olaraq açıq məhkəmə keçirildi. Məhkəmə onlara ölüm hökmü çıxardı. Rus hakimiyyətinin qətiyyətli mövqeyi bolqar kəndlilərinə müharibə zamanı ələ keçirdikləri torpaqları öz sərəncamında saxlamağa kömək etdi. Bu, bolqar xalqının Rusiyaya sevgi və minnətdarlıq hisslərini güclənməsinə yardımçı oldu.

Türk feodallarının və Osmanlı dövləti torpaqlarının bolqar kəndlilərinin əlinə keçməsi Bolqarıstan ərazisində Osmanlı hökmranlığının sosial-iqtisadi əsaslarının aradan qaldırılması demək idi. Bolqar xalqının istismar edən köhnə feodal zülm və istismar aparatı məhv edildi. Bolqar və digər qeyri-müsəlman əhalinin bir neçə əsrlər boyu mövcud olan hər cür milli bərabərsizliyi aradan qalxdı, kəndlilərin türk mülkədarlarından və bütövlükdə Osmanlı imperiyasından feodal və yarımfeodal asılılığının bütün formaları ləğv olundu.

Bolqarıstanda hakimiyyət ilk vaxtlar xırda burjua (kəndli) kütlələrilə, bütün xalqla tam şəklində fəaliyyət göstərən bolqar burjuaziyasının əlinə keçdi. Osmanlı feodal asılılığının ləğvi və bolqar burjua dövlətinin yaradılması ilə milli iqtisadiyyatın inkişafı yolunda maneələr aradan qaldırıldı, bolqar burjuaziyasının sahibkarlıq və ticarət fəaliyyətinin hüquqi müdafiəsi

və təhlükəsizliyinin əsası qoyuldu. Beləliklə, müharibənin gedişində bolqar xalqının iştirakı ilə burjua inqilabının vəzifələri obyektiv olaraq həll edildi. "Rusiya-Türkiyə müharibəsi – V.Kolarov qeyd edirdi, – Bolqarıstanı nəinki siyasi cəhətdən azad etdi, həm də onun dərin qatlarında baş verən sosial inqilabı sürətləndirdi və tamamladı". Müharibə iki ictimai-iqtisadi formasiya arasında sərhəd oldu, ölkə tarixində yeni mərhələnin başlanğıcı – Bolqar burjua dövlətinin başlanğıcı oldu.

San Stefano sülh müqaviləsinin şərtləri İngiltərə və Avstriya-Macarıstanın hakim dairələri arasında güclü narazılığa səbəb oldu. İngiltərə hökuməti Osmanlı imperiyasının bütövlüyünü qoruyub saxlamaqla bağlı ənənəvi antislavyan siyasətinə təhlükə hiss edirdi. İngilis burjuaziyası Qara dəniz boğazları ərazisində Rusiyanın təsirinin artmasını istəmirdi. Makedoniyanın daxil olması ilə böyük bir Slavyan knyazlığının yaradılması Egey dənizinə çıxış və Salonikini ələ keçirmək istəyən Avstriya- Macarıstanın təcavüzkar planına zidd idi. San Stefano müqaviləsinin hüdudları daxilində böyük bir Bolqar dövlətinin mövcud olması Avstriya-Macarıstan tərəfindən əzilən cənub slavyanlarının milli-azadlıq hərəkatını alovlanmasına şərait yaradırdı.

Qeyd edildiyi kimi, Avstriya-Macarıstan və İngiltərə San Stefano sülh müqaviləsinin şərtlərinə yenidən baxılmasını qətiyyətlə tələb etdilər.

Almaniya kansleri Bismark Avstriya-Macarıstan və İngiltərənin anti-Rusiya siyasətini dəstəkləyərək San Stefano müqaviləsinin Avropa əhəmiyyətli maddələrinə yenidən baxılması məqsədilə ümumavropa dövlətlərini konqresə dəvət etdi.

Bununla belə, İngiltərə nəzərdə tutulan konqresdə bütövlükdə San-Stefano müqaviləsinə yenidən baxılması ilə bağlı barışmaz mövqe tutdu və ilkin razılıq olmadan Bismarkın dəvətini qəbul etməkdən imtina etdi. Britaniya hökuməti ordunun ehtiyat hissələrinə çağırış əmri verərək açıq şəkildə təhdid siyasətini yeritməyə başladı. İngiltərənin bu siyasətindən çıxış edən Osmanlı hökuməti qoşunlarını Konstantinopola toplamağa başladı.

Bəhs edildiyi kimi, Rusiya-Türkiyə müharibəsi Rusiyanın qüvvələrinin və maliyyə vəziyyətinin ciddi şəkildə tükənməsinə səbəb olmuşdur. Böyük dövlətlərin koalisiyası ilə yeni müharibə perspektivləri çar hökumətini güzəştə getməyə və müqaviləyə yenidən baxılmasına razılaşmağa məcbur etdi. Konqresin işində iştirak etməyə hazırlaşan knyaz A.M.Qorçakov İngiltərənin irəli sürdüyü şərtləri öyrənmək və ilkin razılığa gəlmək istəyirdi. Bu məqsədlə Rusiyanın Londondakı səfiri qraf P.A.Şuvalov Solsberi ilə danışıqlara başladı. Bu danışıqlar şərtləri Berlin konqresinin qərarlarının əsasını təşkil edən İngiltərə-Rusiya arasında müqavilənin 1878-ci il mayın 18-də imzalanması ilə başa çatdı.

Çar hökuməti Bolqarıstanın iki hissəyə – yəni, müstəqil knyazlıq kimi Şimal və Osmanlı tərkibində qalan Cənub hissəsinə bölünməsinə, ona inzibati muxtariyyət verilməsi şərtilə razılaşmağa məcbur oldu. Rusiya türk qoşunlarının Cənubi Bolqarıstandan çıxarılmasında israr etdi, İngiltərə Sultanın xeyrinə Cənubi Bolqarıstan sərhədlərinə qoşun yerləşdirmək hüququnu özündə saxladı. İngiltərə Avropa dövlətlərinin Bolqarıstanın hər iki hissəsinin inzibati strukturunun inkişafında

iştirakını tələb etdi və rus qoşunlarının Bolqarıstanda qalma müddəti məsələsini müzakirə etmək hüququnu da aldı.

Tələb olunan güzəştlərə Rusiyanın razılığını əvvəlcədən təmin edən Britaniya hökuməti bu uğurunu möhkəmləndirmək məqsədilə mayın 25-də Avstriya-Macarıstan hökuməti ilə gələcək təzyiqlərə birgə tədbirlər haqqında saziş bağladı. Avstriya-Macarıstan ərazisini məhdudlaşdırmaq məqsədilə Staraya Planinanın cənubundakı Bolqar knyazlığının Rusiya tərəfdən işğalı müddətini altı aya məhdudlaşdırdı. İngiltərə Avstriya-Macarıstanın Bosniya və Herseqovina iddiası dəstəyinə zəmanət verdi.

1878-ci il iyun 4-də İngiltərə Türkiyə ilə ittifaqa girərək şübhəli olan onun Asiyadakı mülklərini Rusiyadan qoruyacağına söz verdi. Bu şübhəli öhdəliyə görə İngiltərə Türkiyədən Süveyş kanalı kənarında Aralıq dənizinin şərqindəki son dərəcə mühüm strateji hərbi dəniz bazası olan Kipr adasını aldı.

1878-ci il iyunun 13-də Berlində O. fon Bismarkın sədrliyilə Avropa dövlətləri nümayəndələrinin konqresi açıldı. Bolqar xalqının taleyi məsələsinin burada həll olunmasına baxmayaraq onların nümayəndələri konqresə buraxılmadı.

Konqresdə əsas rolu Almaniyanın kansleri ilə bərabər İngiltərə və Avstriya-Macarıstan nümayəndəliyi oynadılar. Almaniyanın Balkan işlərində marağı olmadığını hər zaman vurğulayan O.fon Bismark, əslində tam olaraq İngiltərə və Avstriya-Macarıstanın tərəfində idi. Bu güc nümayəndələrinin rəhbərliyi altında konqres əslində Rusiyaya və slavyan xalqlarına qarşı yönəlmiş Qərb dövlətlərinin koalisiyasını yaratdı. Rusiya

nümayəndələri demək olar ki, təcrid olunmuşdur. Müharibənin nəticələrini inkar edə bilməyən britaniyalı diplomatlar Rusiyanın və Balkan yarımadasındakı slavyanlarının maraqlarını pozmaq üçün mümkün olan hər bir addımı atdılar.

Konqresdə birinci olaraq Bolqarıstan məsələsi müzakirə edildi və müzakirələr altı sessiyaya kimi davam etdi. Böyük Britaniyanın Baş naziri, ingilis burjuaziyasının nümayəndəsi Benjamin İsrael Egey dənizinə çıxışı olan müstəqil Bolqarıstanın yaranmasına qarşı kəskin surətdə etiraz etdi. O, Egey dənizinə çıxışı olan yeni bir dəniz gücünün meydana çıxmasını Bolqarıstanla qonşu dövlətlər arasında narazılığına səbəb olduğunu bildirərək bunun yunanları təhdid edəcəyini bildirdi. İngilis və Avstriya-Macarıstan nümayəndələri Bolqarıstanın adını verməmək üçün Cənubi Bolqarıstana Şərqi Rumeli adının keçirilməsini təklif etdilər. Benjamin İsrael və Gyula Andrassy yekdilliklə Rusiyanın Bolqarıstanda olmasına qarşı çıxış etdilər. Andrassy səmimiyyətsizliklə bildirdi ki, Rusiyanı Bolqarıstanda qalması guya bolqarların etirazına səbəb olacaq, "ictimai rəy hərbi vəziyyətin bitdiyini düşünməyəcək ...". O, rus güclərinin Bolqarıstanda qalmasını altı aya endirməkdə təkid edirdi. Bolqarıstanda Rusiyanın təsirini zəiflətmək istəyən B.İsrael və G.Andrassy Avropa komissiyasının nəzarəti altında Bolqarıstanın qalmasını təklif etdilər. P.A.Şuvalov qarışıq nəzarət təklifini rədd etdi, lakin rus güclərinin ölkədə qalma müddətini doqquz aya endirilməsinə razılaşmağa məcbur oldu.

İngiltərə və Avstriya-Macarıstan nümayəndələri israrla Bolqarıstanın cənubunun türk qoşunları tərəfindən işğalına

can atsalar da Rusiya nümayəndə heyətinin kəskin etirazını nəzərə alaraq təkliflərini geri çəkmək onu yeni Balkan dağ keçidinin türk qoşularının tutması tələbi ilə əvəz etməli oldular.

Berlin konqresinin Bolqarıstanla bağlı qərarları Avropa hökumətləri tərəfindən diktə olunurdu. Onların əsas məqsədi Rusiyanın Balkanlarda təsirinin güclənməsinin qarşısını almaq, Bolqarıstan dövlətini mümkün qədər zəiflətmək və inkişafına mane olmaqdan ibarət idi ki, onu özünə tabe edib müstəmləkəyə çevirmək daha asan olsun. Onlar Rusiyanın qələbəsinin nəticələrini imkan daxilində məhdudlaşdırmaqla Balkanlarda öz təsirlərini gücləndirmək üçün zəifləmiş Osmanlı Türkiyəsindən istifadə etməyə çalışırdılar.

Yuxarıda da qryd edildiyi kimi, Konqresin açılışından bir ay sonra, 1878-ci il iyulun 1-də San Stefano müqaviləsini əvəz edən Berlin traktatının imzalanması ilə onun işi başa çatdı. Avropa dövlətlərinin qəbul etdiyi qərarlar Balkan slavyanlarının və xüsusən də bolqar xalqının taleyinə mənfi təsir göstərmişdir. Berlin Konqresində San Stefano müqaviləsinin Bolqarıstan dövlətinə aid olan maddələri ən əhəmiyyətli dəyişikliyə məruz qaldı. Bolqarıstan üç yerə bölündü. Bolqar knyazlığının tərkibinə yalnız şimalda Dunay və cənubda Staraya Planina ilə sərhəd olan Şimali Bolqarıstan ərazisi daxil idi.

Berlin müqaviləsinin VI maddəsinə əsasən, Bolqarıstandakı müvəqqəti idarə üzvi nizamnamə işlənməmişdən əvvəl, rus komissarının rəhbərliyi altında fəaliyyət göstərməli idi. Lakin "ona kömək etmək üçün" güclər öz konsullarını, Tür-

kiyə isə müvəkkilini təyin etməli idi. Onlar arasında fikir ayrılığı yarandıqda, məsələni müqavilənі imzalayan səlahiyyətli nümayəndələrin konfransı həll rtməli idi. Bu maddə rus komissarının fəaliyyətini ilk növbədə Britaniya və Avstriya-Macarıstan diplomatiyasının nəzarətinə tabe edərək onun fəaliyyətinin məhdudlaşdırması demək idi. XIII maddəyə əsasən, Osmanlı Türkiyəsinin hakimiyyəti altında "Şərqi Rumeli" muxtar vilayəti təşkil edilir, başında isə xristian general-qubernatoru təyin olunurdu. Səlahiyyətli nümayəndələrin razılığı ilə general-qubernator Porto hakimiyyəti tərəfindən beş il müddətinə təyin edilirdi.

Böyük dövlətlərin nümayəndələrindən ibarət komissiya üç ay ərzində Şərqi Rumelinin idarəçilik nizamnaməsini işləyib hazırlamalı idi. Bu komissiya eyni zamanda Porte ilə birlikdə yeni idarəçilik yaranana kimi vilayətin maliyyə işlərini idarə etməli idi.

XV maddəyə əsasən Şərqi Rumelinin sərhədlərində Sultan istehkamlar qura və ordu saxlaya bilərdi. Osmanlı hakimiyyətinə verilən belə bir hüquq Şimali Bolqarıstanın sərhədləri üçün təhlükə yaradırdı. XVI maddəyə görə, Şərqi Rumeli general-qubernatorunun bölgənin daxili və ya xarici sülhünü təhdid edən hər hansı bir təhlükə yaranarsa, Osmanlı qoşunlarını çağırmaq hüququ var idi.

Müqavilənin XXIII maddəsinə əsasən, Makedoniya və Cənubi Trakya heç bir muxtariyyət olmadan Sultanın hakimiyyətinə qayıtdı, Porte yalnız bəzi islahatlar aparmağı öhdəsinə götürdü. Lakin bu öhdəçilik yerinə yetirilməmiş qaldı.

Bolqarıstan Egey dənizinə çıxışdan məhrum qaldı ki, bu da onun iqtisadi inkişafı üçün çox zəruri idi.

Cənubi Bolqarıstanın Şimali Bolqarıstandan ayrılması eyni zamanda Bolqarıstanın iqtisadi birliyinin dağılmasına gətirib çıxardı. Bolqarıstan knyazlığı Berlin müqaviləsilə müəyyən edilmiş sərhədlər daxilində 63,972 kv.km əraziyə, iki milyon nəfər əhaliyə malik idi. Bolqar əhalisinin demək olar ki, yarısı knyazlığın hüdudlarından kənarda qaldı. Berlin müqaviləsinin VIII və X maddələrinin şərtlərinə görə, Bolqarıstan knyazlığı o dövrdə knyazlıqda yeganə olan Ruse-Varna dəmiryol cəmiyyəti və Knyazlıq cəmiyyətilə bağlı Osmanlı Türkiyəsinin beynəlxalq öhdəliklərinin bir hissəsini öz üzərinə götürməyə borclu idi. Knyazlığın ərazisindən daşınan mallardan tranzit rüsumunun alınması qadağan edildi. Bolqarıstanda kapitulyasiya rejiminin və türk kömür sisteminin saxlanması İngiltərə, Avstriya-Macarıstan və Almaniyanın Bolqarıstanın iqtisadi cəhətdən əsarət altına alınmasına, onun özlərinin xammal əlavəsinə çevrilməsinə kömək etdi.

Knyazlığın və Şərqi Rumelinin işğal müddəti iki ildən doqquz aya endirildi. Bu müddətdən sonra rus qoşunları növbəti üç ay ərzində knyazlıq və Şərqi Rumeli ərazisindən çıxarılmalı idi. Avropa hökumətləri Rusiyanın işğalı müddətini qısaltmaqla Bolqarıstanda Rusiyanın təsirini zəiflətməyə və gənc Bolqarıstan dövlətinin güclənməsinə mane olmağa çalışırdılar.

Eyni zamanda İngiltərə Kipri öz əlində saxladı. Avstriya-Macarıstan isə Bosniya və Herseqovinanı işğal etmək və işğal

müddətini göstərmədən idarə etmək hüququ aldı. Serbiya və Çernoqoriya arasında yerləşən Novobazar sancağı ərazisində Avstriya-Macarıstan öz qarnizonunu saxlamaq, hərbi obyektlər və strateji yollar tikmək hüququnu aldı. Rumıniya, Serbiya və Monteneqro müstəqil elan edilsələr də, son iki dövlətin ərazisi San Stefano müqaviləsi ilə onlar üçün müəyyən edilmiş sərhədlərlə müqayisədə azaldıldı.

Berlin konqresinin qərarları İngiltərə, Avstriya-Macarıstan və Almaniyanın Balkanlarda apardıqları antislavyan siyasətinin nəticəsi olaraq Balkanlarda öz mövqelərini möhkəmləndirirmək məqsədinə xidmət edirdi. Buna baxmayaraq Berlin müqaviləsinin qərarları Rusiya-Osmanlı Türkiyəsi müharibəsinin nəticələrini tamamilə aradan qaldıra bilmədi və yalnız Şimali və Cənubi Bolqarıstanın birləşməsini müvəqqəti olaraq gecikdirə bildi.

Berlin müqaviləsinin şərtləri həm Şimali, həm də Cənubi Bolqarıstan əhalisi arasında partlayışa səbəb olmuşdur. Xüsusən də həmişə türk asılılığına qarşı müqavimətin mərkəzi olmuş Bolqarıstanın cənubunda yaşayan əhali Berlin müqaviləsinə qarşı ayağa qalxdılar. Şərqi Rumelidə mərkəz Plovdivdə etiraz nümayişləri başladı. Bolqarıstanın şimalında da Berlin konqresinin qərarlarına qarşı hərakat genişləndi. Bolqarıstan dövlətini sabitləşdirmək məqsədi, İngiltərə, Avstriya-Macarıstan və Almaniya ilə yeni münaqişəyə görmək istəməməsi Rusiyanı Bolqarıstandakı etiraz hərəkatını cilovlamağa sövq etmişdir.

# IV FƏSİL

## BOLQARISTAN QURTULUŞUNDAN XIX ƏSRİN SONUNA QƏDƏR

1879-cu il fevralın 10-da (22) Bolqarıstanın orta əsrlər paytaxtı Tırnovoda Müəssisələr Məclisi açıldı. Berlin müqaviləsinin IV maddəsinə əsasən, o, yeni knyazlıq üçün konstitusiya hazırlamalı idi. Müəssislər Məclisinin tərkibinin yarıdan çoxunu xidməti vəzifə və ya rütbəsi üzrə deputatlar təşkil edirdi ki, onlar da yuxarı ruhanilərin nümayəndələrin, Ali Məhkəmənin üzvlərin, rayon məhkəmələrinin sədrlərin və s. təmsil edirdi. Deputatların azlığı isə birbaşa səsvermə yolu ilə seçilmişdir. Rus hüquqşünasları tərəfindən ilkin olaraq hazırlanmış konstitusiya layihəsinin müzakirəsi zamanı deputatlar arasında əsaslı fikir ayrılıqları aşkarlandı və azad edilmiş Bolqarıstanda ilk iki siyasi qrup formalaşdı. Mühafizəkarlar başda K.Stoilov, G.Naçeviç, D.Qrekov və d. olmaqla bolqar xalqını tam azadlıq və özünüidarə üçün "yetişməmiş" hesab edərək, onların konstitusiya hüquqlarını məhdudlaşdırmağa çalışaraq, senatın yaradılması, seçicilər üçün əmlak və təhsil senzinin müəyyən edilməsini irəli sürürdülər. Onlar ticarətsələmçi burjuaziyanın və bir qayda olaraq kəndlilərə kiçik torpaq sahələrin icarəyə verən ölkə baxımından nisbətən

böyük torpaq sahiblərinin maraqlarını təmsil edən "aqrarçıların" nümayəndələrindən ibarət idi.

Xalqın əksəriyyətini, kəndliləri, xırda sənətkarlar və tacirləri təmsil edən şəhər xırda burjuaziyasının, ziyalıların əhval-ruhiyyəsi liberalların qruplaşması ilə özünü büruzə verdi. Onlar mühafizəkarları "kiçik hissələrlə" azadlıq vermək istəməkdə günahlandırdılar və konstitusiyanın demokratik müddəalarını müdafiə edərək, onları genişləndirməyə və dərinləşdirməyə çalışırdılar. Liberalların başında azadlığa çıxmazdan əvvəl də geniş şöhrət qazanmış Petko Raçev Slaveykov dayanırdı. Liberalların digər lideri, ölkənin azad edilməsindən az sonra vəfat etmiş görkəmli yazıçı və inqilabçı Lyuben Karavelovun kiçik qardaşı Petko Karavelov (1843–1903) idi. Qızğın natiq, əqidəsinə görə demokrat, Moskva Universitetində oxuduğu illərdə əldə etdiyi geniş biliyə malik olan və uzun illər davamlı öz təhsilini təkmilləşdirməsi sayəsində əməksevər P.Karavelov liberalların sol qanadının ideoloqu və lideri kimi tez bir zamanda Müəssislər Məclisində önə çıxdı. İnadkar mübarizə nəticəsində Müəssislər Məclisində qələbəni geniş xalq kütlələrinin rəğbət və dəstəyini qazanmış liberallar əldə etdilər. Rus hökuməti mühafizəkarların dəstəyinin Rusiyanın Bolqarıstandakı təsirini sarsıda biləcəyini anlayaraq bu mübarizəyə qarışmadı.

1879-cu il aprelin 16-da (28) Tırnovo konstitusiyası Müəssislər Məclisi tərəfindən təsdiq olundu. Bolqarıstan konstitusiyalı monarxiya elan edildi. Berlin müqaviləsində təsbit edilmiş knyazlığın Sultanla vassal münasibəti məsələsi

üzərindən konstitusiyada sükutla keçildi. Konstitusiya monarxa geniş səlahiyyətlər verdi, beləki, o, silahlı qüvvələrin ali baş komandanı elan edildi, qanunvericilik sahəsində mühüm hüquqlar əldə etdi, yəni Xalq Məclisinin qəbul etdiyi qanunları təsdiq və elan edir, Xalq Məclisini buraxa bilir, onun "ali nəzarəti" altında fəaliyyət göstərən Nazirlər Şurasını, o cümlədən digər hakimiyyət orqanlarını təyin edirdi.

Qanunvericilik hakimiyyəti birbaşa seçkilər yolu ilə seçilən birpalatalı Xalq Məclisinə məxsus idi. Xüsusilə mühüm məsələləri konstitusiya, dövlət sərhədinin dəyişdirilməsi, dövlət başçısının seçilməsi və s. həll etmək məqsədilə Böyük Xalq Məclisi çağırılırdı. Burjua mahiyyəti kəsb edən Tırnovo konstitusiyası öz dövrünə görə demokratik idi. Müxtəlif burjua azadlıqlarını söz, mətbuat, yığıncaq, təşkilat sərbəstliyini, yazışmaların məxfiliyini, mənzilin toxunulmazlığını elan etdi. Konstitusiya xalqın geniş siyasi hüquqlarını, qanun qarşısında təbəələrin formal bərabərliyini elan etdi, əmlak senzi və titulları qadağan etdi, milli azlıqlara mənsub vətəndaşların bərabərsizliyini istisna etdi, ümumi icbari və pulsuz ibtidai təhsil tətbiq etdi. Bütün seçkili orqanlarda ümumi (kişilər üçün), birbaşa və gizli seçki hüququ müəyyən etdi və s.

1879-cu il aprelin 17-də Böyük Xalq Məclisi 1879-cu il iyulun 7-də Konstitusiyaya sadiqlik andı içən 22 yaşlı Hessen şahzadəsi Aleksandr Battenberqi knyaz seçdi. Məhz o günlərdə A.M.Dondukov-Korsakov hakimiyyəti knyaza təhvil verərək köməkçilərilə birlikdə ölkəni tərk etdi. Rus imperatriçasının yaxın qohumu olan A.Battenberq gənclik illərində

tez-tez Sankt-Peterburqda olurdu. Rusiya-Türkiyə müharibəsinin əvvəlində Prussiya ordusunun leytenantı olan A.Battenberq çarın icazəsilə Dunay ətrafında hərbi əməliyyat aparan rus ordusuna daxil olmuşdur. Beləliklə, gələcək Bolqarıstan taxtına sifariş edilmiş oldu. Siyasi cəhətdən formalaşmamış, Avstriya xidmətində olan generalın oğlu gənc prussiya zabiti Avropada hökmranlıq edən bir çox sülalələrin nümayəndələrilə qohum olaraq böyük dövlətlər üçün kompromis fiqur idi. Beləliklə, knyazlığın başında Bolqarıstan üçün irticaçı, mütləqiyyət arzusunda olan təsadüfi bir adam oldu.

Aleksandr Battenberq hakimiyyətinin ilk günlərindən bir dəfə dediyi kimi, "sadəcə olaraq gülünc liberal konstitusiyanın" ləğvi üçün çar II Aleksandrdan razılıq almağa çalışdı. Bu məsələdə II Aleksandrın dəstəyini ala bilməyən A.Battenberq konstitusiyaya zidd planını təxirə salmağa məcbur oldu. Bu arada, Tırnovo konstitusiyası ölkədə gedən kəskin siyasi mübarizənin mövzusuna çevrildi. Konstitusiyaya qarşı hücumunda şahzadə mühafizəkarlara arxalanırdı. Onların bir çoxu Qərbi Avropa ali təhsil müəssisələrinin məzunları idi və əsasən Vyana, Berlin və Londona yönəlmişdilər. Amma onların arasında rusiyayönümlü tərəfdarlar da var idi. Şahzadə mühafizəkarlardan ilk hökuməti təşkil etdi. Lakin 1879-cu ildəki birinci adi Xalq Məclisinə seçkilər mühafizəkarların hökumətinə etimad göstərməyən liberallara tam qələbə gətirdi. Onlar P.Karavelovun rəhbərliyi altında konstitusiyanın demokratik maddələrini qoruyub saxlamağın və möhkəmləndirməyin tərəfdarı idilər. Yalnız D.Tsankovun başçılıq etdiyi

mötədil liberalların kiçik bir qrupu mühafizəkarlara güzəştə getməyə meyilli idi.

1879–1880-ci illərdə knyaz iki dəfə inadkar Xalq Məclisini buraxdı. Bolqarıstan ordusuna təlim keçən bəzi rus generalların dəstəklədiyi mühafizəkarların köməyilə o, itaətkar parlament yaratmağa çalışırdı. Şahzadə özünün təbirincə desək, belə bir Xalq Məclisi arzusunda idi ki, "əsgər bölüyü kimi" səs versin. Sankt-Peterburqda Battenberqin ideyasına təmkinlə yanaşırdılar, çünki onlar azad olan xalqın əhval-ruhiyyəsini bildikləri üçün knyazın və mühafizəkarların mürtəce kursunu açıq şəkildə dəstəkləməkdən çəkinirdilər. A.Battenberqə tədricən və "hüquqi", yəni parlament vasitəsilə konstitusiya dəyişikliyinə nail olmağı tövsiyə edirdilər.

Belə bir şəraitdə knyaz mühafizəkarlar kabinetini əvəz edən, o cümlədən təhsil sisteminin təşkili və məhkəmə işi haqqında, ölkənin Osmanlı asılılığından azad edilməsi uğrunda mübarizə iştirakçıları və həlak olan döyüşçülərin ailələrinə yardıma dair, Xalq Məcəlləsinin rəhbərlik etdiyi yığma qoşun dəstəsinin yaradılması haqqında və s.bir sıra mühüm qanunlar qəbul edən liberal hökumətə dözmək məcburiyyətində qalmışdır. Eyni zamanda knyaz ölkənin demokratik qüvvələrinə müəyyən imkanlar yaradan Tırnovo konstitusiyasına zərbə vurmaq üçün əlverişli məqam gözləyirdi. Belə bir fürsət 1881-ci il martın 1-də Rusiyada çar II Aleksandrın öldürülməsindən sonra yarandı.

1881-ci il aprelin 27-də A.Battenberq dövlət çevrilişi edərək konstitusiyanın fəaliyyətini dayandırdı. Bu zaman o,

mühafizəkarlara və Bolqarıstan ordusuna başçılıq edən mürtəce çar generalı K.Q.Ernrota arxalanırdı. Liberal hökumət devrildi. Siyasi mədəniyyətin aşağı olduğu, yenicə azad edilmiş ölkədə qanunsuzluq, saxtakarlıq və qəddar zorakılıq mühitində seçilən II Böyük Xalq Məclisi itaətcəsinə knyaza yeddi il müddətinə fövqəladə səlahiyyətlər verilməsinə səs verərək yalnız bundan sonra konstitusiyanın dəyişdirilməsini nəzərdə tuturdu. Knyaz diktaturasının və mühafizəkar burjuaziyanın "səlahiyyətlər rejimi"nin bərqərar olması birbaşa Vyana, Berlin və Londonun razılığı ilə baş tutmuşdur. Peterburq hökuməti Bolqarıstan konstitusiyasının Rusiyadakı işlərə "zərərli" təsirindən ehtiyat edərək Bolqarıstandakı çevrilişə etiraz etmədi. Bundan əlavə, ilk zamanlar hətta çar hökuməti taktiki olaraq knyazı dəstəkləyirdi.

Daha sonra maraqları liberal partiya tərəfindən ifadə edilən geniş kütlənin kəskin narazılığı ilə üzləşən knyaz manevr edərək, 1882-ci ildə III Aleksandrın Bolqarıstana göndərdiyi rus generalları A.N.Sobolev və A.V.Kaulbarsa kabinetə başçılıq etməyi tapşırdı. Lakin çar generallarının knyazı dəstəkləməsi yalnız onun Rusiyanın Bolqarıstanda nüfuzunun bərqərar olmasına kömək etməsi şərti ilə müəyyənləşirdi.

Zaman keçdikcə çar hökuməti knyazın mürəkkəb diplomatik "oyununa" və xarici siyasətinin artan avstriyayönümlü kursuna inamsızlıq nümayiş etdirməyə başladı. Məsələn, ölkədə iki, yəni Vyana və Sankt-Peterburq dəmir yolu tikintisi layihələrindən birinin seçilməsi dilemması qarşısında knyaz və mühafizəkarlar Avstriya-Macarıstanın maraqlarına cavab

verən Vyana variantı seçdilər. Rus diplomatları liberallarla əlaqə yaradaraq onu knyaza qarşı qoymağa başladılar.

Liberal partiya xüsusilə onun P.Karavelov və P.Slaveykonun başçılıq etdiyi radikal qanadı mövcud rejiminə qarşı qətiyyətlə mübarizəyə qalxdı. Lakin D.Tsankovun mötədil qrupu mühafizəkarlara güzəştə getməyə hazır olduqlarını dəfələrlə nümayiş etdirdilər. Ölkə əhalisinin xırda burjua əksəriyyətinin qruplaşma prosesini əks etdirən əvvəllər vahid liberal partiyanın sıralarında qopmalar başlandı. Xalqın geniş kütlələri konstitusiyanın bərpası uğrunda gedən mübarizədə liberalları dəstəklədi. Knyazın Peterburqla münasibətlərinin korlanması da özünü büruzə verdi.

Bu vəziyyətdə A.Battenberq 1883-cü ilin sentyabrında səlahiyyətlər rejimindən əl çəkməyə məcbur oldu. O, mühafizəkarların və müəyyən dərəcədə mötədil liberalların köməyilə çevrilişdən sonra demokratiyaya tətbiq edilən bəzi məhdudiyyətləri saxlamağa çalışdı. Bununla belə, kütlələrin qeyri-şərtsiz dəstəyini qazanan sol liberallar qələbə çaldılar, 1884-cü ildə Tırnovo Konstitusiyası tam bərpa edildi. Knyazın ölkədəki mövqeyi sarsıldı. O, Şərqi Rumelinin knyazlığa birləşdirilməsi uğrunda xalq hərəkatını dəstəkləyərək nüfuzunu gücləndirməyə çalışırdı.

Berlin müqaviləsinin şərtlərinə görə Şərqi Rumeli Osmanlı imperiyasının tərkibində məhdud siyasi muxtariyyətə malik ərazi statusu almışdı. Sultan hakimiyyətinə bölgənin bolqar knyazlığı ilə sərhəddində istehkamlar qurmaq və qoşun saxlamaq hüququ verilmişdir. Bundan əlavə, Sultanı

təmsil edən bölgə general-qubernatoru bölgənin əmin-amanlığına təhlükə yarandıqda, türk qarnizonunu dəvət edə bilərdi. Müqaviləyə uyğun olaraq regionun Əsas Qanunu (Üzv Nizamnaməsi) və onun inzibati quruluşu müqaviləni imzalayan böyük dövlətlərin nümayəndələrindən ibarət Avropa beynəlxalq komissiyası tərəfindən hazırlanmışdı. Vilayətdə icra hakimiyyəti Sultan tərəfindən böyük dövlətlərlə razılaşdırılaraq təyin edilən general-qubernator və direktorlar şurasına, qanunverici hakimiyyət isə bir yarısı seçilən, o biri yarısı isə təyin edilən Vilayət məclisinə məxsus idi. Məclisin qəbul etdiyi qərarlar Sultan tərəfindən təsdiq olunurdu. Vilayətin nizamnaməsi Tırnovo konstitusiyası ilə müqayisədə daha az demokratik idi.

Qərbi Avropa hökumətlərinin, xüsusən də London və Vyana emissarları Sultan hakimiyyətinin vilayəti knyazlıqdan təcrid etmək və orada Osmanlının təsirini gücləndirmək xəttini dəstəkləyirdilər. Bunun əksinə olaraq Rusiya nümayəndələri vilayətin bolqar əhalisinə arxalanaraq onun knyazlıqla əlaqəsini qoruyub saxlamağa və möhkəmləndirməyə çalışırdılar. Onlar faktiki olaraq vilayətin muxtariyyətini genişləndirməyə, orada Knyazlıqdakına yaxın bir rejimin qurulmasına səy göstərirdilər. Bolqar dili vilayətin dövlət dili kimi tanınmışdır. Rusiya, Almaniya və Avstriya-Macarıstan üç imperatorun razılaşmasının 1881-ci il müqaviləsinin gizli əlavəsinə əsasən, Rusiyanın təkidilə bu ölkələrin hökumətləri Şərqi Rumelinin Bolqarıstana birləşdirilməsinə qarşı çıxmamağa söz verdilər.

Cənubi Bolqarıstan və bolqar Knyazlığının süni şəkildə parçalanması, onlar arasında gömrük maneələrinin qoyulması xalqın iqtisadi birliyini pozdu, milli iqtisadiyyatın normal inkişafına və milli konsolidasiyanı əngəllədi. Bu, Osmanlı hakimiyyətinin vilayətinin həyatına sistemli müdaxiləsilə daha da ağırlaşdı, belə ki, Sultan çox vaxt Vilayət Məclisinin qəbul etdiyi qanunları təsdiq etməkdən imtina edir, vilayətə təxribat məqsədilə casuslar göndərilirdi və s.

Buna baxmayaraq, Rusiya hökumətinin mövqeyi sayəsində Sultan hakimiyyəti vilayətə yəni, Şərqi Rumelinə qoşun yeritməkdən çəkinirdi. Vilayətlə knyazlıq arasında sərhəddə türk qarnizonunun olmaması onlar arasında əlaqələri asanlaşdıraraq birləşmələri üçün bəzi ilkin şərtləri hazırladı. Bununla belə, Porto Şərqi Rumeliyə qarnizon göndərmək üçün Berlin müqaviləsinin ona verdiyi hüquqdan imtina etmədiyini elan etdi, bu da vilayətin daim Osmanlı istilası təhlükəsi altında olması demək idi. Bütün bu şərait Şimali və Cənubi Bolqarıstanın birləşməsi prosesinin inkişafını nisbətən sürətləndirən amil idi.

Şərqi Rumelinin Knyazlığa birləşdirilməsi hərəkatı bolqar xalqının milli-azadlıq mübarizəsində yeni mərhələ idi. Onun özünəməxsus sosial cəhətləri də var idi ki, əyalətin geniş kütləlləri böyük inzibati aparatın saxlanması məqsədilə vergilərin ağırlığı altında əzilirdi. Onlar ümid edirdilər ki, birləşmək onların maddi vəziyyətini yaxşılaşdıracaq. Sultan hökumətinin 1885-ci ilin yanvarında Şərqi Rumelidə gömrük tariflərinin artırılması haqqında qərarı birləşmə lehinə hərəkatın güclənməsinə əlavə təkan oldu.

1885-ci ilin fevralında Bolqarıstan gizli mərkəzi inqilab komitəsi (BGMİK) yarandı ki, onun rəhbər və ideoloqlarından biri Zaxari Stoyanov (1851–1889) idi. Keçmişdə bolqar xalqının Osmanlı asılılığına qarşı inqilabi mübarizəsinin fəal iştirakçısı, azadlığa çıxandan sonra Sofiyada yaşayaraq jurnalistliklə məşğul olan Z.Stoyanov publisistik və digər əsərlərilə məşurlaşmışdır. Dövlət çevrilişi ilə bağlı knyazla münaqişəyə girərək Plovdivə köçmüş və birləşmə hərəkatına qoşulmuşdur. BGMİK-nin nizamnaməsi və proqramı Z.Stoyanov tərəfindən 70-ci illərin bolqar inqilabçılarının ənənəsi ruhunda yazılmışdır. Z.Stoyanovun hökuməti rüşvətxorluqda, özbaşınalıqda ifşa etmək məqsədilə başlatdığı kampaniya böyük uğur qazandı. Bütün bunlar xalq kütlələrini birləşmə hərəkatına cəlb edirdi. Eyni zamanda, BGMİK-nin bir çox rəhbərləri A.Battenberqlə əlaqələr qurdular ki, komitənin rəhbərliyi faktiki olaraq onun ordusuna arxalanaraq, əyaləti knyazın "hakimiyyəti altında" knyazlığa birləşdirilməsinə yönəldi.

Bu arada həm Şərqi Rumelidə, həm də Knyazlıqda birləşmə lehinə ajiotaj güclənirdi. Hər yerdə komitələr təşkil edilir, silahlar toplanırdı. 1885-ci il sentyabrın əvvəllərində Plovdiv vilayətinin bir sıra şəhər və kəndlərinin sakinləri üsyana etdilər. Sentyabrın 5-dən 6-na keçən gecə Plovdivdə silahlı əhali milisin də dəstəyilə vilayət hökumətini devirdi və Bolqarıstanın hər iki hissəsinin knyazın "hakimiyyəti altında" birləşdiyini elan etdi. A.Battenberq dərhal birləşmə və "Şimali və Cənubi Bolqarıstan knyazı" titulunun qəbul edilməsi haqqında manifest verərək səfərbərlik elan edib Bolqarıstanın

cənubuna qoşun yeritdi. Şərqi Rumelinin Knyazlığa birləşdirilməsinin elan edilməsi həm Şimali, həm də Cənubi Bolqarıstanda coşqu ilə qarşılandı, şəhərlərdə və kəndlərdə xalq nümayişləri keçirildi. Bütün ölkəni milli yüksəliş bürüdü, ölkənin bütövlüyünü qorumaq məqsədilə xalq silaha sarıldı.

Yenidən birləşmə Berlin traktatının formal pozulması idi. Artıq qeyd edildiyi kimi, rus diplomatiyası vilayət ilə knyazlıq arasında əlaqələrin möhkəmləndirilməsi üçün fəaliyyət göstərdi. Lakin knyazın avstriyapərəst xətti çar hakimiyyətini özünün əvvəlki siyasətinə zidd hərəkətlərə sövq etdi, Battenberqi dəstəkləmək istəmədikləri üçün Sankt-Peterburq hökuməti birləşmənin obyektiv əhəmiyyətini görmək istəmədi. Düzdür, rus diplomatiyası Sultana Şərqi Rumeliyə qoşun göndərməkdən çəkinməyi tövsiyə etdi. Eyni zamanda, çar hökuməti rus zabitlərini Bolqarıstandan çıxararaq, məsələni böyük dövlətlərin səfirlərinin konfransında müzakirə etməyi təklif edərək, knyaza rəğbət bəsləmədiyinə və ölkədə baş verən hadisələrdə iştirak etmədiyini nümayiş etdirdi.

İngilis diplomatları əvvəllər sistematik olaraq Osmanlı imperiyasının bütövlüyünü müdafiə edirdilər və birləşmə ideyasına düşmən münasibət bəsləyirdilər. Lakin çar hakimiyyətilə A.Battenberq arasında münasibətlərin pisləşməsi Xarici İşlər Nazirliyini knyazın birləşdirici fəaliyyətinə dəstək verməyə sövq etdi. Londonda bu yolla Bolqarıstanı Rusiyadan uzaqlaşdırmağa və Sankt-Peterburqun Balkanlarda mövqeyini zəiflətməyə ümid edirdilər. Vyana və Berlin Sultan hökumətini dəstəkləyərək Berlin traktatına yenidən baxıl-

masına qarşı çıxdılar. Münaqişənin həlli məqsədilə Konstantinopolda böyük dövlətlərin konfransı toplandı.

Bu arada 1885-ci il noyabrın 2-də Serbiyada mürtəce rejim quran və avstriyayönlü siyasət yeridən Serb kralı Milan yenidən birləşmənin Balkanlarda tarazlığı pozduğunu elan edərək Bolqarıstana hücum etdi. Milan Bolqarıstan qoşunlarının Türkiyə ilə sərhəddə cəmləşməsindən istifadə etmək qərarına gəldi və tez bir qələbə gözləyərək Bolqarıstan sərhədini keçərək Sofiyaya doğru hərəkət etdi. Slivnitsada həlledici döyüş baş verdi. Trakyadan yürüşlə gələn Bolqarıstan qoşunları və könüllülərdən ibarət batalyonlar vətənpərvərlik ruhu ilə şücaət və qəhrəmanlıq nümayiş etdirdilər. Rusiyada təhsil almış gənc zabitlərin başçılığı altında noyabrın 4–6-da üçgünlük döyüşdə bolqarlar düşməni bütövlükdə məğlub etdilər. Hücuma keçən bolqar ordusu ölkə ərazisini serb qoşunlarından tamamilə azad edərək Serbiya sərhədini keçdi. Bu zaman Avstriya-Macarıstan hökuməti ultimativ formada Bolqarıstandan hərbi əməliyyatları dayandırmağı tələb etdi. 1885-ci il dekabrın 9-da Vyanada barışıq imzalandı. Daha sonra, 1886-cı il fevralın 19-da Buxarestdə imzalanmış sülh müqaviləsi bir maddədən ibarət idi ki, Bolqarıstanla Serbiya arasında sülh bərpa olundu.

Bolqarıstan ordusunun qələbəsi birləşmiş Bolqarıstan dövlətini möhkəmləndirdi və səfirlərin konfransının müsbət qərarını əvvəlcədən müəyyənləşdirmişdir. Böyük dövlətlərin diplomatları birləşməni faktiki olaraq qanuniləşdirdilər, belə ki, başlanğıc üçün Bolqar şahzadəsi Şərqi Rumelinin general-

qubernatoru təyin olundu. Vilayətdə knyazlığın qanunları tətbiq edildi. Bolqarıstanın ərazisi və əhalisi birləşmə nəticəsində xeyli artaraq, 1887-ci ildə knyazlığın əhalisi 3154 min nəfər, ərazisi 96,35 min kv.km oldu. Əhali və ərazi cəhətdən Bolqarıstan Cənub-Şərqi Avropada Rumıniyadan sonra ikinci dövlət oldu. Bolqarıstanın birləşməsi böyük mütərəqqi əhəmiyyət kəsb edirdi. Knyazlıq ilə vilayət arasında gömrük maneələri ləğv edildi. Şimali və Cənubi Bolqarıstanın iqtisadi və siyasi birliyinin bərpası və vahid dövlətin yaradılması milli konsolidasiyaya, ölkənin siyasi müstəqilliyinin möhkəmlənməsinə töhfə verərək, məhsuldar qüvvələrin, Bolqarıstan mədəniyyətinin gələcək inkişafına son dərəcə faydalı təsir göstərmişdir.

Vahid Bolqarıstanın beynəlxalq əhəmiyyəti kəskin şəkildə artdı və böyük dövlətlərin diqqətini cəlb etdi. 1880-ci illərdə Balkanlarda əsas rəqabət aparan qüvvələr bir tərəfdən Rusiya, digər tərəfdən isə Avstriya-Macarıstan və İngiltərə idi. 1886-cı ildə fəallaşan böyük dövlətlərin diplomatik fəaliyyəti Bolqarıstandakı vəziyyətə öz təsirini göstərdi. 1886–1887-ci illərdə daxili ilkin şərtləri ölkənin hakim dairələrində onun xarici siyasət istiqaməti məsələsində fikir ayrılıqlarına əsaslanan Bolqarıstan böhranı adlanan problem meydana çıxdı.

Bölgədə güclərin mübarizəsinin kəskinləşməsi bolqar burjuaziyasının düşərgəsindəki qüvvələrin parçalanmasını sürətləndirdi. Bolqarıstan zəngin kəsiminin əhəmiyyətli və nüfuzlu bir hissəsi uzun bir zaman içində Vyana, London və Berlindəki ticarət firma və şirkətlərilə əlaqədar olub ölkənin uyğun xarici siyasət istiqamətini axtarırdılar. Bu qruplaşmanın əsa-

sını müharibə dövründə ordunun təchizatı işlərində və qaçan müsəlmanların əmlakını ələ keçirməklə və müharibədən sonrakı dövrdə zənginləşmiş yeni burjuaziyanın nümayəndələri təşkil edirdi. Bəzi çar generallarının nəzakətsiz davranışlarına mübarizə pərdəsi altında onlar ölkənin milli suverenliyinin möhkəmləndirilməsi uğrunda zabitlər və xırda şəhər burjuaziyası arasında rusofob hisləri qızışdırırdılar.

Xalqın içində, kəndli kütlələri arasında bu hisslər zəif idi. Rusiyayönümlü istiqamət tərəfdarları olan zabitlərin bir hissəsi, ticarət burjuaziyasının bəzi qrupları, xırda burjua dairələrinin bir hissəsi Bolqarıstanın Rusiyanın dəstəyi olmadan mövcud ola bilməyəcəyi qənaətində idilər və odur ki, A.Battenberqə qarşı mübarizəyə başladılar. Belə bir şəraitdə bir qrup rusiyapərəst zabit 1886-cı ilin avqustunda çevriliş təşkil edərək knyazı həbs edib, taxtdan əl çəkməyə məcbur etdilər və Bolqarıstandan qovdular. Amma ilkin siyasi hazırlıq görmədən, xalq arasında dəstək almadan, çevriliş həyata keçirən zabitlər öz mövqelərini möhkəmləndirə bilmədilər. Xalq Məclisinin sədri Stefan Stambolovun başçılığı ilə qərbyönlü istiqamətin tərəfdarları başqa bir zabit qrupuna arxalanaraq əks çevriliş etdilər. Çar hökuməti ilə münasibətləri qaydaya salmağa cəhd edən A.Battenberqi yenidən Bolqarıstana dəvət etdilər. Çıxılmaz vəziyyətdə olan A.Battenberq məsləhət üçün çar III Aleksandra müraciət etdi. Lakin nə çardan, nə də ölkədə nüfuzunu gücləndirməyə çalışan S.Stambolovdan heç bir dəstək görməyən knyaz bu dəfə birdəfəlik olaraq taxtdan əl çəkməyə məcbur oldu.

Yeni knyazın seçilməsindən əvvəl ölkədə Stambolovun başçılıq etdiyi qəyyumluq yaradıldı. Stambolovdan əlavə, kürəkəni polkovnik-leytenant Savva Mutkurov və Petko Karavelov da qəyyum oldular ki, tezliklə onu da Stambolova yaxın olan həmyerlisi Georgi Jivkov əvəz etdi. Qəyyumluq dövründə rusiyayönümlü istiqamətin tərəfdarlarına qarşı təqiblər başladı ki, hökumətin başçısı və daxili işlər naziri V.Radoslavov xüsusi fəallıq nümayiş etdirdi. Peterburqun hakim dairələrində arasında əsəbilik meydana çıxdı. 1886-cı ilin sentyabrında Peterburqdan çarın xüsusi emissarı general N.V.Kaulbars gələrək rusiyapərəst təbəqələri birləşdirməyə cəhd etdi. N.V.Kaulbarsın düzxətli və kobud hərəkətləri istənilən nəticəni vermədi. 1886-cı ilin noyabrında Sankt-Peterburqla Sofiya arasında diplomatik münasibətlər pozuldu. Beləliklə, Sofiyada diktatura hökumətinin və Peterburqda mürtəce çar hakimiyyətinin siyasəti nəticəsində bir neçə il ərzində Rusiya ilə Bolqarıstan arasındakı münasibətlər korlandı. Lakin bu siyasət Rusiya və bolqar xalqının ənənəvi və qarşılıqlı dostluq hisslərini, Osmanlı asılılığından azad olmaq göstərdikləri kömək üçün Rusiyaya bolqar xalqının minnətdarlığını sarsıtmadı, öz növbəsində Rusiyanın mütərəqqi ictimaiyyəti xalqın və ölkənin mənafeyini ifadə edərək, qardaş bolqar xalqına daim səmimi münasibət bəsləyirdi.

Birinci naib S.Stambolov tez-tələsik Bolqarıstana üçün knyaz axtarırdı ki, hətta bir zaman o, Sultana belə bolqar taxtını təklif etmişdir. Sonda seçim Avstriyalı zabit, alman aristokratı nəslindən olan 26 yaşlı Ferdinand Koburqun üzərinə

düşdü. Onun namizədliyi Vyana, Berlin və Londonda faktiki olaraq dəstək aldı. Yalnız Peterburq onu dəstəkləmədiyini bildirsə də, çar hökuməti təcrid olunmuş vəziyyətdə qalmışdır. 1887-ci ilin iyulunda Böyük Xalq Məclisi Ferdinandı knyaz seçdi və o, avqustda ölkəyə gələrək konstitusiyaya sədaqət andı içdi.

Yeni knyazın dövründə hökumətə S.Stambolov başçılıq edirdi. Bu vaxta kimi o, öz əlində böyük gücü toplamışdır. Aşxana sahibinin oğlu olan gəncliyində inqilabçı olmuş, Osmanlı asılılığına qarşı fəal mübarizə aparmış, azadlıq, bərabərlik və ədalət ideyalarını təbliğ edərək bədii cəhətdən zəif lakin populyar olan şeirlər yazmışdır. Onun təkamülü özünəməxsus olaraq dönüş mərhələsində bolqar burjuaziyasının əhəmiyyətli bir hissəsinin keçdiyi yolu təcəssüm etdirdi. Artıq azadlıq müharibəsi dövründə S.Stambolovun xarakterində mənfəətgüdmə kimi bir xüsusiyyət açıq şəkildə meydana çıxmışdır. Həmin aylarda milli-azadlıq hərəkatının keçmiş iştirakçılarının böyük əksəriyyəti ya xalq yığma qoşunu sıralarında silahlı mübarizəyə qoşulmuş, ya da partizan çətə dəstələrinin tərkibinə daxil olmuşdur. 23 yaşlı Stambolov fərqli davranaraq zənginləşmək arzusu ilə orduya tədarük və qaçan türklərin əmlakının müsadirəsi ilə məşğul oldu. Ölkənin azad edilməsindən, Şimali və Cənubi Bolqarıstanın birləşməsindən sonra burjuaziyanın siyasi yenidəndirçəlişi ilə bağlı əvvəllər Osmanlı asılılığına qarşı mübarizə aparan mütərəqqi dairələri ruhlandıran azadlıqsevər inqilabi ideayalardan uzaqlaşma başlandı. Bu şəraitdə S.Stambolov müharibədən

sonrakı dövrdə yetişən yeni burjuaziyanın lideri olur ki, bu da onun şəxsi keyfiyyətləri ilə bağlı idi. O, yarı yolda dayanmağı sevməyən, hər bir şəraitə uyğunlaşan, təsir vasitələrindən çəkinməyən, iradəli, enerjili bir adam idi. O, eyni zamanda qeyri-adi bir ağıla, möhkəm, despotik xarakterə, çılğın əxlaqa sahib idi.

Stambolov və tərəfdarları Vyana, London və Berlinlə ittifaqda ölkənin qarşısında duran xarici siyasət problemlərinin həlli yollarını, Bolqarıstan burjua dövlətinin möhkəmləndirilməsi və modernləşdirilməsi yollarını axtaran burjuaziyanın əhəmiyyətli hissəsinin maraqlarını ifadə edirdilər.

Azad edilmiş bolqar xalqının oyanmış milli ləyaqəti, dövlətin suverenliyini müdafiə edib qorumaq cəhdi təbii idi. Bu, böyük dövlətlərin hər birinin gənc knyazlığı öz təsir dairəsinə çəkmək cəhdlərinə cavab idi. Bununla belə, obyektiv olaraq Stambolovun xətti Avstriya-Macarıstan, Almaniya və İngiltərənin ölkədə mövqelərinin bərqərar olmasına əhəmiyyətli dərəcədə kömək etmişdir. Rusiya hökumətinə düşmən siyasəti Stambolov tərəfindən bolqar xalqı üçün ağır itkilərlə müşayət olunan sərt və kobud bir şəkildə həyata keçirildi. Xalqın böyük əksəriyyəti bu siyasəti bəyənmədiyi üçün hakimiyyət ölkədə diktatura rejimi qurmuşdu.

Stambolovun hakimiyyəti illəri hakimiyyətdən sui-istifadə və müxalifətə qarşı sistemli terrorla səciyyələnirdi. Seçkilər zamanı azadlığın məhdudlaşdırılması, zorakılıq və saxtakarlıq, həbslər, mühakimələr və döyülmələr, siyasi məhkəmələr və qətllər adi hala çevrilmişdir. 1893-cü ildə konstitusiyaya

demokratiya əleyhinə dəyişikliklər edildi. “Mən ikiüzlü siyasətçilərin sırasına aid deyiləm” – Stambolov Xalq Məclisində utanmaz şəkildə etiraf etdi, “Mən görəndə ki, daxili əqidəmə əsasən vətəni xilas etmək üçün nəsə etmək olar, qanunla qadağan olunsa belə, bunu edirəm”. Hakimiyyət hökumətin xəttini bölüşməyən insanlarla, euspərəst fikirli məşhur siyasətçilərlə, kilsənin yüksək vəzifəli şəxsləriliə, hətta milli azadlıq mübarizəsinin qəhrəmanları ilə amansızcasına davranırdı. Məsələn, Petko Karavelov və azadlıq müharibəsindən sonra ictimai fəaliyyətdən uzaqlaşan Petko-Voevoda həbsxanaya salınmışdır.

Stambolov hökuməti kapitalist istehsal münasibətlərinin qurulmasına, ölkə iqtisadiyyatının modernləşdirilməsinə, burjuaziyanın güclənməsinə və zənginləşməsinə töhfə vermişdir. Portonun etirazlarına baxmayaraq, bir çox ölkələrlə müstəqil ticarət – iqtisadi müqavilələr bağlanmış, milli sənayenin inkişafına şərait yaradan proteksionizm (himayəçilik) siyasəti həyata keçirmişdir. Bu məqsəd üçün yeni dəmir və avtomobil yollarının tikintisinə başlandı, xarici şirkətə məxsus dəmir yolu xətlərindən biri milliləşdirildi. Lakin 1889 və 1892-ci illərdə Vyana bankirlərindən alınan kreditlərin bir hissəsi Stambolovun və ətrafının ciblərinə daxil oldu. Dəmir yollarının çəkilməsi Vyanadan olan kreditorlar üçün faydalı olan istiqamətlərdə aparılırdı.

İlk vaxtlar bolqar burjuaziyasının əhəmiyyətli bir hissəsi Stambolovu dəstəkləyirdi. Onlara möhkəm bir əl lazım idi, beləki diktatura olmadan artan vergilərin yığılması həyata keçirmək, Rusiya ilə münasibətləri pozmaq kimi xalq arasında

qeyri-populyar xətti davam etdirmək çətin olardı. Tədricən rejim tərəfdarlarının sosial bazası daralırdı. Maliyyə çətinlikləri, ilk növbədə, polis aparatının saxlanılması məqsədilə sərf edilən böyük xərclərlə bağlı olaraq daha çox hiss olunurdu.

Stambolov hökumətinə və onun bu yaxınlarda fraksiyalardan birinin əsasında yaratdığı vahid və nüfuzlu liberal partiya olan "Stambolovçular" partiyasına qarşı artan müxalifət çıxış edirdi. Onlar 90-cı illərin əvvəllərindən kütləvi mitinqlərlə ifadə olunan əməkçilərin artan narazılığından, kəndli iğtişaşlarından istifadə edirdilər. Kəndlilərin narazılıq təzahürlərini güc vasitəsilə boğmaq cəhdləri uğursuz oldu. Müxalifəti, ilk növbədə, qeyri-leqal mübarizə üsullarına keçən keçmiş liberal partiyasının iki rusofil fraksiyası "karavelistlər" və "sankovçular" təmsil edirdi. İddialı və intriqaya meyilli siyasətçi V.Radoslavovun başçılıq etdiyi liberallar fraksiyası leqal müxalifət kimi formalaşmışdır. K.Stoilovun başçılıq etdiyi bir qrup mühafizəkar da ona qoşuldu ki, onları da saraydan ilhamlandırmışdılar.

Stambolov qətiyyətlə çalışırdı ki, Ferdinand "padşahlıq etsin, lakin idarə etməsin". Knyaz bundan bezərək zaman keçdikcə diktatorun qəyyumluğundan qurtulmaq üçün cəhdlər etməyə başladı. Ferdinand orduda dəstək axtararaq, 1891-ci ildə taxta sahib olmasının dördüncü ildönümü münasibətilə böyük bir zabit qrupunun rütbəsində növbədənkənar yüksəliş əmri verərkən zabitlərin böyük bir hissəsinin dəstəyini təmin etdi. Knyazın mövqeyi ilk növbədə formal olaraq tanınmamış qaldığına görə ilk vaxtlar qeyri-müəyyən idi. Peterburq

Berlin traktatının bolqar knyazının seçilməsinin bütün böyük dövlətlər tərəfindən dəstəklənməsi maddəsindən istifadə edərək, Ferdinanda inadla məhəl qoymurdu. Mahiyyət etibarı ilə Peterburqda ilk növbədə Stambolovun xarici siyasətindən narazı idilər. Digər böyük dövlətlərin hökumətləri Stambolovun Rusiya əleyhinə kursunu faktiki olaraq təşviq edirdilər. Lakin Peterburqla münasibətləri gərginləşdirmək istəməyərək, knyazı qanuni olaraq tanımaqdan da çəkinirdilər.

Belə bir şəraitdə, tanınmaq məqsədilə Ferdinand 1894-cü ildə çar diplomatları ilə gizli danışıqlara başladı. Həmin ilin mayında o, Stambolovu istefaya göndərdi. Hakimiyyətdə qalmaq üçün Stambolov polisin köməyilə tərəfdarlarının nümayişi təşkil etməyə cəhd etdi. Lakin ona qarşı geniş xalq kütləsi küçələrə çıxdı. Stambolovun süqutu demək olar ki, ümumi sevincə səbəb oldu, müasirlərin fikrincə, xaqlın ruhi vəziyyəti Osmanlı asılılığından qurtulduqdan sonrakı vəziyyətə yaxın idi.

Qeyd edək ki, Stambolovun diktaturası izsiz ötüşmədi, bu bolqar cəmiyyətində əxlaqi dəyərlərin pozulmasına, ölkənin sonrakı inkişafında müəyyən iz buraxıb. Stambolovşina dövründə zaman keçdikcə siyasi həyatda son dərəcədə dözümsüzlük tendensiyası formalaşmış hakimiyyətdən sui-istifadə halları, siyasi rəqiblərini qətl edilməsi və s. baş vermişdir. Keçmiş diktatorun özü də bu təcrübənin qurbanı oldu, 1895-ci ilin yayında paytaxt küçələrinin birində öldürüldü. Daha sonra, 1897-ci ildə görkəmli satirik yazıçı Aleko Konstantinov siyasi terrorun qurbanı oldu.

Knyaz yeni hökumətə başçılıq etməyi K.Stoilova tapşırdı. Keçmiş mühafizəkar, ölkənin hakim dairələrinin ən savadlı və nüfuzlu simalarından biri olan Stoilov başlanğıcda Ferdinanda lazım idi. Knyazın tam beynəlxalq təsdiqə nail olmaq istəyini və ölkədəki əhval-ruhiyyəni nəzərə alan hökumət bütövlükdə burjuaziyanın mənafeyini əks etdirən siyasət yeritməyə çalışırdı. Əvvəlkidən fərqli olaraq, Stoilov hakimiyyəti qətiyyətli xarici siyasət istiqamətinə malik deyildi və Sankt-Peterburqla barışmağa çalışırdı. Uzun sürən danışıqlardan sonra dini əqidəsinə görə katolik olan knyaz güzəştə gedərək taxtın varisi Borisin pravoslavlığını qəbul etmişdir. 1896-cı ildə Sankt-Peterburqla diplomatik əlaqələr bərpa edildi və bunun ardınca böyük dövlətlər Ferdinandı Bolqarıstan knyazı kimi rəsmən tanıdılar.

Daxili işlər sahəsində Stoilovun kabineti güclənən iri və orta burjuaziyanın maraqlarına uyğun siyasət yeridirdi. O, əvvəlki hökumətin dəmir və avtomobil yollarının tikintisi ilə bağlı fəaliyyətini milli sənaye istehsalına himayədarlıqla qayğısı altında davam etdirirdi. Xüsusən, 1894-cü il dekabrın 19-da qəbul edilmiş qanuna (1897-ci ildə əlavələr edilmişdir) əsasən bir çox sənaye sahələrinin müəssisə sahiblərinə böyük güzəştlər verilmiş, belə ki, onlar bir çox vergilərdən azad edilmiş, xaricdən rüsumsuz maşın və xammal idxal etmək hüququ almış, bolqar dəmir yolları vasitəsilə yük daşınmasına 35 faizlik endirim (bu dövlətə məxsus idi) imtiyazı və s. almışdılar. Həvəsləndirməyə dair qanunun təsir dairəsinə düşən ixtisaslı müəssisələr sırasına ilkin olaraq işçilərinin sayı

20 nəfərdən az olmayan və ya 25 min lev kapitalı olan müəssisələr daxil idi. Sonradan, 1905 və 1909-cu illərdə güzəştlər üçün senz bir qədər azaldıldı, güzəşt almaq hüququ əldə edən müəssisələrin dairəsi genişləndirildi. Bununla yanaşı, yerli fabrik istehsalının inkişafını stimullaşdırmaq məqsədilə hökumət 1897-ci ildə xaricdən idxal edilən sənaye məhsullarına gömrük rüsumları təyin etdi. Ölkənin ən mühüm mərkəzlərində yerli burjuaziyanın mənafeyini ifadə etmək üçün ticarət-sənaye palataları təsis edildi.

Maarif Nazirliyinə rəhbərlik edən yazıçı K.Veliçkovun təşəbbüsü ilə K.Stoilov hökuməti mədəniyyət sahəsində bir sıra işlər həyata keçirmişdir. Bütövlükdə Knyazlıqda iqtisadi və siyasi vəziyyəti sabitləşdi ki, bu da onun beynəlxalq nüfuzunun artmasına kömək etdi.

Osmanlı feodal asılılığının aradan qaldırılması və Şərqi Rumeli ilə yenidən birləşmə ölkə iqtisadiyyatının tərəqqisi üçün yeni imkanlar açdı. Düzdür, sənaye çox qeyri-bərabər inkişaf edirdi, beləki azad edildikdən sonra ilk 15 ildə o, son dərəcə ləng inkişaf edirdi. Stoilov hökuməti 1894-cü ilin sonunda fabrik istehsalını təşviq edən yuxarıda bəhs olunan qanunu qəbul etdikdən sonra işlər daha sürətlə getməyə başladı.

Görülən tədbirlər tezliklə öz nəticəsini verdi, sonrakı illərdə sənaye istehsalının artımı sürətlənən templərlə davam etdi. 1887-ci ildən 1900-cü ilə kimi ölkədə əsasən qida, toxuculuq və dəri sənayesini əhatə edən beş sənaye müəssisəsi yaranmışdır. Onlar ölkədə mövcud olan kənd təsərrüfatı xammalının emalı ilə bağlı idi və ən əsası böyük kapital qoyuluşu

tələb etmirdi və tez bir zamanda gəlir gətirirdi. Ağır sənaye demək olar ki, inkişaf etmədi.

Ölkədə sənayenin inkişafı və xarici sənaye mallarının idxalının artması ilə paralel və üzvi şəkildə Bolqarıstanın sənətkarlıq istehsalında ciddi dəyişikliklər baş verdi. Ənənəvi bolqar sənətkarlığının bəzi sahələri, o cümlədən abaçılıq və qaytançılıq dəyişən şərtlərə, modaya və Qərbi Avropa malları, yerli fabrik sənayesinin məhsulları ilə rəqabətə tab gətirə bilmədi. XIX əsrin sonlarında bolqar sənətkarlığının bir çox növlərinin istehsalı kəskin şəkildə azaldı, minlərlə kiçik sənətkar iflasa uğrayaraq muzdlu işçi ordusunun sıralarına qatılmaq məcburiyyətində qaldı. Bununla yanaşı, bütövlükdə sənət öz əhəmiyyətini saxladı. Ölkədə sənətkarlıqla yanaşı, ev istehsalı da mövcud idi ki, onun da mahiyyəti dəyişirdi. Kənd təsərrüfatı əməyini xammalının evdə emalı ilə birləşdirən bəzi ailələr sənaye müəssisələri sahiblərinin sifarişi ilə işləməyə başladılar.

Tikinti işləri, xüsusən də yolların çəkilməsi sürətlə genişləndi. 1887–1900-cü illərdə ölkənin dəmir yollarının uzunluğu 2 dəfədən də çox artdı (693-dən 1565 km-ə). Bununla bərabər, xeyli sayda inzibati binalar, məktəblər, xəstəxanalar, kazarmalar, teleqraf-poçt stansiyaları tikildi. Dəmir yollarının əsas hissəsi Vyana, Berlin və Paris bankirlərindən alınan kreditlərin köməyi ilə tikilmişdi.

Kənd təsərrüfatı iqtisadiyyatın əsası olaraq qalırdı, ölkə əhalisinin 4/5 hissəsi kənddə yaşayırdı. Osmanlı feodal asılılığının ləğv edilməsi nəticəsində kənddə kapitalist münasibət-

ləri inkişaf etdi. Lakin kiçik torpaq sahələrini səylə əkib-becərən kəndlilərin əhəmiyyətli bir hissəsi çətinliklə dolanırdı. Qurtuluş zamanı qabaqcadan razılaşdırılmadan ələ keçirilən qaçan feodalların torpaqları üçün kəndlilər burjua hökumətlərinin tələbi ilə fidyə ödəməli idilər. Artıq pulu olmayan kəndlilərin xeyli hissəsi varlı kəndlilərin və sələmçilərin, habelə torpaq alaraq onları kiçik torpaqlara bölərək kəndlilərə icarəyə verməklə məşğul olan zəngin tacirlərin əsarətinə düşdü.

Kəndlilərin geniş kütlələri də vergilərdən əziyyət çəkirdilər. Vergi ödəyiciləri faktiki olaraq, dəmir yolu tikintisinin artan xərclərini, inkişaf etməkdə olan sənaye, artan dövlət aparatı və ordunun ehtiyacını təmin etməli idilər. Burjua hökumətlərinin vergi siyasəti elə idi ki, kəndlilər əhalinin digər təbəqələrinə nisbətən adambaşına daha çox vergi ödəyirdilər.

Zaman keçdikcə burjua hökumətləri birbaşa vergilərin bir hissəsini ört-basdır etməyə başladılar. Buna duz, qənd, yerli araq (əsasən gavalıdan), tütün məmulatları və başqa çox işlənən istehlak mallarına bilavasitə vergilərin artırılması hesabına nail olunurdu. Dövlət vergilərilə yanaşı, kəndlilərdən müxtəlif növ bələdiyyə vergiləri və töycü də mövcud idi. Bütün bu şərtlər və kapitalist sisteminə xas bazar rəqabəti qanunu XIX əsrin sonlarında ölkədə cərəyan edən kəndlilərin sosial təbəqələşməsi prosesini əvvəlcədən müəyyənləşdirmişdir.

Bu prosesin nəticəsində yoxsul və var-yoxdan çıxmış kəndlilərin formalaşması baş verdi. İflasa uğramış çoxlu kəndlilər muzdlu işçi bazarını doldurdular. Eyni zamanda, kəndlilərin kiçik bir hissəsi öz kapitallarını və mülklərini artıraraq

zənginləşdilər. Ölkə miqyasına görə yeni iri torpaq sahiblərinin aqrarçılar adlanan bəziləri kənd təsərrüfatı ilə məşğul deyildilər. Əslində onlar şəhərlərdə yaşayan tacir və bankir olaraq əldə etdikləri torpaqları xırda kəndlilərə icarəyə verirdilər.

Bolqarıstan kəndlərində ən çox yayılmış torpaq icarəsi "yardarlıq" idi ki, torpaq sahiblərinə torpağı icarəyə götürmək üçün məhsulun yarısını ödəmək nəzərdə tutulurdu. Eyni zamanda icarənin tam və ya yarım işləyib ödəmə növləri də mövcud idi ki, bu zaman torpağı icarəyə verən mülkiyyətçinin torpaq sahəsi icarəçi tərəfindən becərilirdi. Bunlar bolqar kəndlərində yarımfeodal qalıqlarının yaşadığını göstərən kəndlilərin vəhşi istismar üsulları idi. Bütün bunlar ölkədə məhsuldar qüvvələrin inkişafına mane olurdu.

XIX əsrin sonlarında qısa təsvir edilən ölkənin sürətli iqtisadi inkişafı əməkçi kütlənin xeyli hissəsinin dinamik istismarı və var-yoxdan çıxması ilə müşayiət olunurdu. Eyni zamanda, hələ ölkə azad edilməmişdən əvvəl başlanmış kapitalın şəhər və kəndin varlı təbəqələrinin əlində ilkin olaraq toplanması burjuaziyanın zənginləşməsinə, sıralarının genişlənməsinə, iqtisadi və siyasi təsir gücünün artmasına səbəb oldu. Ölkədə formalaşan burjuaziya əsasən ticarət-sələmçilik və aqrarçılarla təmsil edilmişdir. Burjuaziyanın mühüm hissəsi öz kapitalını əsasən sənayeyə deyil, ticarətə, kreditlərə və icarəyə vermək məqsədilə torpağa yatıraraaq özünü iqtisadiyyatın geri qalmış, ekstensiv təsərrüfat üsulları ilə səciyyələndirilən sahələrilə əlaqələndirilirdilər.

Kapitalis münasibətlərinin XIX əsrin sonlarında ölkə əhalisinin tərkibində əhəmiyyətli dəyişikliyə səbəb oldu. Əvvəllər say etibarilə çox olmayan fəhlə sinfinin formalaşması bunun ən başlıca ifadəsi idi. O zaman demək olar ki, yalnız kiçik emalatxanalarda çalışan fəhlələrdən və kənd muzdurlarından ibarət olan qrup onları təmsil edirdi, proletariatın formalaşmasının əsas mənbəyini məhz var-yoxunu itirmiş sənətkar və kəndlilər təşkil edirdi.

İnkişafın ilkin mərhələsində fəhlə sinfinin böyük əksəriyyəti qeyri-mütəşəkkil passiv kütlə idi. İş günü 14–16 saat davam edirdi, əmək qanunvericiliyi yox idi, əməkhaqqı cüzi idi. Lakin zaman keçdikcə dəyişiklik baş verdi, son dərəcə çətin şərtlər və sahibkarların özbaşınalığı fəhlələri müqavimət göstərməyə sövq etdi. Onların arasında ilk təşkilat formaları olaraq qarşılıqlı yardım cəmiyyətləri, borc-əmanət kassaları, kooperasiya və maarifçilik birlikləri meydana çıxmışdır. Birinci olaraq 1883-cü ildə Bolqarıstan mətbəə cəmiyyəti yarandı.

İlkin mərhələdə proletariatın narazılığının səciyyəvi forması dözülməz şəraitdən şikayət edilməsi, vəziyyətin yaxşılaşdırılması xahişi ilə hakimiyyət orqanlarına və Xalq məclisinə kollektiv müraciətlərdən ibarət olmuşdur. Oxşar müraciətlər 1880-ci illərdə dəmiryolçular, çapçılar və bir çox başqa peşə çalışan işçiləri tərəfindən edilmişdir. Bu mərhələdə işçilərin narazılığının ən parlaq təzahürü 1883–1884-cü illərdə Sopot, Karlov, Kalofer və Qabrovdan olan evdə çalışan əyiricilərin kortəbii çıxışları oldu. Bəzən maşınların belə dağıdılması ilə müşayiət olunan kortəbii qiyam və çıxışlar baş verirdi. 1880-ci

illərdə ayrı-ayrı kortəbii tətillər baş verirdi ki, bunlardan da Sliven toxucularını, Sofiya və Plovdiv mətbəəçilərini misal göstərmək olar. O zaman fəhlələr ölkənin siyasi həyatında müstəqil iştirak etmirdilər, öz səslərini burjua və xırda burjua partiyalarına verirdilər. Vəziyyət ancaq ölkədə elmi sosializm ideyaları ilə silahlanmış proletar partiyasının yaradılması nəticəsində dəyişə bilərdi.

Bolqarıstanda marksizm ideyalarının yaranması üçün şərait əlverişli deyildi. İctimai təsəvvür sahəsində irticaçı burjua, o cümlədən mühafizəkar utopik xırda burjua ideoloji cərəyanları (müxtəlif xalqçılıq fikirlər daxil olmaqla) üstünlük təşkil edirdi.

Ölkədə yaranmaqda olan proletariatın potensial gücü və imkanlarına inanması üçün bir təşkilata, inqilabçı marksist partiyaya, intellektual güc və bəsirətə malik, tarixin inkişaf qanunlarını bilən, inanclı, əzmkar bir iradəli liderə ehtiyac var idi. Bolqarıstanda elmi sosializm ideyalarının ilk təbliğatçısı Dimitri Blaqoyev (1856–1924) ən mühüm insani keyfiyyətləri özündə birləşdirən belə bir lider idi. D.Blaqoyev marksist ideyalarla Peterburq Universitetində oxuduğu illərdə tanış olmuşdur. Bir çox digər gənc bolqar oğlan və qızları kimi o da Rusiyaya təhsil almağa, biliyə hədsiz həvəs arzusu ilə gəlmişdir. Burada K.Marksın "Kapital" əsərini öyrənərək o, digər tələbələrlə birlikdə fəhlələr arasında təbliğat aparaq, 1883-cü ilin sonunda Peterburqda sosial-demokrat Blaqoyev qrupunu yaradanlardan biri olmuşdur. Blaqoyevçilər tərəfindən təsis edilmiş "Fəhlə" qəzeti yalnız rus inqilabi

mətbuatın tarixində deyil, həm də inqilabi hərəkatın özündə belə silinməz iz qoymuşdu. Bu faktın əhəmiyyətini qeyd edən V.İ.Lenin qeyd edirdi ki, 1895-ci ilə kimi olan 12 illik müddət ərzində bu, Rusiyada sosial-demokratik mətbuat yaratmaq yolunda demək olar ki, yeganə cəhd olmuşdur. İnqilabi fəaliyyətinə görə D.Blaqoyev həbs edilərək Rusiyadan qovulmuşdur.

O, 1885-ci ilin martında Sofiyada məskunlaşaraq həmin ildə həyat yoldaşı və məsləkdaşı keçmişdə Rusiyada təhsil almış Vela Jivkova ilə birlikdə "Müasir göstərici" jurnalını nəşr etməyə başladı. Jurnalın nəşri ölkədə marksizmin təbliğatının başlanğıcı oldu. D.Bloqaev, G.V.Plexanov və "Əmək azadlığı" qrupu ilə yazışaraq Sürixdəki bolqar sosialist-tələbə qrupu ilə əlaqə qurmuşdur. Bir qədər sonra Bolqarıstanda sosializm ideyalarını N.Qabrovski, E.Dabev və b. təbliğ edirdilər. 1880-ci illərin sonlarında marksizm ideyalarının yayılması nəticəsində ölkənin bir sıra şəhərlərində sosialist dərnəkləri yarandı. Onlar fəhlələr və mütərəqqi ziyalılar arasında təbliğat və maarifləndirmə işləri aparırdılar. Beləliklə, sosial-demokratik partiyanın yaranması üçün ilkin şərait yarandı.

1891-ci il avqustun 2-si Bolqarıstan fəhlə və sosialist hərəkatı tarixinin zirvəsidir. Həmin gün Buzluca dağının zirvəsində polisin təqibinə görə qeyri-leqal Bolqarıstan sosial-demokrat partiyasının təsis qurultayı oldu. (Buzluca bolqar xalqı üçün keçmişdə və indi müqəddəs bir yer idi ki, 1868-ci ildə burada voyevoda Hacı Dimitrinin başçılığı ilə ölkənin

azadlığı uğrunda mübarizədə iştirak edən döyüşçülər həlak olmuşdur). Partiyanın yaradılmasını vaxtından əvvəl hesab edən qurultay iştirakçılarının bəzilərinin etirazlarına baxmayaraq nümayəndələrin əksəriyyəti Bolqarıstan sosial-demokratik partiyasının yaradılması haqqında qərar qəbul etdi. Qurultayda nizamnamə və proqram qəbul edilib, partiya rəhbərliyi seçildi. Sosialist ideyalarının yayılması məqsədi ilə "Bolqarıstan sosial-demokratik kitabxanası" seriyalı kitabların çapına başlamaq qərara alındı.

1891-ci ildə seriya D.Blaqoyevin "Sosializm nədir və onun ölkəmizdə əsası varmı?" broşürü ilə açılmışdır. Bu ilk orijinal bolqar marksist əsəri elmi sosializmin əsaslarını izah edərək Bolqarıstandakı ictimai münasibətlərin təhlilini verirdi. Marksizmin ideoloji əleyhdarları, xüsusilə xalqçılar Bolqarıstanın özünəməxsus şəkildə inkişaf etdiyini və ölkədə sosializm üçün zəmin olmadığını müdafiə edirdilər. Blaqoyev göstərirdi ki, Bolqarıstanda kapitalizm inkişaf edir, proletariat formalaşır və bu ölkədə sosialist hərəkatının əsasını yaradır. Bolqar sosial-demokratları Blaqoyevin və G.V.Plexanovun xalqçılığın tənqidinə həsr olunmuş əsərləri əsasında fəhlələr və bütün zəhmətkeşlər arasında marksizmin təbliğinə başladılar. Sonralar bolqar marksistləri xalqçılarla mübahisələrdə V.İ.Leninin əsərlərindən də istifadə edirdilər. Bəzi sosialistlər partiyanın yaradılmasının hələ vaxtından tez olduğunu əsas gətirərək, onların birinci vəzifəsinin yalnız proletariatın iqtisadi mənafeyini müdafiə etmək olduğuna inanırdılar ki, 1892-ci ildə də onlar Bolqar sosial-demokrat ittifaqında (onları

"ittifaqçılar" adlandırırdılar) birləşdilər. D.Blaqoyev, G.Georgiyev və partiyanın digər əqidəli tərəfdarları ("Partiyaçılar") elə həmin ildən "İşçi" qəzetini nəşr etməyə başladılar. Burada Bolqarıstanda proletariatın (bütün kapitalist dünyasında olduğu kimi) artan qüvvə olduğunu və hər şeydən əvvəl təşkilata, yəni partiyaya ehtiyacı olduğunu müdafiə edirdilər. Öz mübarizəsini dünya fəhlə hərəkatının ayrılmaz hissəsi hesab edərək sosial-demokratlar II İnternasionalla əlaqə quraraq 1893-cü ildən başlayaraq partiya onun qurultaylarına nümayəndələr göndərirdi. Məhz bu zaman ölkədə beynəlxalq proletariatın həmrəylik bayramı 1 May qeyd olunmağa başlandı.

Stambolov hökumətinin gücləndirilmiş polis təqiblərinə qarşı mübarizə zərurəti 1894-cü ildə "İttifaqçılar" və "Partiyaçılar"ı Bolqarıstan fəhlə sosial-demokratik partiyası (BFSDP) çərçivəsində birləşməyə sövq etdi. "İttifaqçılar" partiyanın və proletariatın siyasi mübarizəsinin zəruriliyini prinsip etibarı ilə dərk edirdilər. Lakin onların çoxu reformizmə meylli olaraq ardıcıl sinfi-proletariat xəttindən yayınırdılar. 1894-cü ilin sonlarında Xalq Məclisinə seçkilər ərəfəsində Y.Sakızov və digər keçmiş ittifaqçıları burjua müxalifəti ilə seçki müqaviləsi bağlayaraq öz seçki platformalarını kəndlilərin və sənətkarların tələblərinə uyğunlaşdırdılar. Partiyanın fəaliyyətinin mərkəzini xırda burjua təbəqəsinə köçürmək meyli Bolqar proletariatının gücünə inamsızlıq əks etdirirdi. D.Blaqoyevin başçılıq etdiyi ardıcıl marksistlər qəti şəkildə bu meyilə qarşı çıxdılar.

O vaxtkı azsaylı bolqar sosial-demokratlarının mühüm nailiyyəti marksist ədəbiyyatın nəşri və yayılması idi. D.Blaqoyev bolqar reallığının aktual problemlərini elmi sosializm nöqteyi-nəzərindən əhatə edən bir sıra orijinal əsərlər yazmışdır. Q.Bakalov, N.Qabrovski və başqa sosial-demokratlar əsasən K.Marksın, F.Engelsin və onların ən görkəmli davamçılarının (ilk növbədə G.V.Plexanov, V.Libknext, P.Lafarq və s.) əsərlərinin tərcüməsi və nəşri ilə məşğul olurdular. Elmi sosializm ideyalarını təbliğ edən, fəhlə sinfinin və əməkçilərin inqilabi mübarizəsinin əhəmiyyətini və təcrübəsini, müxtəlif ölkələrin sosial-demokratlarının fəaliyyətini izah edən kitab və broşürlər də nəşr olunurdu.

Xüsusilə fəhlələr üçün BFSDP-nin IV qurultayının qərarı ilə 1897-ci ildən Q.Kirkovun redaktorluğu ilə "Rabotniçeski vestnik" qəzeti nəşr olunmağa başladı. Həmin il partiyanın elmi-nəzəri və ictimai-siyasi orqanının jurnalı kimi "Novo Vreme" çıxmağa başladı. Onun yaradıcısı və daimi redaktoru (ömrünün sonuna kimi) partiyanın lideri və nəzəriyyəçisi D.Blaqoyev idi. Fəhlələr arasında marksizm ideyalarının təbliğində və yayılmasında, elmi sosializm nəzəriyyəsinin prinsiplərinin bolqar reallığı şəraitində tətbiqində jurnal və qəzet böyük rol oynamışdı. İlk bolqar sosial-demokratlarının fədakar fəaliyyəti tədricən öz bəhrəsini verdi.

Burjua-monarxist dövlətinin mühafizəkar və mürtəce qüvvələri fəhlə və sosialist hərəkatının iştirakçılarını, xüsusən də onun inqilabi qanadının nümayəndələrini daim təqib edirdilər. İşverənlərin əllərində "narahat" elementlərə təzyiq gös-

tərmək üçün güclü iqtisadi vasitə var idi. Kilsələrdə keşişlər amansızcasına "tanrısız sosialistlərə" hücum edirdilər. Burjua mətbuatı sistemli şəkildə sosial-demokratiyanın təsirinin artmasına qarşı çıxırdı.

Yenə də, iş şəraitində, ilk vaxtlar az diqqət cəlb etsə də tədricən dəyişikliklər baş verirdi. 1890-cı illərin birinci yarısında əmək qanunvericiliyinin tətbiqi üçün sosial-demokratların dəstəklədiyi hərəkat (petisiya şəklində) genişləndi. 1890-cı illərin ortalarında Varna yükdaşıyanları və Sofiya-Roma dəmir yolunun inşaatçıları arasında kortəbii çıxış və iğtişaşlar baş verdi. Əvvəlcə kortəbii xarakter daşıyan iqtisadi tətillər daha tez-tez yayılmağa başladı. Həmin illərin yaddaqalan tətillərindən biri 1894-cü ildə yaranmış mətbəəçilərin Mərkəzi fəhlə sindiqatının (həmkarlar ittifaqı) rəhbərliyi altında keçirilən Sofiya mətbəəçilərinin ümumi tətili idi. Ona sosial demokrat, enerjili təşkilatçı və alovlu natiq, çapçı D.Sumpurov rəhbərlik edirdi. Sindiqatın filialları bir sıra başqa şəhərlərdə də yaradılmışdır. Həmin dövr üçün mühüm əhəmiyyət kəsb edən 1896-cı ildə sosial-demokratlar ("Sosialist" qəzeti vasitəsilə) tətilçilərə dəstək məqsədi ilə pul yığımı təşkil etdilər. Beləliklə, kütlələr arasında sinfi həmrəylik hissləri tərbiyə olunurdu.

Fəhlə təşkilatları böyüdü və təkmilləşdi. Onların ən çox yayılmış forması hələ də qarşılıqlı yardım yoldaşlığı idi. Onlar maarifləndirmə və qarşılıqlı yardım vəzifələri ilə məhdudlaşırdılar. Proletariatın yeni tipli birliyi həmkarlar ittifaqı oldu. Əvvəlcə onlar çox deyildi və əsasən məhdud ixtisaslar

üzrə sənətkarları birləşdirdilər. Sosial-demokratların təşəbbüsü ilə fəhlə cəmiyyətləri və klubları da yaradıldı. Onlar xüsusi olaraq təbliğat və maarifləndirmə fəaliyyəti üçün yaradılır və sosial-demokrat partiyasının yerli təşkilatları ilə sıxı şəkildə bağlı idilər. XIX əsrin 90-cı illərin sonlarında bolqar fəhlə və sosialist hərəkatı yeni mərhələyə yaxınlaşdı ki, opportunist və inqilabçı cərəyanlar arasında mübarizə kəskinləşdi, bu da fəhlə hərəkatında mühüm dəyişikliklərdən xəbər verirdi.

# V FƏSİL

## XX YÜZİLLİYİN ƏVVƏLLƏRİNDƏ

Yeni əsrin başlanğıcında ölkədə sənaye istehsalında yüksəliş baş verdi. Əgər 1887-1900-cü illərdə Bolqarıstanda orta hesabla beş lisenziyalı sənaye müəssisəsi var idisə, 1900-1907-ci illərdə 16, 1908–1911-ci illərdə 40 lisenziyalı müəssisə var idi. Eyni zamanda, yeni yaradılmış müəssisələr, bir qayda olaraq, iqtisadi cəhətdən daha güclü idi.

Sənaye sahələrinin inkişafında qeyri-bərabərlik müşahidə olunurdu. Ən böyük sıçrayış qida, toxuculuq, dəri, ağac emalı, tütün kimi sahələri əhatə edən yüngül sənayedə oldu. Plovdiv, Sofiya, Varna, Sliven, Burqas, Qabrovo, Ruse və digər şəhərlər ölkənin sənaye mərkəzləri kimi böyüyürdülər.

Ağır sənaye zəif inkişaf etmişdir. Nisbətən daha sürətli temp yalnız daş kömür istehsalında, ilk növbədə Pernik bölgəsində qəhvəyi kömür hasilatında artdı. Birinci Dünya Müharibəsindən əvvəl dövlətə məxsus olan Pernik mədənləri ölkədə istehsal olunan bütün kömürün 80%-dən çoxunu istehsal edirdi. Filiz minerallarının, mis və digər əlvan metalların çıxarılması nisbətən yavaş genişlənirdi. Vraçanski rayonundakı “Plakalnitsa” mis yatağı ən böyük mədən idi. 1901-ci ildə Sofiya yaxınlığındakı  Pançarevdə su elektrik

stansiyası, 1906-cı ildə Qabrovoda istilik elektrik stansiyası tikilmişdi. Metal emalı və maşın təmiri müəssisələri, bir qayda olaraq, kiçik müəssisələr idi. Belə sənayenin nisbətən iri müəssisələrinə Sofiya və Şumendə dövlət arsenalları, Varnadakı gəmiqayırma tərsanəsi, Sofiya, Ruse və Burqasdakı dəmir yolu depoları, habelə Rusedə üç özəl maşın təmiri zavodu daxil idi.

Sənətkarlıq yenidən quruldu və ölkənin xalq təsərrüfatındakı əhəmiyyətini daha bir neçə onillik ərzində saxladı. Balkan müharibələri ərəfəsində, 1911-ci ildə sənətkarlıq müəssisələrinin illik istehsalı lisenziyalı sənayenin istehsalını 2 dəfə üstələyirdi. Sənətkarlıq emalatxanalarının sayının azalmasına baxmayaraq onlarda muzdlu çalışanların sayı artmışdır. 1911-ci ildə ölkədə 75 minə yaxın sənətkarlıq müəssisəsi var idi ki, bunlar arasında da bir və ya iki muzdlu işçisi olan sənətkarlıq emalatxanası üstünlük təşkil edirdi. Xırda sənətkarların xeyli hissəsi kəndlərdə yaşayırdı.

Şəhərlərdə sənətkarlıq emalatxanalarının bir hissəsi fabrik sənayesinin əlavəsinə çevrildi. Bir çox sənətkarlıq müəssisələri (ayaqqabı, mebel, toxuculuq və s.) bazarın yeni tələblərinə və istehlakçının zövqünə uyğunlaşaraq yenidən təşkil edildi.

Tikinti işləri yolların çəkilməsi də daxil olmaqla sürətlə artdı. 1911-ci ilə kimi dəmir yolu şəbəkəsinin uzunluğu artıq 1934 km-ə çatmışdır. Sofiya, Belqrad, İstanbul, eyni zamanda Qara dəniz limanları Varna və Burqas arasında birbaşa dəmiryol şəbəkəsi yaradılmışdır. 1887–1911-ci illər arasında şosse

yolların uzunluğu iki dəfə, bələdiyyə yolların uzunluğu yeddi dəfə artmışdır. Dunay çayının sahillərində yerləşən Sviştov, Ruse və Vidin şəhərlərində gəmilərin yan alması üçün körpülər tikilmiş, Varna və Burqasdakı limanlar genişləndirilmişdir. Teleqraf və poçt stansiyalarının sayı 1897-ci ildəki 41-dən 1911-ci ildə 374-ə çatmışdır.

Əvvəllər olduğu kimi, dəmir yollarının əsas hissəsi Vyana, Berlin və Paris bankirlərinin kreditləri hesabına tikilirdi. Xarici kapitalın iştirakı ilə bir çox Bolqarıstan bankları, ticarət və sığorta şirkətləri, firmaları yaradılmasına baxmayaraq nisbətən daha az sənaye müəssisələri tikilirdi. Bolqarıstana nüfuz edən xarici kapital, eləcə də yerli biznes əsasən ticarət və kredit sahəsinə yönəlirdilər ki, dərhal mənfəət əldə etsin, çünki ölkədə qurulmuş dövlət və kooperativ kredit sistemi yox idi. Kapitalist istehsalının daha müasir və səmərəli üsullarının daşıyıcıları olan ölkədəki xarici banklar və firmalar Bolqarıstana kapitalın cəlb edilməsinə qismən töhfə verdilər. Lakin onların tez bir zamanda maksimum mənfəət əldə etmək arzusu əlavə maneələr və çətinliklər yaradaraq, əslində iqtisadiyyatın inkişafında yaranan deformasiyanın, yəni onun qeyri-bərabər və qeyri-mütənasib inkişafını daha da kəskinləşdirdi. Bundan əlavə, onlar əldə etdikləri bütün mənfəəti əsasən ölkənin məhsuldar qüvvələrinin inkişafına deyil, xaricə ixrac edirdilər.

Kənddə kapitalist münasibətləri sürətlə inkişaf edirdi. Nisbətən iri fermer təsərrüfat tipli torpaq sahələrinin sayı maşınların və muzdlu işçilərin istifadəsi ilə əsasən cənubi Dobruca və

Dunay ətrafı taxılçılıq rayonlarında artmışdır. Texniki bitkilərin, xüsusilə üzüm, çuğundur və s. istahsalında da artım olmuşdur.

XX əsrin əvvəllərində xırda kəndlilərin (eləcə də ölkənin əmək qabiliyyətli bütün əhalisinin) iqtisadi çətinlikləri bütün kapitalist dünyasının imperialist mərhələsinə daxil olması ilə daha da kəskinləşmişdir. Bolqarıstanda kapitalizmin gecikmiş inkişafı bütövlükdə monopoliyadan əvvəlki formalar çərçivəsində baş vermişdir. Lakin əsrin əvvəllərində Qərbi və Mərkəzi Avropa ölkələrində qurulan monopoliyalar (inhisar birlikləri) Bolqarıstan iqtisadiyyatına da öz təsirini göstərməyə başladı. Ölkədə inhisarçı birliklərin ilk rüşeymləri meydana çıxdı. Bolqarıstanda müvəqqəti və davamlı olmayan ilk monopoliyalardan biri 1902-ci ildə 10 iri yumurta satıcısı arasında bağlanan müqavilə idi. 1905-ci ilə qədər ölkədən yumurta ixracatında faktiki inhisara sahib olan soyğunçu yumurta satıcı tacirləri kəndlilərə qəsbkar qiymətləri diktə edirdilər. Kənd təsərrüfatı məhsullarının aşağı alış qiymətləri də soyğunçu şəkər, içki, tütün zavod və fabrik sahibkarları və tacirləri tərəfindən müəyyən edilirdi. Ayrı-ayrı ticarət firmaları da kəndlilərdən taxıl, tütün, və s. mallar almaq əməliyyatlarında iştirak etməyə başladılar. Böyük kapitala malik olan iri tacir və bankirlər inhisar qiymətləri diktə edərək xırda kənd istehsalçıları hesabına varlanırdılar. Məhz bu illərdə sənayenin toxuculuq, tütün, ağac emalı və s. sahələrində ilk inhisarlar yaranmışdı.

Kənddə kapitalist münasibətlərinin artması və XX əsrin əvvəllərində Bolqarıstanda İlk monopoliyaların meydana

gəlməsi kəndin sosial təbəqələşməsinin sürətlənməsinə səbəb oldu. Yoxsul kəndlilərin xeyli hissəsi ehtiyac üzündən şəhərlərə, mövsümi əkinçilik və tikinti işləri üçün başqa bölgələrə (məs. Dobrucaya), hətta qonşu ölkələrə üz tutdular. Bu səbəbdən, XX əsrin əvvəllərində "xoşbəxtlik" axtarışı arzusu ilə uzaq ölkələrə (əsasən Amerikaya) belə mühacirət yarandı. Xaricə mühacirət edən kəndlilərin əhəmiyyətli bir hissəsi bir neçə ildən sonra geri qayıtdı. Ümumiyyətlə, kəndlilərin təbəqələşməsi və yoxsul təbəqənin sürətlə artması prosesi sənaye və kapitalist (fermer) təsərrüfatının tələb etdiyi daimi işçilərə olan tələbatı üstələyirdi. Bunun nəticədə yarım müflisləşmiş kəndlilərin (o cümlədən sənətkarların) çoxu özlərinə daimi iş tapmayaraq mövsümi və təsadüfi gündəlik işləri öz təsərrüfatları ilə əlaqələndirməyə məcbur oldular. Beləliklə, aqrar əhali artıqlığı meydana gəlmişdir.

XIX və XX əsrlərin qovşağında ölkənin fəhlə və sosialist hərəkatında yüksəliş baş verdi ki, bu da bir sıra obyektiv səbəblərdən irəli gəlirdi. Bura, ilk növbədə, fəhlə sinfinin artan sayı və ölkə əhalisinin tərkibində onun payı daxildir. Əgər 1900-cü ildə ölkədə fəhlələrin ümumi sayı 188 min nəfərə çatırdısa, 1910-cu ildə bu, artıq 332 min nəfər olmuşdur. Bunlardan 20 min sənaye fəhləsi, 50 min sənətkar, 160 min nəfəri isə kənd təsərrüfatı işçisi idi. Proletariatın payı 1900-cü ildə əmək qabiliyyəti olan əhalinin 10%-dən 1910-cu ildə 15%-ə yüksəlmişdir ki, proletariatın əsas hissəsini hələ də kənd təsərrüfatı və sənətkarlıqla məşğul olan fəhlələr təşkil edirdi. Eyni zamanda sənaye fəhlələrinin bir dəstəsi kimi formalaşan

proletariat bir sinif olaraq sabit ictimai qüvvəyə çevrilirdi. İstismarın artması, o cümlədən yeni əsrin əvvəllərindən növbəti iqtisadi dövrə zamanındakı yüksəliş proletariatı mübarizəyə sövq etdi.

Fəhlələrin mübarizə formaları dəyişdi. Əvvəllər, XIX əsrin sonlarında kortəbii çıxışlar üstünlük təşkil edirdi. XX əsrin başlanğıcında tətil hərəkatı artdı, toxucular və çapçılar, şəkər zavodları fəhlələri və liman yükləyiciləri, dəmiryolçular və tikinti fəhlələri mübarizəyə cəlb edildi. Əsrin əvvəllərində Sofiyada baş tutan avqustda tramvay işçilərinin və 1901-ci ilin dekabrındakı şəkər zavodu fəhlələrinin çıxışları ən böyük tətillərə misaldır. Həmkarlar ittifaqlarının, fondlardan və qarşılıqlı yardım birliklərindən daha yüksək səviyyəli fəhlə təşkilatlarının sayı artırdı.

Sosial-demokratlar klub və oxu kitabxanalarının yardımı ilə fəhlələr arasında marksizm ideyalarını təbliğ edirdilər. XIX əsrin sonlarından başlayaraq əvvəlcə Sofiya və Plovdivdə, daha sonra isə bir çox başqa böyük şəhərlərdə fəhlələr üçün axşam məktəbləri və kursları meydana çıxdı. Məktəblərdə ümumtəhsil (təbiətşünaslıq və ictimai elmlər) fənləri tədris olunurdu. Dərsləri partiyanın ən görkəmli xadimləri olan D.Blaqoyev (1856–1924), Q.Kirkov (1867–1919), Q.Bakalov (1873–1939) və başqaları, o cümlədən tələbələr arasından gənc sosial-demokratlar aparırdılar.

İnqilabçı sosial-demokratlar XX əsrin əvvəllərində vaxt və enerjilərinin əhəmiyyətli bir hissəsini partiyanın mahiyyətini dəyişmək fikrindən əl çəkməyərək onu xırda burjua

mühitinin maraqlarına uyğunlaşdırmağa çalışan opportunistlərə qarşı mübarizəyə sərf etməyə məcbur oldular. Eyni zamanda, XIX–XX əsrin qovşağında opportunistlərin fəaliyyəti daha da artmışdır. Onlar Almaniyada E.Bernşteynin və onun başqa ölkələrdəki davamçılarının təvtişçi çıxışlarından ilhamlanmışlar. Bolqarıstan islahatçılarının fəallaşması üçün əlavə təkan 1899-cu ildəki parlament seçkilərində xırda burjua seçicilərinin bir hissəsinin partiyanın xeyrinə müvəqqəti səs verməsi oldu. 1900-cü ildə opportunistlərin lideri Y.Sakızov partiya qurultaylarının nəşriyyat işinin mərkəzləşdirilməsi haqqında qərarlarını pozaraq, sinfi ziddiyyətlərin barışdırılması ideyasını, sinfi ziddiyyətlərin uzlaşdırılması və bütün siniflərin "geniş əməkdaşlığı" ideyasını təbliğ edən "Ümumi iş" jurnalını nəşr etməyə başladı. "Kommunalistlər" (onların başqa adı "geniş" sosialistlərdir) əslində marksizm ideyalarından açıq şəkildə qırılma yoluna qədəm qoydular.

D.Blaqoyev, Q.Kirkov, G.Georgiyev və onların inqilabçı sosial-demokratlar sıralarında olan həmfikirləri özlərini "sıx sosialistlər" (yaxud "tesnyaklar") adlandırır və kommunalistləri parlamentarizmə aludəçiliyinə, partiyanı xırda burjuaziyaya doğru yönəltmək məqsədinə görə tənqid edirdilər. Onlar partiyanın proletar mahiyyətini qorumaq zərurətini müdafiə edirdilər. Leninin "İskra"sının materiallarının öyrənilməsi "tesnyakların" "geniş"lərin təftişçiliyinə qarşı ideoloji mübarizənin dərinləşməsinə xidmət edirdi. Rusiya sosial-demokratları arasında gedən ideoloji mübarizəsi bolqar sosial-demokratları içərisində canlı əks-səda yaradaraq onlara

mübahisələrində istinadlar verdi. Q.Bakalovun fikrincə, "İskra" tesnyaklara "geniş"lərin çoxlu anlaşılmazlıqlarını aydınlatmağa kömək etdi. Genişlərlə polemikalarda tesnyaklar dəfələrlə V.İ.Leninin "Nə etməli?" əsərindəki təftişçiliyə qarşı fikir və sözlərindən "Rabotniçesko vestnik" qəzetində sitat gətirmişdilər. Bakalovun xatirələrində qeyd edilir ki, Leninin ideyaları "şübhəsiz ki, bolqar fəhlələrinə təsir göstərmişdir". "İskra" nəşrinin Bolqarıstan üzərindən Rusiyaya qeyri-qanuni olaraq çatdırılması tesnyaklar və iskraçıların əməkdaşlığında rol oynamışdır. İskraçıları və tesnyakları opportunizmə qarşı prinsipial mübarizə platforması birləşdirirdi.

1902-ci ilin sonu – 1903-cü ilin əvvəllərində partiyadakı iki cərəyan olan "sıx" və "geniş"lər faktiki olaraq ayrıldı. Əvvəlcə Sofiya partiya təşkilatı parçalandı. Sonra digər yerli təşkilatlarda uzaqlaşma baş verdi. 1903-cü ilin iyulunda keçirilən və yalnız inqilabi sosial-demokratların nümayəndələrinin təmsil olunduğu partiyanın X qurultayı yeni nizamnamə və taktika haqqında qətnamə qəbul etdi. O, partiyanın proletar mahiyyətini, onun demokratik mərkəziyyət prinsipini təsdiq edirdi. Bundan sonra partiya Bolqarıstan fəhlə sosial-demokrat partiyası (sıx sosialistlər) – BFSDP adlandı. Qurultay partiyaya proletariatın həmkarlar ittifaqlarında sinfi əsasda təşkili üçün bütün gücü ilə səy göstərməyi tövsiyə etdi. Tesnyaklar indi proletariyatın təşkili və tərbiyəsinin konkret məsələlərinə daha çox diqqət yetirə bilərdilər. Partiyanın təşəbbüsü ilə 1904-cü ilin iyulunda onun bütün sindikatlar və

digər həmkarlar ittifaqı birlikləri vahid Ümumifəhlə sindikat İttifaqında (ÜFSİ) birləşdi.

Ümumiçilərin ("общедельцев") opportunist platformasının tərəfdarları da 1903-cü ildə Bolqar fəhlə sosial-demokrat partiyası (geniş sosialistlər) – BFSDP (g.s.) çərçivəsində birləşdilər. ÜFSİ-a qarşı ümumiçilər 1904-cü ilin avqustunda formal "həmkarlar ittifaqlarının bitərəfliyi" əsasında azad ÜFSİ təşkil etdilər. O, islahatçı taktikaya sadiq qalan sindikatlardan ibarət idi və faktiki olaraq geniş sosialistlər partiyasına qoşulmuşdur.

Tesnyaklar zəhmətkeşlərin beynəlmiləl tərbiyəsinə, cəhalətpərəstliyə, millətçilik və şovinizmə qarşı mübarizə məsələlərinə çox diqqət yetirirdilər. Zəhmətkeşlərin inqilabi mübarizəsinin artdığı Rusiyadakı hadisələr bolqar proletariatında böyük maraq doğurdu. Bolqarıstanın sinfi şüurlu fəhlələri Rusiyadakı 1905-ci il inqilabını coşqu ilə qarşıladılar. "Rabotniçeski vestnik" qəzeti yazırdı: "Rusiya proletariatının işi bütün ölkələrin fəhlələrinin işidir". Rusiyada inqilaba dəstək məqsədilə pul vəsaiti toplama fondları açıldı. Tesniyakların qurultayı inqilab mübarizlərinin ünvanını alqışlayan xüsusi qətnamə qəbul etdi. Bolqarıstanın hər yerində Rusiyanın inqilabi proletariatı ilə həmrəylik fəhlə yığıncaqları və mitinqlər keçirilirdi.

Rusiyadakı inqilabi mübarizə bolqar proletariatına böyük təsir göstərdi. 1905–1907-ci illərdə böyük tətillər baş verdi, həm də bolqar fəhlələri "Yaşasın rus inqilabı!", "Biz fəhlə qanunvericiliyini tələb edirik!" kimi siyasi şüarlarla çıxış

etməyə başladılar. 1905-ci ilin dekabrında Rusiya proletariatı ilə həmrəyliyə çağıran və fəhlələr əleyhinə qanunların ləğvini tələb edən nümayişlə müşayiət olunan Sofiya fəhlələrinin kütləvi tətili oldu. 1906-cı ildəki dəmiryolçuların ümumi tətili, 1906 və 1907-ci illərdəki Pernik mədənçilərinin tətilləri də əhəmiyyətli hadisələr idi. Tətillərin gedişində proletariatın mütəşəkkilliyi və dəyanəti, onların sinfi həmrəyliyi yüksəldi. Məsələn, Pernikin tətil edən mədənçilərinə bütün ölkə üzrə tesniyaklar tərəfindən toplanan əhəmiyyətli vəsait təmin edildi. Tətilçilər tətil edərək əldə etdikləri mədənçilərin sindikatı onların daha mütəşəkkil mübarizəsinin başlanğıcını qoydu.

1907–1908-ci illərdə əvvəllər üstünlük təşkil edən sindikatlar və qarışıq həmkarlar ittifaqları birlikləri yerinə ÜFSİ çərçivəsində çapçılar, toxucular, dəri emalçıları, metalçılar, ticarətçilər, tütünçülər, ağac emalçıları, liman işçiləri, filiz emalçıları və mədənçilər, bir qədər sonra isə nəqliyyat işçiləri ittifaqı əhatə edən mərkəzləşdirilmiş istehsal-sahə həmkarlar ittifaqları yaradıldı. Bu həmkarlar ittifaqlarının hər biri adətən ayda bir dəfə öz qəzetini nəşr edirdi.

Ümumiçilər inqilabçı həmkarlar ittifaqlarına qarşı azad, mahiyyətcə islahatçı həmkarlar ittifaqlarını qorumağa çalışırdılar. Kiçik sənətkarlıq müəssisələrində fəhlələrin bir hissəsinin daxil olduğu beş mərkəzləşdirilmiş həmkarlar ittifaqının (toxucular, çapçılar, ağac və dəri emalçıları, metalçılar) köməyi ilə onlar fəhlə hərəkatında burjuaziya ilə əməkdaşlıq tərəfdarı olan tred-yunionizm xəyalı yaradırdılar. İslahatçılar tesnyaklardan fərqli olaraq fabrik sənayesi fəhlələri arasında

həmkarlar ittifaqı yarada bilmədilər. Müəllimlərin, məmurların, dəmiryolçuların, teleqraf-poçt işçilərinin dar peşə sahibi ittifaqları opportunistlərin əsas dayağı oldu. Bu birliklər İttifaqlar ittifaqı federasiyasında birləşdirilmişdir.

Proletarların sinfi tərbiyəsində tesniyakların təşkil etdiyi maarifçi birliklər və qruplar axşam məktəbləri və kursları, həmçinin 1912-ci ildə Tesnyak partiyasının rəhbərliyi altında fəaliyyət göstərən sosial-demokratlar fəhlə gənclər ittifaqına birləşmiş gənclər idman-gimnastika dərnək və cəmiyyətləri mühüm rol oynadı. Fəhlə klublarında və kitabxana-oxu otaqlarında mühazirə və söhbətlər həvəskar musiqili-xor və dram teatr kollektivlərinin çıxışları ilə axşamlar təşkil olunurdu. Tesniyaklar fəhlələr arasında təkcə marksizmi təbliğ etməklə bərabər eyni zamanda onlara oxumağı və yazmağı öyrədir, onları mədəni dəyərlərlə tanış etməyə çalışırdılar.

Tesnyaklar partiyası üzvlərini və onun ideoloqlarını təmsil edən mütərəqqi yaradıcı ziyalıların yaratdığı ictimai fikir, bədii və musiqi mədəniyyətinə dair əsərləri, estetika və ictimai elmin müxtəlif sahələrinə dair əsərləri bu baxımdan böyük əhəmiyyət kəsb edirdi. Bolqar proletariatı arasında Q.Kirkovun "Rabotniçesko vestnik" qəzetinin səhifələrində dərc edilmiş hekayələri, satirik felyetonları və təmsilləri xüsusi təsir bağışlayırdı. Felyetonlarının bir hissəsini "Usta" təxəllüsü ilə imzalayan müəllifə (partiya ləqəbi də bundan yaranıb) bu fəhlələr arasında tanınaraq böyük şöhrət gətirmişdir. D.Blaqoyevin səciyyələndirdiyi kimi Q.Kirkov təkcə şair və satirik, "təbiətcə rəssam və yaradıcı" deyildir. O, çoxlu

istedad sahibi idi; onda görkəmli partiya və həmkarlar ittifaqı rəhbəri və təşkilatçısı, dərin zəkalı və yüksək təhsilli marksist, parlaq publisist və əla natiq, hazırcavab, və şən insan, diqqətli həmsöhbət kimi keyfiyyətlər birləşmişdir. Müharibədən əvvəlki illərdə o, Tesnyaklar partiyası Mərkəzi Komitəsinin katibi kimi və eyni zamanda ÜHİ-nin rəhbəri olaraq ölkəni çox gəzir və daim işçilərin arasında olardı. Onunla ünsiyyət gənc proletarlara bolqar və beynəlxalq fəhlə hərəkatının təcrübəsini tez mənimsəməyə kömək etdi.

Tesniyakların məqsədyönlü və yorulmaz fəaliyyəti sayəsində XX əsrin birinci onilliyinin sonlarında ölkədə qabaqcıl şüurlu proletar təbəqəsi formalaşmışdı. Onun ən görkəmli nümayəndələrindən biri Georgi Dimitrov idi (1882–1949). Yeniyetmə olarkən mətbəədə mürəttib şagirdi kimi fəhlə hərəkatına qoşulub. Partiyaya son dərcə sədaqətli olan, böyük iş qabiliyyətinə və özünütəhsildə əzmkarlığa malik G.Dimitrov həmkarlar ittifaq fəalından qısa bir zamanda həmkarlar ittifaqının rəhbərinə çevrildi. O, özünün tükənməz enerjisini, iradə və həvəsini, alovlu natiqlik bacarığını proletariatın azadlığı uğrunda mübarizə işinə sərf etmişdir. Partiya fəhlələr arasında xeyli sayda fədakar döyüşçü-liderlər yetişdirmişdir. Onların bir çoxu, məsələn, Anton İvanov, Nikola Penev, Petko Napetov və b. sonralar görkəmli partiya və həmkarlar ittifaqı xadimləri oldular.

Fəhlələrin əsas maraqlarını müdafiə edərək, tesnyaklar şüurlu və ciddi nizam-intizam əsasında inqilabçı sosial-demokratlar partiyasını (V.İ.Lenin onları hələ 1908-ci ildə təsdiq

etmişdir) yaratdılar. Onlar proletariatın inqilabi yolla hakimiyyəti ələ almasının tərəfdarı olmaqla, burjuaziyaya qarşı müstəqil və barışmaz mübarizə taktikasını qətiyyətlə müdafiə edirdilər. Partiya bir növ bolşevizmə yaxın olan beynəlxalq sosial-demokratiyanın inqilabi marksist təşkilatı kimi təşəkkül tapdı. Bununla yanaşı onun siyasi çeviklik və manevr qabiliyyəti yox idi, taktikada isə ehkam-məzhəb səciyyəli çatışmazlıqlar mövcud idi. Tesniyaklar kəndlilərin inqilabi potensialına məhəl qoymamaqla müəyyən olunurdu. Kənddə burjuaziyanın hakimiyyətinə və əməkçilərin böyük sələmçi kapital tərəfindən istismarına qarşı müttəfiq axtarışının və yalnız proletar inqilabı və sosializm uğrunda əqidəli mübarizə partiyanın kənddə nüfuzunu məhdudlaşdırırdı. Hansı ki, artıq XIX əsrin sonlarında bolqar kəndliləri mübarizəyə qoşulmuşdur.

XIX əsrin sonunda Bolqarıstanın kənd təsərrüfatı uzun sürən böhran vəziyyətində idi. Bolqar kəndində təbəqələşmə prosesi intensiv şəkildə gedirdi. Kəndlilərin böyük hissəsinin azad edildikdən sonra torpaqlara görə alınan dövlət borclarını və əlavə faiz borcu ağır yük olaraq qalırdı. Kəndlilərin əksəriyyətini təşkil edən xırda torpaq sahibləri sələmçilərin tələsinə düşərək yarım feodal soyğunçuluq üsulları ilə üzləşirdi (birləşmə məhsulu almaq və "yarıdarlıq", yəni məhsulun yarısını torpaq sahibinə keçirmək şərti). Uzun müddət davam edən dünya aqrar böhranı Bolqarıstanın taxıl istehsalçılarına xüsusilə ağır zərbə vurdu.

XIX–XX əsrlərin qovşağında hakimiyyətdə olan liberal-radoslavçılar hökuməti nazirlərin fırıldaqları sayəsində oğurlanaraq

tükənmiş xəzinəni yeni vergi ilə doldurmaq qərarına gəldilər. Xalq məclisinə "təbii ondabirin" bərpası (məhsulun onda bir hissəsinin dövlətə verilməsi) haqqında qanun təqdim edildi. Osmanlı asılılığı zamanı toplanan və sonradan ləğv edilən bu vergi son dərəcə populyar deyildi. Hökumətin ondabirin bərpası ilə bağlı qanun layihəsini parlamentə təqdim etməsi xəbəri səbr kasasını doldurdu. Uzun illər kəndlilərin artan narazılığı hökumət əleyhinə açıq etirazlarla nəticələndi.

1899-cu ilin sonundan 1900-cü ilin yayına kimi ölkədə yığıncaqlar və nümayişlər dalğası yayıldı. Yüzlərlə kənddə fırtınalı görüşlər oldu ki, kəndlilərin əhəmiyyətli hissəsi burada iştirak edirdi. Kiçik və bəzi iri şəhərlərdə (məs. Varnada) ətraf kəndlərdən olan kəndlilərin iştirakı ilə etiraz mitinqləri də keçirildi. Yerli bələdiyyə orqanlarının ("icma şuraları") 4/5-dən çoxu ondabirin tətbiqinə qarşı çıxdı. Xalq məclisinə çoxlu sayda müvafiq məzmunlu qətnamələr göndərildi.

Bir sıra dairələrdə (Varna, Ruse, Şumen, Tırvovo) hakimiyyət hərbi vəziyyət tətbiq etməyə məcbur oldu, kəndliləri sakitləşdirmək üçün təkcə polis deyil, hərbi hissələr də səfərbər edildi. Kəndlilərin müxtəlif təbəqələrinin iştirak etdiyi ondabirə qarşı mübarizə bütün ölkədə gedirdi. Bu özünün ən yüksək şiddət nöqtəsinə Şimal-Şərqi Bolqarıstanda, ilk növbədə Varna dairəsinin kəndlərində çatmışdır. Balçik və Dobriç qəzalarının Şabla və Duran-Kulak kəndlərində, Ruse qəzasının Trısten kəndində kəndlilərlə polis və əsgərlər arasında çoxsaylı insan tələfatı ilə nəticələnən toqquşmalar oldu.

(Duran-Kulak kəndində 1900-cü il mübarizəsinin iştirakçısı olan kəndlilərə abidə ucaldılmışdır).

Osmanlı asılılığına qarşı mübarizədən bəri görünməmiş şiddətli kəndli iğtişaşları ölkəni sarsıtdı. Onların zor gücünə yatırılmasına baxmayaraq, tezliklə hökumət istefaya getməyə məcbur oldu və vergi ləğv edildi. Bolqar kəndlilərinin mübarizəsi bolqar cəmiyyətində yetişmiş ciddi münaqişənin ifadəsi idi. Yalnız forma baxımından ondabir qanununa qarşı yönəlmişdir. Mahiyyət etibarı ilə hədsiz vergilərdən, ticarət-sələmçi kapitalın istismarından tükənən kəndlilər kəndin mütərəqqi inkişafına mane olan hər şeyə qarşı çıxırdılar.

Kəndlilərin çıxışları kortəbii xarakter daşıyırdı. Lakin 1899-cu ildə baş verən iğtişaşlar, əvvəllər yəni, 1890-cı illərin ortalarında başlanğıcda ölkə üçün yeni bir təşkilat olan Əkinçilik İttifaqının təşkili prosesini sürətləndirən təkan oldu. İttifaqın əsasını qoyan təsis qurultayı 1899-cu il dekabrın 28–30-da Plevendə baş tutdu. Əkinçilik ittifaqına aqronomlar Y.Zabunov və D.Draqiyev, kənd müəllimi, şairi, keçmiş sosial-demokrat Tsanko Bakalov (Tserkovski) və xırda burjua kənd ziyalılarının digər nümayəndələri rəhbərlik edirdilər. Qurultayda qərara alındığı kimi, öz qüvvəsilə torpaq sahəsi becərən hər bir nəfər ittifaq üzvü ola bilərdə; sahənin ölçüsü isə qətnamədə müəyyən edilməmişdir.

Əkinçilik ittifaqı kəndlilərinin geniş kütlələrinin siyasi fəallığının yüksəlişi şəraitində meydana gəldi və burjua hökumətlərinin sənayenin inkişafını təşviq etməyə yönəlmiş vergi və proteksionist siyasətindən narazı olan bolqar kəndinin

müxtəlif təbəqələrinin müxalif əhval-ruhiyyəsindən qidalanırdı. 1900-cü ildə ittifaqın yeni yaradılmış Varna təşkilatının müraciətində qeyd edilirdi: "Çörək əkib aclıq biçirik!" İttifaqın yaranması öz təbəqəsinin alçaldılmasını hiss edən və öz partiyasını yaratmaq kimi xüsusi aqrar və kəndli problemlərini həll etməyə çalışan kəndlilərin ehtiyacının ifadəsi idi.

İlk olaraq Əkinçilik ittifaqı əkinçilərin peşəkar təşkilatı kimi yaradılmışdır. Təsis qurultayında qəbul edilmiş nizamnamənin 1-ci maddəsinə əsasən, ittifaq partiya kimi deyil, əsas vəzifəsi kəndlilərin iqtisadi mənafeyini qorumaq olan maarifçi-iqtisadçı təşkilat kimi elan edilmişdir. Lakin Əkinçilik ittifaqının tərəfdarları arasında, o cümlədən onun rəhbərliyində ittifaqın mahiyyəti və vəzifələri ilə bağlı kəskin fikir ayrılıqları yarandı. Bu fikir ayrılığı ittifaqın qarışıq sosial tərkibindən qaynaqlanırdı. D.Draqiyevin rəhbərlik etdiyi Əkinçilik ittifaqının bir sıra rəhbərləri əvvəldən onu siyasi partiyaya çevirməyə çalışırdılar. Amma ittifaqın ilk iki qurultayında bu istiqamətin nümayəndələri azlıq təşkil edirdilər, əksəriyyət isə ittifaqın peşə-maarifçi mahiyyətini qoruyub saxlamalı olduğu ideyanın tərəfdarları idi. Bu cərəyanın tərəfdarları arasında kənd təsərrüfatı ilə bağlı əvvəllər yaradılmış burjua partiyalarının çoxlu üzvləri var idi. Onlar ittifaqı partiyaya çevrilməklə kənddə öz təşkilatlarının təsirinin zəifləyəcəyindən ehtiyat edir və əslində ittifaqı burjua partiyalarının alətinə çevirməyə çalışırdılar. Oxşar məqsədi sosial-demokratların islahatçı cərəyanının liderləri də ortaya qoydular. Qeyd edildiyi kimi, ümumiçilər sosial-demokratiyanın fəaliyyət

mərkəzini xırda burjua (o cümlədən kəndli) mühitinə köçürməkdə təkid edirdi.

Artıq 1901-ci ilin yanvarında Əkinçilik ittifaqı parlament seçkilərində iştirak etdi və 11-ci çağırış Adi Xalq Məclisində (qısaldılmış – XI AXM) 24 yer aldı. Lakin mübahisələr və ittifaqın mövqeyinin qeyri-müəyyənliyi ona gətirib çıxardı ki, onun siyahısı üzrə seçilmiş deputatların əksəriyyəti müxtəlif burjua və xırda burjua fraksiyalarına qoşuldular. Yalnız səkkiz deputat Əkinçilik ittifaqına sadiq qaldı. 1901-ci ilin oktyabrında keçirilən və bu zamandan etibarən Bolqarıstan Əkinçilik Xalq İttifaqı (BƏXİ) adlanan ittifaqın III qurultayı onun mahiyyəti ilə bağlı müzakirələrə son qoyaraq onu siyasi partiyaya çevirdi. BƏXİ-nin xırda burjua demokratik kəndli partiyası kimi sonrakı inkişafı xeyli dərəcədə onun ən parlaq lideri, görkəmli siyasi rəhbər Aleksandr Stamboliyskinin (1879–1923) fəaliyyəti ilə bağlı idi.

A.Stamboliyski Slavovitsa kəndinin Bazarcık qəzasının kəndliləri arasındn çıxmışdır. Vətənində aqronom təhsili aldıqdan sonra Almaniyada təhsil alaraq Bolqarıstana dönüb və jurnalistika ilə məşğul olmuşdur. 1902-ci ildən redaktor köməkçisi, 1904-cü ildən isə BƏXİ-nin orqanı kimi yeni yaradılmış “Zemedelsko Zname” qəzetinin baş redaktoru olub. Qəzetin kəndlilər arasında şöhrətinin artmasında böyük ölçüdə A.Stamboliyskinin onun səhifələrindəki kəskin məqalələrinin dərci səbəb olmuşdur. Təbiətcə cəsur və iradəli, demokrat və əqidəsinə görə respublikaçı olan A.Stamboliyski eyni zamanda əla natiq və bacarıqlı jurnalist idi. O, məqalələrində

dövlət aparatındakı xəzinə oğruluğu və korrupsiya hallarını qətiyyətlə ifşa edərək, ölkədəki siyasi rejimin saxta demokratik mahiyyətini, burjua partiyalarının irticaçı mahiyyətini açıb göstərirdi. A.Stamboliyski əməkçi kəndlilərin geniş kütlələrinin əhval-ruhiyyəsini əks etdirərək, birinci rus inqilabı illərində Rusiyanın əməkçi xalqının mütləqiyyətə qarşı apardığı mübarizəni alqışlayırdı. Onun redaktoru olduğu qəzet "səmimi sevinclə" "qardaş Rusiya xalqının mübarizəsi ilə həmrəy" olduğunu bildirir və onun çarizm üzərində qələbəsinin Bolqarıstanda mütləqiyyətə qarşı mübarizəyə kömək edəcəyinə ümid bəsləyirdi. Qəzetdə kənddə yaşayan məşhur şair Ts.Bakalovun (Tserkovski) şeirləri dərc olunurdu.

Müharibədən əvvəlki dövr ərzində BƏXİ tam daxili birliyə nail ola bilmədi. Onun D.Draqiyev başda olmaqla bəzi rəhbərləri dinc, təkamül mahiyyətli fəaliyyət üsullarına çağırır, bəzən xırda burjua və burjua partiyaları ilə razılaşmaya meyl edirdilər. A.Stamboliyskinin başçılıq etdiyi yeni yaranan sol qanadın liderləri mürtəce burjua partiyalarına və mütləqiyyətə qarşı qətiyyətli siyasi mübarizənin tərəfdarı idilər. Stamboliyski, Draqiyev və başqalarının nəşr etdirdikləri bir sıra broşürlərdə və məqalələrdə formalaşan ideyalar BƏXİ-nin 1905-ci il VII qurultayında qəbul edilmiş platformasının əsası olub və sonradan onun rəsmi ideologiyası kimi təsdiq edilmişdir ("silk nəzəriyyəsi"). 1909-cu ildə, BƏXİ-nin rəhbəri seçildikdən iki il sonra A.Stamboliyski, çap etdirdiyi "Siyasi partiyalar və ya silki təşkilatlar" kitabında "silki nəzəriyyə" geniş formada təqdim edilmişdir.

BƏXİ-nin platformasında kəndlilərin geniş kütlələrinin əhval-ruhiyyəsini və bilavasitə maraqlarını bu və ya başqa dərəcədə əks etdirən tələblər var idi: məsələn, sələmçiliyə, iri kapitala və banklara qarşı mübarizə məqsədilə kredit-satış kooperasiyasının yaradılması və genişləndirilməsi, vergilərin ədalətli bölgüsü, dövlət aparatının ucuzlaşdırılması, məhkəmələrin müstəqilliyi, əkinçiliyin və bütövlükdə kəndin inkişafına dövlət yardımı, xalq maarifinin genişləndirilməsi, dövlət tibbi yardımın təşkili, ölkədə qanunçuluğun və konstitusiya qaydalarının möhkəmləndirilməsi və s. BƏXİ-nin platformasında tələblərlə bərabər mühafizəkar-utopik "Silki nəzəriyyə" ideyaları məsələn, xırda kəndli mülkiyyətinin möhkəmləndirilməsi ideyası yer almışdır.

"Silki nəzəriyyə" ziddiyətli idi. O, kəndlilərin sinfi təbiətinin ikililiyini, kapitalist cəmiyyəti şəraitində onun sosial təbəqələşməsini əks etdirirdi. Ondakı demokratik ideyalar və müddəalar qəribə və eklektik şəkildə mühafizəkar-utopik fikirlərlə birləşirdi ki, bu da varlı kəndlilərin maraqlarını əks etdirirdi. "Silki nəzəriyyə" kənddə sosial-iqtisadi inkişafın obyektiv qanunlarını, siniflər və sinfi mübarizəni rədd edirdi. BƏXİ-nin platformasında bu aqrarçılıq adlanan ideyalarla birləşirdi ki, o da kənd təsərrüfatı ölkədə maddi nemətlər istehsalının əsasıdır və bundan sonra da belə olacaqdır təsəvvürü yaradırdı. Bundan da əhalinin əksəriyyətini təşkil edən "kəndli təbəqəsinin" üstün mövqeyi hüququ Bolqarıstanda önə çıxmışdır. BƏXİ-nin rəhbərlərinin təsbit etdiyi kimi, gələcək əsl "xalq hakimiyyəti" naminə BƏXİ-nin bayrağı altında

siyasi maarifçilik nəticəsində birləşən və bütün başqa təbəqələr üzərində qələbə çalan kəndlilərə məxsusdur. Nəticədə, XX əsrin 20–30-cu illərində Mərkəzi və Cənub-Şərqi Avropa ölkələrində aqrarçılıq xırda burjua utotik ideologiyası kimi yayılaraq kooperasiya əsasında ictimai inkişafın və xoşbəxtliyin kapitalist və sosialist yolunda fərqli üçüncü "kəndli" yolunun əsaslandırılmasına imkan yaratmışdır.

"Silk nəzəriyyəsi" və aqrarçılıq ideyaları kəndlilərdə şəhərə və şəhərli təbəqəsinə düşmənçilik oyatdı. Onlar əslində kəndliləri proletariata qarşı qoydular. "Silk nəzəriyyəsi" fəhlələrin köməyi və rəhbərliyi olmadan istismarsız cəmiyyət qura bilər illüziyası yaradaraq irticaçı quruluşa qarşı mübarizədə kəndliləri öz təbii müttəfiqindən ayırdı. Eyni zamanda, bəhs edilən zamanda sıx sosialistlərin proletar partiyası fəhlə və kəndli Lenin ittifaqını dərk etməyərək BƏXİ-na qarşı doktrin, ehkam-tənqidi mövqe tutmuşdur ki, bu da BƏXİ-dəki sol cərəyana ittifaqın ideologiyasındakı və əməli fəaliyyətindəki zəifliyini aradan qaldırmağa kömək etmədi.

İttifaq rəhbərləri kənd təsərrüfatı mallarına inhisarçılar tərəfindən qoyulan soyğunçu qiymətlərdən narazı olan kəndlilərin mübarizəsində iştirak edir, aqrar islahatlar şüarı irəli sürürdülər. BƏXİ-nin "müstəqil" kəndli hakimiyyətinin yaradılması çağırışları kəndliləri tədricən özünə cəlb etdi. Fəaliyyətinin birinci onilliyinin sonunda BƏXİ sayına görə ölkənin ən böyük partiyasına çevrilmişdir. Parlament və bələdiyyə seçkilərində ittifaq kənd yerlərində burjua partiyalarını sıxışdırmağa başladı. Bir çox yerli BƏXİ ("dostluq") təşkilatları

müxtəlif növ kənd təsərrüfatı kooperativlərinin yaradılmasında fəal iş aparırdılar.

BƏXİ-nin siyasi fəaliyyəti, özünəməxsus ziddiyyətlərinə baxmayaraq, bütövlükdə ölkənin həyatında mühüm mütərəqqi hadisə idi. BƏXİ-nin hakim dairələrin militarist kursuna və monarxın şəxsi rejiminə, iri kapital və bankların hökmranlığına qarşı təbliğatı, islahatlar və yeniliyə çağırışları diqqətdən yan keçmədi. Bu təbliğatın təsiri altında tədricən kəndlilərdə mühüm dəyişikliklər baş verdi. İttifaqın nüfuzunun genişlənməsi geri qalmış kəndli kütlələrinin başlanğıcda zəif, lakin davamlı olaraq artan proses şəklində burjua partiyalarının ideya təsirindən azad olunmasının ifadəsi idi. Bu gələcəkdə ölkənin mütərəqqi qüvvələrinin irticaya qarşı mübarizədə birləşməsinə müəyyən zəmin yaratdı.

XIX əsrin sonu və XX əsrin əvvəllərində ölkədə mövcud ikipartiyalı sistemdən azad olduqdan sonra nisbətən sabit çoxpartiyalı siyasi sistem meydana gəldi. Həmin dövrdə meydana gələn partiyaların böyük əksəriyyəti təxminən yarım əsr ərzində sosialist inqilabına kimi müəyyən dəyişikliklər və fasilələrlə mövcud olmuşdur. BƏXİ-dən başqa, əsrin əvvəllərində (formal olaraq 1905-ci ildə) şəhər xırda burjuaziyası və ziyalıların maraqlarını müdafiə etməyə iddia edən çoxsaylı xırda burjua radikal partiyası meydana gəlmişdir. Onun lideri ölkədə populyar demokrat və mətin respublikaçı, hakimiyyət nümayəndələrinin fırıldaqçılığın cəsarətlə ifşa edən və bir vaxtlar tolstoyçuluğu təbliğ edən natiq Nayço Tsanov idi.

Adları çəkilənlərlə yanaşı, daha altı burjua partiyası mövcud idi. Onlar XIX əsrin son 15 ilində keçmiş mühafizəkarların, liberalların ayrı-ayrı fraksiyalarının, o cümlədən əvvəllər Şərqi Rumelidə az bir zaman mövcud olan partiyaların üzvlərindən transformasiya və yenidən qruplaşma yolu ilə formalaşmışdır. Bu partiyaların daxili siyasət sahəsindəki proqramları, fəaliyyətlərinin sinfi istiqaməti mahiyyət etibarı ilə bir-birindən çox da fərqlənmirdi. Onların bəziləri kütlələr üzərində sabit təsirə malik deyildi, müxalifətdə olduğu dövrdə əksər partiyanın say tərkibi, bir qayda olaraq az olub, başqa bir tərəfdən müvafiq partiya hakimiyyətə gəldikdə onun tərkibi əhəmiyyətli dərəcədə artırdı.

Bu partiyaların seçkiqabağı platformaları xalqın rifahı haqqında yüksək sözlərlə, onların mənafeyini müdafiə edəcəkləri vədlərlə dolu idi. Burjua partiyalarının bir çox rəhbərlərinin əsl məqsədi deputat kreslosu, nazir və digər inzibati vəzifələr əldə etmək idi. Hakimiyyətdə olmaq dövlət aparatını partiyanın rəhbər şəxslərinin qohum və ən yaxın tərəfdarlarının yeyinti mənbəyinə çevirərək rüşvət almağa, bolqar və xarici iş adamları ilə sövdələşərək dövlətə çox halda yararsız və köhnəlmiş avadanlıqların verilməsində qazanc əldə edilməsinə imkan verirdi.

Xarici siyasət sahəsində partiyalar arasında ciddi fərqlər qalırdı. Eyni zamanda, burjua partiyalarının rəhbərləri bolqar dövlətinin xarici siyasət vəzifələri haqqında mahiyyətcə oxşar təsəvvürlərə malik idilər ki, ölkənin xarici siyasəti milli

birliyin tam başa çatmasına yönəldilməlidir ki, bunu da bolqar xalqı alqışlayırdı. Monarxın və burjua partiyaları liderlərinin böyük əksəriyyətinin gizli arzusu Bolqarıstanın Balkanlarda hegemonluğu idi. Mübahisələr əsasən qarşıya qoyulmuş proqramı həyata keçirmək məqsədilə böyük dövlətlərdən (yaxud imperialist dövlətlər koalisiyasından) hansı bir istiqamətinə yönəlmək məsələsi ətrafında meydana çıxırdı. Bununla əlaqədar olaraq XX əsrin əvvəllərində burjua düşərgəsində iki əsas qruplaşma formalaşmışdır.

Bir qrupa ölkənin rusiyayönlü xarici siyasət istiqamətinə qarşı çıxan partiyalar daxil idi. Bu mövqeyi açıq şəkildə ilk növbədə "Xalq Liberal" partiyası müdafiə edirdi. O, S.Stambolovun diktaturası zamanı yaradılmış köhnə liberal partiyanın Stambolovçular fraksiyasının əsasında formalaşmışdır (sonuncu, qeyd edildiyi kimi, Müəssislər Məclisində mübarizə dövründə yaranmışdır). Stambolov öldürüldükdən sonra partiyanın lideri keçmiş mühafizəkar D.Qrekov oldu ki, o ölkə azad edildikdən sonra dəfələrlə müxtəlif kabinetlərin tərkibinə daxil olmuş, Stambolov hökumətində xarici işlər naziri olmuşdu. XX əsrin əvvəllərində sistemli təhsil almayan, böyük enerji və temperament sahibi Dimitr Petkov Xalq Liberal partiyasının lideri oldu. Stambolovçuluq dövründə, o, diktatorun ən yaxın tərəfdaşı kimi Sofiyanın qradonaçalniki (kmeti), üç çağırış Xalq məclisinin sədri, nazir olmuşdur. 1907-ci ildə D.Petkovun öldürülməsindən sonra bir müddət partiyanın lideri N.Qennadiev oldu. Partiya Avstriya-Macarıstan, Almaniya və qismən İngiltərə ilə sıx iqtisadi və siyasi əlaqə-

ləri müdafiə edən burjuaziyanın həmin dairələrinin maraqlarını əks etdirirdi.

Digər iki liberal partiya da oxşar xarici siyasət istiqamətinə əsaslanırdı. “Liberal” partiya (“radoslavçılar”) köhnə liberal partiyanın “radoslavçıların” fraksiyasından meydana gəlmişdilər ki, 80-ci illərin sonlarında bu fraksiya Stambolovçu rejimiə qarşı müxalif platforma təşkil edirdi. Onun rəhbəri Almaniyada universitet bitirmiş, mənsəbpərəst və şöhrətpərəst vəkil, cəsarətli siyasi hərəkətlərə meyilli, prinsiplərində çox da yük almayan Vasil Radoslavov idi. Siyasi karyerasına rusofil məqalələrin dərci ilə başlayaraq tezliklə istiqamətini dəyişdirərək və Battenberq hakimiyyətdən salındıqdan sonra (hökumətə rəhbərlik edərkən) ölkədəki böhran zamanı rusofillərə qarşı amansız repressiyaları ilə məşhurlaşaraq xalq arasında “Dəyənəkçi” ləqəbini almışdır. 1904-cü ildə D.Tonçevin başçılıq etdiyi kiçik “gənc liberallar” partiyası Radoslavovun liberal partiyasından ayrıldı. Gənc liberalların bölünməsi (bəzi başqa hallarda olduğu kimi) əsasən ayrı-ayrı liderlərin ambisiya və iddiaları ilə izah olunurdu.

Liberal partiyaların xadimləri özlərini “əsl vətənpərvər”, “bolqar xalqının birliyinin” himayəçisi kimi göstərirdilər. Mahiyyət etibarı ilə liberallar burjua düşərgəsinin ən millətçi və davakar dairələrinin maraqlarını təmsil edirdilər. Onlar XIX–XX əsrin qovşağında və 1903–1907-ci illərdə hakimiyyətdə olarkən müxalifəti sıxışdırdıqları zaman kəskin antidemokratik tədbirləri, saxtakarlıq və qanunsuzluqları da dayandırmadılar. Bu partiyaların bir çox rəhbərləri xəzinəni

talamaqda prinsipsizliyi, həyasızlığı və tamahkarlığı ilə seçilirdilər. Belə ki, məsələn, liberalların T.İvançov hökuməti dövründə 1900-cü ildə Vyana bankları ilə Bolqarıstana köhnəlmiş dəmir yolu vaqonlarının verilməsi haqqında saziş imzalanmışdır. Fırıldaq ifşa olundu və bu sövdələşmə ilə varlanan iştirakçılar (onları xalq "vaqonçular" ləqəbi ilə adlandırırdı) məhkəməyə cəlb olundular. Daha sonra xalq-liberal hökumətinin nazirləri R.Petrov – P.Qudevin qanunsuz sövdələşmələrdə iştirakı üzə çıxdı, belə ki, onlar rüşvət müqabilində orduya yararsız sursatların verilməsi və dəmir yolları üçün yüksək qiymətlə avadanlıq alınmasında razılaşma imzalanmasına köməklik etmişdir. Bu fırıldaqçılığın iştirakçıları da məhkəməyə sövq edilmişdir. Onlara və T.İvançov kabinetinin nazirlərinə bələdiyyə orqanlarının qanunsuz buraxılması, seçkilər zamanı zorakılıq tətbiq edilməsi və s. maddələr ilə ittiham irəli sürülmüşdür. Ancaq hər iki halda son olaraq günahkarlar əfv olunmuşdur.

Knyazın hakimiyyətini konstitusiya çərçivəsində məhdudlaşdırmaq kimi köhnə liberalların əvvəlki cəhdlərindən demək olar ki, heç bir şey qalmamışdır. Yeni tipli liberal partiyaların xadimləri (o cümlədən stambolovçular) knyazın rəğbətini qazanmaq üçün tez-tez sadiq təəbəlik hislərini nümayiş etdirirdilər. Stambolovçuların 1903–1907-ci illərdə təkpartiyalı kabinet dövrdəki "igidliklərindən" biri də, 1907-ci ilin yanvarında Xalq teatrı binasının açılışında Ferdinandı fitə basan tələbələrə divan tutulmasıdır ki, onlar həbs edilərək kazarmaya göndərilmişdir. Professorların etirazı isə onların

işdən çıxarılmasına və Sofiya Universitetinin müvəqqəti bağlanmasına səbəb olmuşdur.

Digər qrup partiyalar əsasən Paris, London və Peterburqa diqqət yetirirdilər. "Tərəqqiçilər" partiyası (rəsmi adı tərəqqi-liberal partiyasıdır) köhnə liberal partiyasından olan keçmiş "tsankovçular" fraksiyasının əsasında yaranmış və nəhayət 1897–1899-cu illərdə qəti olaraq formalaşmışdır. Onun ətrafında kənd burjuaziyasının orta və bir hissə kiçik mötədil mühafizəkar nümayəndələri qruplaşmışdır. Onlar xarici siyasət proqramlarını Rusiya ilə sıx ittifaq yolu və balkan ölkələrilə razılaşma əsasında həyata keçirməyə çalışırdılar. XX əsrin əvvəllərində partiyanın lideri, 1901-ci ilin dekabrından 1903-cü ilin mayına kimi tərəqqipərvər liberalların (və ya tərəqqiçilərin) təkpartiyalı kabinetinə rəhbərlik edən Stoyan Danev təkrarlamağı xoşlayırdı: "Biz Rusiya ilə siyasətbazlıqla məşğul olmuruq".

Tərəqqiçilərə yaxın "xalq partiyası" idi. "Xalqçılar" iri və orta mühafizəkar ticarət-maliyyə burjuaziyasının və qismən aqrarçıların maraqlarını təmsil edirdilər. Partiyanın yarandığı dövrdə rəhbəri K.Stoilov olmuş, sonra uzun müddət ona görkəmli ictimai xadim, publisist və bankir İvan Qeşov rəhbərlik etmişdir, o XIX əsrin sonlarından dörddə bir əsr Bolqarıstan elmlər akademiyasının sədri seçilmişdir. Xalqçıların xarici siyasət platforması tərəqqiçilərikindən bir qədər səthi ifadə olunmuşdur. Ümumiyyətlə, xalqçılar Rusiyanı böyük qüvvə hesab edir, ona arxalanmaq ölkənin milli vəzifələrinin həllini yüngülləşdirəcəyini düşünürdülər. Onlar həmçinin İngiltərə

və Fransa ilə, eyni zamanda qonşu balkan dövlətləri ilə yaxınlaşmağı müdafiə edirdilər. Partiya öz tərəfdarlarını və seçicilərini ənənəvi olaraq rusofil düşüncəli təbəqələr (o cümlədən kəndlilər arasında) toplamağa çalışırdı.

Demokratik partiya köhnə liberal partiyanın “karavelçi” fraksiyasından çıxmışdır, o, özünü Müəssislər məclisində mübarizə zamanı liberalların ənənəsinin əsl varisi elan etdi. İlk vaxtlar demokratlar P.Karavelovun rəhbərliyi altında geniş xırda burjua dairələrində məşhur olan knyazın hakimiyyətini məhdudlaşdırmaq və konstitusiyalı quruluşu möhkəmləndirmək xəttin tərəfdarları kimi çıxış edirdilər. P.Karavelovun ölümündən sonra partiyanın lideri realist düşüncəli dövlət xadimi, yaxşı natiq və mahir saray xadimi 1908–1911-ci illərdə demokratlar hökumətinin başında duran Aleksandr Malinov oldu. Onun rəhbərliyi altında partiya tədricən sağa doğru təkamül etdi, o, burjua liberalizmi ideyalarından məhrum olmayan orta və qismən iri şəhər sənaye burjuaziyasının, partiyasına çevrilirdi. Demokratların yeni liderləri “karavelçilərin” ənənəvi rusofil istiqamətindən əl çəkmədilər, eyni zamanda Bolqarıstanla Fransa və İngiltərə arasında yaxın münasibətlər qurulmasını fəal xarici siyasəti müdafiə edirdilər.

Burjua düşərgəsinin partiya və qrup rəhbərlərinin əksəriyyəti Bolqarıstanda fəal xarici siyasət yeritmək üçün güclü ordunun lazım olduğu qənaətində idilər. Ölkənin hərbiləşdirilməsi yalnız fəhlə partiyaları (sıx və geniş sosialistlər), BƏXİ və radikallar tərəfindən pisləndi. Yeni silahlanma siyasətinin təhrikçisi xalq-liberal partiyası idi. 1903-cü ilin mayından

1908-ci ilin yanvarına kimi XX əsrin əvvəllərində olan kabinetlərdə daha uzun zaman hakimiyyətdə olan Stambolovçular hökuməti hər il ölkə büdcəsinin təxminən 30%-ni hərbi ehtiyaclara xərcləyirdi. Həmin illərdə ordunun sayı ilk növbədə zabitlərin hesabına artdı, o, daha müasir silahlarla yenidən təchiz edildi. Eyni zamanda elmə dövlət maliyyə yardımı cüzi idi. Hərbiləşdirmənin artım surətinə görə o dövrdə Bolqarıstan Avropada ilk yerlərdən birini tuturdu.

Burjua partiyalarının daxili siyasət məsələlərindəki mövqeyində fərqlər o qədər də əsaslı deyildir. Burjua partiyalarının əksəriyyətinin artan fəhlə və kəndli hərəkatlarına münasibəti kəskin düşmənçilik idi. Sosial-demokratların və BƏXİ-nin meydana çıxması burjua partiyalarını siyasi inhisarından məhrum edərək və əvvəllər siyasi cəhətdən passiv olan kəndli və proletar kütlələri arasında onların nüfuzunu zəiflətdi. İrticaçı mətbuat sosial-demokratiyanı "dövlətin əsaslarını sarsıtmaqda" və "anarxizmdə" ittiham edir, kəndli hərəkatını isə "jakeriya" elan etdi. Bununla belə, Rusiyada 1905-ci il inqilabı və ölkədə artan tətil hərəkatı ilə bağlı hətta stambolistlər hökumətini 1905–1906-cı illərdə qadınların və uşaqların əməyinin mühafizəsi, işçilərə xəstəlik və əlillik halında dövlət müəssisələrinin yardımı haqqında ilk qanunları qəbul etməyə məcbur etdi. Bu qanunlar əmək qanunvericiliyinin formal əsasını qoydu. Qanunların faktiki olaraq tətbiqi hər cür gecikdirildi ki, bu da proletariatın haqlı hiddətinə səbəb olurdu. Eyni zamanda, ölkənin burjua düşərgəsindəki bir çox partiyalar fəhlə və kəndli hərəkatını yatırmaq siyasəti yeritməyə üstünlük

verirdilər. Stambolistlərin hakimiyyəti dövründə tətil edən fəhlə və qulluqçulara və digər müxalifət ünsürlərə (o cümlədən qabaqcıl tələbələrə) qarşı bir sıra qanunlar qəbul edildi, polis aparatı gücləndirildi və genişləndirildi, xüsusi məxfi polis yaradıldı.

Bəzi burjua liderləri (ilk növbədə demokratlar partiyasından) burjua liberalizmi mövqeyindən kobud repressiya siyasətini tənqid edirdilər. Ölkədəki sosial ziddiyyətləri yumşaltmaq məqsədilə bəzi islahatlara çağırış edirdilər.

Ümumiyyətlə, Bolqarıstan burjua dövləti, bir çox hökumətlərin qeyd olunan antidemokratik və bəzən mürtəce tədbirlərinə baxmayaraq, XIX əsrin sonu – XX əsrin əvvəllərində yüksələn xətt üzrə inkişaf etmişdir. Bu, müstəqillik qazanmış xalqın böyük əməyinin bəhrəsi idi. Bəhs edilən dövr ilk növbədə iqtisadiyyat sahəsində əsaslı nailiyyətlərlə yadda qaldı. Artıq qeyd edildiyi kimi, o dövrdə hakimiyyətdə olan bütün hökumətlər bu və ya başqa dərəcədə sənayenin inkişafını stimullaşdıran iqtisadi proteksionizm siyasətini, dəmir yol şəbəkəsinin genişləndirilməsini və s. həyata keçirirdilər. İqtisadi inkişaf sürətinə görə Bolqarıstan azad olduqdan sonra bir çox sahələrdə demək olar ki, sıfırdan başlamasına baxmayaraq bir sıra göstəricilər üzrə qonşu ölkələri ötüb keçirdi. Mədəniyyət və maarif sahəsində əhəmiyyətli tərəqqi müşahidə edilirdi.

1907-ci ilin sonunda Stambolovçuların ikinci təkpartiyalı hökuməti nəhayət mütərəqqi qüvvələrə qarşı mübarizədə kobud polis tədbirləri sayəsində özünü gözdən salaraq və

1908-ci ilin əvvəlində A.Malinovun başçılıq etdiyi demokratik partiyanın kabineti ilə əvəz olundu.

1908-ci ilin yayında baş verən gənc türklər inqilabı Cənub-Şərqi Avropa və Yaxın Şərqdəki vəziyyəti kökündən dəyişdirdi. Malinov hökuməti və knyaz Ferdinand böyük dövlətlərin əksəriyyətinin gənc türklər hökumətinin hakimiyyətə gəldiyi Türkiyə ilə münasibətlərindəki soyuqluqdan istifadə etməyə tələsdilər. Avstriya-Macarıstan diplomatları ilə ilkin danışıqlar, Ferdinandın Vyanaya səfəri belə bir nəticə hasil etdi ki, xarici siyasətin fəallaşdırılması, ilk növbədə bolqar knyazlığının Osmanlı imperiyasından vassal asılılığının aradan qaldırılması üçün müəyyən şərait yaranmışdır.

1908-ci il sentyabr 22-də (oktyabrın 5-i) Böyük Tırnovoda (İkinci Bolqarıstan çarlığının keçmiş paytaxtı) təntənəli şəkildə Bolqarıstanın müstəqilliyi elan olundu. Eyni zamanda, Bolqarıstan çarlıq, Ferdinand isə "bolqar çarı" elan edildi. Tırnovo mitropoliti Ferdinandı çar tacı ilə taclandırdı. Həmin gün Vyanada Bosniya və Herseqovinanın Avstriya-Macarıstana ilhaq edilməsi elan olundu. Bolqarıstanın müstəqilliyinin elan edilməsi Berlin Konqresinin yaratdığı siyasi sistemin pozulması idi və bəzi böyük dövlətlərin paytaxtlarında bu təmkinlə qarşılandı. Türkiyə hökuməti Bolqarıstanın müstəqilliyinin tanınması şərti kimi ondan külli miqdarda pul təzminatı tələb etdi (formal olaraq bolqar dövləti tərəfindən müsadirə edilmiş Cənubi Bolqarıstanda əvvəllər Türkiyənin mülkiyyətində olan dəmir yolu üçün təzminat kimi). Türkiyə-Bolqarıs-

tan sərhədi boyu hər iki tərəfdə ordu cəmləşməyə başladı, bolqar-türk münasibətləri çıxılmaz vəziyyətlə üzləşdi.

Bu çətin vəziyyətdə Rusiya Bolqarıstanın köməyinə gəldi. Danışıqlar nəticəsində 1909-cu ilin yazında imzalanan müqaviləyə əsasən, Rusiya hökuməti 1877-1878-ci illər müharibəsinin yekunu ilə bağlı Türkiyənin Rusiyaya olan borcunu ödəmək üçün Türkiyə hökumətinin tələb etdiyi məbləği nəzərə almağı öhdəsinə götürdü. Bolqarıstan Rusiyanın dövlət xəzinəsinə ilkin olaraq Portonun tələb etdiyi təzminatın tədricən 12,5 faizini (75 illik taksitlə) verməyi öhdəsinə götürdü. Əslində, müqavilə nəticəsində (onun bağlandığı vaxt) heç kim heç kimə pul ödəmirdi (Oktyabr inqilabından sonra Sovet hökuməti Bolqarıstanın Rusiyaya olan borcunu ləğv etdi). Nəticədə Türkiyə və Rusiya (bunların ardınca başqa böyük dövlətlər) rəsmi olaraq Bolqarıstanın müstəqilliyini tanıdılar. Beləliklə, sonuncu obyektiv olaraq böyük mütərəqqi əhəmiyyət kəsb edən tam müstəqil və azad dövlətə çevrildi.

Ferdinandın "bolqarların çarı" elan edilməsi, eyni zamanda, hakim burjua-mütləqiyyətçi qrupun fəal xarici siyasəti üçün birmənalı sifarişi idi. Bu akt eyni zamanda daxili siyasi istiqamətə malik idi. Ölkədə monarxın hakimiyyəti illər keçdikcə daha da möhkəmlənirdi. Stambolovun hakimiyyətdən uzaqlaşdırılmasından sonra knyaz əvvəlcə ölkənin siyasi həyatında özünəməxsus arbitr rolunu oynayırdı. Zamanla Ferdinand konstitusiyanın ona verdiyi böyük səlahiyyətlərdən istifadə edərək getdikcə daha çox mütləqiyyətçi cəhdlər nümayiş etdirir, şəxsi hakimiyyət adlanan rejim formalaşdırırdı.

Ölkənin hakim burjua-millətçi dairələrinin onu özünü xarici siyasət proqramını, dövlətin suverenliyi və milli birliyi problemlərini həll etməyə qadir bir şəxs hesab etməsi şəraiti Ferdinanda çox kömək etmişdi. Monarx beləliklə "Böyük Bolqarıstan" ideyasının daşıyıcısına çevrildi.

Xarici siyasətə rəhbərlik faktiki olaraq Ferdinandın əlində cəmləşmişdir. Çox vaxt mühüm məxfi diplomatik sənədlər dövlətin deyil, monarxın şəxsi arxivində saxlanılırdı. Nəticədə, hətta bir çox nazirlər kabinetinin başçıları monarxın təşəbbüsü ilə əvvəlki hökumət rəhbərləri tərəfindən bağlanmış bəzi gizli razılaşmalardan xəbərsiz idilər. Bolqar burjuaziyasının mürtəce dairələri ilə mütləqiyyət arasında ittifaqın meydana gəlməsinə proletariatın, əməkçi kəndlilərin və xalqın demokratik təbəqələrinin artan müxalifətçilik hərəkatında qarşılıqlı qorxusu da kömək etmişdir.

Yaradılmış şəraitdə rejimin mahiyyətinə monarxın şəxsi keyfiyyətləri ilə güclü iz qoymuşdur. Ferdinand böyük ambisiya və iddia sahibi olaraq özünü böyük dövlət xadimi və bacarıqlı diplomat hesab edirdi. Gizli olaraq, öz hakimiyyəti altında Bizans imperiyasının yenidən dirçəldilməsini xəyal edirdi. Ferdinand sadə insanlara nifrətlə yanaşırdı. O, qeyd etmişdir ki, "kəndlilər torpağı şumlamalıdırlar, siyasətlə məşğul olmamalıdırlar". Şöhrətpərəst və müvazinətsiz bir aristokrat snobizmi onda praktiklik və siyasi reallığa uyğunlaşma bacarığı ilə birləşirdi. O, çəkişmə ustası olaraq siyasi xadimlərin zəif insani cəhətlərindən istifadə etməyi bacarırdı. Partiya liderləri arasında ziddiyyətləri qızışdıraraq Ferdinand öz

hakimiyyətini möhkəmləndirirdi. Kabinetlərin dəyişdirilməsi, bir qayda olaraq, monarxın təşəbbüsü ilə, onun konkret hesablamalarına və qurğusuna müvafiq olaraq baş verirdi. Eyni zamanda, Ferdinand partiyaların və onların ən nüfuzlu liderlərinin uzun müddət hakimiyyətdə qalmamasına çalışırdı. 1912–1913-cü illər Balkan müharibələrindən əvvəlki dövrdə on iki kabinetdən yalnız ikisi iki ildən çox, üçü isə bir ildən iki ilə kimi hakimiyyətdə qalmışdır.

Ferdinandın konstitusiyanı pozması, Xalq məclisinə laqeyd münasibəti, monarxın və hökumətin faktiki olaraq nəzarətsiz xarici siyasət fəaliyyəti ölkənin demokratik qüvvələrinin, fəhlə və xırda burjua partiyalarının artan tənqidinə səbəb oldu.

İnqilabçı sosializm və proletar beynəlmiləlçiliyi mövqeyindən çıxış edən sıx sosialistlər partiyası prinsipial platformaya sadiq qalmışdır. Sıx sosialistlər mütləqiyyəti pisləyərək ölkədə respublika quruluşunun qurulmasını tələb edirdilər. Onlar milli birlik məşhur şüarları pərdəsi altında balkan ölkələrində (o cümlədən Bolqarıstanda) hökmranlıq edən burjua-mütləqiyyətçi qrupun hegemon cəhdlərini ardıcıl olaraq ifşa edirdilər. Partiya qonşu balkan xalqları ilə dostluq münasibətləri qurmağa çağırırdı. Onun ən mühüm xarici siyasət şüarı balkan respublikalarının demokratik federasiyası ideyası idi (Balkan federasiyası). Sıx sosialistlər bu şüar proletar mühiti arasında israrla və sistemli şəkildə təbliğ edir, mətbuatda müvafiq materiallar dərc etdirir, fəhlə yığıncaqları və mitinqlərində şərh edirdilər və s. D.Blaqoyevin başda olmaqla onların nümayəndələri 1910-cu ilin yanvarında

Belqradda keçirilən Balkanlararası sosialist konfransında fəal iştirak edib, hansı ki, Balkan federasiyası ideyası bütün ölkələrin inqilabçı sosial-demokratlarının və Cənub-Şərqi Avropa torpaqlarının ümumi şüarı elan edilmişdir. Balkan ölkələrinin inqilabi və demokratik qüvvələrini və cərəyanlarını şovinizm və militarizmə qarşı mübarizəyə yönəldən bu şüar II İnternasionalın inqilabi təşkilatları tərəfindən dəstəkləndi, V.İ.Lenin və bolşeviklər, R.Lüksemburq və solçu alman sosial-demokratları, holland "tribunistləri" və s.

Xırdaburjua demokratik partiyalar, BƏXİ və radikallar Ferdinandın konstitusiyanın pozulmasında mütləqiyyətçi tendensiyanı qətiyyətlə pisləyirdilər. Eyni zamanda, hökumətin xarici siyasət fəaliyyətinin tənqid edilməsində sıx sosialistlər kimi ardıcıl və qətiyyətli deyildilər. Burjua partiyalarının millətçi düşərgəsi ilə beynəlmiləlçilik sosialistlər arasında müəyyən dərəcədə ara mövqe tutaraq, ifrat militarizm və şovinizmə qarşı çıxırdılar. BƏXİ və radikalların mətbuatında bəzən Balkan federasiyasının yaradılması çağırışları səslənirdi. Geniş sosialistlərin islahatçı rəhbərliyi də bu məsələlərdə xırda burjua partiyalarının mövqeyinə yaxın idi. Demokratik partiyalar tərəfindən edilən tənqidi rədd edən hakim burjua-mütləqiyyətçi dairə hakimiyyətin çarın əlində daha da cəmləşməsinə yönəlmiş addımlar atırdılar. Ferdinand hökumətin xarici siyasət məsələsində formal olaraq parlamentlə hesablaşmaq zərurətindən tam olaraq azad olmaq qərarına gəldi. Məsələ ondan ibarətdir ki, Tırnovo Konstitusiyasının 17-ci maddəsinə əsasən, rəsmi olaraq xarici dövlətlərlə müqavilə və kon-

vensiyaların bağlanması xalq məclisinin xəbəri və təsdiqi olmadan həyata keçirilə bilməzdi. Lakin həmin konstitusiya monarxa o qədər geniş səlahiyyətlər vermişdi ki, onun faktiki olaraq 17-ci və digər maddələri pozmaq imkanı mövcud idi.

Konstitusiyanın 17-ci maddəsinin dəyişdirilməsi əməliyyatı bir neçə mərhələdə baş vermişdir. 1911-ci ilin yazında növbəti kabinet dəyişikliyi edildi, qonşu balkan ölkələri hökumətlərilə razılaşmaya cəhd edən xalqların və tərəqqipərvərlər partiyalarını təmsil edən İ.Geşov-S.Danev koalision hökuməti hakimiyyətə dəvət olundu. Kabinetin belə tərkibi Ferdinandın növbəti diplomatik oyununa planlarına tam uyğun gəlirdi.

Konstitusiyanı dəyişdirmək üçün Böyük Xalq məclisinin razılığı zəruri idi. Konstitusiyanın 17-ci maddəsinə müvafiq dəyişiklik layihəsi seçilmiş V Böyük Xalq məclisinin müzakirəsinə çıxarıldı. Müxalifətdə olan demokratik partiyalardan ən böyük fraksiyaya malik BƏXİ qətiyyətlə bu layihənin əleyhinə çıxdı. Onu radikalların və geniş sosialist partiyasının deputatları dəstəklədi. Məclisdəki sıx sosialistlərin yeganə nümayəndəsi konstitusiyanın dəyişdirilməsi əleyhinə çıxış etməklə bərabər Bolqarıstanda respublika quruluşunun qurulmasına çağırdı. Bununla belə, V Böyük Xalq məclisində böyük əksəriyyətinə malik burjua partiyalarının deputatları konstitusiyanın dəyişdirilməsinin lehinə səs verdilər. Beləliklə, 1911-ci ilin yayında V Böyük Xalq məclisinin icazəsilə çarın və ona qulaq asan hökumətin əlləri xalqdan gizli diplomatik fəaliyyət üçün tamamilə açıldı.

Müstəqil dövlətin yaradılması ilə asılılıqdan azad olmuş xalqın qarşısında mədəniyyətin və maarifin inkişafı sahəsində yeni imkanlar açıldı. Mədəniyyət və maarif sahəsində xüsusilə əhəmiyyətli addımlar və tədbirlər 1894–1896 və 1903–1906-cı illərdə baş verdi. Həmin illərdə Xalq Maarif nazirliyinə (bu faktiki olaraq ölkədə bütün mədəniyyət işlərinə rəhbərlik edirdi) müvafiq olaraq yazıçı, ictimai və siyasi xadim Konstantin Veliçkov (1885–1907) və geniş elmi maraq dairəsinə malik alim, ədəbiyyatçı və mədəniyyət xadimi İvan Şişmanov (1862–1928) rəhbərlik edirdi. Hər ikisi XIX əsrin sonu – XX əsrin əvvəllərində ölkədəki bir çox mədəni təşəbbüslərin pərəstişkarı və təşəbbüskarı idilər.

Xalq təhsili sisteminin inkişafında qızğın yüksəliş dövrü olmuşdur. Konstitusiyaya uyğun olaraq ümumi icbari və pulsuz ibtidai təhsil tətbiq olundu. Dövlət dəstəyi sayəsində ibtidai məktəblərin şəbəkəsi əsaslı şəkildə genişləndi. Ümumilikdə 1879-cu ildən 1911-ci ilə kimi olan dövrdə ölkədə ümumtəhsil və peşə məktəblərinin sayı 3 dəfədən çox artmışdır. Həyata keçirilən tədbirlər nəticəsində XIX əsrin sonu və XX əsrin əvvəllərində ölkə əhalisinin tərkibində savadsızlığın xüsusi çəkisi sürətlə aşağı düşmüşdür. O dövrdə xüsusilə gənclər arasında, ilk növbədə kəndlərdə və qadınlar arasında geniş yayılmışdır. 1910-cu ildə savadlılar 7 yaşdan yuxarı olanların 42%-ni, şəhər əhalisinin təqribən 66%-ni təşkil edirdi. Ölkənin gənc nəslinin savadlılıq səviyyəsi (xüsusilə orduya çağırılanlar arasında savadlı kişilərin faizi) Bolqarıstanda qonşu balkan ölkələrilə (Yunanıstan, Serbiya və Rumıniya)

müqayisədə daha üstün idi. Sənaye fəhlələrinin savadı kəndlilərinkindən, şəhər əhalisinin orta savadlılıq səviyyəsindən xeyli yüksək idi. Proletariatın ümumtəhsil səviyyəsinin yüksəlməsinə sosial-demokrat partiyalarının klubları nəzdində fəaliyyət göstərən xüsusi axşam məktəbləri və kursları kömək etmişdir. Əhalinin savadlılığının və ümumi mədəni səviyyəsinin artması kitab nəşri işinin genişlənməsi dövri və yarımdövri nəşrlərin sayının artması ilə müşayiət olunurdu. Əgər 1896-cı ildən 1900-cü ilə qədər olan dövrdə 18 qəzet və 10 jurnalın əsası qoyulmuşdursa, yalnız 1909-cu ildə ölkədə 200 qəzet və 100 jurnal nəşr edilmişdir (düzdür, onların əhəmiyyətli bir hissəsi qısa müddət ərzində nəşr edilmişdir).

Ənənəvi mədəniyyət mərkəzləri – "qiraətxanalar" şəbəkəsi sürətlə genişlənirdi. Sofiya və Plovdivdə iri dövlət kitabxanaları yaradılmışdır, kiçik kitabxanalar yalnız şəhərlərdə deyil, kəndlərdə də (ilk növbədə məktəblərdə) meydana gəlmişdir.

Beş əsrlik Osmanlı asılılığının meydana gətirdiyi ümumi gerilik ölkədə elmin bir çox sahələrinin, xüsusilə də əhəmiyyətli kapital qoyuluşu tələb edən sahələrin inkişafı üçün heç bir şərait yox idi. Bununla belə, azad edildikdən sonra Bolqarıstanda tədricən iki elmi tədqiqat mərkəzi yarandı. Onlardan biri 1869-cu ildə Breilədə yaradılmış, azad edilmiş Bolqarıstanın paytaxtı Sofiyada fəaliyyətini bərpa edən, yuxarıda adı çəkilən Bolqar ədəbi-elmi cəmiyyəti idi. 1911-ci ildə üç şöbəsi olan Bolqarıstan Elmlər Akademiyasına çevrildi (tarix-fəlsəfə, təbiət-riyaziyyat və fəlsəfi-ictimai). Sofiya Universiteti

ikinci mərkəz oldu. O, 1888-ci ildə tarix-fəlsəfə və fizika-riyaziyyat şöbələri olmaqla Ali məktəb kimi meydana gəlmiş, 1904-cü ildə əvvəlki iki şöbəyə hüquq da daxil olmaqla üç fakültədən ibarət universitetə çevrilmişdir. Ölkənin elmi işçilərinin böyük əksəriyyəti bəhs edilən mərkəzlərin ətrafında birləşmişdi. Bəhs edilən dövrdə görkəmli bolqar alimləri sırasında tarixçilər V.Zlatarski (mediyevist), Q.Katsarov (frakoloq), İ.Şişmanov (ədəbiyyat və mədəniyyət tarixçisi, etnoqraf və folklorşünas); dilçilər L.Miletiç, A.Teodorovı Balan, B.Tsonev; hüquqşünaslar S.Bobçev, S.Kirov; ədəbiyyatşünas B.Penev; statistik və iqtisadçı K.Popov; pedaqogika sahəsində mütəxəssis P.Noykov; coğrafiyaşünas A.İşirkov; botaniklər S.Georgiyev, S.Petkov, İ.Urumov; zooloqlar Q.Xristoviç, Q.Şişkov; bioloq Yavaşov; kimyaçı P.Raykov; fiziklər P.İ.Baxmetyev (biofizik), S.Vatsov (seysmoloq); geoloq G.Zlatarski; mineroloq Q.Bonçev və b. var idi.

Qurtuluşdan sonra ölkənin müxtəlif məntəqələrində təcrübi kənd təsərrüfatı və baytarlıq stansiyaları yaradıldı, burada kənd təsərrüfatı elmləri və baytarlıq problemlərini araşdırmaq üçün alim kadrları hazırlanırdı. Zaman ərzində Sofiyada təsis edilmiş tarixi-arxeoloji, etnoqrafik və təbiət tarixi muzeyləri, geoloji və paleontoloji eksponat cəmiyyəti müəyyən elmi iş mərkəzlərinə çevrildi. Sonradan tarixi arxeoloji cəmiyyət və muzeylər digər iri şəhərlərdə, Plovdiv, Varna, Tırnovo və d. meydana gəlmişdir. Bolqarıstanda elmin və mədəniyyətin inkişafında (xüsusilə Qurtuluşdan sonrakı ilk illərdə) slavyan (Rusiya, Çexiya və s.), qismən də qərbi

Avropa ölkələrindən gəlmiş alimlər və başqa yaradıcı ziyalılar az rol oynamadılar. Onların ən böyükləri arasında Rusiyadan olan biofizik P.İ.Baxmetyev, M.S.Drinov (mənşəcə bolqar, rus tarixçilər məktəbinin məzunu, haqlı olaraq bolqar və rus tarix elminin fəxrinə çevrilmiş), məşhur çex tarixçisi K.İreçek, arxeoloqlar K. və X.Şkorpil qardaşları və b. var idi.

Müxtəlif incəsənət növləri, xüsusən də təsviri və teatr sənəti inkişaf etmişdir. 1890-cı illərdə xarici rəssamlar tərəfindən açılan xüsusi bədii məktəblər bir müddət fəaliyyət göstərmişdir. 1896-cı ildə K.Veliçkovun təşəbbüsü ilə Anton Mitov və İvan Mırkviçkanın yardımı sayəsində dövlət rəsm məktəbi yaradıldı. Rəsmi sərgilər keçirilməyə başlandı. Ən böyük tablolar o dövrdə yaradılmışdır: A.Mitov (“Sofiyada bazar”, “Qara dəniz” və s.), S.Mırkviçkonun (“Əl”), İ.Angelovun (“Şəhər qala”, “And”, “Allah verdi, allah götürdü”, “Biçin” ), Ya.Veşinin (“Cütçü”, “Qayduklar”, “Samara bayrağı”, bir sıra döyüş mənzərəli işləri). 1903-cü ildə rəssamları, heykəltəraşları, memarları və qismən yazıçıları birləşdirən “Müasir İncəsənət Cəmiyyəti” təsis olundu.

1890-cı illərin əvvəllərində Sofiyada fərdi şəxslərin təşəbbüsülə dram-opera truppası meydana gəldi, ölkədə ilk opera tamaşası nümayiş etdirildi. 1892-ci ildə paytaxtda “Göz yaşı və gülüş” dram truppası təşəkkül tapdı ki, onun taleyinə ölkədə teatr sənətinin inkişafında böyük rol oynamaq düşmüşdü. 1904-cü ildə “Göz yaşı və gülüş” truppası başqa bir aktyor truppası ilə birlikdə Xalq teatrına çevrildi və dövlət subsidiyası almağa başladı. Bir sıra mühüm şəhərlərdə (Plovdiv və b.),

o cümlədən ölkə üzrə qastrol səfərlərinə çıxan səyyar dram truppaları da meydana gəlmişdir. Bu truppalar görkəmli rus və qərbi Avropa dramaturqlarının pyeslərini, həmçinin bolqar ədəbiyyatı klassiklərinin tamaşalarını səhnələşdirirdilər (İ.Vazov, P.Yavorov). O dövrün bolqar dramının bir çox istedadlı aktyorları (Adriana Budevskaya, Xristo Qançev, Atanas Kirçev, İvan Popov, Kristyu Sarafov və s.) Rusiyada Bədii və Malı teatrların divarları arasında rus səhnəsinin K.S.Stanislavski və A.İ.Yujin kimi korifeylərindən dərs almışdılar. XX əsrin əvvəllərində bəstəkarlar Em.Manolov və Q.Atanasov-Maestro ilk bolqar operalarını yazmış, həmin dövrdə Q.Atanasov-Maestro, L.Pipkov, D.Xristov simfoniyalar, himnlər və başqa musiqi əsərləri yaratmışlar.

Ədəbiyyat və tənqid sahəsindəki nailiyyətlər xüsusilə əhəmiyyətli idi. Azadlıqdan sonrakı iki onillikdə bolqar yazıçılarının yaradıcılığında milli Dirçəliş və Qurtuluş müharibəsi dövründə xalqın müstəqillik uğrunda qəhrəmancasına mübarizəsinin mövzu və motivləri üstünlük təşkil edirdi. Bəhs edilən mövzular bolqar ədəbiyyatının klassiki İvan Vazovun (1850–1921) əsərlərində ən istedadlı təcəssümünü tapmışdır; sonradan bir çox dillərə tərcümə olunan “Əsarətin altında” romanında, “Unudulmuşlar dastanı” şeirlər silsiləsində, “Səfillər” povestlərində və s., “Bayraq və qusli”, “Bolqarıstanın kədəri” şeir toplularında. Oxşar mövzu K.Veliçkovun “Zindanda” kitabında, Penço Slaveykovun (P.R.Slaveykovun oğlu) “Qanlı nəğmə”sində və başqa əsərlərində öz əksini tapmışdır. Z.Stoyanovun özünəməxsus bədii üslubda yazdığı

"Bolqar üsyanları haqqında qeydlər" xatirələri böyük şöhrət qazanmışdır.

Sonralar sinfi təbəqələşmə və siyasi mübarizənin kəskinləşməsi ilə bağlı olaraq ədəbiyyata tədricən yeni mövzu və cərəyanlar daxil oldu. Reallığı obyektiv (bəziləri isə tənqidi) əks etdirməyə çalışan demokratik və mütərəqqi düşüncəli yazıçılar meydana çıxdı. Onlar öz əsərlərində kəndlilərin və sənətkarların ağır əməyi və kütləvi yoxsullaşması mənzərəsini, onların, varlıların, iri tacirlərin, sələmçilərin, bankirlərin, bürokratik idarəçilərin zülmündən narazılıqlarını parlaq və istedadlı şəkildə işıqlandırırdılar. Böyük estetik dəyəri və dərinliyi olan hekayə və povestlərin müəllifi görkəmli yazıçı Elin Pelin (1877–1949) idi; əsl adı Dimitr İvanovdur. Yazıçılar Anton Straşimirovun ("Yol ayrıcı" romanı, "Gülüş və göz yaşları" kitabı, "Qayınana" pyesi), Mixalaki Georgiyevin, Todor Vlaykovun, şair Tsanko Bakalovun (Tserkovski), kəndli və kənd həyatı müğənnisi, dramaturq Petko Todorovun, təmsilçi Stoyan Mixaylovskinin və s. əsəsrlərinin çoxlu bədii xidmətləri var. İnsanın mənəvi dünyasına dərindən nüfuz etmək şairlər Penço Slaveykov və Peyo Yavorovun əsərlərinə məxsusdur. Bolqar ədəbiyyatında istedadlı realist-satirik Aleko Konstantinovun (1863–1897) yaradıcılığı xüsusi yer tuturdu. Ən parlaq əsərində, "Bai Qanyu" ümumi başlığı altında bir-biri ilə üzvi şəkildə əlaqəli hekayələr silsiləsində, o, ölkədə kapitalın ilkin yığılması dövrünün həyasız, acgöz və cahil tipik qazanc düşgünü və karyerist obrazını yaratmışdır. Bu əsər bədii bolqar ədəbiyyatının ən görkəmli nailiyyətlərindən

biridir. Bir çox görkəmli bolqar yazıçılarının ictimai həyatda fəal iştirakı ənənəsini qeyd etmək lazımdır, məsələn: P.R.Slaveykov Müəssislər məclisində mühafizəkarlara qarşı mübarizəyə rəhbərlik edirdi, İ.Vazov A.Battenberqin 1881-ci ildə konstitusiyanın fəaliyyətinin dayandırmağa qarşı mübarizədə iştirak etmişdir, K.Veliçkov S.Stambolovun diktaturasına qarşı çıxmışdır və s.

20-ci əsrin əvvəllərindən Bolqarıstan bədii ədəbiyyatının başında ədəbiyyat tənqidçisi Kr.Krıstev-Mirolyubovun durduğu yeni istiqamət "Əqidə" jurnalını nəşr etdirdi ki, onlar da "təmiz sənət", "sənət, sənət üçündür" ideyasını təbliğ edirdi. Fərdilik və simvolizmə meylli bəzi yazıçı və şairlər Krıstevin jurnalı ətrafında birləşərək gündəlik qayğılardan, böyük sosial problemlərdən uzaqlaşmağa çalışırdılar.

Maddi mədəniyyət sahəsində mühüm nailiyyət qazanılmışdır. Dövlətin diqqəti, qeyd edildiyi kimi, dəmir və avtomobil yollarının, körpülərin və mədənlərin, inzibati binaların və poçt-teleqraf stansiyalarının, məktəb və xəstəxanaların tikintisinə yönəlmişdir.

Azadlıqdan sonrakı dövrün ən mühüm incəsənət abidələrindən Xalq məclisinin, Xalq teatrının binalarını, Aleksandr Nevski xatirə abidəsini, Hərbi Klub, Sinod palatasını (hamısı Sofiyada), rus əsgərlərinin Bolqarıstanın azad edilməsində iştirakçılarının mavzoleyi (Plevnedə) və s. göstərmək olar. Rusiyanın köməyi ilə ölkənin azad edilməsi xalqın şüurunda dərin iz buraxmışdır. Bolqarıstan ərazisində 450-dən çox xilaskar-əsgər abidələri buna sübutdur. Onların əksəriyyəti

XIX əsrin sonu – XX əsrin əvvəllərində əsasən abunə yolu ilə toplanan xalq vəsaiti hesabına ucaldılmışdır.

Nəzərdən keçirilən dövrün bolqar mədəniyyətinin ən mühüm nailiyyətlərini qısa səciyyələndirərək, onların cəmiyyətin kapitalist inkişafının nəticəsi olduğunu qeyd etmək lazımdır. Dövlətin mədəniyyət siyasətinin sinfi mahiyyəti, məsələn, xalq maarifi sahəsində özünü göstərdi. Cəmiyyətdə hökmranlıq edən burjua ideologiyası yaradıcı ziyalıların əhəmiyyətli bir hissəsinin fəaliyyətində müəyyən dərəcədə iz qoymuş, onun təsiri ilk növbədə ictimai elmlər sahəsində özünü göstərmişdir.

Bolqar mədəniyyəti cəmiyyətin müxtəlif siniflərinin və təbəqələrinin maraqlarını və əhval-ruhiyyəsini əks etdirirdi. Kəndli və şəhər xırda burjuaziyasının əməkçi təbəqəsi, xalq ziyalıları demokratizm doğuran formalaşmış mədəni dəyərlərin qidalı sosial mühitinə çevrilmişdir.

Bolqar mədəniyyətinin inkişafı üçün milli Dirçəliş dövrünün demokratik ənənələrinin təsiri mühüm əhəmiyyət kəsb edirdi. Bunun sayəsində, məsələn, tənqidi realizm cərəyanı bolqar ədəbiyyatında aparıcı mahiyyətini saxladı.

XIX–XX əsrlərin qovşağında ölkənin siyasi meydanında yeni bir sinifin, proletariatın meydana çıxması ilə bağlı onun mədəniyyətinin ilk rüşeymi formalaşdı. İlk növbədə, D.Blaqoyev və onun bəzi silahdaşlarının ümumnəzəri, fəlsəfi və başqa ictimai əsərləri, onların estetika, ədəbiyyat və tənqid sahəsindəki işləri böyük əhəmiyyət kəsb etmişdir. Bu əsərlərdə, bolqar marksistləri ölkənin həyatındakı mədəni-nəzəri

problemləri dərk edərək, ən mühüm mədəniyyət hadisələrini izah etmək üçün marksist prinsipləri tətbiq edirdilər.

Proletar ədəbiyyatının banilərindən biri Georgi Kirkov idi. Böyük söz ustası, istedadı ilə seçilən, geniş şöhrət qazanmış bədii əsərlər yaratmışdır; zəhmətkeşlərin həyatından hekayələr, satirik felyeton və təmsillər (onlarda müxtəlif sosial tiplər, ölkənin müxtəlif sinfi və siyasi qüvvələrinin nümayəndələri təsvir olunmuşdur), ilk fəhlə mahnıları və himnləri. Proletar poeziyasının başında Dimitr Polyanov dayanırdı. Onun "Dəniz damcıları" şeirlər toplusunda, eləcə də proletar ədəbiyyatının digər nümayəndələrinin bədii əsərlərində fəhlə sinfi tərənnüm edilir, onun ideyalarının düzgünlüyü təsdiq olunur, kapital üzərində onun qələbəsinə inam ifadə olunurdu.

Fəhlə hərəkatı liderlərinin bədii ədəbiyyat və musiqi əsərləri yaratması, marksist partiyası rəhbərlərinin və ideoloqlarının mədəni-maarifçilik fəaliyyəti, habelə proletar teatr-dram və musiqi-xor kollektivlərinin təşkili işindəki işləri göstərirdi ki, yeni sinfin, proletariatın formalaşması ilə yeni proletar mədəniyyətinin elementləri də meydana gəlir.

Ümumən, bərpa edilmiş müstəqil Bolqarıstan dövlətinin ziyalılarının, yazıçı, rəssam, elmi işçi, memar və digər mədəniyyət xadimlərinin fədakar və gərgin əməyi, ölkənin əsrlər boyu geriliyini aradan qaldırmaq cəhdi tədricən öz bəhrəsini verdi.

# VI FƏSİL

## BOLQARISTAN ÜÇ MÜHARİBƏNİN ATƏŞİNDƏ

XX əsrin əvvəllərində Sultan Türkiyəsinin asılılığında olan xalqların azadlıq hərəkatı gücləndi. Makedoniyanın və ona bitişik Ədrianopol (Odrin) vilayətinin əsarət altındakı əhalisinin mübarizəsi daha geniş miqyaslı və kəskin formada olmuşdur. 1893-cü ildə Salonikidə sonradan Daxili Makedoniya-Odrin İnqilab təşkilatı (DMOİT) adını almış və Osmanlı asılılığına qarşı mübarizəyə rəhbərlik edən cəmiyyət təsis edildi. Bu təşkilatın rəhbərliyi ilə 1903-cü ildə təşkil edilmiş qəhrəmancasına İlyinden-Preobrajenski üsyanın sultan ordusu qan içində boğdu. Bundan sonra DMOİT sıralarında fikir ayrılığı gücləndi və tezliklə təşkilat faktiki parçalandı.

DMOİT-in sol qanadı kəndlilərin və digər demokratik təbəqələrin maraqlarını əks etdirərək, Osmanlı feodal asılılığının bütün formalarından azad olmağa və torpaqların kəndlilərə verilməsinə çalışırdı. DMOİT-dən olan solçuların məqsədi Makedoniyada kəskin millətlərarası münaqişələrin və Balkanlarda daxili müharibələrin qarşısını alaraq, regionun bütün məzlum çoxmillətli əhalisinin birliyinə nail olmaq idi.

Solların rəhbərləri Makedoniyanın mübahisəli ərazilərinin XIX əsrin sonlarından Balkan ölkələri arasında ixtilaf səbəbindən (əsas etibari ilə bununla əlaqədar makedon məsələsi meydana çıxmışdır) balkan xalqlarını birləşdirən bir halqaya çevrilməsinə çalışırdılar. Solların liderləri əqidəli respublikaçılar olub, o zaman Bolqarıstanda və digər balkan ölkələrində dominantlıq edən burjua-mütləqiyyətçi quruluşun əleyhdarları, siyasi azadlıq və sosial ədalət uğrunda mübarizə aparanlar idi. DMOİT-in ən böyük ideoloqu təhsilli və sosialist ədəbiyyatına yaxşı bələd olan, Sultan polisi ilə döyüşdə vaxtsız həlak olan fədakar inqilabç-demokrat Qotse Delçev idi. Məhz onun fikirləri ölümündən sonra qəti olaraq formalaşan DMOİT-in sol qanadının platformasının əsasını təşkil etmişdir. Makedoniyanın muxtariyyəti şüarı pərdəsi altında onu Bolqarıstana birləşdirməyə cəhd edən DMOİT-in sağ qanadından fərqli olaraq, sollar Balkanlarda federasiya (və yaxud konfederasiya) çərçivəsində Makedoniyanın muxtariyyətinə çalışırdılar. Bu ideya sıx sosialistlər və inqilabçı sosial-demokratların təbliğ etdikləri Balkan Federasiyasının şüarı ilə kəsişirdi. DMOİT-in sol qanadının ən görkəmli xadimi kimi, şöhrətli voyevoda, qorxmaz xüsusiyyətli Yane Sandanski irəli çıxdı, onun çətələrinin partizan hərəkatının bazasını Pirin dağları təşkil edirdi.

Osmanlı imperiyası hakimiyyətinin sərt assimilyasiya siyasətindən narazılıq Porteonin hakimiyyəti altında olan balkan ərazilərinin əhalisi (xüsusən Albaniya) arasında daha açıq şəkildə ifadə olunurdu. Üst gənc türklər inqilabi faktiki olaraq

məğlub oldu. O asılılıqda olan xalqlara azadlıq gətirmədi. Sultanın balkan mülklərindəki milli-azadlıq hərəkatı qonşu müstəqil balkan ölkələrinin bir millətdən olan xalqlarının rəğbətini və dəstəyini qazandı.

Cənub-Şərqi Avropa xalqları qarşısında orta əsrlərin ciddi qalıqlarından azad olmaq, milli birliyi və milli dövlət quruculuğunu başa çatdırmaq kimi tarixi vəzifə dururdu. Osmanlı imperiyasının zəifləməsindən istifadə etməyə çalışan balkan dövlətlərində hökmranlıq edən burjua-millətçi dairələr və sülalələr öz dar sinfi və xanədan maraqlarını müdafiə edirdilər. Türkiyə ilə uğurlu müharibə yalnız milli birlik probleminin həllini deyil, həm də böyük ərazi və maddi qazanclar vəd edirdi. Xüsusilə çar Ferdinand və bolqar hökuməti qalibiyyətli müharibə nəticəsində "Böyük Bolqarıstan" yaratmağı nəzərdə tuturdular.

Nəhəng Osmanlı imperiyasına qarşı təkbaşına müharibə Bolqarıstan üçün perspektivsiz idi. Lakin 1911-ci ilin payızında başlayan İtaliya-Türkiyə müharibəsi imperiyanın zəifliyini bir daha nümayiş etdirdi və Balkan ölkələrinin hökumətləri arasında fəaliyyət birliyinə dair danışıqlara təkan verdi. Bolqarıstan diplomatiyası daha çox fəallıq göstərirdi. 1912-ci il fevralın 29-da (mart 13) Bolqarıstanla Serbiya arasında gizli dostluq və müttəfiqlik müqaviləsi imzalandı. Müqavilənin mahiyyəti gizli əlavədə yer tuturdu, belə ki, Türkiyəyə qarşı birgə hərəkət nəzərdə tutulur, bunun uğurlu olacağı təqdirdə, balkanlarda azad edilmiş Sultan mülklərinin sonrakı bölüşdürülməsi nəzərdə tutulurdu. Xüsusilə, Bolqarıstan müharibənin

qalibiyyətilə başa çatması nəticəsində bir sıra əraziləri, o cümlədən Kriva-Palanka-Ohrid xəttinin cənub-şərqində Makedoniyanın əhəmiyyətli bir hissəsini (sonradan ədəbiyyatda şərti olaraq "mübahisəsiz zona" adını almışdır) almalı idi. Bəhs olunan ayırıcı xəttin şimal-qərbindəki Makedoniya bölgələrinin taleyi, Bolqarıstan və Serbiya arasında fikir ayrılığı yaradardısa, ("mübahisəli zona" adlanan ərazini təşkil edir) bu məsələ Rusiya çarının arbitirliyi sayəsində həll edilməli idi.

İki ay yarım sonra Türkiyəyə qarşı (həmçinin gizli) bolqar-yunan müqaviləsi imzalandı, tərəflər razılığa gələ bilmədiyi üçün imperiyanın balkan ərazilərinin taleyi məsələsindən vaz keçildi. Monteneqro koalisiyaya son olaraq qoşulmuşdur.

Beləliklə, 1912-ci ilin payızına kimi, monarxiyalar ittifaqı meydana gəldi. Bolqarıstan yaradılan blokun mərkəzi halqası oldu, bütün digər müttəfiqlərlə müqavilələr bağladı. Bolqarıstan eyni zamanda balkan koalisiyasına daxil olan dövlətlərin ən böyüyü olaraq güclü orduya sahib idi. Antanta dövlətlərinin imperialist blokunun nümayəndələri, ilk növbədə Rusiyanın, habelə İngiltərə və Fransanın diplomatları Balkan ittifaqının rəsmiləşməsinə fəal köməklik göstərirdilər. Onlar Almaniya və Avstriya-Macarıstanla qarşıdakı mübarizədə Balkan ittifaqından istifadə etməyə ümid bəsləyirdilər.

1912-ci il oktyabr 5-də (18) Bolqarıstan, Yunanıstan və Serbiya Türkiyəyə müharibə elan etdilər, Monteneqro doqquz gün əvvəl fəaliyyətə başlamışdır. Hərbi döyüş əməliy-

yatları iki əsas cəbhədə başladı, qərb və frakya. Osmanlı ordusunun əsas qüvvələri Bolqarıstanla sərhəddə Frakyada cəmlənmişdir ki, Bolqarıstan ordusunun qarşısında çətin bir vəzifə durmuşdur. Türklərin hücumu dayandırıldı, istedadlı general Radko Dimitriyevin rəhbərlik etdiyi bolqar qoşunları əks hücuma keçdi. Bunun ardınca iki böyük döyüş oldu, Lozenqradın qərbində və sonra Lülə-Burqas-Bünar-Hissar xəttində. Türk qoşunları məğlub oldular və çəkildilər. Onlar İstanbulun xarici müdafiə xəttinini qərbində, Çatalcıda dayandılar. Burada möhkəmlənə bildilər. Ədirnə (Adrianopol) bölgəsində bolqar qoşunları türk korpusunu mühasirəyə aldı. Alman mühəndislərinin köməyi ilə şəhər möhkəm qalaya çevrildi. Makedon-Odrin könüllülərinin batalyonu bolqar ordusunun tərkibində döyüşlərdə fəal iştirak edirdi. Bu batalyonlar bolqarlardan ibarət olub, Makedoniyadan və Adrianopol vilayətindən olan mühacir könüllülərdən yaradılmışdır.

Qərb hərbi əməliyyat meydanı, Makedoniya və qonşu ərazilərdə müttəfiqlər qüvvələr nisbətində əhəmiyyətli üstünlüyə malik idilər. Serb və Monteneqro qoşunları Şimali Albaniya, Kosovo və Şimali Makedoniyada sürətli qələbələr əldə etdilər. Yunan qoşunları Epir, Fessaliya və Cənubi Makedoniyanı işğal etdilər. Yunan və Bolqar bölmələri demək olar ki, eyni vaxtda Saloniki şəhərinə yaxınlaşdılar. Nəticədə üç-dörd həftə ərzində Osmanlı ordusunun Balkanlardakı əsas qüvvələri məğlub oldu, mühasirəyə alınmış qalalarda (Ədirnə, Skutari, İoanin) yalnız qarnizonlar qalmışdı.

Balkan müttəfiqlərinin ildırımsürətli qələbələri bütün dünyanı heyrətə gətirdi. Balkan müttəfiqlərinin qoşunları, əsgərlərin yüksək əhval-ruhiyyəsi sayəsində böyük döyüş bacarığı göstərdilər. Türkiyə ilə müharibə Bolqarıstanda və başqa Balkan ölkələrində məşhur idi ki, bu da məzlum həmtayfa və qardaş xalqların Sultan Türkiyəsinin feodal asılılığından azad olmasına səbəb oldu. Balkan müttəfiqlərinin döyüş orduları düşmənlə ruh yüksəkliyi ilə döyüşürdülər. Xüsusilə, bolqar əsgər və zabitləri döyüş sənəti və fədakarlığı nümunəsi nümayiş etdirirdilər. Türk ordusunun əsgərləri isə mənəvi dayanıqlıq göstərmədilər.

Balkan müttəfiqlərinin uğurlarında azad edilmiş ərazilərin əhalisinin dəstəyi mühüm rol oynadı. Makedoniya və Frakiyadan olan onlarca könüllü partizan çətələri Osmanlı asılılığına qarşı mübarizədə fəal iştirak edirdi. Böyük dəstələrə DMOİT-in sol qanadının rəhbərləri, o cümlədən Yane Sandanski, Xristo Çernopeyev və b. rəhbərlik edirdi. Voyevodalar tərəfindən təşkil edilən çətələr türk birliklərinin arxasına basqın edərək, Bolqarıstan və onun müttəfiqlərinin qoşunlarına kömək edirdilər. Albanlar türk ordusunun məğlubiyyətindən istifadə edərək 1912-ci il noyabrın 28-də Valonada Albaniyanın müstəqilliyini elan etdilər. Beləliklə, balkan müttəfiqlərinin müharibəsi Sultan rejimi tərəfindən istismar edilən xalqların azadlıq mübarizəsilə iç-içə idi. Bu, müharibənin obyektiv mütərəqqi əlamətlərini gücləndirdi və müttəfiqlərin qələbələrini təmin etdi.

Eyni zamanda, artıq müharibənin gedişində Bolqarıstanın digər balkan ölkələrinin burjua-mütləqiyyətçi güruhunun si-

yasətinin millətçi mahiyyəti tədricən açılmağa başladı. Çar Ferdinandın ekspansionist, əsasən avantürist siyasətinin ilk əlamətləri 1912-ci ilin noyabrında, fəlakətli məğlubiyyətlərdən sonra Sultan hökumətinin (vasitəçilər vasitəsilə) barışıq tələbilə çara müraciət etməsilə ortaya çıxmışdır. Ferdinand Sultanın müraciətini müttəfiqlərdən gizləyərək, bolqar qoşunlarına Çatalcıda güclü möhkəmləndirilmiş türk mövqelərinə hücum etməyi əmr etdi. Hakim dairələrdə ekstremist əhval-ruhiyyənin artması şəraitində Ferdinand nəyin bahasına olursa-olsun İstanbulu ələ keçirmək qərarına gəlmişdir. O, artıq özünü "yenilənmiş" Bizans imperiyasının imperatoru elan etmək niyətilə Osmanlı imperiyasının paytaxtına təntənəli surətdə daxil olmağı təsəvvür belə edirdi.

Ancaq bolqar qoşunları davamlı yürüşlərdən və hər cür mərhumiyyətlərdən yorulmuşdu və çarın göstərişi ilə başlayan hücum uğursuzluqla başa çatdı. Türkiyənin müdafiə xəttinə iki günlük qanlı hücum Bolqarıstan ordusuna ciddi itkilər verdi, beləki, hücum edən bölmələrin şəxsi heyətinin yarısı öldürüldü və yaxud sıradan çıxdı. Yalnız bundan sonra Ferdinand müttəfiqlərə Sultanın müraciəti barədə məlumat verdi. 1912-ci il noyabrın 21-də (dekabrın 3-də) imzalanmış barışıq üçün danışıqlar başladı.

Dekabrın ortalarında sülhün bağlanması məqsədilə döyüşən ölkələrin nümayəndə heyətlərinin konfransı açıldı. Eyni zamanda Böyük Britaniyanın xarici işlər naziri E.Qreyin sədrliyi ilə böyük dövlətlərin səfirlərinin iştirakı ilə konfrans da oldu. Balkan müttəfiqləri Portodan bütün balkan mülklə-

rinin, o cümlədən Trakyadakı Midye-Rodosto xəttinə kimi olan əraziləri onlara verməyi tələb edir, həm də Egeydəki bütün adalardan Sultanın əl çəkməsinə çalışırdılar. Gənc türklər, Portonun bu tələbləri qəbul edəcəyindən ehtiyat edərək, 1913-cü ilin yanvarında İstanbulda çevriliş edib yenidən hakimiyyətə gələrək, Berlin və Vyananan təhriki ilə yenidən hərbi əməliyyata başladılar.

I Balkan müharibəsinin yeni mərhələsi başladı. Almaniya və Avstriya-Macarıstanın Türkiyəyə yardım etməsinə baxmayaraq türk ordusu döyüşlərin gedişində dönüş yarada bilmədi. Xüsusi ilə türk əsgərlərinin Çatalcada bolqar ordusunun arxasına desant çıxarması nəticəsiz qaldı. Bu və bir sıra digər sahələrdə türklərin əks-hücum cəhdləri uğursuz oldu. 1913-cü ilin martında bolqar qoşunları 60 minlik türk qarnizonunun cəmləşdiyi Ədirnə şəhər-qalasına hücum etdilər. Döyüşlər zamanı bolqar əsgərləri şücaət və mərdlik, komandirlər isə çətin şəraitdə hərbi əməliyyatlara rəhbərlik etmək sənəti və bacarığı nümayiş etdirdilər. Hücumun nəticəsində qala yıxıldı, qarnizon əsir düşdü. Bolqarıstan komandanlığı Çatalcada əlavə qoşun cəmləşdirmək imkanı qazandı. Yunan qoşunları İoanin qalasını tutdular. Türkiyə hökuməti yenidən sülh istəməyə məcbur oldu.

Londonda danışıqlar yenidən başladı. Bu balkan müttəfiqlərinin nümayəndələri arasında qənimət bölgüsü ilə bağlı şiddətli mübahisə şəraitində davam edirdi. Türkiyə ilə bağlanan sülh müqaviləsinin ən mühüm şərtlərini əslində böyük dövlətlərin səfirlərinin konfransı diktə edirdi. Balkan müttəfiqləri

arasında ziddiyyətlər o həddə çatdı ki, onlar hazırlanmış sülh müqaviləsi layihəsini imzalamağa razı olmadılar. Yalnız böyük dövlətlərin təzyiqi ilə 1913-cü il mayın 17-də (30-da) London sülh müqaviləsi bağlandı. Türkiyə Enez-Midye xəttinin qərbindəki bütün balkan mülklərini qaliblərə verdi. Albaniyanın müstəqilliyi tanındı. Onun sərhədləri məsələsi və Egeydəki adaların taleyi böyük dövlətlərin müzakirəsinə verildi.

Obyektiv olaraq Bolqarıstanın və onun müttəfiqlərinin Sultan Türkiyəsi üzərində qələbəsi mühüm hadisə idi ki, bunun sayəsində Makedoniya, Albaniya və digər bölgələrin xalqları asılılıqdan və feodal despotizmindən azad oldular. Kəndlilər yerli mülkədarların istismarından xilas oldular. Müttəfiqlərin qələbəsi Balkanlarda feodalizmin qalıqlarının məhv edilməsinə, mütləqiyyət sistemində azad edilmiş xalqların mütərəqqi inkişafına kömək etdi. Lakin Balkan xalqlarının tarixi vəzifələri yalnız qismən həll olundu.

London müqaviləsi Balkanlara sülh və əmin-amanlıq gətirmədi. Bolqarıstanın və Cənub-Şərqi Avropanın qalan dövlətlərinin taleyi getdikcə bu ölkələrdə hakimiyyətdə olan burjua-monarxist hökumətlərin özbaşınalığından və böyük dövlətlərin imperialist diplomatiyasının intriqalarından daha çox asılı olurdu. Bolqarıstanda (bütün Balkan regionunda olduğu kimi) müharibə zamanı tədricən ictimai qüvvələrin tarazlığında mühüm dəyişikliklər baş vermiş, oradakı sosial-psixoloji ab-hava dəyişilmişdir.

Müharibə başlayandan bəri vətənpərvərlik hissləri əhalinin böyük əksəriyyətini bürümüşdür. Bütün burjua partiyaları

Qeşov–Danev hökumətinin xəttini qeyd-şərtsiz dəstəkləyirdilər. Onların liderləri həm milli birlik, həm də qalibiyyətli müharibənin vəd etdiyi ərazilərin genişləndirilməsi və maddi qazanc arzusunda yekdil idi. (Bu motivlər, təbii olaraq xalq arasında təbliğat sayəsində məşhur olan milli birlik və istismar edilən qardaşların azadlığı ideyaları ilə üst-üstə düşürdü). BƏXİ və geniş sosialistlər partiyasının rəhbərliyi arasında fikir ayrılığı yarandı, belə ki, bu partiyaların rəhbərlərinin bir hissəsi hökumətin siyasətilə həmrəy olduğu halda, digər hissə (o cümlədən A.Stamboliyski və Y.Sakızov) tərəddüd edir, gözləmə mövqeyi tuturdu.

Yalnız tesnyaklar partiyasının rəhbərliyi hökumətin müharibə xəttini pislədi. Qabaqcıl fəhlələrin fikrini ifadə edən tesnyaklar hakim dairələrə etibar etmirdilər. Partiyanın MK-nin xüsusi bəyanatında burjua-mütləqiyyətçi hökumətin millətçilik kursu pislənilirdi. Qeyd edilirdi ki, proletariat Balkan demokratik respublikalar federasiyasının yaradılması əsasında milli birlik uğrunda və Balkanlarda yetişmiş problemlərin inqilabi yolla həlli üçün mübarizə aparıb, bundan sonra da mübarizə aparacaqdır. Sənəddə həmçinin göstərilirdi ki, "kapitalın və sülalənin işğalçılıq məqsədlərini həyata keçirmək məqsədilə yaradılmış" "balkan dövlətləri ittifaqı" parçalana və yeni milli rəqabət və ziddiyətlərin mənbəyinə çevrilə bilər". Analoji bəyanatla 1912-ci ilin noyabrında Bazeldə keçirilən Fövqəladə Beynəlxalq Sosialist konqresində tesnyakların nümayəndəsi X.Kabakçiyev çıxış etmişdir. (O, Balkanlarda müharibənin başlanması ilə bağlı II İnternasio-

nalın rəhbərliyi tərəfindən çağırılmışdır); Konqres bütün dünyanın inqilabi sosial-demokratiyasını militarizmə, şovinizmə və müharibəyə qarşı səfərbər etməkdə mühüm rol oynamışdır.

I Balkan müharibəsi zamanı Bolqarıstanın daxili vəziyyəti daha da mürəkkəbləşdi. Əsas tələbat mallarının, xüsusən də ərzaq məhsullarının qiyməti sürətlə artdı. Məhrumiyyəti ilk növbədə şəhərin zəhmətkeş əhalisi yaşayırdı. Kəndlilər ordunun ehtiyacı üçün müsadirələrdən əziyyət çəkirdilər. Uzun sürən müharibə getdikcə daha çox qurban tələb edirdi. Ordudakı çoxlu itkilər 1912-ci ilin sonundakı vəba epidemiyası ilə əlaqədar idi. Buna baxmayaraq burjuaziya müharibədə qazanc qazanır, hərbi təchizatdan və qanunsuz əməliyyatlardan bəhrələnirdi.

Müttəfiqləri Osmanlı ordusunu məğlub etmək vəzifəsi birləşdirdiyi müddətdə, aralarındakı ziddiyyətlər meydana çıxmırdı. Qətiyyətli qələbələr əldə edildikdə vəziyyət dəyişdi. 1913-cü ilin yazında Bolqarıstanın və müttəfiqlərinin hakim dairələrində millətçilik dalğası sürətlə artdı, hər bir hökumət azad edilmiş ərazilərin mümkün qədər çox hissəsini qoparmağa çalışırdı. Bolqarıstanın hakim dairələri müharibə zamanı Makedoniyanın üç zonaya bölünməsindən son dərəcə narazı idi ki, onların da ikisində Serbiya və Yunanıstan qoşunları yerləşdirilmişdir. Bir tərəfdən serb və yunan qoşunları arasında digər tərəfdən, bolqarlar arasında çat və münaqişə yarandı. Serbiya hökuməti Bolqarıstanın Frakiyada böyük ərazi əldə etməsinə əsaslanaraq, Serbiyaya əlavə olaraq serb

qoşunları tərəfindən işğal edilmiş Makedoniyada əlavə ərazilərin verilməsi barədə Bolqarıstan hökuməti qarşısında ittifaq müqaviləsinin şərtlərinə yenidən baxılması məsələsini qoydu. Makedoniyada Bolqarıstana qarşı öz ərazi iddiasını irəli sürən Yunanıstan hökuməti, mahiyyət etibarı ilə Serbiyanı dəstəklədi.

Bolqarıstan hökuməti öz mövqeyini Bolqarıstanın Osmanlı ordusunun məğlubiyyətinə daha mühüm töhfə verməsi, eləcə də Makedoniya əhalisinin etnik tərkibi məsələsi ilə əlaqələndirərək, Serbiyanın 1912-ci il ittifaq müqaviləsinin gizli maddələrinin şərtlərini yerinə yetirməyi və serb ordusunun Vardar Makedoniyasında işğal etdiyi ərazilərin bir hissəsindən çıxarılmasını tələb etdi. Bolqar millətçiləri hökumətdən Serbiya və Yunanıstana qarşı qətiyyətli kurs tələb edərək səs-küylü mitinqlər təşkil edirdilər, 1913-cü ilin martında Xalq məclisində deputatlardan biri alqış sədaları altında qışqırdı: "Biz kifayət qədər güclüyük və bütün sərhədlərimizdə vuruşa bilirik!". Türkiyə ilə London sülhü imzalanan gün Bolqarıstanda bəzi burjua qəzetləri yazmışdır: "Müharibə bitdi! Yaşasın müharibə!"

Bolqarıstan cəmiyyətinin heç də bütün təbəqələri millətçilik çılğınlığı ilə əhatə olunmamışdır. O, ilk növbədə burjua dairələri, xırda burjuaziya və ziyalılar arasında yayılmışdır. Zəhmətkeş əhali, fəhlələr və yoxsul kəndlilər ekstremist əhval-ruhiyyəyə zəif təslim olurdular. Ən ardıcıl mövqeyi qabaqcıl fəhlələr və onların nümayəndələri tesnyaklar tuturdular. Onlar öz qəzetlərində Bolqarıstan və onun müttəfiqlərinin burjua-mütlə-

qiyyətçi hökumətlərinin milliyətçi planlarını, imperialist dövlətlərin diplomatiyasının fitnə-fəsadlarını ifşa edirdilər. Tesnyaklar yorulmadan Balkan federasiyası şüarını təbliğ edirdilər ki, onların beynəlmiləlçi təbliğatı əks-səda doğururdu. 1913-cü il mayın 1-də bəzi şəhərlərdə fəhlə yığıncaqları keçirildi və tətillər elan olundu. Orduda narazılıq gücləndi, uzun sürən müharibə ilə bağlı yorğunluq və məyusluq əsgərlərin həyəcanına səbəb oldu, onlar tərxis olunmasını tələb edirdilər. 1913-cü ilin yazında bir sıra alayları həyəcanlar bürüdü.

Bu zaman kəsiyində Bolqarıstanın hakim dairələrində həddindən çox davakar əhval-ruhiyyəyə meyillilik önə çıxmışdır. Bolqarıstan ordusunun hərbi qələbələrinin sərxoşluğu bir çox generalların və burjua liderlərinin başını dumanlandırmışdır. Liberal partiyaların liderləri son dərəcə ifrat milliyyətçi çağırışlar edir, Makedoniyada güzəştlər barədə düşünməyə belə imkan verilmirdi. İ.Geşov hökuməti çaşqınlıq içində idi, onlar balkan müttəfiqlərinə güzəştə getməyə çağıran rus diplomatlarının səsinə qulaq asmağa meyilli idilər. Çar Ferdinandın təşəbbüsü ilə Geşov hökuməti Danev hökumətilə əvəz olundu ki, onlar da Makedoniyanın bölünməsinə dair bolqar-serb sazişinin şərtlərinə ciddi riayət olunmasını, bolqar ordusunun serb birləşmələri tərəfindən işğal edilmiş "mübahisəsiz zona" adlanan əraziyə buraxılmasını tələb edirdilər. Liberallar həm də Rusiyaya istiqamətlənməyə son qoyulmasını tələb edirdilər. Millətçilik psixologiyası burjua düşərgəsinin digər partiyalarını da əhatə edirdilər. Hərbiçilərin təsiri son dərəcə artmışdır.

Berlin və Vyana diplomatları Bolqarıstanın hakim dairələrində ifrat cəhdlərin qızışdırılmasında fəal rol oynayırdı. Almaniya və Avstriya-Macarıstan hökumətlərinin rəhbərliyi Balkan ittifaqını dağıtmaq məqsədilə çalışırdılar. Bir vaxtlar məxfi olan diplomatik sənədlərin çoxcildlik nəşrlərində Berlin və Vyananın Balkan ittifaqına açıq münasibətinin dəlilləri ifadə edilmişdir. "Slavyanlara, xüsusən də Bolqarıstanla "parçala və hökmranlıq et" prinsipi ilə rəftar edilməlidir fikrini çəkinmədən ifadə edən Kayzer II Vilhelm Balkanlarda alman diplomatiyasının rəhbər prinsipini belə formalaşdırmışdır. 1912-ci ilin son aylarında və 1913-cü ilin birinci yarısında Berlin və Vyana diplomatları Cənubi-Şərqi Avropadakı ziddiyətləri sistemli və israrlı şəkildə qızışdırırdılar. Bolqarıstanı Serbiyaya, Serbiya və Yunanıstanı isə Bolqarıstana qarşı qoydular. Onlar Belqrada Adriatik dənizinə yox, Makedoniya və Saloniki vasitəsilə Egey dənizinə çıxış axtarmağı təklif etdilər. Sofiyaya isə gizli şəkildə Belqrada təslim olmamağı tövsiyə edirdilər. Onların pıçıltısı ilə Rumıniya bolqar cənubi Dobrucasında ərazi təzminatı tələbi irəli sürdü. Antanta dövlətləri diplomatiyasının (ilk növbədə Rusiyanın) birgə səyi ilə Rumıniya-Bolqarıstan münaqişəsi müvəqqəti olaraq yumşaldıldı. Bolqarıstan Cənubi Dobrucadakı Silistri Rumıniyaya güzəştə getmək məcburiyyətində qaldı.

1913-cü il iyunun 1-də (London sülhünün imzalanmasından bir gün sonra) Serbiya və Yunanıstan hökumətləri Bolqarıstana qarşı yönəlmiş gizli müqavilə bağladılar: onlar Makedoniyanın böyük hissəsini öz aralarında bölməyə və bu yolla

Serbiya ilə Yunanıstan arasında ümumi sərhəd yaratmağa qərar verdilər. Rusiya diplomatları dünənki müttəfiqlər arasında müharibə təhlükəsinin artdığını görərək və münaqişəni sülh yolu ilə aradan qaldırmağa cəhd etdilər. Peterburqda Balkan ittifaqının saxlanmasının Rusiyanın (və bütövlükdə Antantanın) maraqlarına uyğun olduğunu bilərək, Almaniya və Avstriya-Macarıstanla qarşıdakı mübarizəni nəzərə alaraq, Balkan ittifaqı ölkələrinin hökumət başçılarının konfransının çağırılması ideyasını irəli sürdülər. Bolqarıstan və digər maraqlı ölkələrin hökumətləri bu təklifi qəbul etməyə tələsmədilər. İngiltərə və Fransanın mövqeyi əslində konfransın çağırılmasına az təsir etdi, belə ki, London və Parisdə hesab edirdilər ki, konfrans Rusiyanın Balkanlarda təsirini həddindən artıq gücləndirə bilər. Berlin və Vyananın siyasəti isə, yuxarıda qeyd etdiyimiz kimi, birbaşa Balkan ittifaqının dağıdılmasına yönəlmişdir.

Bolqar şovinistlərinin o zaman hökumətə güclü təsiri var idi. “Hamısı ya heç nə!” şüarı altında onlar tələb edirdilər ki, hökumət heç bir güzəştə getməsin. 1913-cü il iyunun 22-də Sofiyada V.Radoslavovun rəhbərliyi ilə liberal partiyaların rəhbərlərinin mitinqi keçirildi, bu mitinqdə serblərin və yunanların Makedoniyadan zorla qovulması çağırışları səsləndi. Bolqar qoşunlarının Trakyadan demək olar ki, hamısı oraya köçürüldü və Bolqarıstanın Türkiyə və Rumıniya ilə sərhədləri boş qaldı. Bolqarıstan ordusunun hissələrinin hərəkəti zamanı bir sıra bölmələrdə tərxis olunmaq arzusunda olan əsgərlərin narazılığı özünü göstərdi.

Hakim dairələri bürüyən məstlik şəraitində Ferdinand riskə gedərək Makedoniya problemini güc yolu ilə həll etməyə cəhd etdi. Onun əmri ilə iyunun 16-da (29-da) Makedoniyadakı bolqar qoşunları serb və yunanlara hücum etdi. Beləliklə, Müttəfiqlərarası və yaxud II Balkan müharibəsi başladı. Ona Bolqarıstan və digər Balkan ölkələrindəki hakim zümrənin siyasəti səbəb oldu ki, onların hegemon istəkləri imperialist dövlətlərin diplomatiyasının fitnə-fəsadları sayəsində qızışdırıldı. Ferdinandın macərası ilk gündən uğursuz oldu, bolqar qoşunlarının hücumu dayandırıldı, onlar müdafiəyə keçməyə məcbur oldular.

Bolqarıstanın hakim elitası çaşqınlıq içində idi. Ordu komandanı təcili olaraq dəyişdirildi. Rumıniya hökuməti Bolqarıstanda yaranmış çətin vəziyyətdən istifadə etməyə tələsdi, rumın ordusu Bolqarıstan ərazisinə daxil oldu və müqavimət görmədən Sofiyaya doğru irəlilədi. Danev hökuməti istefaya getdi. “Milli birləşmə” koalisiya hökuməti yaratmaq cəhdi uğursuz oldu. İyulun 17-də çar liberal partiyaların liderlərindən ibarət yeni hökuməti, V.Radoslavovun “liberal birləşmə” hökumətini formalaşdırdı. Əvvəllər hakimiyyətdə olan, kompromisə getmək istəyən rusofil partiyaların nüfuzu sarsıldı. Bundan əlavə, Bolqarıstanın hakim dairələrində məyusluq yaranmışdı, bütün böhran dövründə Rusiya diplomatları Serbiya və Yunanıstana güzəştə gedərək razılaşmağa dəvət edirdilər. Liberal partiyaların hakimiyyətə gəlməsi ölkənin hakim dairələrinin Bolqarıstanın xarici siyasətini yenidən istiqamətləndirmək istəyi demək idi.

Elə həmin günlərdə türk ordusu London sülhünün şərtlərini pozaraq Enez-Midye xəttinin qərbinə doğru irəliləməyə başladı. O, Ədirnəni və demək olar ki, bütün Şərqi Trakyanı işğal etdi. Rusiya hökuməti böyük dövlətlərin birgə hərbi-dəniz nümayişi təşkil etməyə çalışırdı ki, Türkiyəni London sülh müqaviləsinə qərarları ilə hesablaşmağa məcbur etsin. Lakin bu cəhd uğurlu olmadı. Bolqarıstan hökuməti təslim olmaq məcburiyyətində qaldı. Barışıq Bolqarıstanı çıxılmaz vəziyyətdə yaxaladı.

1913-cü il iyulun 28-də (avqustun 10-da) Buxarestdə Bolqarıstanla sülh müqaviləsi imzalandı. Rumıniya əvvəllər Bolqarıstana məxsus olan Cənubi Dobrucanı aldı. Serbiya və Yunanıstan Makedoniyanın demək olar ki, hamısını öz aralarında bölüşdürdülər. Bolqarıstana yalnız Pirin bölgəsi qalmışdı. Buna I Balkan müharibəsi zamanı bolqar ordusu tərəfindən azad edilmiş Qərbi Trakya da daxil idi ki, bu da ona Egey dənizinə çıxış imkanı verirdi. Bolqarıstan-Türkiyə münasibətləri problemləri 1913-cü il sentyabrın 16-da (29-da) İstanbulda sülh yolu ilə həll edildi ki, buna əsasən Şərqi Trakyanın (Ədirnə də daxil olmaqla) demək olar ki, hamısı Türkiyənin tərkibinə daxil edildi.

Müharibə bolqar xalqına çoxlu itkilər verdi, xeyli sayda ölən və yaralananlar var idi. Ölkəyə ərazi itkiləri və böyük maddi ziyan dəydi. Ferdinandın başçılıq etdiyi hakim burjua-millətçi dairələrin avantürası faciəvi şəkildə başa çatdı; xalqın yaddaşında ilk milli fəlakət kimi qaldı.

Balkan müharibələri Bolqar cəmiyyətində ciddi dəyişikliklərə səbəb oldu, sosial bərabərsizlik artdı, sinfi ziddiyyətlər

kəskinləşdi. İkinci Balkan müharibəsi nəticəsindəki fəlakətli məğlubiyyət böhrana səbəb oldu. Ölkədə vəziyyət kəskin şəkildə dəyişdi. Xalqın artan narazılığının birbaşa göstəricisi 1913-cü ilin noyabrında keçirilən parlament seçkilərinin nəticələri idi. XVI adi Xalq məclisinə (XVI AXM) seçkilərdə burjua partiyaları cəmi 52,8 faiz səs toplaya bildi (1911-ci ildə keçirilən XV seçkilərdə (AXM-ə) 72,6 faiz səs toplamışdılar.

Burjua düşərgəsinin partiyaları arasında qüvvələr nisbəti dəyişdi. Müharibə illərində ölkəni bilavasitə idarə edən xalqçılar və mütərəqqiçilər ciddi məğlubiyyətə uğradılar. Digər tərəfdən, seçkilər zamanı hakimiyyətdə olan liberal partiyalar onlara verilən səslərin müəyyən qədər artmasına nail oldular. Ən əsası isə milli fəlakətin günahkarlarının cəzalandırılmasını tələb edən demokratik yönümlü bütün müxalifət partiyaların (BƏXİ, genişlər, sıxlar) seçicilər arasında nüfuzunun böyük artımı müşahidə olundu. Bunlardan BƏXİ ən nüfuzlu qüvvə idi. Tesnyaklar (sıx sosialistlər) da əhəmiyyətli uğur qazandılar, lakin demokratik partiyalar arasında birlik yox idi.

Müxalifətdə birliyin olmamasından çar və onun dəstəklədiyi liberal partiyalar istifadə edirdi. XVI AXM-də onlar səs çoxluğuna sahib olmadı və yeni seçilmiş parlament buraxıldı. Üç ay sonra, 1914-cü ilin fevralında XVII AXM-ə seçkilər keçirildi. Müxtəlif maxinasiyalarla yeni Xalq Məclisində hakim partiyalar deputatların sayına görə müxalifət partiyalarından cüzi üstünlük təşkil etsə də, topladığı səslərin sayına

görə yenə də müxalifətdən geri qalırdı və Radoslavov hökumətinin mövqeyi qeyri-müəyyən idi. Artıq müharibənin başa çatması ilə bağlı Ferdinand "daha yaxşı zamanı" gözlədiyinə işarə edirdi. Hakim elita, xüsusən də hərbçilər qisasçılıq ideyasını təbliğ edir, liberallar hökuməti çarla birlikdə Berlin və Vyananın köməyi ilə xarici siyasət vəzifələrini həyata keçirmək arzusunda idi. Qonşu ölkələrə keçən Cənubi Dobruca, Makedoniya və Trakya ərazilərindən gəlmiş qaçqınların köməyi sayəsində ölkənin qisasçı ruhlu rəhbərliyi vəziyyəti qızışdırırdı.

Artıq 1914-cü ildə hakim partiyalar və onların mətbuatı yeni müharibə üçün intensiv ideoloji hazırlıqlara başladılar. Liberal partiyaların qəzetləri anti serb və antirus təbliğatına başladı. Bolqarıstanı Mərkəzi Avropa dövlətlərinin koalisiyasına cəlb etmək məqsədilə mühüm ilkin addım 1914-cü ilin iyulunda imzalanmış kredit müqaviləsi oldu. Paris bankları Bolqarıstana daha sərfəli şərtlərlə kredit təklif etməsinə baxmayaraq Radoslavov hökuməti Berlin və Vyana bankirləri ilə bilərəkdən müqavilə imzaladılar. Kredit çərçivəsində alınan vəsaitin böyük hissəsi Almaniyada köhnə borcların ödənilməsinə və silah alınmasına sərf edildi. Müharibəyə hazırlıq bütün istiqamətlər üzrə aparılır, silah və texnika ehtiyatları yaradılır, zabitlər və kiçik zabitlər keçmiş müharibələrin təcrübəsi nəzərə alınmaqla yenidən hazırlanırdı.

1914-cü ilin iyulunda Radoslavov hökuməti kredit müqaviləsi bağlayanda Avstriya-Macarıstan və Serbiya arasında münaqişə son həddə çatdı. Avqustun əvvəllərində bu imperia-

list mahiyyəti kəsb edən Birinci Dünya müharibəsinə çevrildi. Bu, düşmənçilik edən iki imperialist qruplaşmalar arasında ziddiyyətlərin kəskinləşməsinin nəticəsi idi, bir tərəfdən Mərkəzi Avropa güclərinin (Almaniya, Avstriya-Macarıstan, onlara qoşulan Türkiyə) koalisiyası, digər tərəfdən isə Antantanın (İngiltərə, Fransa və Rusiya) gücləri.

Müharibə Balkan hərbi əməliyyat meydanında başladı. Döyüşən iki blokun diplomatiyasının Bolqarıstan uğrunda apardığı mübarizə, ölkənin Balkan yarımadasında mühüm strateji mövqe tutduğu üçün gərgin xarakter almışdır. Radoslavov hökuməti əvvəlcə Bolqarıstanın bitərəfliyini elan etdi, bu yolla o, əsl niyyətlərini və hərbi hazırlıqlarını ört-basdır etdi. Xalqdan gizli olaraq, o, müharibə edən hər iki blokun diplomatları ilə mürəkkəb danışıqlar apardı. Liberalların hökuməti mərkəzi avropa dövlətləri ilə ittifaqa üstünlük verdi, eyni zamanda Antanta dövlətləri ilə danışıqları dayandırmadı. O, Bolqarıstanın müharibəyə girməsi üçün ən yüksək qiyməti müəyyən etmək niyyətində idi. Bu maskalanma həm də ölkənin ictimai rəyi çaşdırmaq məqsədilə vacib idi.

Xalqın böyük əksəriyyəti, kəndli və şəhər əhalisi ölkənin yeni müharibəyə cəlb edilməsinin əleyhinə idi. Antantaya istiqamətlənmiş nüfuzlu burjua dairələri də hökumətin getdikcə daha qətiyyətlə mərkəzi avropa dövlətlərinə qoşulmaq xəttinə etiraz edirdilər. 1915-ci ilin əvvəlində ictimaiyyətin görkəmli nümayəndələri, elm, incəsənət və mədəniyyət xadimləri (o cümlədən görkəmli yazıçı İ.Vazov) də müvafiq bəyanatla çıxış etdilər.

Burjua müxalifət partiyaları liberallar hökumətinin almanpərəst xəttini pislədilər. Xalqçılar, mütərəqqiçilər və demokratlar Bolqarıstanın müharibəyə girmək ehtimalını (əlverişli şəraitdə) istisna etmirdilər, lakin Rusiya və bütövlükdə Antanta ilə ittifaqın məqsədəuyğunluğunu və zəruriliyini əsaslandırırdıalar. Bəhs edilən partiyaların liderləri belə hesab edirdilər ki, Antanta ölkələrinin müttəfiqi olan Serbiya Vardar Makedoniyasını, və ya onun bir hissəsini Bolqarıstana verməlidir. Xırda burjua partiyalarının bir çox liderləri (BƏXİ və radikallar), o cümlədən geniş sosialist partiyasının bəzi liderləri mahiyyətcə o dövrdə Antanta tərəfdarlarının düşərgəsinə qoşuldular. Amma bu partiyaların sıralarında yekdil birlik yox idi. Rəsmi olaraq adları çəkilən üç partiyanın rəhbərliyi müharibəni milli problemlərin həlli vasitəsi olmasını pisləyirdilər.

Tesnyaklar partiyası prinsipial beynəlmiləlçilik mövqeyindən çıxış edərək müharibənin imperialist mahiyyətini və müharibə edən ölkələrin hökumətlərinin işğalçılıq məqsədlərini ifşa edirdi. O, Bolqarıstan burjuaziyasının avantürist, militarist və şovinist kursunu pislədi. Balkan federasiyası şüarını yorulmadan təbliğ edən tesnyaklar balkan xalqlarını yaxınlaşdırmağa çağırırdılar. BFSDP MK-nın (s.s) katibi Q.Kirkov bəyan etdi ki, əgər balkan xalqları federasiya çərçivəsində birləşməsələr, onları yeni qardaş qırğını müharibəsi təhlükəsi gözləyir. Tesnyaklar partiyasının lideri D.Blaqoyev alman sosial-şovinisti Parvusun və sosial müdafiəçilik mövqeyinə yuvarlanmış Q.V.Plexanovun partiyanı beynəlmiləlçi mövqe-

dən uzaqlaşdırmaq cəhdlərini qətiyyətlə dəf etdi. Tesnyakların nümayəndəsi V.Kolarov 1915-ci ilin sentyabrında Tsimmervaldda keçirilən beynəlmiləlçi sosial-demokratların müharibə əleyhinə beynəlxalq konfransında iştirak etmişdir.

1915-ci ilin avqustunda, demək olar ki, bir il ərzində iki müharibə edən koalisiyanın diplomatları ilə pərdəarxası "bazarlıqdan" sonra Bolqarıstanın hakim elitası mərkəzi Avropa dövlətlərinin tərəfində müharibəyə girməyə qərar verdi. Həmin dövrdə rus ordusu uğursuzluğa düçar oldu. Antanta ordularının qərb və italyan cəbhələrindəki hücumları və Antantanın Dardanel ekspedisiyası uğursuz başa çatdı. Liberal mətbuat Almaniyanın və Avstriya-Macarıstanın hərbi qələbələrini geniş şəkildə reklam edirdilər. Hökumət Almaniyanın gücünə inanır və xalqı əmin etməyə çalışırdı ki, onun qələbəsinin sonu uzaqda deyil. Hökumətin Avstriya-alman blokuna daxil olmaq barədə qəti qərarını Antanta ölkələrinin Bolqarıstanla gizli danışıqlarda ləngliyi və qətiyyətsizliyi də asanlaşdırmışdır. Berlin və Vyana diplomatiyası üçün Sofiya hökumətinə ərazi iddialarının təmin ediləcəyini vəd etmək daha asan idi, çünki, söhbət ilk növbədə Antanta dövlətlərinin müttəfiqi olan Serbiyanın tərkibindəki Vardar Makedoniyasından gedirdi.

1915-ci il avqustun 24-də (sentyabrın 6-da) Bolqarıstanın müharibəyə girməsini müəyyən edən üç müqavilə imzalandı. Bolqarıstanla Almaniya arasında açıq şəkildə dostluq və müttəfiqlik müqaviləsi bağlandı. "Təzminat haqqında" gizli razılaşmaya əsasən, Bolqarıstana Serbiyaya qarşı çıxışına

görə Makedoniyanın Vardar hissəsinin və Pomoraviyanın birləşməsi vəd edilirdi. Bundan əlavə, Yunanıstan və Rumıniyanın Antantanın düşərgəsinə daxil olması şəraitində yunan (Egey) Makedoniyasının və Dobrucanın Bolqarıstana birləşdirilməsi də nəzərdə tutulurdu. Hərbi konvensiya Bolqarıstanın Serbiyaya hücumunun vaxtını, Berlin və Vyananın silah, sursat və hərbi kontingentlə köməyini də müəyyənləşdirdi. Həmin gün bolqar-türk sazişi də imzalandı. Almaniyanın təzyiqi ilə Türkiyə Trakyadakı bəzi sərhəd bölgələrini Bolqarıstana verməyə razı oldu. Bunun Radoslavov hökuməti üçün kifayət qədər təbliğat əhəmiyyəti var idi.

Almaniya və Türkiyə ilə müqavilələrin bağlanmasından xəbər tutan müxalifət partiyaları təşvişə düşdü. Onlar hökumətə növbəti təzyiq cəhdi etdilər. Onların təkidi ilə sentyabrın 17-də çar müxalifət partiyalarının liderləri – İ.Qeşov, A.Malinov, S.Danev, N.Tsanov və A.Stamboliyski ilə görüşdü. Görüş zamanı onlar çara xəbərdarlıq etdilər ki, Bolqarıstanın Almaniyaya qoşulması fəlakətlə başa çatacaq. Eyni zamanda Stamboliyski qorxmadan Ferdinanda tacını və şəxsi taleyini riskə atdığını söylədi. Bu cəsarətli çıxışına görə Stamboliyski həbslə cəzalandırıldı. Yuxarıda qeyd edilən müqavilələrin imzalanmasından beş həftə sonra, 1915-ci il oktyabrın 1-də (14-də) Bolqarıstan müharibəyə daxil oldu.

Xalqın iradəsinə qarşı və hakimiyyətin günahı üzündən ölkə yeni müharibəyə cəlb olundu. Almaniya, Avstriya-Macarıstan və Sultan Türkiyəsi Bolqarıstanın müttəfiqi oldular, rəqiblərin düşərgəsində Bolqarıstanı Osmanlı asılılığından

azad etmiş Rusiya yer almışdır. Xalqın müharibəyə mənfi münasibəti dərhal özünü büruzə verdi belə ki, əhəmiyyətli sayda hərbi çağırışçı səfərbərlikdən yayınır, bəzi səfərbər edilənlər hissələrə göndərilərkən "Yaşasın Rusiya!" qışqırırdılar. Səfərbərlik dövründə bir sıra alayların əsgərləri tərəfindən müharibə əleyhinə açıq çıxışlar da olmuşdu. Bu iğtişaşların iştirakçıları güllələnir və yaxud həbsxanaya atılırdılar.

Müharibəyə girdikdən sonra ilk iki ayda bolqar qoşunları Avstriya-Macarıstanla ittifaqda müvəqqəti uğurlar qazandılar. Şimaldan Avstriya-macar, şərqdən isə bolqar diviziyaları tərəfindən sıxışdırılan serb ordusu məğlub edildi. Döyüşlər zamanı bolqar qoşunları Vardar Makedoniyasını və Serbiyanın əhəmiyyətli bir hissəsini işğal etdilər. Sırada qalmış serb birləşmələri çətin bir şəraitdə Alban dağlarından geri çəkilərək dənizə doğru getməyə məcbur oldular. Sonra onlar İngiltərə və Fransa gəmilərində Salonikiyə köçürüldülər. Uğursuz Dardanel əməliyyatından sonra Antanta qoşunları da buraya köçürüldülər. Bolqar ordusu indi böyük düşmən qüvvələri ilə qarşılaşdı. Onun cənub istiqamətində Salonikiyə doğru irəliləməsi dayandırıldı. Uzun müddət bolqar ordusu tərəfindən Antantanın birləşmiş qüvvələrinə qarşı durmalı olan Saloniki cəbhəsi meydana gəldi.

Bolqarıstan ordusunun ilk uğurları bir müddət müxalifətin səsini batıran millətçilik dalğasını ortaya çıxardı. Əvvəllər Antantaya yönəlmiş xalqçılar, tərəqqiçilər və demokratlar burjua partiyalarının liderləri ümumi millətçi xora qatıldılar. Hökumətin başçısı V.Radoslavov bəyan etdi ki, " bolqar atı-

nın dırnaqlarının daxil olduğu ərazi bolqar torpaq olacaq". Bu şovinist bəyanatı bütün burjua düşərgəsi bəyəndi və Radoslavov qısa müddətdə bolqar millətçi burjuaziyasının kumirinə çevrildi. Millətçilik məstliyi xırda burjua partiyalarının bir çox liderlərini də əhatə etdi, BƏXİ və radikalları. Biraz sonra (1916-cı ilin sonunda) Əkinçilik İttifaqının parlament fraksiyasında parçalanma baş verdi, əvvəllər burjua düşərgəsi ilə əməkdaşlığa meylli olan Draqiev qrupu əslində ayrıldı. Xırda burjua partiyalarının deputatlarının əksəriyyəti xalqçıların, mütərəqqiçilərin və demokratların birlikdə (liberal partiyaların deputatlarından başqa) nümayəndələrilə birlikdə hökumətə hərbi kreditin verilməsinin lehinə səs verdilər.

Geniş sosialistlərin liderləri müharibə kreditləri məsələsinin müzakirəsindəki səsvermədə bitərəf qaldılar. Əslində partiya liderlərinin çoxu Bolqarıstanın müharibəyə girdiyi andan bir burjua parlamentarisinin istehza ilə dediyi kimi "sosializmdən məzuniyyət götürdülər". Bu, partiya sıralarında və ona bağlı həmkarlar ittifaqı təşkilatlarında narazılığa səbəb olmuşdur. Rəhbərliyin xəttinə etiraz əlaməti olaraq görkəmli partiya xadimi, tanınmış publisist N.Qabrovski 1914-cü ilin sonunda tesnyakların sıralarına keçdi.

Tesnyaklar proletar beynəlmiləlçiliyi prinsipinə sadiq qaldılar. Onların təcrübəsi və möhkəm sinfi mübarizə ənənələri onların beynəlmiləlçi mövqeyini təsdiqləməsinə kömək etdi. Buna həm də beynəlxalq inqilabçı sosial-demokratların (K.Libknext, R.Lüksemburq və alman və beynəlxalq fəhlə hərəkatının digər sol təşkilatlarının nümayəndələri) cəsarətli

anti-müharibə mövqeyi kömək etdi. Bu dövrdə V.İ.Leninin başçılıq etdiyi bolşeviklərin ardıcıl inqilabi mövqeyi xüsusi əhəmiyyət kəsb edirdi. Onlar imperialist müharibəsini vətəndaş müharibəsinə çevirmək üçün cəsarətli mübarizə şüarını irəli sürdülər. Müharibənin əvvəlində Tesnyaklarla bolşeviklərin rəhbərləri arasında birbaşa əlaqələr quruldu. D.Blaqoyevlə V.İ.Lenin arasında yazışmalarda proletar partiyalarının müharibə ilə bağlı taktikalarından bəhs edilirdi ki, bu da tesnyakların beynəlmiləlçi platformasının dərinləşməsinə xidmət edirdi. Onlar Avropanın ən böyük sosial-demokrat partiyalarının bir çox liderlərinin sosializm ideyalarına xəyanətini pislədilər və yeni, inqilabi İnternasionalın yaradılması uğrunda hərəkatı dəstəklədilər.

Hətta Bolqarıstanda səfərbərlik elan edilən ərəfədə, 1915-ci ilin sentyabrında Tesnyakların rəhbərliyi ölkə proletariatına müraciət etdi ki, "balkan və avropa xalqlarının tüğyan edən dünya müharibəsinin dəhşətlərindən xilas olması kapitalizmin devrilməsində yatır". Tesnyaklar inqilabi sinfi mübarizəyə, balkanlararası və beynəlxalq proletar həmrəyliyinə, Balkan Federativ respublikasına çağırırdılar. Müharibəyə girdikdən sonra tesnyaklar hər yerdə, parlamentdə və yerli bələdiyyələrdə, mətbuatda (senzuranın imkan verdiyi qədər) zəhmətkeşlərin mənafeyini müdafiə etmək məqsədilə yorulmadan mübarizə aparırdılar. Onlar geniş sosialist liderlərinin əksəriyyətinin sosial-şovinist mövqeyini, Bolqarıstandakı burjua-şovinist düşərgəsinin işğalçı məqsəd və planlarını yorulmadan ifşa edirdilər.

1916-cı ilin oktyabrında bolqar qoşunları əvvəlcə Antanta düşərgəsinə qoşulmuş Rumıniyaya qarşı döyüşlərdə iştirak etdi. Alman ordusu ilə birlikdə iki türk diviziyasının dəstəyi ilə bolqar qoşunları rumın ordusuna zərbə vurulmasında iştirak etmişdi. 1916-cı il dekabrın sonunda bütün Dobruca Dunayın mənsəbinə kimi bolqar hissələri tərəfindən tutuldu, Dunayın deltasında Bolqarıstan üçün yeni cəbhə yarandı. Burada bolqar ordusuna qarşı Rumıniya qoşunu və ona köməyə gələn rus ordusu dayanmışdır. Beləliklə, 1916-cı ilin sonundan etibarən bolqar ordusu iki cəbhə saxlamalı oldu, cənub-qərbdə Saloniki və şimal-şərqdə Dobrucada (və ya Dunay). Yorucu mövqeyə, malik sözdə səngər müharibəsi başladı. Hökumətin müharibənin üç-dörd ay davam edəcəyi ilə bağlı verdiyi vədlərin yalan olduğu məlum oldu.

Uzanan müharibə ölkənin iqtisadiyyatına məhvedici təsir göstərdi. Kənd təsərrüfatı əmək qabiliyyətli kişilərin bir nəfər kimi səfərbərliyindən əziyyət çəkirdi. Bolqarıstanda orduya çağırılan kişilərin nisbəti müharibə aparan ölkələr arasında bəlkə də ən yüksək idi. Hərbi ehtiyaclar məqsədilə müsadirə nəticəsində kənd əhalisi işlək mal-qaranın (xüsusilə atların) əhəmiyyətli hissəsini itirmişdi. Əkin sahələri əsaslı azaldı, taxılın məhsuldarlığı və ümumi yığımı aşağı düşdü. Orduya xidmət etməyən sənaye və sənətkarlıq müəssisələri bağlandı.

Müharibə illərində alman inhisarlarının sürətlə Bolqarıstanın iqtisadiyyatına daxil olması onun xalq təsərrüfatına ciddi ziyan vurmuşdur. Daş kömür və mis mədənləri, bir sıra toxu-

culuq, un və ağac emalı sənayesi müəssisələri onların hökmranlığı sahəsinə düşdü. Ölkədə çoxlu sayda alman hərbi- texniki və başqa komanda nümayəndələri və adi iş adamları ilə dolmuşdur. Onlar dəyərdən düşmüş alman markasına ərzaq və xammal alırdılar. Taxıl, tütün və digər kənd təsərrüfatı məhsulları daşıyan dəmiryol vaqonlarından ibarət qatarlar Almaniyaya göndərilirdi. Bolqarıstan imperialist Almaniyasının xammal əlavəsinə çevrildi.

Hərbi təchizatla sərvət qazanan bolqar burjuaziyası sistemli soyğunçuluğu ehtiyatların tükənməsinə səbəb oldu. Ordu hissələrində rəislərin səhlənkarlığı və oğurluğu ucbatından əsgərlər ac-yalavac yaşayırdılar. Yüksək vəzifəli məmurlar, hətta nazirlər, generallar xəzinə oğruluğu, rüşvətxorluq, varlanmaq məqsədilə vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə məşğul olurdular. İlhaq edilmiş ərazilərin (Makedoniya, Pomoraviya və s.) əhalisinin qarət edilməsi baş vermişdir. Möhtəkirlik durmadan artmışdır. Müharibə illərində hakim üst təbəqənin sürətlə zənginləşməsi səhmdar cəmiyyətlərin çoxalmasına və milyonçuların sayının artmasına səbəb oldu. Əgər müharibədən əvvəlki illərdə ölkədə 157 səhmdar cəmiyyəti yaradılmışdısa, yalnız 1912–1918-ci illərdəki müharibələr zamanı 184 yeni cəmiyyət yaranmışdır.

Müharibə hələ müharibədən əvvəl müşahidə olunan kapitalın təmərküzləşməsi və inhisarların formalaşması meyllərini sürətləndirmişdir. Kapitalın təmərküzləşməsi xüsusilə bank və sığorta işlərində nəzərə çarpırdı. Ən böyük banklar və sənaye birlikləri (kartellər və s.) birləşərək, bir-birinə qarı-

şaraq nüfuzlu maliyyə qruplarına çevrildilər. Meydana gələn maliyyə qruplarının mərkəzində alman maliyyə kapitalı ilə əlaqəli olan ən böyük Bolqarıstan bankları dayanırdı. Müharibə illərində güclənən inhisarların təşəbbüsü ilə Bolqarıstanda iqtisadiyyatın təchizat və tənzimlənməsi üzrə xüsusi Direksiya (ən böyük inhisarların və dövlət bürokratiyasının nümayəndələrindən) yaradıldı. Bu müharibə aparmaq maraqları naminə ölkənin xüsusi kapitalist iqtisadiyyatının kortəbii inkişafını tənzimləmək məqsədilə uğursuz təcrübələr aparırdı. Lakin Direksiyaya daxil olan inhisarların nümayəndələri qarşısında inhisarçı kapitalın zənginləşməsi məqsədi ilə iqtisadiyyata müdaxiləsi üçün əlavə perspektivlər açılırdı.

Xalq kütlələrinin vəziyyəti kəskin şəkildə pisləşdi. İki cəbhədə davam edən uzun və yorucu müharibə ordunun şəxsi heyətinin ağır itkisinə səbəb oldu. “Qan vergisi” ilk növbədə zəhmətkeşlər tərəfindən ödənilirdi, hakim düşərgədən olan nüfuzlu şəxslərin oğulları müxtəlif arxa komandalarda qərarlaşmışdır. Dinc əhalinin payına ağır məşəqqətlər düşürdü. Şəhər sakinləri ərzaq çatışmamazlığından əziyyət çəkirdilər. Çörək və zəruri ərzaq məhsulları üçün kartoçka sistemi müəyyən edilmişdir. Bundan əlavə, bu sistemlə ərzaq normasının ayrılması daimi azaldılırdı. Sonra kartoçka üzrə buraxılmış böyük fasilələrlə müşahidə olunurdu. Qara bazarda ərzaq məhsulları kəskin bahalaşdı və zəhmətkeş xalq üçün əlçatmaz oldu.

Bir çox konstitusiya azadlıqları faktiki olaraq ləğv edildi, senzura tətbiq olundu, bundan isə ilk növbədə tesnyakların

qəzeti "Rabotniçeski vestnik" zərər çəkdi. Proletarların vəziyyəti kəskin şəkildə pisləşdi, iş günü xeyli artdı, iş şəraitindən narazı olan bütün şüurlu fəhlələr cəbhəyə göndərildi. Bunun müqabilində onları qadınlar və yeniyetmələr əvəz edirdilər.

Kəndlilər hərbi ehtiyaclar məqsədilə sistematik olaraq qanuni müsadirədən əziyyət çəkirdilər. Müsadirə dəstəsi ən zəruri olanları amansızlıqla götürmək əvəzində heç bir real dəyəri olmayan qəbzlər qoyurdular. Zəhmətkeş kəndlilərin duz, sabun, kibrit və s. kimi məhsullara ehtiyacı var idi. Eyni zamanda kəndin (eləcə də şəhərin) varlı elitası müharibə illərində zənginləşdi. Ölkədə sosial bərabərsizlik artdı. 1916/17-ci ilin qışında ərzaq və digər zəruri malların çatışmazlığı təkcə şəhərlərdə deyil, kəndlərdə də kəskin şəkildə hiss olunurdu. Orduda, xüsusilə Saloniki cəbhəsinin qoşunlarında yemək və geyim çatışmazlığı hiss edilməyə başladı. 1916-cı ilin sonundan mərkəzi avropa dövlətləri blokunu ümumi böhranı bürüdü. Onlar üçün 1917-ci ildə müharibənin perspektivi heç də sakitləşdirici deyildi. Xüsusilə, Bolqarıstan Saloniki cəbhəsindəki müharibənin ən ağır yükünü çəkirdi. Orada Antanta qoşunları həlledici zərbə üçün tədricən güc topladı. Bolqarıstanın hakim dairələrinin mövqeyi getdikcə çətinləşirdi.

Zəhmətkeşlərin siyasi fəallığının oyanmasına Rusiyadakı 1917-ci il Fevral inqilabı böyük təsir göstərmişdir. Mütləqiyyətin devrilməsi və Sovetlərin təşkil edilməsi geniş əks-səda doğurdu. İnqilab tesnyaklara güclü təsir göstərdi. Xalq yığın-

cağında onların fraksiyası bəyan etdi ki, bolqar fəhlələri bildirir, “rus inqilabçı fəhlələrinin işi onların da işidir”. Tesnyaklar Rusiyadakı inqilabın gedişində V.İ.Leninin və bolşeviklərin taktikasını bəyəndilər. 1917-ci ilin yayında tesnyakların nümayəndəsi Q.Kirkov Stokholmda sol Tsimmervald qrupunun müraciətini imzaladı ki, burada da qeyd edilirdi ki, yalnız proletar inqilabı vasitəsilə ilhaqsız və təzminatsız sülhə nail olmaq mümkündür. 1917-ci ilin sentyabrında tesnyaklar partiyasının konfransı partiya üzvlərinə təşviqat və təbliğatı gücləndirməyə tapşırdı. Tesnyakların yorulmaz və cəsarətli fəaliyyəti proletariat və xalqın geniş dairələri arasında inqilabi şüurun tədricən oyanmasına kömək etdi.

Fəhlələrin siyasi fəallığı yüksəldi. Hökumət 1917-ci ilin yazında əvvəllər vəd edilmiş əməyin mühafizəsi haqqında qanunu çıxarmağa tələsdi, lakin qismən və formal güzəştlər artıq hadisələrin inkişafına mane ola bilmədi. 1917-ci ilin yazında bəzi şəhərlərdə qadınların nümayişləri keçirildi. Bolqar proletarları bir sıra yerlərdə 1 May gününü düzənli şəkildə qeyd etdilər. 1917-ci ilin yayında və payızında ac qadın işçilərin tətil və nümayişləri daha tez-tez baş verirdi. Kənddə iğtişaşlar gücləndi, müsadirələrdən narazı olan kəndlilər hakimiyyətə getdikcə daha tez-tez müqavimət göstərirdilər.

Arxa cəbhədəki məhrumiyyətlər və yoxsulluq xəbəri ön cəbhəyə, orduya çatdı. Əsgər arvadlarının ərlərinə yazdığı məktublar yerli məmurların qəsbkarlıq və haqsızlığından şikayətlərlə dolu idi. Əsgərlərin qəlbində həyəcan yer aldı.

Cəbhədəki hazırlıqsız, mənasız hücumlar, interdantların oğurluğu onlarda anlaşılmazlığa səbəb olmuşdur. Əsgərlər çarı və nazirləri açıq lənətləyirdilər. Tesnyakların müharibə əleyhinə təbliğatı gücləndi. Bəzi hissələrdə qeyri-qanuni müharibə əleyhinə komitələr meydana gəldi. Dunay cəbhəsində bolqar və rus əsgərlərinin qardaşlaşması başladı. Orduda nizam-intizam aşağı düşdü, kütləvi fərarilik başladı.

Ölkədə artan siyasi böhran hakim dairələrdə də açıq şəkildə müzakirə olunurdu. Antantayönlü partiyaların liderləri hərəkətə keçdilər, onlar yenidən hökuməti və liberal partiyaları tənqid etməyə başladılar. Artan inqilabi hərəkata qarşı mübarizə üsulları məsələsində hakim elitada və hökumətin özündə fikir ayrılığı getdikcə daha kəskinləşdi, hökumətlə hərbi komandanlıq arasında çat yarandı. Ölkədə inqilabi böhran daha da kəskinləşdi.

# VII FƏSİL

## BOLQARISTAN 1918–1939-cu İLLƏRDƏ

Birinci dünya müharibəsinin sonuna doğru Bolqarıstan ağır siyasi və sosial-iqtisadi böhranla üzləşdi. XX yüzilliyin ikinci onilliyində Bolqarıstanın iştirak etdiyi Balkan müharibələri və Birinci Dünya müharibəsi ölkəni gücdən salaraq siyasi və sosial-iqtisadi böhranı daha da dərinləşdirdi. İnfilyasiya tüğyan edirdi. Dövlətin adambaşına borcu iki min lev həddində idi. İqtisadiyatın dövlət tənzimləməsindən heç bir müsbət nəticə əldə edilmədi, xalqın güzəranı pisləşməkdə davam edirdi. İqtisadi böhran Bolqarıstanda sosial ziddiyyətləri kəskinləşdirdi, ölkəni etiraz dalğaları bürüdü.

1917-ci ilin oktyabrında Rusiyada silahlı üsyan vasitəsilə bolşeviklərin hakimiyyətə gəlməsindən sonra bolqar ordusunda Bolqarıstan Fəhlə Sosial-Demokrat Partiyası (sıx sosialistlər) və Bolqarıstan Əkinçilik Xalq İttifaqı üzvlərinin müharibə əleyhinə təbliğatı güclənir, rumın cəbhəsində bolqar və rus əsgərlərinin qardaşlaşması baş verirdi. 1918-ci ilin martına qədər 40 min əsgər və 800 zabitin məhkəməyə verilməsinə, onlardan 450 nəfərin ölüm cəzasına məhkum edilməsinə baxmayaraq orduda itaətsizlik artırdı. Hadisələr

yaxınlaşan fəlakətin çox ciddi olduğunu göstərirdi. Hökumətin qarşısında müharibə qurtarmamış ondan çıxmaq və eyni zamanda Moraviya, Makedoniya və Dobrucada tutulmuş əraziləri Bolqarıstana qatmaq kimi, əslində, həllolunmaz vəzifələr dururdu. Bununla yanaşı, 1918-ci ildə Brest-Litovskda Dördlər İttifaqı ilə Sovet Rusiyası arasındakı danışıqlar da heç bir ümidin olmadığını göstərirdi. Bolqarıstanın Şimali Dobrucaya olan iddiaları Almaniya tərəfindən də qəbul edilmədi.

Brest-Litovsk danışıqlarının nəticəsi V.Radoslavov hökumətinin taleyini həll etdi. 1918-ci ilin iyununda çar Ferdinand Demokratik Partiyanın lideri A.Malinovu Baş nazir, Radikal Partiyanın rəhbəri S.Kosturkovu onun müavini təyin etdi. Lakin bu, ölkəni ağır vəziyyətdən xilas edə bilmədi.

1918-ci ilin payızında Bolqarıstan ordusunun bir sıra hərbi hissələrində üsyanlar başladı. Bu üsyanlardan ən böyüyü və əzamətlisi 1918-ci il sentyabrın 15–17-də Antanta qoşunları tərəfindən Dobro-Pole rayonunda Saloniki cəbhəsi yarıldıqdan sonra əsgərlərin başladıqları Vladaya üsyanı idi. Makedoniya cəbhəsi hissələrinin müharibədən yorulmuş, ac, yarıçılpaq bolqar əsgərləri BSDFP-nin (s.s.) üzvü, podporuçik İ.Dmitrovun başçılığı altında vuruşan ordunun qərargahı yerləşən Kyustendil şəhəri istiqamətində yürüşə başladılar və sentyabrın 24-dən 25-nə keçən gecə baş qərargahı dağıdaraq, Çar hökumətini devirmək və müharibə səbəbkarlarını cəzaladırmaq üçün Sofiyaya doğru hərəkət etdilər.

1918-ci il sentyabrın 25-də baş nazir A.Malinov çar Ferdinanda belə bir məlumat verdi ki, müharibə uduzulmuşdur. Antanta qoşunları komandanlığına barışıq imzalanması barədə təklif verildi. A.Malinovun kabineti paytaxtın müdafiəsinin təşkilinə dair tədbirlər gördü. Üsyançıları döyüş mövqeyinə qayıtmağa inandırmaq məqsədilə hökumətin sədri A.Malinov müharibə əleyhinə təbliğat apardıqlarına görə 1915-ci ildə həbs edilmiş BƏXİ liderləri Aleksandr Stambolskini (1879–1923) və Rayko Daskalovu (1886–1923) həbsxanadan buraxdırdı. Azad olunduqdan sonra A.Stamboliyski Kyustendil şəhərinə, R.Daskalov isə üsyançıların fəaliyyətini əlaqələndirən əsgər komitəsinin yerləşdiyi Radomir şəhərinə gələrək üsyançıların tərəfinə keçdilər.

1918-ci il sentyabrın 27-də üsyan etmiş əsgərlərin tələbi ilə BƏXİ liderləri A.Stamboliyski və R.Daskalov Bolqarıstan Respublikasının yarandığını elan etdilər. Sentyabrın 28-də üsyançıların ön dəstələri Sofiya şəhərinin 15 kilometrliyindəki Vladaya kəndinə çatdı. Üsyançılar paytaxtı döyüşsüz təslim etmək haqqında hökumətə ultimatum təqdim etdilər, lakin tələbləri yerinə yetirilmədi. Sayı 30 mindən artıq olan inqilabi qoşun paytaxtın lap yaxınlığında gözləyirdi, halbuki Sofiya qarnizonunun sayı cəmi 500 nəfərdən ibarət idi. Üsyançılar sentyabrın 29–30-da paytaxta hücum etsələr də, ağır silahları olmadığı üçün istəklərinə nail ola bilmədilər.

Üsyan səbəbi ilə Antanta ölkələri Bolqarıstana qarşı hərbi əməliyyatları dayandırmağa tələsdilər və sentyabrın 29-da

Salonikdə Bolqarıstan ilə barışıq müqaviləsi imzalandı. Bu tələsikliyə səbəb Antanta ölkələrinin Rusiya hadisələrinin Bolqarıstanda da təkrarlanmasından ehtiyat etməsi idi. Sentyabrın 30-da hökumət qoşunları və köməyə gəlmiş alman hərbi birləşmələri üsyançı qoşunları Sofiyadan geri oturtdular. Elə həmin gün üsyançı qoşunlar Vladaya kəndində darmadağın edildi. Oktyabrın 2-də Radomir şəhəri işğal olundu və üsyan iştirakçılarına amansız divan tutuldu. Üsyanın yatırılması zamanı 3 min nəfərdən çox adam öldürüldü. Məğlubiyyətin səbəblərindən biri möhkəm inqilabi rəhbərliyin olmaması idi. Belə ki, BFSDP üsyanın əhəmiyyətini lazımca qiymətləndirmədi və ona başçılıq etmədi. BƏXİ liderləri Aleksandr Stamboliyski və Rayko Daskalov, üsyanı çar Ferdinandın hakimiyyətindən kənarlaşdırılması ilə məhdudlaşdırmaq fikrində idilər. Vladaya əsgər üsyanı məğlub olsa da, bu üsyan 1917–1918-ci illərdə Bolqarıstanda olmuş inqilabi hadisələrin ən yüksək nöqtəsi idi və Bolqarıstanın müharibədən çıxmasını sürətləndirdi.

1918-ci ilin sentyabrında imzalanmış barışığa əsasən, Antanta qoşunları Bolqarıstana daxil oldular. Bolqarıstan, az sayda sərhəd qoşunları istisna olmaqla, öz ordusunu tərxis etməyi, silahların və işğal etdiyi ərazini müttəfiqlərə verməyi öhdəsinə götürdü. Solonik barışığının gizli maddəsi, Bolqarıstanı işğal etməkdən başqa, Antanta dövlətlərinə ölkənin ərazisindən, nəqliyyat və rabitə vasitələrindən, limanlardan hərbi məqsədlər üçün istifadə etmək hüququnu da verirdi ki, bu da əslində Bolqarıstanın təslim olması

demək idi. İşğalçılar ciddi senzura yaratdılar, ölkədəki inqilabi hərəkat və Sovet Rusiyası haqqında materialların çapını qadağan etdilər, bir çox rəhbər vəzifələrə mürtəce generallar və zabitlərin təyin edildiyi bolqar ordusu üzərində nəzarət qoydular.

Antanta ölkələrinin Bolqarıstana münasibətdə monarxiyanın gözdən düşmüş nüfuzunu bərpa etmək məqsədilə hakim dairələr Bolqarıstanın Almaniya tərəfindən müharibəyə sövq edilməsində çar Ferdinandı müqəssir elan edərək, onu qurban verdilər. Ölkəni 30 ildən çox idarə etmiş çar Ferdinand 1918-ci il oktyabrın 3-də taxtdan oğlu Borisin (1894–1943) xeyrinə əl çəkdi və Bolqarıstandan birdəfəlik getdi. Tam adı Boris Klement Robert Mariya Piy Lui Stanislav Klavie Sakskoburqqotski olan III Boris 1894-cü il yanvarın 30-da Sofiya sarayında anadan olmuşdur. Birinci Dünya müharibəsinin iştirakçısı kimi 1916-cı ildə podpolkovnik, 1918-ci ildə general-mayor rütbəsi almışdır. 1918-ci il oktyabrın 3-dən Bolqarıstanın çarı elan edilən III Boris Birləşdirici 1923-cü il 9 iyun, 1934-cü il 19 may çevrilişlərinin xeyir-duasını şəxsən vermişdi. İkinci Dünya müharibəsində Roma-Berlin-Tokio ilə əməkdaşlıq edərək Cənubi Dobrucanın Krayov sazişi ilə Bolqarıstana verilməsini təmin etmişdir. 1941-ci ildə Bolqarıstanın Neyi sülhünə əsasən 1919-cu ildə itirdiyi tarixi Makedoniya ərazisi Egey dənizinə çıxışı ilə birlikdə ona qaytarıldı. Dəfələrlə A.Hitlerlə görüşməsinə baxmayaraq, SSRİ-yə müharibə elan etməmiş və Şərq cəbhəsinə bolqar qoşunlarını göndərməmişdir. Həmçinin almanlar

tərəfindən icbari işlərə səfərbər olunan 50 min bolqar yəhudini xilas etmişdir. 1943-cü il avqustun 28-də A.Hitlerlə Sofiyada görüşdükdən bir neçə gün sonra, rəsmi məlumata əsasən, ürək tutmasından vəfat etmişdir.

Çar III Boris və yeni hökumət inqilabi hərəkatı boğmaq və Bolqarıstanı Balkanlarda antisovet hərbi meydanına çevirmək siyasəti yetirməyə başladılar. Antantanın planlarına görə, Bolqarıstan Sovet Rusiyası əleyhinə silahlı müdaxilədə iştirak etməli idi. Fransız, ingilis və italyan işğalçı qoşunlarının ölkəyə daxil olması Bolqarıstanda daxili vəziyyəti daha da kəskinləşdirdi. İşğalçılar ən mühüm strateji dəmir yollarını, Qara dənizdəki Varna və digər limanları tutdular, rabitə vasitələri üzərinə nəzarət qoydular və siyasi həyata müdaxilə edərək, fəhlə hərəkatı ilə mübarizədə Bolqarıstanın hakim dairələrinə köməklik göstərdilər. İşğalçıların ağalıq etməsi bolqar xalqı içərisində getdikcə artan qəzəb hissi oyadırdı.

A.Malinovun geniş koalisiya hökuməti cəmi bir ay fəaliyyət göstərə bildi. Cənubi Dobruca məsələsini Bolqarıstanın xeyrinə həll edə bilmədiyindən və bu ərazi Rumıniyaya verildiyindən A.Malinov istefaya çıxdı. Onu həmin vəzifədə əvəz etmiş Xalq Partiyasının lideri T.Teodorov Tərəqqipərvər-Liberal partiyasını da cəlb etmək hesabına hökumət koalisiyasını genişləndirdi. BƏXİ-nin liderlərinin də hökumət koalisiyasında iştirak etməkdə əsas məqsədi gələcəkdə dövlət hakimiyyətini ələ keçirmək idi. 1918-ci ilin dekabrında siyasi məhbuslara əfv elan olunduqdan sonra – 1919-cu ilin mayında T.Tedo-

rovun kabinetinə daxil edilmiş A.Stamboliyski hökumətdə BƏXİ nümayəndələrinin artırılmasına nail olmağa cəhd göstərirdi. Lakin T.Teodorovun 1919-cu ilin mayında təşkil edilmiş ikinci koalisiya hökumətində BƏXİ-yə əlavə portfellər verilmədi.

1919-cu ilin avqustunda müharibədən sonra birinci dəfə Bolqarıstan Xalq Məclisinə seçkilər keçirildi. Seçkilərdə BƏXİ qalib gələrək parlamentdə 85, BKP (s.s.) 47, BFSDP (birləşmiş) 38, Demokrat Partiyası 28, Xalq Partiyası 19 və Tərəqqinərvər-Liberal Partiya 8 yer aldı. Çar III Boris yeni hökumətin təşkilini A.Stambolskiyə həvalə etdi. BƏXİ parlamentdə səs çoxluğuna malik olmadığından A.Stambolski Xalq Partiyası və Tərəqqipərvər-liberal partiya ilə danışıqlar apararaq 1919-cu il oktyabrın 6-da yeni hökumətin təşkilini başa çatdırdı. Sülh müqaviləsinin imzalanması bu hökumətin üzərinə düşdü.

Bolqarıstan nümayəndə heyəti hazırlanmış müqavilənin lahiyəsini 1919-u il sentyabrın 19-da aldı. Layihəyə baxmaq üçün bolqar tərəfinə 25 gün vaxt verilsə də, onlar bu müddətin 2 aya qədər uzadılmasına nail oldular. Bu müddətdə Bolqarıstan tərəfi müxtəlif vasitələrdən istifadə edərək qalib dövlətlərdən müqavilənin şərtlərinin yumşaldılmasına nail olmağa çalışsa da, heç bir güzəştə nail ola bilmədi. 1919-cu il noyabrın 13-də Bolqarıstan nümayəndə heyəti müqavilənin Bolqarıstan üçün ədalətsiz olmasına baxmayaraq, onu qəbul etdiyini bildirməyə məcbur qaldı. Lakin nümayəndə heyətinin rəhbəri T.Teodorov müqviləni imzalamaqdan imtina

etdi və bu işi Baş nazir A.Stamboliyski yerinə yetirdi. 1919-cu ilin noyabrın 27-də Parisin ətrafındakı Neyi qəsəbəsində imzalanmış bu müqavilə Versal sülh müqavilələri sisteminin tərkib hissələrindən biri olmaqla, şərtləri Bolqarıstan üçün fəlakətli dərəcədə ağır idi. Bu sənədə əsasən Bolqarıstan ərazisinin onda bir hissəsini, o cümlədən Rumıniyaya verilən Cənubi Dobrucanı, Yunanıstana verilən Egey dənizinə çıxışı ilə birlikdə Qərbi Frakiyanı, SXS krallığının tərkibinə daxil edilmiş Bolqarıstanın qərbindəki Strumitsa şəhərini, Bosileqrad və  Çaribrodu, Kulski dairəsinin bir neçə kəndin itirdi. 37 il müddətində Bolqarıstan qalib dövlətlərə 2250 mln. qızıl frank  dəyərində təzminat ödəməyə, 70 min baş mal-qara, 250 min ton daş kömür verməyə borclu idi. Bolqarıstanın silahlı qüvvələri 20 min nəfər həddində ola bilərdi. Bolqarıstan işğalçı qoşunları saxlamaq üçün bütün məsrəfləri ödəməli idi. Ölkənin iqtisadiyyatı isə İngiltərə, Fransa və İtaliya nümayəndələrindən ibarət ittifaqlararası komissiyanın nəzarətinə tabe edilirdi.

1919–1939-cu illərdə Bolqrıstan aqrar ölkə idi və kənd təsərrüfatının əsasını xırda torpaq mülkiyyəti təşkil edirdi. 1920-ci ildə ölkədə 4 847 min nəfər insan yaşayırdı ki, 1940-cı ildə onların sayı artaraq, 6 676 min nəfərə çatdı. Əhali nüfuzunun 1920-ci ildə 81,1%-i, 1936-cı ildə isə 78,6%-i kənd yerlərində yaşayanlar idi. Bolqarıstanın ərazisi 1919–1939-cu illərdə 103,1 min km$^2$ olduğu halda, 1940-cı ildə ona birləşdirilən Cənubi Dobruca hesabına artaraq, 110,8 min km$^2$ oldu.

Bolqarıstanın kənd təsərrüfatında taxıl məhsulları istehsalı əsas yer tutmaqla bərabər, texniki bitkilər, tütün, pambıq, şəkər çuğunduru becərilməsinin əhəmiyyəti artırdı. Ölkə ixracatının əsas hissəsini kənd təsərrüfatı məhsulları təşkil edirdi ki, milli gəlirin üçdə iki hissəsi onun payına düşürdü. Kənd təsərrüfatında xırda mülkiyyət forması, yəni sahibkarlıq üstünlük təşkil edir və artırdı. Məsələn, 1926–1934-cü illərdə 2 hektardan 10 hektara kimi olan torpaq sahələri 60,7%-dən 62,3%-ə yüksəlmiş, 30 hektardan çox əkin sahəsi isə bu vaxt ərzində 0,6%-dən 0,4%-ə düşmüşdü. Digər tərəfdən, xırda və orta kəndli təsərrüfatları iqtisadi çətinliklərin meydana gəlməsinə şərait yaradırdı. Bolqarıstanda kənd təsərrüfatı, əsasən, ekstensiv yolla inkişaf edirdi. Buna aqrotexniki səviyyənin aşağı olması, torpaqsız kəndlilərin sayının artması şərait yaradırdı. 1926-cı ildə ölkənin hər 8,5 min nəfər kənd əhalisinə bir traktor düşürdü ki, bu da kənd təsərrüfatı əkin sahələrinin hələ də, əsasən, maşınlarla deyil, kotanlarla becərildiyini göstərir.

1919-cu ildə Xalq Məclisi hökumət tərəfindən təklif edilmiş Konsorsium adlanan qanun qəbul etdi. Konsorsiumun üzərinə taxıl və taxıl məhsullarını sabit qiymətlərlə istehsalçılardan və kooperativlərdən alaraq ixrac etmək vəzifəsi qoyulmuşdu. Konsorsiumun əldə etdiyi gəlirin 90%-nin hesabına kənd təsərrüfatının və kooperativ hərəkatının inkişaf fondu yaradılması nəzərdə tutulurdu.

Hökumət tərəfindən təqdim edilmiş və 1921-ci ilin aprelində Xalq Məclisinin qəbul etdiyi qanunlardan biri aqrar

islahat haqqında (torpaq üzərində əmək mülkiyyəti) qanundur. Qanuna görə, torpağın şəxsi əməyi ilə becərə bilənlər arasında bölüşdürülməsi nəzərdə tutulurdu. Torpağı becərənlər üçün mülkiyyət hüququ ailə başına 30 hektar, becərməyənlər üçün adambaşına 4, ailə üzrə 10 hektar idi. A.Stamboliyski hökuməti aqrar islahatı həyata keçirə bilməzdi. Torpaq əmək mülkiyyəti fonduna 1923-cü ilin iyununda nəzərdə tutulmuş 225 min hektar müsadirə edilmiş torpaq sahəsi əvəzinə, cəmi 35 min hektardan bir az çox torpaq sahəsi daxil olmuşdu.

Bolqarıstanda sənaye istehsalı 1920–1930-cu illərdə tədricən inkişaf etməkdə idi. 1924-cü ildə Orxaniye şəhərində italyan “Fiat”larının təkərləri üzərində kiçik seriyalı avtomaşın yığan ilk avtomobil sənayesi müəssisəsi meydana gəldi. 1925–1926-cı illərdə Bojuriştedə ilk təyyarə zavodu olan DAR(Dövlət Təyyarə zavodu) tikildi. 1923-cü ildən 1929-cu ilə qədər altı il ərzində sənaye istehsalı 88% artmışdı. Yeyinti və toxuculuq sahələri sənayenin əsas sahələri olaraq qalırdı. Sənayenin inkişafına şərait yaradan əsas amil dövlətin 1931-ci ildən həyata keçirdiyi proteksionist siyasət idi. İri sənaye müəssisələri zəruri avadanlığı gömrüksüz ixrac etmək və güzəştli vergi vermək hüququna malik idi ki, 1926-cı ildə belə müəssisələrin sayı 854-ə çatdı.

Sənayenin sabit inkişafı çox da uzun sürmədi, dünya iqtisadi böhranı 1929-cu ilin ikinci yarısında Bolqarıstanı da bürüdü. İl yarım ərzində kənd təsərrüfatı məhsullarının qiyməti iki dəfə aşağı düşdü, kəndlilərin dövlətə, müxtəlif kredit

müəssisələrinə borcları xroniki hal almağa başladı. Bu borclar 1929-cu ildə 4 milyard lev təşkil edirdisə, 1932-ci ildə bu rəqəm 7,6 milyarda çatmışdı. 80%-dən çoxunun kənd təsərrüfatı istehsalında məşğul olduğu əhalinin alıcılıq qabiliyyətinin aşağı düşməsi bilavasitə sənayenin bir sıra sahələrinə, ilk növbədə, yeyinti sənayesinə ağır zərbə vurdu. Sənaye istehsalının həcmi 1929-cu illə müqayisədə 1930-cu ildə 15%, 1933-cü ildə isə 35% aşağı düşdü. Sənayedə məşğul olan işçilərin sayı 1929-cu illə müqayisədə orta hesabla 3–7% aşağı idi. Böhran ölkənin toxuculuq, kauçuk, sellüloz-kağız kimi sənaye sahələrindən yan keçdi.

Ümumiyyətlə, bəhs edilən dövrdə Bolqarıstanın iqtisadi həyatında dövlətin tənzimləyici rolunun artmasına baxmayaraq, inhisar birliklərinin inkişafında durğunluq baş verdi. Proteksionist siyasət təftiş edilərək, 1936-cı ildə rəsmi surətdə ləğv olundu. Bolqarıstan rəhbərliyinin yeritdiyi siyasət nəticəsində, xarici ticarət sahəsində Almaniyaya üstünlük verilməsi önə çıxdı. Belə ki, 1929-cu illə müqayisədə 1934-cü ildə Almaniyaya ixrac edilən məhsullar 22%-dən 40%-ə qədər yüksəldi, Almaniyadan ölkəyə idxal edilən mallar, müvafiq olaraq, 30%-dən 43%-ə qədər artdı. 1919–1939-cu illərdə Bolqarıstanı yeniləşdirmək məqsədilə atılan bütün addımlara baxmayaraq, ölkə xırda əmtəə istehsalının üstünlük təşkil etdiyi sosial, siyasi və iqtisadi çətinliklərin çulğalaşdığı aqrar dövlət kimi yoluna davam edirdi.

1939-cu ildə Bolqarıstanın Loveç şəhərində polşalı mühəndislərin iştirakı ilə aviazavod tikilməyə başladı və 1941-ci

ildə işə düşdü. 1939-cu ildə Bolqarıstan zəif inkişaf etmiş sənayesi ilə birlikdə geri qalmış kənd təsərrüfatı ölkəsi olaraq qalırdı. 10 hektardan az torpaq sahəsi olan xırda torpaq sahibkarlığı milli gəlirin 65%-ni təşkil edirdi. İş qabiliyyəti olan əhalinin 79,8%-i kənd və meşə təsərrüfatında, 8,2%-i isə sənayedə çalışırdı. Sənaye müəssisələrinin 79%-i qida, tütün, toxuculuq sənayesinin payına düşürdü.

Qeyd etmək lazımdır ki, ölkə əhalisinin yalnız 22%-i şəhərlərdə yaşayırdı. Bu o deməkdir ki, Bolqarıstan əsasən kənd əhalisi olan bir ölkə idi. 1939-cu ildə Bolqarıstanda 2 milyon ton buğda, 1 milyon ton qarğıdalı, 0,3 mln.t. arpa, 0,01 mln.t. pambıq, 0,04 mln.t. tütün, 0,03 mln.t. şəkər çuğunduru, 2 mln.t. üzüm, 0,01 mln.t. qızılgüllər və s. yığılmışdır. Xüsusilə Bolqarıstanda qızılgül məhsulunun becərilməsi geniş miqyas almışdır ki, bunun sayəsində də ölkə ətir sənayesində istifadə edilən qızılgül yağı istehsalında dünya lideri səviyyəsinə çatmışdır.

Bolqarıstanda heyvandarlıq istehsalı 1939-cu ildə dünyada ən qabaqcıl olmasa da, məsələn qoyunların sayı Britaniya Avstraliyasında ümumi sayının 7 faizini təşkil edirdi. Ümumiyyətlə, ölkədə 1939-cu ildə 2 mln. baş mal-qara, 9 mln. baş qoyun, 1 mln. baş keçi, 1 mln. baş donun, 0,5 mln. baş at var idi.

1939-cu ildə Bolqarıstanda faydalı qazıntılar sahəsində hasilat artmışdır. Ölkədə 2 milyon ton qəhvəyi kömür, 0,1 milyon ton daş kömür hasil edilmişdir. 1939-cu ildə sink, qurğuşun və d. əlvan metalların emalı artıq Almaniya konsern-

lətinin nəzarəti altında idi. Alman Dresdner Bankı Bolqarıstan Ticarət Bankını öz üzərinə götürmüşdür.

1919-cu il oktyabrın 6-da təşkil edilən A.Stamboliyski hökuməti Neyi sülh müqaviləsinə əsasən Birinci Dünya müharibəsindən çox böyük əhali, ərazi və maddi itkilərlə çıxan Bolqarıstanı böhrandan qurtarmaq, sosial gərginliyi aradan qaldırmaq məqsədilə yollar axtarmağa başladı. BƏXİ-nin XV qurultayında A.Stamboliyski koalisiya hökumətinin nəzərdə tutduğu siyasətin ümumi istiqamətləri işlənib hazırlandı. Əhalinin tələblərinə cavab verən müharibə vaxtı qazanılan gəlir üzərində vergi qoyulmasına dair, sənətkarlara yardım haqqında, müharibə vaxtı müsadirə edilən mal-qaranın əvəzini almamış kəndlilərə yardım edilməsi barədə və s. qanunlar qəbul olundu.

Hökumətin tədbirlərinə baxmayaraq, 1919-cu il mayın 27–29-da sıx sosialistlərin – tesnyakların qurultayı partiyanın Kommunist Partiyası adlandırılması haqqında qərar qəbul etdi və 1919-cu il dekbarın 24-də BKP (s.s.) və Sosial-Demokrat Partiyalarının çağırışı ilə ölkədə kütləvi etiraz aksiyaları başladı. Aksiya zamanı nümayişçilərlə hökumət qüvvələri arasında toqquşma baş verdi. A.Stamboliyski hökumətinin fəaliyyəti haqqında məsələ Xalq Məclisinin 1919-cu il dekabrın 27–29-da keçirilən iclasının müzakirəsinə çıxarıldı. Hökumət özünün atdığı addımlara bəraət qazandırmaq üçün belə bir bəyanət verdi ki, kommunistlər və sosial-demokratlar heç də əhalinin sosial vəziyyətini yaxşılaşdırmaq üçün deyil, hakimiyyətə gəlmək uğrunda mübarizə

aparırlar. Parlamentdə deputatların əksər hissəsi hökuməti müdafiə etdi.

Bununla yanaşı, 1919-cu il dekabrın 29-da ölkədə ümumi siyasi tətil başladı. Tətil yanvarın 3-də başa çatsa da, nəqliyyat işçiləri, şaxtaçılar və liman fəhlələri tətili fevralın 19-na qədər davam etdirdilər. Hökumət ölkədə fövqəladə vəziyyət tətbiq etdi. Bununla yanaşı, A.Stamboliyskinin koalisiya hökuməti ölkədə sosial gərginliyi azaltmaq üçün bəzi güzəştlərə getməyə məcbur oldu. İlk növbədə, 1920-ci ilin yanvarında "Mənzil böhranının yüngülləşdirilməsi haqqında" qanunu parlamentdən keçirə bildi.

1920-ci ilin yanvarında yerli orqanlara – bələdiyyələrə seçkilər keçirildi. Nəqliyyat işçilərinin ölkədəki tətilləri davam etdirməsi ilə əlaqədar yaranmış gərgin vəziyyətə baxmayaraq, Əkinçilik İttifaqı burjua partiyalarını xeyli geridə qoyaraq, özündən sonra gələn BKP-yə (s.s.) nisbətən demək olar ki, seçicilərin iki dəfədən çoxunun səsini qazandı. Yerli orqanlara seçkilərin nəticələri aydın olandan sonra A.Stamboliyski parlamentin buraxılması məsələsini qaldırdı. O, bunu Bolqarıstanın Birinci Dünya müharibəsində məğlubiyyətinin nəticələrini aradan qaldırmağa, Neyi sülh müqaviləsinin şərtlərini yerinə yetirməyə, ölkəni böhrandan çıxarmağa və "dərin sosial dəyişikliklər" həyata keçirməyə qabil olan güclü hökumətin təşkil edilməsi zərurəti ilə əsaslandırırdı.

1920-ci il martın 28-də Xalq Məclisinə seçkilər keçirildi. BƏXİ parlamentdə 229 yerdən 110-nu yer aldı. Digər parti-

yalar birlikdə 119 yer topladılar (o cümlədən BKP (sıx sosialistlər) 50, Demokrat Partiyası 24, Xalq Partiyası 14 və s.). Yerlərin belə nisbəti BƏXİ-nin təkpartiyalı hökumət təşkil etməsinə imkan vermirdi. BƏXİ bir neçə seçki dairəsindən seçilmiş deputatların mandatlarını etibarsız hesab etməklə, lazım olan səsləri toplamağı bacardı.

A.Stamboliyskinin sədriliyi ilə 1920-ci il mayın 21-də təkpartiyalı hökumət yaradıldı. Yenə həmin ilin mayında Xalq Məclisi ümumi əmək mükəlləfiyyəti haqqında qanun qəbul etdi. Hökumət bununla dağılmış xalq təsərrüfatını bərpa etmək istəyirdi. Həmçinin mütərəqqi gəlir vergisinin tətbiq edilməsi də elan olundu ki, bunun böyük əhəmiyyəti var idi. Qanunun əsasını torpaq əmək mülkiyyəti prinsipi təşkil edirdi ki, bu da şəxsi əməyi ilə becərə bilənlər arasında torpağın bölüşdürülməsini nəzərdə tuturdu. Bir il hakimiyyətdə olduğu müddətdə hökumət 100-dən çox qanun layihəsi Xalq Məclisindən keçirdi. Monarx Konstitusiyaya əsasən ona verilən qanunvericilik səlahiyyətinin bir hissəsindən məhrum edildi. BƏXİ tərəfindən işlənilmiş qanunlar dövlət idarəçiliyi sistemini, əsasən, toxunulmaz saxlayırdı. A.Stamboliyski hökuməti mərkəzdənqaçma ideyasından imtina edirdi. İcra hakimiyyətinin səmərəsiz fəaliyyəti A.Stamboliyski hökumətinin nəzərdə tutduğu islahatların həyata keçirilməsini çətinləşdirən başlıca şərt idi.

Neyi müqaviləsinə uyğun olaraq yaradılmış ittifaqlararası komissiyanın kabinetin fəaliyyətinə müdaxilə etməsi vəziyyəti mürəkkəbləşdirən əsas cəhətlərdən biri idi.

Komissiyanın təzyiqi ilə çoxlu qanunlar ləğv edilmiş, ya da dəyişdirilmişdi. Məsələn, hökumət Konsorsium haqqında qanundan birdəfəlik imtina etmiş, ümumi əmək mükəlləfiyyəti haqqında qanuna xeyli dəyişikliklərə yol vermiş, 1921–1922-ci il üçün təsdiq edilmiş büdcəyə yenidən baxmışdı və s.

Stamboliyski hökumətinin xarici siyasət cəhdləri Neyi müqaviləsi şərtlərinin yüngülləşdirilməsinə, təzminatın miqdarının azaldılmasına yönəldilmişdi. Lakin Antantanın müqaviməti nəticəsində bu addım heç bir nəticə vermədi. Hökumət qonşu dövlətlərlə də münasibətləri normal hala salmağa çalışırdı. 1922-ci ildə Bolqarıstanla Sovet Rusiyası arasında bir qədər yaxınlaşma əmələ gəldi, lakin Antantanın narazı olacağından ehtiyat edən A.Stamboliyski hökuməti Sovet Rusiyası ilə diplomatik münasibətlər yaratmağa tələsmirdi.

BƏXİ və BKP (s.s.) ilə əks mövqedə duran burjua partiyalarının Bolqarıstanın siyasi həyatına təsirinin kəskin şəkildə zəifləməsi, leqal formada hakimiyyətə gələ bilməməsi ilə əlaqədar, onlar qüvvələrini birləşdirməyə başladılar. 1920-ci ilin may–dekabr aylarında Xalq-Liberal, Mlado-Liberal və Liberal (V.Radoslavov) partiyaları Milli-Liberal Partiyasını, Xalq və Tərəqqi-Liberal partiyaları Birləşmiş Xalq-Tərəqqi Partiyasını yaratdılar. Uzun sürən danışıqlardan sonra 1922-ci ilin iyulunda bu partiyalar Birləşmiş Konstitusiya blokunun yaradılması haqqında protokol imzaladılar. Məqsəd BƏXİ tərəfindən "dəyişikliklər" edilmiş Bolqarıstan Konstitusiyasını yenidən bərpa etmək idi.

Konstitusiya bloku 1922-ci ilin avqustunda BƏXİ rejiminə qarşı bir sıra irimiqyaslı etiraz aksiyaları həyata keçirməyi nəzərdə tuturdu. Blok 1922-ci il sentyabrın 17-də Tırnovoda tərəfdarlarının toplantısını keçirməyi qərara aldı. Konstitusiya blokunun bu işini pozmaq məqsədi ilə BƏXİ həmin gün Tırnovoda çuğundur becərən kəndlilərin qurultayını çağırdı. Rejimin tərəfdarları ilə əleyhdarları arasında baş vermiş toqquşma faktından istifadə edən hakimiyyət orqanları Konstitusiya blokunun rəhbərlərini həbs etdilər.

Hökumətin təşəbbüsü ilə 1922-ci ilin noyabrında İ.Qeşov, S.Danev və A.Malinov hökumətlərinin Bolqarıstanın İkinci Balkan və Birinci Dünya müharibələrində – iki "milli fəlakət"də günahlarının olub-olmaması məsələsi haqqında referendum keçirilməsi ölkədə vəziyyəti yenidən kəskinləşdirdi. Məsələ Konstitusiya blokuna daxil olan partiya nümayəndələrindən formalaşdırılmış keçmiş hökumətlərdən gedirdi. Referendumun nəticələrinə görə, səsvermədə iştirak edənlərin böyük hissəsi günahkarların cəzalandırılmasına səs verdi ki, bu, Konstitusiya blokunun məğlubiyyəti demək idi. Bu uğursuzluqdan sonra daha iki qüvvə – Hərbi İttidaq və Xalq Sazişi BƏXİ hökuməti ilə mübarizədə ön plana çıxdı.

Hərbi İttifaq Bolqarıstanın İkinci Balkan və Birinci Dünya müharibəsində məğlubiyyətindən, həmçinin Neyi müqaviləsi ilə ordunun xeyli azaldılmasından (20 min nəfərə kimi) narazı zabitlər tərəfindən 1918-ci ildə yaradılmışdı. 1919–1920-ci illərdə hazırlanmış proqrama uyğun olaraq,

Hərbi İttifaq "birləşmiş, vahid, güclü və firavan Bolqarıstan" yaradılmasını qarşısına məqsəd qoydu. BƏXİ-nin yürütdüyü siyasəti ümummilli maraqlara xəyanət kimi qiymətləndirən Hərbi İttifaq 1920-ci ilin sentyabrında qeyri-leqal iş şəraitinə keçərək "aqrarçıların" rejiminə qarşı, dövlət çevrilişi də daxil olmaqla qəti tədbirlər həyata keçirmək uğrunda mübarizə aparırdı.

"Xalq sazişi" təşkilatı 1921-ci ildə meydana gəlmişdi. Onun tərkibinə siyasi və işgüzar dairələrin nümayəndələri, professorlar, Hərbi İttifaqın, ehtiyatda olan Zabitlər İttifaqının üzvləri daxil idilər. Onların əksəriyyəti Böyük Bolqar Mason Lojasının nümayəndələri idi. "İctimai həmrəylik" ideyasını qəbul edən "Xalq sazişi" təşkilatı dövlət hakimiyyətinin "dar silki və sinfi maraqlara" xidmət etməsinə qarşı, hakimiyyətin nüfuzunun möhkəmləndirilməsi, xalqda vətəndaşlıq borcu hissinin inkişaf etdirilməsi uğrunda çıxış edirdi. Əvvəlcə təşkilata "Tütün ixracatçıları və fabrikçiləri birliyinin" direktorlarından biri A.Qrekov başçılıq edirdi. Sonralar 1922-ci ilin ortalarından təşkilata rəhbərlik Sofiya Universitetinin professoru A.Tsankova keçdi.

Qanuni parlament vasitəsi ilə hakimiyyətə gəlmiş rejimi devirmək üçün BƏXİ-nin əleyhdarları qeyri-qanuni yola əl atdılar. 1923-cü il iyunun 8-dən 9-na keçən gecə Hərbi İttifaqın rəhbərlərinin əsas rol oynadığı müxalifət qüvvələri dövlət çevrilişi etdilər. Çevrilişi Bolqarıstanın, demək olar, bütün siyasi təşkilatları alqışladı. Bolqarıstan Kommunist Partiyası burjuaziyanın iki cərəyanı arasında gedən müba-

rizəyə (kənd və şəhər) qarışmamağı qərara aldı və öz birtərəfliyini bəyan etdi. Çevrilişə qarşı yalnız BƏXİ tərəfdarları çıxış etdilər. Onlar Plevendə, Şumendə, Plovdivdə və ölkənin digər rayonlarında silahlı mübarizəyə qalxdılar. Slavovitsa kəndində olan A.Stamboliyski də müqavimət təşkil etməyə çalışsa da, ələ keçirilərək, amansız işgəncədən sonra 1923-cü il iyunun 14-də öldürüldü. BƏXİ qüvvələri məğlub oldu.

Aleksandr Stoimenov Stamboliyski 1879-cu il martın 1-də Şərqi Rumeli Slovovitsasında kəndli ailəsində anadan olmuşdur. Almaniyada aqronom ixtisası üzrə təhsil alaraq 1902-ci ildə Bolqarıstan Əkinçilik Xalq İttifaqının liderlərindən biri, 1908-ci ildən Xalq Məclisinin, 1911-ci ildən Böyük Xalq Məclisinin deputatı olmuşdur. 1915-ci ildə Almaniya əleyhinə çıxaraq Rusiya və Antanta dövlətlərini müdafiə etdiyi üçün hökumət və çar Ferdinand tərəfindən ömürlük həbs cəzası almışdır. 1918-ci ilin sentyabrında “orduda sakitlik yaratmaq” məqsədilə həbsdən azad edilmişdir. 1918-ci il sentyabrın 22-dən oktyabrın 3-nə kimi davam edən Vladaya əsgər üsyanında iştirak etmiş, üsyançı əsgərlərin elan etdiyi Radomir Respublikasının sədri seçilmişdir. Üsyan məğlub olduqdan sonra – 1919-cu ildə BƏXİ-nın lideri kimi koalisiya hökuməti təşkil etmiş, 1920-ci il mayın 21-dən 1923-cü il iyunun 9-na kimi aqrarçıların hökumətinə başçılıq etmişdir. Onun hökuməti 1923-cü il iyunun 9-da hərbi çevriliş nəticəsində devrilmiş, özü isə iyunun 14-də tutularaq, ağır işgəncədən sonra öldürülmüşdür.

1923-cü il 9 iyun çevrilişindən sonra Xalq Sazişi təşkilatının lideri A.Tsankovun başçılığı altında yaradılmış hökumətdə hərbi qüvvələr, Daxili və Xarici işlər naziri kimi mühüm vəzifələri Hərbi İttifaqın liderləri tuturdular. Hökumətin tərkibinə BƏXİ və BKP (s.s.) nümayəndələri istisna olmaqla, demək olar ki, bütün partiyaların nümayəndələri daxil oldular. Vəziyyətini möhkəmləndirmək məqsədilə A.Tsankov kabineti Bolqarıstan üçün ənənəvi olan metodlardan istifadə edirdi. Hökumət, ilk növbədə, yerli hakimiyyət orqanlarında "təmizləmə" apardı. Nahiyə "uprav"ları və nahiyə rəisləri vəzifələrinə, əsasən, Hərbi ittifaqa sədaqəti ilə seçilmiş ehtiyatda olan zabitlər təyin edildilər. A.Tsankov hökuməti yerli özünüidarə orqanlarını (icma şuraları) üç nəfərdən ibarət təyin edilmiş komissiyalarla əvəz etdi. Belə analoji tədbiri vaxtı ilə A.Stamboliyski kabineti də tətbiq etmişdir.

Cəmiyyətdə nüfuzunu qoruyub saxlamaq məqsədi ilə Hərbi İttifaq və "Xalq sazişi" təşkilatının liderləri dağınıq siyasi qüvvələri birləşdirmək və bir güclü hakim partiya yaratmaq qərarına gəldilər. 1923-cü ilin avqustunda "Xalq sazişi", Birləşmiş Xalq-Tərəqqi Partiyası, Demokratik və Radikal-Demokratik partiyaları "Demokratik saziş" adlı yeni siyasi təşkilatın yaradılması barədə protokol imzaladılar. Hökumət koalisiyasına daxil olan BFSDP (b.) və Milli-Liberal Partiya bu təşkilata daxil edilmədilər. Bir müddətdən sonra Milli-Liberal Partiyası hökumət koalisiyasından da kənarda qaldı. BƏXİ və BKP (s.s.) ölkənin siyasi həyatından sıxışdırılıb çıxarıldı. Bunun üçün A.Tsankov hökuməti bütün repressiya tədbirlə-

rindən geniş istifadə edirdi ki, 1923-cü il sentyabr üsyanından sonra repressiyalar daha da artdı.

Dövlət çevrilişinin hakimiyət böhranı yaratdığını bildirən BKP (s.s.) MK 1923-cü il avqustun əvvəllərindən hakimiyyəti ələ keçirmək və fəhlə-kəndli hökuməti qurmaq məqsədilə A.Tsankov hökuməti əleyhinə üsyana hazırlaşmaq haqqında qərar qəbul etdi. Bundan xəbər tutan polis ilk addım ataraq 1923-cü il sentyabrın 12-də 2 minə yaxın kommunisti həbs etdi. Üsyan sentyabrın 22–23-nə təyin olunmasına baxmayaraq, qeyri-mütəşəkkil başladı. Starozaqor dairəsində üsyan vaxtından əvvəl – sentyabrın 19-da, bəzi rayonlarda vaxtından gec qalxdı. Sofiya, Plovdiv, Persnik, Sliven və başqa böyük fəhlə mərkəzlərində üsyan elə başlar-başlamaz yatırıldı. Üsyanın başlanması ərəfəsində Sofiyada inqilabi komitə üzvlərinin hamısını polis həbsə aldığı üçün paytaxtda hərəkat başsız qalmışdı.

Üsyan şimal-qərbi Bolqarıstanın Vraçan və Vidin dairələrində daha yaxşı təşkil edilmişdi. Burada hərəkata G.Dmitrov, V.Kolarov və Q.Qenovun başçılıq etdikləri Baş İnqilabi Komitə rəhbərlik edirdi. Üsyan sentyabrın 22-də başladı, hökumət üsyançılara qarşı qoşun göndərdi. A.Tsankov hökuməti Antantanın gizli razılığı ilə ehtiyatda olan zabitləri səfərbərliyə aldı ki, bu, Neyi müqaviləsinin şərtlərini pozmaq demək idi. 1923-cü il sentyabrın 27-də RK (b) P MK Siyasi Bürosu üsyançılara yardım etmək haqqında qərar qəbul etdi. Bu zaman hökumət qüvvələri Baş İnqilab Komitəsinin yerləşdiyi Ferdinand (Mixaylovqrad) şəhərinə daxil

oldular, sentyabrın 29-da üsyan, demək olar ki, yatırıldı. Hökumət qüvvələrinin hücumu altında üsyançıların bir hissəsi dağlara və meşələrə çəkildi, digər hissəsi isə bolqar-serb sərhədini keçərək qonşu ölkələrə getdi. Üsyançılara amansız divan tutuldu, qeyri-rəsmi məlumata görə, 5 min nəfərə yaxın üsyançı öldürüldü, minlərlə adam həbsxanaya salındı. 1924-cü ilin əvvəlində qəbul edilmiş "Dövlətin müdafiəsi haqqında" qanuna əsasən BKP (s.s.) və onun digər təşkilatlarının fəaliyyəti qadağan edildi.

Ölkədə yaranmış gərginliyi aradan qaldırmaq məqsədilə 1923-cü il noyabrın 18-də parlament seçkiləri keçirildi. Seçkilərdə "Demokratik sazişi" və BFSDP (b) koalisiyası qalib gələrək, Xalq Məclisində 200 yerə sahib oldular. Milli-Liberal Partiyası, BKP (s.s.) hər biri 8, BƏXİ isə 29 yer qazandı. 1924-cü ilin əvvəllərində "Demokratik saziş" və BFSDP (b) koalisiyası dağıldı. Buna səbəb sosial-demokratların əlavə nazir postlarına iddialarının ödənilməməsi idi. BFSDP (b) nümayəndəsini hökumətdən geri çağıraraq, müxalifətə keçdiyini bəyan etdi. A.Tsankov hökuməti Daxili Makedoniya İnqilab Təşkilatının (DMİT) simasında müttəfiqini də itirdi. Buna səbəb hökumətin təşkilatın xarici siyasi fəaliyyətini məhdudlaşdırmağa cəhd etməsi oldu. 1924-cü ilin martında DMİT-in bir sıra rəhbərləri həbs edildi. Buna cavab olaraq, DMİT MK-sı A.Tsankov hökumətinə etirazını bildirərək, Vyanada SSRİ nümayəndəliyi ilə aparılan danışıqlarda üzərinə "serb, yunan və həm də bolqar hökumətinə" qarşı mübarizəni qəti şəkildə gücləndirəcəyi haqqında öhdəlik götürdü

və bu, 1924-cü il aprelin 29-da imzalanmış xüsusi bəyannamədə əksini tapdı. Eyni zamanda, "Demokratik saziş" hökuməti həlli çətin daxili problemlərlə də qarşılaşdı. 1924-cü ilin fevralında S.Kosturkov başda olmaqla, Radikal-Demokratik Partiyasının bir sıra üzvləri Demokratik Saziş təşkilatından çıxdılar.

Bununla yanaşı, Bolqarıstanda "inqilabi böhran"ın kəskinləşməsi fikri həqiqətə uyğun deyildi, çünki ölkədə vəziyyətin sabitləşməsinin bütün əlamətləri göz qabağında idi. A.Tsankov hökumətinin təşəbbüsü ilə 1924-cü ildə sosial təminat haqqında,1925-ci ildə məşğulluq haqqında qanunlar qəbul edildi. Bu qanunlarda bədbəxt hadisələrə, xəstəlik, analıq məzuniyyəti, əlillik və qocalığa görə, həmçinin işsizlərə yardım üçün xüsusi fondların yaradılması nəzərdə tutulurdu. Fondların yaradılması sosial müdafiə sisteminin formalaşmasında mühüm addım oldu. İqtisadi yüksəliş, sosial sahədə hökumətin gördüyü tədbirlər əhalinin həyat səviyyəsinin yülksəlməsi ilə nəticələndi. Real gəlir 1921-ci ildə 1908–1912-ci il göstəricilərinin 81%-ni təşkil edirdisə, 1925-ci ildə bu göstərici 118% idi. Bu, sözsüz ki, ölkədə ictimai əhval-ruhiyyənin yüksəlişinə təsir etməyə bilməzdi.

Lakin BKP (s.s.) və Kominternin İcraiyyə Komitəsi Bolqarıstanda vəziyyətin normallaşması barədə məlumatları inkar edirdi. Partiyanın Hərbi təşkilatı fəal surətdə yeni üsyana hazırlıq görməyə başlamışdı. BKP-nin (s.s.) Hərbi təşkilatı Sovet hökumətinin köməyi ilə Sevastopoldan, Vyanadan və İstanbuldan silah əldə etdi. Bolqarıstanın Nazirlər Kabinetindən,

Daxili İşlər Nazirliyindən və Hərbi Nazilikdən məxfi məlumatlar əldə etmək məqsədilə geniş kəşfiyyat şəbəkəsi yaradıldı, döyüş dəstələri formalaşdırıldı və s. Moskva ilə birbaşa əlaqələrin yaranması ilə Hərbi təşkilatın məsul işçiləri müstəqil fəaliyyət göstərə bilərdilər.

1924-cü ilin payızında Hərbi təşkilat və onun təşkil etdiyi çətələr, yəni partizan dəstələri təxribatçılıq və terrorçuluq fəaliyyətinə keçdilər. Üsyana başlamaq üçün hər hansı bir zəmin olmadığından, BKP (s.s.) rəhbərliyi və Kominternin İcraiyyə Komitəsi üsyanı 1925-ci ilin yazına keçirməyə məcbur oldu. 1925-ci ilin martında RK (b) P MK-nın Komissiyası və Kominternin İcraiyyə Komitəsinin Rəyasət Heyəti bolqar məsələsinə dair xüsusi qətnamə qəbul etdi və bolqar kommunistlərinə fəaliyyətlərini "zəhmətkeşlərin vaxtı çatmış maraqlarının müdafiəsinə" yönəltməyi məsləhət gördü. Qətnamə çox gec atılan bir addım oldu, çünki terror maşını artıq işə düşmüşdü. Belə ki, 1925-ci ilin aprelində BKP-nin (s.s.) Hərbi təşkilatı bir sıra terror aktları törətdi. Aprelin 13-də iki sui-qəsd törədildi: biri çar Borisə, digəri isə Hərbi İttifaqın yaradıcılarından biri olan general Kostu Georgiyevə qarşı. Çar xilas ola bilsə də, K.Georgiyev öldürüldü. Növbəti böyük sui-qəsd aprelin 16-da Sofiyadakı "Müqəddəs Nedeliya" kilsəsində törədildi. Həmin gün A.Tsankov başda olmaqla, hökumət üzvləri kilsədə idi. Sui-qəsd nəticəsində 160 adamın öldürülməsi güman edilir.

Hökumət terrora qarşı terrorla cavab verdi. Qısa müddətdə, təqribən, 13 min nəfər həbs edildi. "Müqəddəs Nedeliya"

kilsəsində törədilmiş qəsdin təşkilatçılarından üç nəfəri tutularaq, dar ağacından asıldı. Yüzlərlə fəhlə məhkəməsiz və istintaqsız güllələndi, cəza dəstələrinin miqyasına görə misli görünməmiş azğınlığı başladı. Bu dövrdə çoxlu inqilabçı kommunist məhv edildi, bolqar kommunistləri ilə əməkdaşlıq edənlər də çoxlu itki verdilər.

Buna cavab olaraq, Komintern və ona tabe olan kommunist partiyaları Bolqarıstandakı "ağ terrora" qarşı beynəlxalq mübarizəni gücləndirdilər. Bu işdə dünyanın intellektual elitasının beynəlxalq aləmdə tanınan və böyük nüfuza malik olan tanınmış nümayəndələri Anri Barbüs, Roman Rollan, Bernard Şou və başqaları yaxından iştirak edirdilər. Özünü nüfuzdan salmış Bolqarıstan hökuməti xaricdən istiqraz almaq və gələcəkdə fəaliyyətini davam etdirmək imkanını itirdi. A.Tsankovun fəaliyyərsiz Xalq Məclisini buraxmaqla hakimiyyətdə qalmaq cəhdi də heç bir nəticə vermədi. Xalq Məclisinin yalnız fövqəladə hallarda toplanan Ağsaqqallar Şurası 1925-ci ilin dekabrında A.Tsankov hökumətinə etimadsızlıq göstərdi. Bolqar burjuaziyası "həddindən artıq açıq" A.Tsankovu daha çevik siyasi xadimlə əvəz etməyi məqsədəuyğun hesab etdi.

1926-cı ilin yanvarında formalaşdırılmış yeni "Demokratik saziş" hökumətinə A.Lyapçev başçılıq etməyə başladı. Hökumət proqramının mahiyyətini "barışıq və mərhəmət" şüarı təşkil edirdi. A.Lyapçev hökuməti, ilk növbədə, əvvəlki hökumətin repressiyalarının mənfi nəticələrinin aradan qaldırılması tədbirlərinə başladı. 1926-cı ilin fevralında əfv

haqqında qanun qəbul olundu və bu qanuna əsasən, 7 min nəfər həbsdən azad edildi, Sialhlı Qüvvələr naziri postunu əlində saxlamış İ.Vılkovun təşəbbüsü ilə çar III Boris 1923–1925-ci illərdə Hərbi-səhra məhkəmələri tərəfindən mühakimə olunanların əfv edilməsi haqqında bir neçə fərman imzaladı.

Kabinet dövlət vəzifələrində çalışan istefada olan zabitləri mülki şəxslərlə əvəz etdi. Eyni zamanda, ordu üzərində nəzarəti öz üzərinə götürməyə çalışan hökumət bu vəzifənin icrasını Hərbi ittifaqın rəhbəri İ.Vılkova tapşırdı. İ.Vılkov bu işi həyata keçirərkən zabit heyətinin orta təbəqəsinin müqaviməti ilə üzləşdi və onlar 1928-ci ildə Gizli Hərbi İttifaq (GHİ) yaratdılar. 1927-ci ilin mayında A. Lyapçev hökuməti parlament seçkiləri keçirdi. Seçkilərdə ilk dəfə 1927-ci ildə yaradılmış Fəhlə partiyası da iştirak etdi ki, bu mahiyyət etibarilə qeyri-leqal BKP (s.s.) təmsil edirdi. Parlamentdə 273 yerdən 168 mandat yerini Demokratik Saziş bloku aldı.

Demokratik Saziş blokunun çoxluq təşkil etdiyi Xalq Məclisi hökuməti müdafiə edirdi. Parlament hökumət tərəfindən 1927–1929-cu illərdə təqdim edilmiş 182 qanun layihəsindən 145-ni təsdiq etdi. A.Lyapçev hökuməti əsas diqqətini, başlıca olaraq, iqtisadi və xarici siyasət sahələrindəki problemlərin həllinə yönəltmişdi. Hökumət Millətlər Cəmiyyətinin qərarına əsasən, 1926-cı ilin sonlarında Amerika, ingilis və fransız bankları ilə müqavilə bağlayaraq, Bolqarıstanda sığınacaq tapmış qaçqınlara yardım məqsədi ilə 2,4 milyon funt

sterlinq və 5 milyon dollar istiqraz aldı. Həmçinin 1928-ci ildə Bolqarıstanda baş vermiş zəlzələnin nəticələrini aradan qaldırmaq üçün xaricdən yenə də əlavə istiqraz alındı. Bu borclar hökumətə maliyyə sistemini stabilləşdirməyə və büdcə kəsirini azaltmağa imkan verdi. Bununla belə, "Demokratik Saziş" hökumətinin daxilində ziddiyyətlər kəskinləşdi, A.Tsankovun tərəfdarları ayrıca fraksiya yaratdılar. 1930-cu ilin mayında hökumət yenidən təşkil olundu, A.Tsankov həmin hökumətdə maarif naziri portfelinə yiyələndi. "Demokratik Saziş" blokunda fikir ixtilaflarının artması ilə əlaqədar, müxalifət qüvvələrinin birləşməsi baş verirdi. Bunun əsas təşəbbüsçüsü Demokratik Partiya idi. Xalq Bloku adlanan bu koalisiyaya BƏXİ – "Vrabça-1", S.Kosturkovun başçılıq etdiyi Radikal Partiya, Q.Petrovun başçılıq etdiyi Milli-Liberal Partiyanın bir hissəsi daxil oldu.

"Xalq Bloku" 1931-ci ilin iyununda keçirilmiş parlament seçkilərində 150 yer aldı. "Demokratik Saziş" bloku isə cəmi 78 mandata sahib oldu. A.Lyapçev hökuməti əvəzinə hakimiyyətə A.Malinovun kabineti gəldi. Bu hökumət "Xalq Bloku"nda birləşmiş müxalifətçi burjua partiyalarının nümayəndələrindən təşkil edilmiş koalisyon hökumət idi. Hökumətdə mühüm vəzifələri Demokratik Partiyanın nümayəndələri tuturdular. 1931-ci ilin okyabrında Xalq Məclisinin sədri seçilən A.Malinovu Demokratik Patiyanın üzvü N.Muşanov əvəz etdi. "Xalq Bloku" hökumətinin hakimiyyəti iqtisadi böhran illərinə təsadüf etdiyindən, onun əsas vəzifəsi iqtisadi böhranın dərinləşməsinə yol verməmək idi. Hökumət, ilk növbədə,

xırda mülkiyyətin qorunması sahəsinə xüsusi diqqət verirdi. Kəndlilərin dövlətə olan borclarının silinməsi istiqamətində xeyli iş görüldü.

Müvafiq qanunvericilik aktları vasitəsilə hökumət torpağın borca görə satılmasını dayandırdı və dörd hektar həcmində təsərrüfatları ayrılmaz elan etdi. Mülklərin bir hektarından torpaq vergisinin alınmasını dayandırdı. Xalq Bloku hökuməti Lyapçev hökuməti tərəfindən yaradılmış taxıl məhsullarının alınması və ixracı üzrə inhisar hüququ olmayan dövlət müəssisəsi kimi Direksiyanı saxladı və eyni zamanda, zərurət yaranarsa, ərzaq məhsullarının qiymətlərini tənzimləyən Ərzaq Məhsulları Komissarlığı yaratdı.

"Xalq Bloku" hökumətinin üzləşmiş olduğu çətinliklər adətən bürokratiya və korrupsiya ilə əhatə olunmuş dövlət mexanizminin aşağı səmərəliliyi ilə əlaqələndirilirdi. Bolqarıstandakı siyasi qüvvələrin əksəriyyəti (Xalq Blokunun hakimiyyəti dövründə 40-a yaxın rəsmi qeydiyyatdan keçmiş partiya mövcud idi.) yeganə çıxış yolunu mövcud siyasi sistemin köklü dəyişdirilməsində görürdülər.

Radikal sol partiyaların (leqal FP və qeyri-leqal BKP (s.s.)) görüşləri ənənəvi idi. BKP (s.s.) 1932-ci ilin sonunda fəhlə hərəkatının açıq tənəzzülə uğramasına baxmayaraq, hələ də ölkədə inqilabi böhranın getdikcə artdığı və nəticə etibari ilə hakimiyyətin ələ keçirilməsi üçün obyektiv şəraitin olduğu fikrini müdafiə edirdi.

İfrat sağçı təşkilatların ideoloji görüşləri iki əsasa dayanırdı: güclü, nüfuzlu dövlət hakimiyyətinin yaradılması zə-

rurəti və Bolqarıstan cəmiyyətinin milli ideya ətrafında birləşməsi. Birincinin həyata keçirilməsi, xüsusilə, parlament sisteminin dəyişdirilməsi (Xalq Məclisi deputatlarının sayının azaldılması, yuxarı palata yaradılması və s.) yolu ilə nəzərdə tutulmuşdur. Belə ki, A.Tsankovun tərəfdarları tərəfindən Almaniya Milli Sosialist Fəhlə Partiyası modeli əsasında yaradılmış Xalq İctimai Hərəkatı Xalq Məclisinin yenidən qurulmasını və ölkənin idarə olunmasına "millətin mütəşəkkil iqtisadi və mədəni qüvvələrinin" cəlb olunmasını müdafiə edirdi. Oxşar şüarlar 1929-cu ildə "Rodna Zaşçita" adlı təşkilatın qurultayında da irəli sürülmüşdür. Onlar həmçinin 1927-ci ildə mitropolit Stefanın təşəbbüsü ilə yaradılmış və 1929-cu ilin noyabrında ehtiyatda olan zabitlər və astsubaylar ittifaqı ilə birlikdə Neyi sülhünün imzalanmasının 10-cu il dönümünə təsadüf edən təzminat ödənişlərinə qarşı kütləvi etiraz aksiyası təşkil etməyə nail olan "Paisiy Ata" ittifaqı ilə həmrəy idilər. Lakin bu qüvvələr parçalanmış və heç bir ciddi təsirə malik deyildilər.

"Cəmiyyətin yeni iqtisadi forma və funksiyaları"na uyğun "yeni dövlət"in yaradılması, cəmiyyətin, xalqın və dövlətin aliliyinin təmin edilməsi tələbləri 1932-ci ildə "Zveno" jurnalı ətrafında birləşmiş bir qrup ifrat düşüncəli zabit və ziyalıların proqramının əsasını təşkil edirdi.

Siyasi hakimiyyətin təşkilində narazılığın artdığı bir şəraitdə "partiya və parlamentin parçalanmasının" aradan qaldırılması zərurəti təcili olaraq qəbul edildikdə, N.Muşanovun

kabinetinin istehfası baş verdi. Paytaxtda guya A.Tsankovun tərəfdarlarının hakimiyyəti ələ keçirmək məqsədilə hazırladıqları "Sofiyaya yürüş" haqqında şayələr yayılmağa başlamışdır. Əslində 1934-cü il mayın 20-də A.Tsankovun başçılıq etdiyi Xalq İctimai Hərəkatının qurultayı gözlənilirdi.

1934-cü il mayın 18-dən 19-na keçən gecə Hərbi İttifaq və 1932-ci ildə yaradılmış "Zveno" siyasi təşkilatının birgə hazırladığı dövlət çevrilişi baş tutdu. "Xalq bloku" hökuməti devrildi və hakimiyət palkovnik Kimon Georgiyevin başçılığı altında hərbi dairələrin əlinə keçdi. Çevriliş ağrısız baş tutdu, əhali çevrilişə passiv yanaşaraq, hadisələri kənar müşahidçi rolunda seyr etdi.

K.Georgiyev hökuməti (Georgiyev həm də Ədliyyə naziri postunu tuturdu) Bolqarıstanın dövlət-siyasi sisteminin yenidən qurulması proqramını işləyib hazırladı ki, bunun da əsasında ölkədə mərkəzləşdirilmiş avtoritar dövlət yaradılması ideyası dururdu. Əhalini öz tərəfinə çəkmək üçün hökumət bir sıra islahatlar keçirməyə söz verdi. Kəndlilərə kredit vermək və aqrotexniki yardım təşkil etməklə geniş köməklik edilməsi, fəhlələrə işsizliyin ləğv edilməsi vədləri verildi. Bu vədlərin böyük əksəriyyəti yerinə yetirilmədi, bəziləri isə qismən həyata keçirildi. 1934-cü ilin avqustunda qəbul edilmiş "borcluların vəziyyətini yaxşılaşdırmaq və krediti sağlamlaşdırmaq haqqında" qanun kənd yoxsullarına və sənətkarlara aid edilmədi, hökumətin ayırdığı kreditlər isə varlı kəndli təsərrüfatlarına verilirdi.

Parlamentin təşkilinə qədər K.Georgiyevin kabineti qanunvericilik funksiyasını da öz üzərinə götürmüşdü. Bolqarıstan Konstitusiyasına görə (bu konstitusiya hələ 1879-cu ildə qəbul edilmiş və “Tırnovo Konstitusiyası” adlanırdı), “Dövlət üçün daxili və xarici təhlükə yaranarsa”, Nazirlər Kabinetinə fərman və sərəncam vermək hüququ verilirdi. Hökumətin Konstitusiyanın 47-ci maddəsindən istifadə edərək 1934-cü ilin iyununda verdiyi fərman siyasi partiyalar və təşkilatların fəaliyyətini qadağan etdi. Ölkənin mərkəzdən idarə olunmasını gücləndirmək məqsədilə K.Georgiyevin kabineti ərazi-inzibati islahat keçirdi, ölkədə 16 dairə əvəzinə 7 vilayət və 2552 kənd icması əvəzinə 837 icma yaradıldı. Kənd icmalarına rəhbərlik, faktiki, mərkəzi idarə tərəfindən təyin olunan və ona tabe olan kənd ağsaqqallarına həvalə edildi. Hökumət spirt, duz, tütün, benzin istehsalını və satışını inhisara aldı. 1934-cü il mayın 19-da dövlət çevrilişi nəticəsində hakimiyyətə gəlmiş qüvvələr arasında yaratdıqları “yeni dövlətdə” monarxiya institutunun yeri məsələsində fikir ayrılığı və parçalanma yarandı. Hərbi ittifaqda üç cərəyan – monarxiya tərəfdarları, anti-monarxiyaçılar və mötədillər meydana gəldi.

K.Georgiyevin və onun tərəfdaşlarının Bolqarıstanda monarxiya idarə üsulunun zəiflədilməsi və “yeni dövlət” yaratmaq cəhdi sonda K.Geogiyevin hakimiyyətdən uzaqlaşdırılması ilə nəticələndi. 1935-ci il yanvarın 23-də təşkil edilmiş yeni kabinetə general P.Zlatev başçılıq etdi. Qısa müddətdə – 1935-ci ilin yanvar-oktyabr aylarında ölkədə

hökumət dəyişikliyi baş verdi. Bu "keçid hökumətləri" çar III Borisin monarxiya-faşist diktaturasının qurulması üçün zəruri şərait yaratdılar. 1935-ci ilin aprelində çar III Boris A.Toşevi hökumətin başçısı təyin etdi. Oktyabrda ölkənin siyasi həyatı yenidən qarışdı. A.Toşev kabineti də istefa verdi. 1935-ci ilin noyabrında çar dəftərxanasının rəisi Q.Koseivanovun başçılığı altında yeni hökumət təşkil edildi. Q.Koseivanov hökumətinin görüləcək işlər haqqında hazırladığı Bəyannamə olduqca dağınıq idi. Bəyannamədə özündən əvvəlki A.Toşev hökumətinin hazırladığı yeni Konstitusiyanın qəbulu, parlament seçkilərinin keçirilməsi öhdəlikləri əksini tapmamış, bunlar ölkədə vəziyyəti sabitləşdirmək, "bütün sağlam qüvvələri birləşdirmək" kimi ümumi sözlərlə əvəz edilmişdi. Ölkədə 1935-ci ilin iyununda əlavələr və dəyişikliklər edilmiş siyasi partiyaların və təşkilatların fəaliyyətinin qadağan olunması haqqında 1934-cü il 14 iyun fərmanı qüvvədə qalırdı. Lakin bu, ölkənin siyasi qüvvələrinin 1936-cı ilin ortaları üçün yenidən qruplaşmasının qarşısını ala bilmədi. Bu qruplaşmanın ifrat sağ qanadını Xalq sosial hərəkatı, "Vətən müdafiəsi" və başqa partiyalar tuturdu. Onları ehtiyatda olan zabitlər, dövlət qulluçuları, ayrı-ayrı gənclər qrupu müdafiə edirdilər.

İfrat solları BKP (s.s.) və Fəhlə Partiyası təmsil edirdi. Bu zaman həmin partiyalar hökumətin cəza tədbirləri nəticəsində xeyli zəifləmişdi. 1936-cı ilin sonlarında ikili üzvlük sistemi tətbiq edən Fəhlə Partiyasının sıralarında 7 min nəfər

var idi ki, onların da 4 min nəfərə yaxını BKP-ni (s.s.) təmsil edirdi. Kominternin VII konqresinin qərarı ilə əlaqədar BKP (s.s.) taktikasında dəyişiklik etdi, BKP (s.s.) MK-nın 1936-cı ilin fevralında olan VI plenumu Q.Koseivanov hökumətini çara yaxın zabitlərin dəstəklədiyi faşist diktaturası kimi səciyyələndirərək, partiyanın bütün "antifaşist qüvvələrlə" əməkdaşlığa hazır olduğunu bildirdi. Plenumun qətnamələri Xalq Cəbhəsinin platformasının əsasını təşkil etdi ki, burada Tırnovo konstitusiyasının bərpası, parlament seçkilərinin keçirilməsi, 1934-cü il mayın 19-dan sonra qəbul olunmuş fərmanların ləğv edilməsi, Konstitusiyanın bərpasına maneçilik törədən təşkilatların buraxılması tələbləri daxil idi.

1936-ci ilin mayında BƏXİ – "Vrabça-1" D.Qiçevin başçılığı altında olan, BFSDP(b)-nin K. Pastuxovun rəhbərliyində olan qanadı, B.Smilovun Milli-Liberal Partiyası, Q.P.Qenovun Radikal Partiyası, A.Lyapçevin "Demokratik saziş" təşkilatı "beşlik" adlanan koalisiya yaratdılar. Koalisiya 1936-cı ilin iyununda çar Borisə ölkədə konstitusiyalı-parlament sistemini bərpa etmək tələbi ilə müraciət etdi. Nəticədə, Q.Koseivanovun hökuməti 1936-cı ilin iyulunda yenidən təşkil edildi, hökumətin tərkibinə A.Tsankovun sədr olduğu Milli İctimai Hərəkat adlı partiyanın iki nümayəndəsi də daxil edildi. Q.Koseivanov hökuməti çarın əlində oyuncaq bir hökumət idi. Çar III Boris onun tərkibini 5 dəfə dəyişdirmişdi, bütün hakimiyyət çarın və saray adamlarının əllərində cəmləşmişdi.

Hökumətin daxili siyasəti mürtəce siyasət idi. Hökumət 1936-cı ildə tətilləri qadağan edən qanun verdi və qanunda da siyasi fəaliyyətdə olanların cinayət məsuliyyətinə cəlb edilə bilməsini nəzərdə tutan dəyişikliklər edildi. 1937-ci ilin yanvarında hökumət namizədliyini irəli sürmüş hər bir şəxsdən "qadağan edilmiş təşkilatların üzvü və mövcud rejimin əleyhinə olmadığı" haqqında ərizə verilməsini tələb edən yeni mürtəce seçki qanunu hazırladı. 1937-ci ilin oktyabrında seçki qanununda dəyişiklik olundu. Qanuna görə, icma şuraları ümumi tərkibin yalnız 50%-ni seçirdi, digər yarısı isə hökumət tərəfindən təyin edilirdi. 1937-ci ilin mayında Q.Koseivanov hökumətinin IV kabineti, 1938-ci ilin yanvarında V kabineti təşkil olunurdu.

1937-ci ilin mayında Q.Koseivanov kabineti dördüncü dəfə yenidən təşkil edildi. Baş nazirlə hərbi nazir arasında olan fikir ayrıldığı nəticəsində hər qruplaşmanın tərəfdarları hökumətin dağılmasına səbəb olmuşdur. Beləki, birincilər ölkənin idarə edilməsinə "partiyasızları", ikinci qrupun tərəfdarları isə sağ partiyaların nümayəndələrin cəlb etmək məqsədi daşıyırdılar. Tərəflər arasındakı fikir ayrılığının aradan qaldırmaq mümkün olmasa da, Xalq məclisinə seçkilərə dair yeni qanunun qəbul edilməsində kompromis qərar qəbul edildi. Ümumi qərara əsasən deputat yerlərinin sayı 160 nəfər müəyyən edilir, namizədlər xüsusi kollegiyalar tərəfindən irəli sürülür, namizədləri 20 ilə 40 min arasında formalaşan seçicilər təqdim edirdi və s.

1938-ci ilin yanvarında Q.Koseivanovun hökuməti beşinci dəfə yenidən təşkil olunmuşdur. "Partiyasızlar" hökumətinə

qarşı dayanan "partiyalı" müxalifətlə mübarizə şəraitində Q.Koseivanov kabineti öz üzərinə siyasi partiyalara məxsus olan bir sıra funksiyaları götürmüşdür. Hökumətin seçkiqabağı proqramında "yeni demokratiya"nın təbliği prinsipləri, o cümlədən "sosial həmrəylik ideyasına əsaslanan intizamlı azadlıq", icraçı və qanunverici hakimiyyətin dəqiq bölgüsü, dövlət idarəçiliyi sahəsində "partizançılığın ləğvi" və "partiyasızlığın" təsdiqi öz əksini tapmışdır.

Xalq Məclisinə 1938-ci ilin martında keçirilən seçkilərdə hökumət koalisiyası qalib gələrək 160 mandat yerindən 97, Konstitusiya İttifaqı isə 63 yer aldı. Parlamentin işə başlaması ilə əvvəlki siyasi sistemə qayıdış baş vermədi. Xalq Məclisi 1934-cü il mayın 19-dan sonra verilmiş fərmanların çoxunu qəbul etdi. Monarxa parlamentin razılığı olmadan hökuməti təyin etmək, onun təqdim etdiyi qanunlar layihəsini qəbul etmədikdə, parlamenti buraxmaq səlahiyyətləri verildi. Beləliklə, çar bütün hakimiyyəti öz əlində cəmləşdirməyə nail oldu ki, bu da Bolqarıstanda monarxiya idarə üsulunun qurulması anlamına gəlir.

Birinci Dünya müharibəsindən sonra Bolqarıstanın beynəlxalq aləmdən təcrid olunmasını aradan qaldırmaq məqsədilə BƏXİ hökumətinin baş naziri A.Stamboliyski Avropa ölkələrinə yüz günlük (oktyabr 1920 – yanvar 1921-ci il) səfər etdi. O, Bolqarıstanın Millətlər Cəmiyyətinə qəbul olunmasına nail oldu, Avropanın əksər dövlətləri və Balkan ölkələri ilə diplomatik münasibətlər yaratdı. Eyni zamanda, Neyi sülh müqaviləsinin şərtlərinə yenidən baxılması və Bolqarıstanın

digər dövlətlərlə bərabərhüquqlu münasibətlər qurması həll edilmədi.

Bolqarıstanın Türkiyə istisna olmaqla digər qonşu dövlətlərilə münasibətlərini qaydaya salmağa mane olan şərait Daxili Makedon İnqilabi Təşkilatının (DMİT) fəaliyyətilə bağlı idi. DMİT Vardar, Pirin və Egey Makedoniyasının birləşdirilməsi və ona müxtariyyət verilməsi uğrunda mübarizə aparırdı. Bilavasitə Neyi sülhündən sonra fəaliyyətə keçən DMİT 1920-ci ilin mayına doğru 22 təşkilatlanmış hərbi dəstəsi, yəni çətələri, kuryer xidməti, çətələri qeyri-leqal Priney Makedoniyasından Vardar və Egey Makedoniyasına keçirə bilən yolları, silah nəqli və s. mövcud idi.

DMİT çətələrinin əsas fəaliyyət sahəsi 1913-cü il sülh müqaviləsilə (Buxarest sülhü) Serbiyaya verilmiş Vardar Makedoniyası idi. Çətələr ilk növbədə rəsmi müstəmləkəçilik siyasətinə qarşı mübarizə aparırdılar. Çətələr kolonistlərin qəsəbəsini dağıdır, onları qarət edir, öldürür və Vardar Makedoniyasını tərk etməyə məcbur edirdilər.

DMİT bazası Pirin Makedoniyası olduğu üçün SXS Krallığı Bolqarıstaanla münasibətləri normallaşdırmaq şərti kimi çətələrin keçə bilməməsi üçün sərhəddin bağlanmasını tələb edirdi.

1920-ci illərin əvvəllərində Bolqarıstan Serb-Xorvat-Sloven Krallığı (SXSK) ilə münasibətləri nizama saldı. A.Stamboliyski 1923-cü ilin martında sərhəd məsələlərinə dair SXS Krallığı ilə Niş sazişini imzaladı. Sazişin şərtlərinə görə, bolqar hökuməti Daxili Makedoniya İnqilabi Təşki-

latının cətə dəstələrinin, yəni partizanların sərhəddə qanunsuz fəaliyyətinin qarşısını almağı öhdəsinə götürdü. Bunun nəticəsində isə A.Stamboliyski hökuməti DMİT-in 1923-cü il iyunun 9-da baş tutan çevrilişdə iştirakına şərait yaratmış oldu.

1923-cü il iyun çevrilişindən sonra hakimiyyətə gəlmiş A.Tsankov 1924-cü ilin dekabrında Buxarest və Belqrada səfər etdi. Lakin bu səfərlər heç bir nəticə vermədi, Bolqarıstanın qonşu dövlətlərlə münasibətləri yenə də gərgin olaraq qalırdı. 1925-ci ilin oktyabrında bolqar-yunan sərhədində silahlı münaqişə baş verdi. Millətlər Cəmiyyəti münaqişəni aradan qaldırmağı öz üzərinə götürdü, tərəflərdən təcili olaraq hərbi əməliyyatların dayandırılmasını tələb etdi, münaqişənin səbəblərini aydınlaşdırmaq üçün komissiya təşkil olundu. Millətlər Cəmiyyətinin təkidi ilə Bolqarıstan ərazisinə qoşun yeritmiş Yunanıstan Bolqarıstanın xeyrinə 30 milyon lev kompensasiya ödəməyə məcbur oldu. Bu cür halların bir daha baş verməməsi üçün Millətlər Cəmiyyətinin komissiyası vətəndaşların könüllü mübadiləsi haqqında konvensiyaya əməl etməyi, bitərəf dövlətlərin nümayəndələrindən ibarət xüsusi sərhəd xidməti dəstələri yaratmağı, həmçinin Millətlər Cəmiyyətinin nəzarəti altında barışıq komissiyasının formalaşdırılmasını təklif etdi.

Avropa siyasətində aparıcı rola iddia edən Böyük Britaniya 1926-cı ildə SXS Krallığına, Yunanıstana və Bolqarıstana Lokarno müqavilələri nümunəsində saziş bağlamağı təklif etdi. Buna baxmayaraq, bu ölkələr arasında münasibət-

lər daha da kəskinləşdi. 1926-cı ilin avqustunda Yunanıstanın, SXS Krallığının və Rumıniyanın Sofiyadakı səlahiyyətli nümayəndələri bolqar hökumətinə kollektiv nota verdilər. Notada Bolqarıstan ərazisində formalaşdırılan çətələrin fəallığının artması qeyd edilirdi. SXS Krallığının hakimiyyət orqanları 1927-ci ildə Bolqarıstanla sərhədi bağlamağı qət etdi. Sərhəd 1928-ci ilin sonlarında Daxili Makedoniya İnqilabi Təşkilatının hamisi olan Silahlı Qüvvələr naziri İ.Vılkovun istefasından sonra açıldı.

1929-cu ildə Almaniya təzminatın ödənilməsi haqqında məsələ qaldırdı və məsələyə yenidən baxılması üçün xüsusi komissiya yaradıldı. 1930-cu illərin əvvəllərində Bolqarıstan təzminatın həcmini 4 dəfə azaltmağa və onun ödənilməsi üçün vaxt almağa nail oldu. Bu zaman Bolqarıstan və Almaniyanın yaxınlaşması üçün əlverişli şərait yarandı. 1932-ci ildə Bolqarıstan və Almaniya arasında klirinq ticarət (dövlətlər arasında banklar vasitəsilə nağd pulsuz haqq-hesab) haqqında saziş imzalandı. Bolqarıstan 1934-cü ilin fevralında Yunanıstan, Rumıniya, Türkiyə və Yuqoslaviya arasında yaradılmış sərhədlərin pozulmazlığı prinsipinə əsaslanan regional hərbi-siyasi bloka, yəni Balkan Antantasına daxil olmaqdan boyun qaçırdı.

Bolqarıstanın "Xalq bloku" hökuməti xarici siyasətində antisovet xətti götürmüşdü. Milli mənafeyin ziddinə olaraq, hökumət SSRİ ilə nəinki diplomatik əlaqələr, hətta yalnız sabit sovet bazarı ilə qarşılıqlı faydalı ticarət vasitəsilə bolqar iqtisadiyyatında davam edən böhran vəziyyətindən çıxarmaq

üçün yeganə çıxış yolu olan ticarət münasibətləri belə yaratmaq istəmirdi. Bolqarıstan hökuməti Sovet dövlətinin təcavüzkara tərif verilməsi haqqında saziş bağlamaq və təhlükəsizliyi təmin etmək sahəsində tədbirlər görmək təkliflərinə qoşulmaqdan imtina etdi.

1934-cü ilin mayında dövlət çevrilişindən sonra hakimiyyətə gələn K.Georgiyev hökuməti Fransa və Yuqoslaviya ilə yaxınlaşmağa çalışırdı. Bu, saray adamlarının və burjuaziyanın almanpərəst dairələrinin narazılığına səbəb oldu. K.Georgiyev hökuməti öz vəziyyətini möhkəmlətmək üçün xarici siyasət sahəsində mühüm addım atdı – 1934-cü ilin iyulunda SSRİ ilə diplomatik münasibətlər yaratdı. 1934-cü ildə Bolqarıstan və Yuqoslaviya arasında ticarət müqaviləsi və baytarlıq konvensiyası imzalandı, ictimai və mədəni əlaqələr genişləndi. 1934-cü il sentyabrın sonlarında Yuqoslaviya kralı Aleksandr Bolqarıstana rəsmi səfərə gəldi.

K.Georgiyevin hakimiyyətdən uzaqlaşdırılması və hakimiyyətin, tədricən, çar III Borisin əlində cəmləşməsi Bolqarıstanın xarici siyasətində dəyişikliyə səbəb oldu. Almaniya ilə yaxınlaşmaq siyasəti önə keçdi, çünki Almaniya artıq Avropaya meydan oxuyurdu. 1936-cı ildə çar III Boris A.Hitlerlə görüşdü. Bundan sonra Bolqarıstanın xarici ticarəti, əslində, Almaniyanın ixtiyarına keçdi. Bolqarıstan üçün faydalı olmayan ticarət sazişi imzalandı. Bu sazişdən sonra Bolqarıstanın xarici ticarətində Almaniyanın payı birdənbirə idxal üzrə 1929-cu ildəki 22,2%-dən 43%-ə qədər artdı.

1929-cu ildə Almaniyadan silah və hərbi materiallar almaq üçün 4 450 milyon lev məbləğində kredit alınmışdı. Bolqarıstanda Almaniyanın inşa etdiyi Reyn-Mayn-Dunay kanalı ilə birləşəcək strateji dəmir yolları çəkmək üçün planlar hazırlandı.

1934-cü ilin sonunda Almaniyanın payı Bolqarıstannın idxal həcminin kifayət qədər yüksək 40,5%-ni və ixrac həcminin 42,7%-ni təşkil edirdi. 1938-ci ildə Almaniya Bolarıstana silah almaq üçün 30 milyon reyxsmark kredit vermişdir.

1939-cu ildə Almaniyanın payı Bolqarıstanın idxal həcminin yüksək 65,5%-ni və ixrac həcminin 67,8%-ni təşkil edirdi. Sink, qurğuşun və başqa əlvan metalların hasilatı artıq Almaniya konsernlərinin nəzarəti altında idi, alman bankları və şirkətləri "Orqanizasiyon Todt", "Hermann Goering", İ.G Farben, AEG, Siemens, "Balkantabak", "Reemstma" bir çox müəssisələrə nəzarət edirdi. Alman Dresdner Bankı Bolqarıstan Ticarət Bankını öz üzərinə götürmüşdür. Almaniyadan sonra ikinci yeri tutan İtaliya Bolqarıstana ixrac edilən malların 6,8%-nə, oradan idxal edilən malların isə 6,1%-nə malik idi.

Bolqarıstan faşist Almaniyası ilə qərb demokratiyası arasında qarşıdurmanın dərinləşməsi şəraitində birtərəfli siyasətdən imtina edərək, balanslaşdırılmış xarici siyasət aparmağa cəhd göstərdi. Bu öz nəticəsini verdi. 1938-ci il iyulun 31-də Salonikdə Bolqarıstan hökumətinin sədri Q.Koseivanov Balkan Antantası ilə zor tətbiq etməmək haqqında saziş imzaladı.

Bunun müqabilində silahlanma sahəsində Neyi müqaviləsinin məhduduyyətləri Bolqarıstanın üzərindən götürüldü. Salonik sazişinin arxasında Böyük Britaniya dururdu. Almaniyanın Balkanlarda mövqeyinin güclənməsinin qarşısını almağa çalışan İngiltərə Bolqarıstanın Balkan Antantasına qoşulmasında maraqlı idi. 1937-ci ildə Bolqarıstanla "əbədi dostluq" haqqında müqavilə bağlamış Yuqoslaviya da Münhen sazişindən sonra Balkan Antantasına olan ümidini itirərək, Bolqarıstanla yaxınlaşdı.

Buna baxmayaraq, Bolqarıstanda Almaniyaya meyl edən qüvvələr çoxluq təşkil edirdi. Odur ki, Hitler və Mussolininin xarici siyasət xəttini müdafiə edən bolqar hökuməti İtaliyanın Həbəşistanı işğal etməsini, İspaniyaya qarşı təşkil edilən italyan-alman silahlı müdaxiləsini, Hitler Almaniyasının Avstriya və Çexoslovakiyanı zəbt etməsini alqışladı. 1939-cu ilin oktyabr ayında Q.Koseivanovun oyuncaq hökuməti Sovet İttifaqının dostluq və qarşılıqlı yardım haqqında müqavilə imzalamaq təklifini rədd edərək, bolqar xalqının milli mənafeyinin əksinə olaraq, ərazi problemlərini həll etmək arzusu ilə Hitler Almaniyası tərəfindən müharibədə iştirak etmək hazırlığına başladı.

1920–1930-cu illərdə bolqar xalqının mədəniyyətinin inkişafında müsbət dəyişikliklər baş vermişdir. Ölkədə təhsil və maarifin inkişafı üçün əlverişli şərait yaranmışdı. İbtidai, orta, sənət məktəbləri şəbəkəsi artmışdı. 1921-ci ildə A.Stamboliyski hökuməti icbari 7 illik təhsilə keçmək haqqında qərar qəbul etdi. Təhsil sahəsində hökumətin yeritdiyi siyasət

müxtəlif növ məktəb şəbəkəsinin genişlənməsində əsas rol oynadı. Artıq 1939-cu ildə Bolqarıstanda 5 ali təhsil müəssisəsi fəaliyyət göstərirdi. Sofiya Universitetində yeni tibbi, aqronomluq və veterinarlıq fakültələri açılmışdı. Varna və Sviştovda iqtisadi institutları fəaliyyətə başlamışdı.

1920–1930-cu illərin ədəbiyyatında inqilabi istiqamət açıq hiss olunurdu. Q.Milevin 1925-ci ildə qələmə aldığı "Sentyabr" poemasında, A.Straşimirovun 1926-cı ildə yazdığı "Xorovod" romanında, L.Stoyanov, O.Vasilyev, N.Furnaciyevin əsərlərində inqilabi mövzusu mərkəzi yer tuturdu. N.Vaptsarovun "Motor mahnıları" ("Pesni motora") toplusu ölümündən sonra Beynəlxalq Sülh Mükafatına layiq görülmüşdür. Dramaturq S.Kostov, şair Y.Baqryana, nasir A.Karaliyçev, Y.İovkovun yaradıcılığında demokratik dəyərlər önə çıxmışdır.

1920–1930-cu illərdə bolqar təsviri incəsənət yaradıcılığında akademizm və müasir qərb istiqaməti önə çıxırdı. Məişət mövzusunda İ.Mırkviçka, İ.Angelov, tarixi rəsm əsərləri mövzusunda N.Pavloviç, N.Kojuxarov, portret ustaları N.Mixaylov, A. və B.Mitovlar, mənzərə rəssamları A.Mixov, N.Tanyev, N.Petrov, A.Mutafov öz əsərləri ilə incəsənətin inkişafına böyük töhfə vermişlər.

1920–1930-cu illərdə Bolqarıstanda opera sənəti yeni əsərlərlə zənginləşmişdir. Sofiya Xalq Operası 1921-ci ildə Bolqarıstan Opera Cəmiyyətinin bazasında yaradılmışdır. Teatrda opera qrupu 1930-cu illərdə meydana gəlmişdir. İfaçılar arasında H.Morfova, S.Makedonski, M.Popov və d.

seçilib. Onlar dünya şöhrəti qazanmışdır. 1926–1936-cı illərdə təşkil edilmiş 60 opera əsərinin 10-u bolqar müəlliflərinə, o cümlədən P.Vladigerov, P.Sqaynov və b. məxsus idi. Q.Amanasovun Sofiyada 1925-ci ildə səhnələşdirdiyi "Rənglər" ("Цвета") operası böyük şöhrət qazanmışdı. 1936-cı ildə P.Vladigerov "Çar Kaloyan" ("Царь Калоян"), 1937-ci ildə L.Pipkov "Yananın doqquz qardaşı" ("Девять братьев Яны") operalarını bəstələdilər ki, bunlar da milli klassik əsərlər sırasına daxil olmuşdur.

1928-ci ildə A.Petrovun H.Delibanın "Koppeliya" baletini səhnələşdirməsi peşəkar bolqar baletinin başlanğıcı hesab edilir. 1927-ci ildə rəqqas, xoreoqraf və pedaqoq A.Petrov ölkədə ilk balet məktəbi açmışdır. Sofiya Xalq Operasının solistləri Y.Voronova, A.Mavolov, S.Arova, L.Beron, L.Kolçakova və b. həmin məktəbin məzunlarındandır. 1937-ci ildə A.Petrov milli rəqs folklorundan istifadə edərək, X. və Z.Manolovların "İlan və Yana" ("Змей и Яна") baletini səhnələşdirdi.

1919-cu ildən 1930-cu illərin əvvəllərinə kimi ölkədə fəaliyyət göstərən "Lunafilm" təşkil olundu ki, bu da əsasən, bolqar müəlliflərinin ədəbi əsərlərini ekranlaşdırır, komediya və melodram çəkirdi. Tədricən, sosial problemlər və milli-azadlıq mübarizəsindən bəhs edən kinofilmlər meydana gəlməyə başladı. Rejissor V.Qendov 1933-cü ildə birinci bolqar səsli filmi olan "Qulların üsyanı" ("Бунт раба") filmini çəkdi. 1939-cu ildə ilk dövlət kino təşkilatı olan "Bolqar işi" ("Болгарское дело") yaranmışdır.

Bu illərdə teatr səhnəsinin inkişafında aktyor və rejissor N.O.Massolitinovun rolu böyükdür. Onun Xalq Teatrı nəzdində yaratdığı dram məktəb-studiyası Y.Yovkov, S.Kostov, P.Stoyanov kimi yazıçılarla əməkdaşlıq edərək, bolqar dramaturgiyasının inkişafına təkan vermişdir. 1920–1930-cu illərdə rejissorlar İ.Daniel, X.Pankov, Q.Milev, aktyorlar K.Kisimov, Q.Stamatov, P.Qerqanova, V.Trandatilov xalq arasında geniş şöhrət qazanmışdılar.

Ümumən, 1920–1930-cu illərdə bolqar mədəniyyətində milli şüurun inkişafına yönəldilən mövzular ön plana çıxır. Bunun üçün keçmişdə qüdrətli və güclü Bolqar dövlətinin rəmzi olan Birinci və İkinci bolqar çarlıqlarının tarixi hadisələri qayğı ilə oxucuya təqdim edilirdi. Asparux xan, çar Simeonun qəhrəmanlıqlarına dair çoxlu roman, dram, opera, kinofilmlər yaranır və xalqın yaddaşında əbədi olaraq həkk edilirdi. Xüsusilə, slavyan tayfalarının birliyinin müdafiəçisi Asparux xanın allahlar tərəfindən müqəddəs başçı seçilməsi bütün slavyan xalqlarının, o cümlədən bolqarların milli fəxri və qürur mənbəyidir. Əslində, bolqar bədii yaradıcılğındakı qəhrəman və romantik obrazlar xalqın milli hislərini oyadaraq, vətən torpaqları sərhədlərində birliyi tərənnüm edir. Nəticədə, bədii yaradıcılıq ustalarının, tarixçı, filosof, publisist, elm adamlarının tarixiliyə, yəni hadisələrin izahında tarixi prinsipə əsaslanmaları 1920–1930-cu illərdə bolqar milli şüurunun inkişaf edib möhkəmlənməsinə səbəb oldu.

# VIII FƏSİL

## BOLQARISTAN İKINCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ

İkinci Dünya müharibəsi başladıqda Q.Koseivanovun hökuməti Bolqarıstanın bitərəfliyini elan etsə də, ölkə böyük güclərin cazibə mərkəzində dayanırdı. Yaranmış beynəlxalq vəziyyətlə əlaqədar, SSRİ Bolqarıstanı öz siyasəti dairəsinə çəkməyə çalışırdı. 1934-cü ildə bolqar-sovet diplomatik münasibətlərinin bərpasından 1939-cu ilin ortalarına qədər Xalq Xarici İşlər Komissarlığı Bolqarıstana Balkanlardakı "müşahidə məntəqəsi" kimi baxırdı və SSRİ həm də sərhədlərinin təhlükəsizliyini təmin edən sistem yaratmağa səy göstərirdi. Bolqarıstanda Sovet təbliğatını genişləndirmək üçün əlverişli zəmin yaranmışdı. Sovet qəzetləri, kitabları, kinofilmləri ölkədə böyük maraq doğururdu. Bolqarıstan ictimaiyyətinin böyük bir hissəsi SSRİ-də baş verən hadisələri ideallaşdırır və hər bir neqativ informasiyanı yalan kimi qəbul edirdi. Bununla yanaşı, Bolqarıstanda mövqeləri kifayət qədər möhkəm olan Berlin Moskvaya güzəştə getmək istəmirdi. Ümumbalkan müdafiə bloku yaratmaq niyyətində olan İngiltərə və Fransa isə SSRİ və Almaniyaya qarşı mövqe tutmuşdu.

Birinici Dünya müharibəsində olduğu kimi, xarici siyasətdə müxtəlif istiqamətlər Bolqarıstanın daxili siyasi qüvvələrini parçalayan əsas amilə çevrilmişdi. 1939-cu ilin dekabrı – 1940-cı ilin yanvarında Xalq Məclisinə seçkilər keçirildi. Seçkilərdə müharibədə bitərəflik, həm Almaniya, həm də SSRİ ilə münasibətlərin inkişaf etdirilməsinin və milli ərazi problemlərinin sülh yolu ilə həll olunmasının tərəfdarı olan hökumət qələbə çaldı, parlamentdə 160 yerdən 140-nı aldı. 1940-cı ilin fevralında Q.Koseivanovun istefasından sonra B.Filov başda olmaqla yeni hökumət təşkil edildi. Lakin hakim dairələrdə yekdil fikir yox idi. Çar Boris isə onları məzəmmətləyərək qeyd edir ki, “mənim generallarım almanofil, diplomatlarım anqlofil, çariça italyanofil, xalq isə rusofil əhval-ruhiyyədədir. Təkcə mən bolqarofiləm”.

Bəhs etdiyimiz dövrdə Bolqarıstanın xarici siyasətinin qarşısında Dobruca və Frakiya məsələsinin Bolqarıstanın xeyrinə həll edilməsi vəzifəsi dururdu. Frakiyanın Bolqarıstana birləşdirilməsi onun Egey dənizinə çıxışını təmin etmək baxımından vacib sayılırdı. Makedoniya məsələsi əhəmiyyətini itirməsə də, şəraitdən asılı olaraq, hələlik arxa plana keçdi. Yaranmış əlverişli vəziyyət, xüsusilə SSRİ-nin Bessarabiyanı və Şimali Bukovinanı tutması Cənubi Dobrucanın Bolqarıstana qaytarılması üçün Rumıniyaya qarşı iddianın təkid ilə irəli sürülməsinə şərait yaratmış oldu. 1940-cı il avqustun 19-da iki ölkə arasında başlanan danışıqlar 1940-cı il sentyabrın 7-də Krayov müqaviləsinin imzalanması ilə nəticələndi, 400 min nəfər əhalisi olan Cənubi Dobruca ərazisi Bolqarıstana keçdi.

Krayov müqaviləsi ilə əlaqədar yaranan ruh yüksəkliyi tezliklə narahatlıqla əvəz olundu. Yaranmış şərait Bolqarıstana manevr etmək imkanı vermirdi. 1940-cı ilin oktyabrında Almaniya ona sentyabrda yaranan Üçlər paktına daxil olmağı təklif etdi. İtaliya isə Bolqarıstanı Yunanıstana qarşı birgə əməliyyatlara sövq etdi. Böyük Britaniya Bolqarıstanı alman qoşunlarını ölkəyə buraxacağı təqdirdə onun ərazisini hərbi meydana çevirəcəyi ilə hədələdi. Çar Boris Almaniyanı, İtaliyanı, Böyük Britaniyanı Bolqarıstanın loyallığına inandırmaq üçün bütün qüvvə və bacarığını işə saldı. Bunun ardınca, Sovet İttifaqı 1940-cı ilin noyabrında Bolqarıstana qarşılıqlı yardım haqqında pakt bağlamağı təklif etdi.

Bolqar ictimaiyyəti SSRİ-nin təklifi haqqında Bolqarıstan Fəhlə Partiyasının sənədləri vasitəsilə xəbər tutdu. BFP 1938–1939-cu illərdə BKP (s.s.) və FP-nin birləşməsindən yaranıb. Partiya bu məlumatı o dövrdə Kominternin baş katibi vəzifəsində çalışan G.Dmitrovdan almışdı. Bu məlumatı fəaliyyətə başlamaq üçün siqnal kimi qəbul edən BFP 1940-cı il noyabrın 25-də SSRİ-nin təklifinin müdafiəsi üçün geniş kampaniyaya başladı. SSRİ XXİK V.M.Molotov bu təklifi açıqlamaqla "kobud səhv" buraxdığını G.Dmitrovun nəzərinə çatdırdı. Öz növbəsində, o da təklifin gizli saxlanıldığı BFP-yə anlatsa da, artıq gec idi. Bolqarıstanda SSRİ-nin təklifini bolqar hökumətinə ötürmüş bir diplomatın adı ilə "Sobolyev aksiyası" başladı. Bu aksiya bir müddət Bolqarıstana Almaniyanın təzyiqlərinə davam gətirməyə imkan verdi.

İtaliyanın Yunanıstanda hərbi əməliyyatları genişləndirmək cəhdinin uğursuzluğu Almaniyanın müttəfiqinə kömək etmək haqqında qərar verməsinə səbəb oldu. Bolqarıstan Rumıniyadkı alman qoşunlarını Yunanıstana göndərmək üçün "tranzit məntəqə" rolunu oynamalı idi.

1940-cı il dekabrın 13-də Hitler Yunanıstana hücüm etmək məqsədi ilə kod adı "Marita" olan 20 saylı direktivi imzaladı. Plana əsasən, 12-ci alman ordusu 8-ci aviakorpusun koməyi ilə Bolqarıstanın ərazisindən Yunanıstana hücum etməli idi. 1941-ci il yanvarın 3-də Bolqarıstanın Baş naziri Boqdan Filov Avstriyanın Zalsburq şəhərində gizli şəraitdə Almaniyanın xarici işlər naziri İoahim fon Ribbentropla, yanvarın 4-də isə Berqhofda Hitlerlə görüşdü və tərəflər Bolqarıstanın Üçlər paktına qoşulmasının şərtlərini razılaşdırdılar. 1941-ci il fevralın 2-də Bolqarıstan və Almaniya alman ordularının Bolqarıstanın ərazisində yerləşdirilməsinə dair protokol imzaladılar. Bolqarıstan Yunanıstan və Yuqoslaviyaya qarşı fəal hərbi əməliyyatlar aparmaqdan imtina etdi, lakin Türkiyə ilə sərhəddə 6 diviziyadan ibarət sərhəd qoşunları yerləşdirməyə razı oldu. 1941-ci il martın 1-də Vyanada Bolqarıstanın Roma-Berlin-Tokio paktına qoşulamasına dair sənəd imzalandı. 1941-ci il martın 2-də 12-ci alman ordusu Rumıniyanın ərazisindən Bolqarıstana daxil oldu, eyni zamanda, 8-ci aviakorpus hissələri də ölkə ərazisində yerləşdirildi. Buna cavab olaraq, Böyük Britaniya 1941-ci il martın 5-də Bolqarıstanla diplomatik əlaqələri kəsdi. 1941-ci il aprellin 6-da alman qoşunları Üçüncü Reyxin müttəfiqinə çevrilmiş

Bolqarıstanın ərazisindən Yuqoslaviya və Yunanıstana hücum etdi.

1941-ci il aprelin ortalarında bolqar qoşunları Serbiyanın cənub-şərq rayonlarını, Makedoniyanın Vardar ərazisinin böyük bir hissəsini və Qərbi Frakiyanı işğal etdi. Ölkə ictimaiyyəti bu hadisələri böyük ruh yüksəkliyi ilə qarşıladı, rəsmi təbliğat çar Borisi "birləşdirici" adlandırdı. Bolqarıstanın işğalçılıq siyasəti nəticəsində 1940-cı ilin sentyabrından 1941-ci ilin aprelinə kimi 1,9 milyon nəfər əhalinin yaşadığı 42 466 $km^2$ ərazi Bolqarıstana birləşdirildi. Beləliklə, Qara dənizdən Egey dənizinə kimi Böyük Bolqarıstan meydana çıxdı. İşğal edilmiş ərazilərdə vətəndaş inzibati orqanları, o cümlədən yerli tərəfdarlardan ibarət "Mühafizəçilər" ("Oxrana") hərbiləşmiş birliklər yaradıldı. 1941-ci il aprelin 24-də Bolqarıstanın xarici işlər naziri İvan Popov və alman diplomatı Karl Klaudius Üçüncü Reyxə Bolqarıstanın yeraltı sərvətlərinin işlənməsi və emalına icazə verən gizli saziş imzaladılar. Bolqarıstan Üçüncü Reyxə Yuqoslaviyanın borclarını, Bolqarıstandakı alman qoşunlarının hərbi xərclərini ödəməyi öz üzərinə götürmüşdü. Üçüncü Reyxə kömək üçün minnətdarlıq əlaməti olaraq, Almaniya qənimət kimi ələ keçirdiyi 11 Yuqoslav bombardmançı hərbi təyyarəsini və 40 fransız "R-35" tankını Bolqarıstan ordusuna verdi.

Lakin tezliklə Almaniyanın SSRİ-yə hücumundan sonra, baş nazir B.Filovun qeyd etdiyi kimi, ölkədəki yüksək əhval-ruhiyyə ruh düşgünlüyü ilə əvəz olundu. BFP MK Siyasi Bürosu silahlı mübarizə haqqında qərar qəbul edərək, bolqarları "öz

ərazisindən və silahlı qüvvələrindən almanların işğalçılıq planlarını həyata keçirməyə imkan verməməyə" çağırdı. Buna cavab olaraq, 1941-ci ilin iyulunda hökumət Xalq Məclisinə seçilmiş BFP deputatlarını mandatdan məhrum etdi, 200 nəfərə kimi partiya fəalı həbs düşərgələrinə göndərildi. 1942-ci ildə ələ keçirilmiş BFP MK-nın işçiləri ölüm cəzasına məhkum olundular.

Bununla yanaşı, hökumət SSRİ-yə qarşı müharibəyə girməkdən açıq şəkildə imtina etdi. 1941-ci il dekabrın 13-də Bolqarıstan ABŞ və Böyük Britaniyaya müharibə elan etməsinə baxmayaraq, SSRİ ilə diplomatik münasibətləri saxlayırdı. Bolqarıstanın Şərq cəbhəsində Almaniyaya köməyi yalnız qış kampaniyasında tibb heyətindən təşkil edilmiş bir sanitar qatarı ilə məhdudlaşdı.

SSRİ-yə qarşı müharibəyə girməsə də, Bolqarıstanın rəsmi dairələri Almaniya qarşısında bəzi antisemit addımlar atdı. 1943-cü ilin fevralında 20 min yəhudinin Polşaya deportasiyası haqqında bolqar-alman sazişi imzalandı. Bolqarıstan bu planı işğal etdiyi "yeni torpaqlarda" həyata keçirdi. Makedoniya və Frakiyanın 11363 yəhudi əhalisi Polşaya deportasiya edildi. Yəhudilərin Bolqarıstandan deportasiyası parlamentin deputatları daxil olmaqla, ictimaiyyətin geniş dairələrinin ciddi müqavimətinə səbəb oldu. Yaranmış hərbi və siyasi vəziyyətlə əlaqədar, hakimiyyət orqanları yəhudilərin Bolqarıstandan deportasiyasına etiraz etdi, onları yalnız böyük şəhərlərdən köçürmək haqqında qərar qəbul olundu.

Alman ordusunun 1942-ci il oktyabrın 23-dən noyabrın 4-nə kimi Əl-Ələmeyn, 1942-ci il noyabrın 19-dan 1943-cü

il fevralın 2-nə kimi Stalinqrad hərbi əməliyyatlarında ağır məğlubiyyətə uğraması çar Borisi ingilis-amerikan dairələri ilə əlaqə yaratmağa sövq etdi. Bolqarıstanın müharibədən çıxmasının qarşısını almaq məqsədilə A.Hitler 1943-cü ilin avqustunda çar Borislə görüşdü. Sofiyaya geri dönərkən, çar Boris avqustun 28-də vəfat etdi. Onun ölümü bolqar ictimaiyyəti üçün ağır bir itki oldu və gələcəyə inamı sarsıtdı. Bolqarıstanda rəhbərlik azyaşlı çar Simeonun yanında çarın qardaşı knyaz Kirillin başçılığı ilə yaradılmış qəyyum şurasına və D.Bojilovun başçılıq etdiyi yeni hökumətə keçdi. İngilis-Amerika aviasiyası Sofiya və başqa şəhərləri bombalamağa başladı və bunun nəticəsində iki min nəfər dinc əhali həlak oldu. Beləliklə, Bolqarıstanın ABŞ və İngiltərə ilə "simvolik" müharibəsi 1943-cü ilin axırında real xarakter aldı.

Ölkədə partizan hərəkatı fəallaşdı. 1943-cü ilin ortalarında onların sayı 700, 1943-cü ilin sentyabrında isə bir neçə min nəfərə çatırdı. BFP-nin qərarına əsasən, terror aktları ilə məşğul olan dəstələr üsyançı Xalq Azadlıq Ordusuna birləşdi. 1943-cü ilin avqustunda BFP, N.Petkov başda olmaqla BƏXİ, Q.Çeşməciyevin rəhbərliyi ilə BFSDP və "Zveno" Vətən Cəbhəsinin Milli Komitəsini yaratdılar.

Hakim dairələr qüvvələrini partizan hərəkatının yatırılmasına yönəltdi. Hökumət 1943-cü ilin oktyabrında partizanların yerindəcə güllələnməsi haqqında sərəncam verdi. 1944-cü ildə Xalq Məclisi partizanlarla mübarizə üçün xüsusi qrup – jandarmeriya yaradılması haqqında qanun qəbul etdi. 1944-cü il iyunun 1-də İ.Baqryanov Nazirlər Kabinetinin yeni başçısı

oldu. Hökumətin tərkibinə ölkənin xarici siyasət kursunda dəyişiklik tələb edən və onun əksinə çıxan qüvvələrin nümayəndələri daxil edildilər. Bu, İ.Baqryanovun kabinetini o dövrdə vacib olan çeviklikdən məhrum etdi. Alman rəhbərliyindən qoşunlarını ərazisindən çıxarmağı yalnız sovet qoşunları Bolqarıstan sərhəddinə yaxınlaşanda tələb etdi. Baş qərargah isə öz qoşunlarının Yuqoslaviya ərazisindən çıxarılması haqqında qərar qəbul etdi. Lakin İkinci Dünya müharibəsində Almaniyanın müttəfiqi olan Bolqarıstanın atdığı bu addım SSRİ-ni razı sala bilməzdi.

Ölkəni milli fəlakətdən xilas etmək məqsədilə Naiblər Şurası BƏXİ – "Vrabça-1" liderlərindən biri K.Muraviyevə geniş koalisiya əsasında hökumət – "milli birlik hökuməti" təşkil etməyi tapşırdı. Milli Cəbhə burada iştirak etmədiyindən, hökumət 1944-cü il sentyabrın 2-də yalnız üç partiya – BƏXİ – "Vrabça-1", Demokratik Partiya və Xalq Tərəqqipərvər Partiyasının nümayəndələrindən təşkil edildi.

Hökumət siyasi partiyaların fəaliyyətini qadağan edən qanunları ləğv etdi, jandarmeriyanı buraxdı, siyasi məhbuslara əfv elan etdi, antisemit qanunları aradan qaldırdı. Xarici siyasət sahəsində K.Muraviyevin kabineti Qahirədəki ingilis-Amerika komandanlığı ilə danışıqlar apararaq, Bolqarıstanın qəti bitərəf qalacağı öhdəliyini götürdü. Buna baxmayaraq, Bolqarıstanın Almaniyaya qarşı müharibəyə başlamasında təkidli olan SSRİ 1944-cü il sentyabrın 5-də Bolqarıstana müharibə elan etdi.

Yaranmış şəraitdə BFP MK-sı 1944-cü il avqustun 26-da əhaliyə müraciət edərək, Vətən Cəbhəsi komitələrini yaratmağa

çağırdı. Ölkədəki özbaşınalıq şəraitində yerli idarə komitələri yerlərdə hakimiyyəti öz əlinə almağa başladı. Sovet qoşunları sentyabrın 8-də Bolqarıtsana daxil oldular. 1944-cü il sentyabrın 8-dən 9-na keçən gecə Vətən Cəbhəsi hakimiyyəti ələ aldı. K.Muraviyev kabinetinin üzvləri həbs olundular. Yeni yaranmış Vətən Cəbhəsi hökumətinə Zveno Xalq İttifaqının rəhbəri K.Georgiyev başçılıq etdi. 1944-cü ilin ortalarında Naiblər Şurası da dəyişdirildi. Atılan addımlar böhrandan çıxmağa və ölkəni fəlakətdən qurtarmağa yönəldiyindən, Vətən Cəbhəsi Milli Komitəsinin fəaliyyəti heç bir müqavimətə rast gəlmədi.

1944-cü il sentyabrın 5-də Bolqarıstanın ərazisində 30 min alman hərbi qulluqçusu var idi. Sentaybrın 5-də 3-cü Ukrayna cəbhəsinin ordusu Qara dəniz donanması ilə birlikdə Dobrucada rumın-bolqar sərhədini keçərək, ölkə ərazisində irəliləməyə başladı. Bolqarıstandakı hərbi əməliyyatlarda Qızıl Ordu bolqar ordusunun müqavimətinə rast gəlmədi, əhali isə ordunu güllər və qırmızı bayraqlarla qarşıladı. Hərbi əməliyyatlarda 30 minə yaxın yerli partizan da iştirak edirdi. 1944-cü il sentyabrın 7-də 3-cü Ukrayna cəbhəsinin komandanı F.İ.Tolbuxinin bolqar ordusu və bolqar vətəndaşlarına müraciəti çap edilmiş vərəqələr təyyarələrdən atıldı. Sentyabrın 8-də Bolqarıstan Almaniyaya müharibə elan etdi.

Bolqarıstan Berlin paktına qoşulduqdan sonra, ölkənin iqtisadiyyatı tamamilə Almaniyanın nəzarəti altına keçmişdir. 1940-cı ilin iyununda Bolqarıstan hökümətinin nəzdində Üçüncü Reyxlə ticarət və iqtisadi əməkdaşlıq məqsədilə

xarici ticarət Direksiyası təşkil edilmişdir. Bolqarıstandan ərzaq və başqa malların Almaniyaya daşınması nəticəsində ölkəyə dəymiş ziyan 1941-ci ilin sonunda 7,4 milyard, 1942-ci ilin sonunda 13,4 milyard, 1943-cü ilin sonunda 20,3 milyard, 1944-cü ilin sentyabrında 28,2 milyard lev həcmində idi. 1944-cü ilin sentyabrında Almaniyanın Bolqarıstana xarici borcu 70 milyard lev təşkil edirdi.

1944-cü il sentyabrın 16-da Sovet ordusu Sofiyaya daxil oldu. Həmin gün Bolqarıstanın sabiq baş naziri A.Tsankov Vyanada mühacir Bolqarıstan Milli hökumətinin yaranmasını elan etdi və Üçüncü Reyxin köməyi sayəsində fəaliyyətə başladı.

1944-cü il sentyabrın 19-da Vətən Cəbhəsi hökuməti səfərbərlik elan etdi. Oktyabrın 10-da Yunanıstanın işğal edilmiş ərazilərindəki məmurlar və inzibati orqanların əməkdaşları, oktyabrın 11–25-də isə bolqar hərbi hissələri çıxarıldı. 1944-cü il oktyabrın 28-də Moskvada Bolqarıstanla SSRİ arasında barışıq imzalandıqdan müharibə başa çatana kimi Sovet İttifaqı Bolqarıstana beş piyada diviziyasını təhciz edəcək qədər silah və sursat vermişdi. Bundan əlavə, Bolqarıstan Xalq Ordusuna hərbi müşavir kimi 33 sovet zabiti ezam edilmişdi.

Bolqarıstan ordusu Yuqoslaviya, Macarıstan, Avstriyanın ərazisində alman ordusuna qarşı hərbi əməliyyatlarda iştirak etdi, Belqrad və Kumanovo şəhərlərinin azad edilməsində Yuqoslaviya Xalq Azadlıq Ordusunun hərbiçiləri ilə birlikdə döyüşdü. 1944-cü il sentyabrın 9-dan sonra bolqar hərbi hava qüvvələri 350 uçuş həyata keçirərək, alman ordusunun üstünə bomba yağdırdı. Bolqar ordusunun hərbi əməliyyatları

nəticəsində alman qoşunları öldürülmək və əsir düşməklə, 69 min hərbçi, 21 təyyarə, 75 tank, 937 top və minaatan, 4 min avtomobil və nəqliyyat vasitəsi, 71 qatar, 5769 vaqon, küllü miqdarda silah-sursat, hərbi əmlak itirmişdi. 1944-cü ilin sentyabrından müharibənin sonuna kimi almanlar və onların müttəfiqlərinə qarşı hərbi əməliyyatlarda bolqar ordusunun 31910 döyüşçüsü həlak oldu. Bundan əlavə, 1941-1945-ci illərdə SSRİ vətəndaşlığı alan bolqar vətəndaşları, siyasi mühacirlər, antifaşist hərəkatı iştirakçıları hərbi qulluqçu kimi Qızıl Ordu sıralarında və SSRİ-nin işğal edilmiş ərazilərində partizan hərəkatında fəal iştirak etmişlər. Rəsmi məlumata əsasən, Bolqarıstan antihitler koalisiyası tərkibində hərbi əməliyyatlarda iştirak edərkən 95 milyard lev vəsait sərf etmişdir.

# IX FƏSİL

## BOLQARISTAN 1940-cı İLLƏRİN ORTALARINDA – 1980-ci İLLƏRİN SONLARINDA

Bolqarıstanda nasist Almaniyası və onun müttəfiqlərinin İkinci Dünya müharibəsində məğlubiyyəti nəticəsində hakimiyyətə gələn Vətən Cəbhəsi faşizmin məhv edilməsini, milli faciənin təqsirkarlarının məsuliyyətə cəlb olunmasını, demokratik azadlıqların, iqtisadiyyatın bərpa olunmasını və demokratik islahatların həyata keçirilməsini başlıca vəzifələr elan etdi. Kommunistlərin dövlət idarələri orqanlarında əsas mövqelərə sahib olmaları, 1944–1948-ci illərdə Bolqarıstanda siyasi, sosial-iqtisadi dəyişikliklərin həyata keçirilməsi nəticəsində cəmiyyətin yeni "xalq demokratiyası" adlanan forması yarandı. Yeni cəmiyyətin xarakterik əlaməti köhnə siyasi formaların, yəni müharibəyə qədərki konstitusiyaların, çoxpartiyalı sistemin və s. saxlanılması və onların Kommunist Partiyasının aparıcı rolu, milli cəbhənin fəaliyyəti ilə uyğunlaşdırılması idi. Yeni cəmiyyət quruculuğu dövrünə daxil olan Bolqarıstan üçün İkinci Dünya müharibəsindən maksimum əlverişli və ərazi itkilərinə yol vermədən çıxmaq başlıca vəzifə hesab edilirdi.

Vətən Cəbhəsinin əsas işi Antihitler koalisiyası ölkələrinin etimadını qazanmaq və onların müdafiəsinə nail olmaq

idi. Yaranmış mürəkkəb şəraitdə ölkə əhalisinin böyük əksəriyyəti Sovet İttifaqına xüsusi ümid bəsləyirdi. SSRİ tərəfindən müdafiə olunan Bolqarıstan müharibənin son mərhələsində Almaniyaya qarşı çıxmaq imkanı qazanmışdı. 1944-cü ilin oktyabrında imzalanmış barışıq sazişinə əsasən, Bolqarıstanın hərbi hissələri Yuqoslaviya, Macarıstan və Avstriyanın azad edilməsi əməliyyatlarında iştirak etdi. Bununla da, Bolqarıstan müharibənin sonunda Antihitler koalisiyası dövlətləri tərəfində olduğunu göstərdi. Bolqarıstanın müttəfiqlərə qoşulması gələcəkdə qalib dövlətlərlə imzalayacağı müqavilələr üçün böyük əhəmiyyət daşıyırdı. 1945-ci ilin avqustunda SSRİ ilə diplomatik münasibətlərin bərpa olunması Bolqarıstan Fəhlə Partiyası ilə də bilavasitə əlaqələrin yaradılmasına təsir etdi. Nəticədə, ölkədə Bolqarıstan Fəhlə Partiyasının fəaliyyəti xeyli genişləndi və partiya ölkənin ən böüyük siyasi qüvvəsinə çevrildi. Adı dəyişdirilərək, Bolqarıstan Fəhlə (Kommunist) Partiyası adlandırıldı. 1944-cü ilin sentyabrında partiyanın sıralarında 13–14 min nəfər adam olduğu halda, ilin sonunda onların sayı 250 min nəfərə çatdı.

“Zveno” Xalq Ittifaqının nümayəndələrinin və kommunistlərin mühüm vəzifələr tutduğu Vətən Cəbhəsi kabineti dövlət aparatının bütün pillələrində “təmizləmə” apardı. Hökumətin qərarı ilə ölkədə 2 ali məhkəmə və 64 vilayət məhkəməsi yaradıldı. Məhkəmələr Bolqarıstanı Üçlər paktına cəlb edənləri, hərbi caniləri cəzalandırmaq məqsədilə yaradılmışdı. Məhkəmənin çıxardığı hökm qəti idi və ondan şikayət vermək olmazdı. Rəsmi məlumata görə, 1944-cü ilin oktyab-

rından 1945-ci ilin martına qədər olan müddətdə məhkəmə məsuliyyətinə 11 mindən artıq adam cəlb olunmuşdu. Onların içərisində Xalq Məclisinin deputatları, keçmiş nazirlər, polis işçiləri və b. var idi. Real olaraq, Xalq məhkəmələrindən 30 mindən 100 minə qədər adam keçmişdir. Ölüm cəzasına məhkum olunanların sayı 2730 nəfər, ömürlük həbs cəzası alanlar isə 1305 nəfər olmuşdur. Nəzərdə tutulurdu ki, bu tədbirlər sülh danışıqlarında Bolqarıstanın mövqeyinin möhkəmlənməsinə səbəb olacaq.

1945-ci ilin iyununda hökumət avqustun 26-da parlament seçkilərinin keçirilməsi haqqında qərar çıxardı. Parlament seçkilərinə hazırlıq ölkədə siyasi parçalanma prosesini sürətləndirdi. Vətən Cəbhəsində strategiya və taktika məsələlərində ziddiyyətlər BƏXİ və BFSDP-nin parçalanmasına gətirib çıxardı. Həmin partiyalardan ayrılmış qruplardan iki müxalifət partiyası – N.Petkovun başçılığı altında BƏXİ və başda K.Lulçev və Q.Çeşmeciyev olmaqla BFSDP yaradıldı. Hər iki partiya seçkilərin vaxtının dəyişdirilməsi uğrunda mübarizə aparırdı. Ölkədə seçicilərin öz iradələrini sərbəst həyata keçirməsi üçün zəruri şəraitin olmadığını əsas götürən ABŞ və Böyük Briyaniyanın Nəzarət Şurasındakı (Bu Şura Potsdam konfransında Almaniyanın işğalı prinsiplərini hazırlamaq məqsədilə yaradılmışdı) nümayəndələrinin təzyiqi altında seçkilər təxirə salındı.

Vətən Cəbhəsi hökuməti dörd müxalif partiyanı – N.Petkovun BƏXİ-ni, K.Lulçevin BFSDP-ni, həmçinin Birləşmiş Radikallar və Demokratik partiyalarını seçkilərə buraxdı.

Seçkilərə BƏXİ daha fəal qoşulmuşdu və onun rəhbəri N.Petkov seçkilərdə iştirak etmək üçün ilkin şərt kimi hökumətin istefasını tələb edirdi. Lakin bu tələb yerinə yetirilmədiyindən, N.Petkov tərəfdarlarını seçkiləri boykot etməyə çağırdı. BƏXİ partiyasını digər müxalifət qüvvələri də müdafiə etdi. 1945-ci il noyabrın 18-də keçirilmiş seçkilər Vətən Cəbhəsinin qələbəsi ilə başa çatdı, seçki məntəqələrinə gələnlərin 80%-i ona səs verdi. Lakin müxalifət seçkilərə qatılmadığı üçün ABŞ və Böyük Britaniya onun nəticələrini qəbul etmədi.

ABŞ, SSRİ və Böyük Britaniya Xarici İşlər nazirlərinin 1945-ci ilin dekabrında keçirilmiş müşavirəsində bolqar hökumətinə tövsiyə edildi ki, hökumətin tərkibinə müxalifət partiyalarının iki nümayəndəsini daxil etsin. Əslində, söhbət BƏXİ-in nümayəndəsi N.Petkovdan və BFSDP-nin nümayəndəsi K.Lulçevdən gedirdi. Onları K.Georgiyev hökumətinin tərkibinə daxil olmağa inandırmaq cəhdləri nəticə vermədi. Həmçinin onlar azad parlament seçkilərinin keçirilməsini, Daxili İşlər və Ədliyyə nazirliklərinin kommunistlərin diktəsindən azad olunmasını tələb edirdilər.

1946-cı ilin martında Xalq Məclisi qeyri-qanuni yolla əldə edilmiş (1935-ci il yanvarın 1-dən sonra) mülkiyyətin müsadirəsi haqqında qanun qəbul etdi. Yenə həmin ildə Xalq Məclisi aqrar islahat, yəni "torpaq əmək mülkiyyəti" haqqında qanunu təsdiq etdi. Bu qanun şəxsi torpaq mülkiyyətinin maksimum normasını müəyyənləşdirdi. Bu, Dobrucada 30 hektar, digər rayonlarda 20 hektar kimi qəbul edildi. 1946-cı ilin sonunda 3,6 min mülkiyyətçidən alınmış 56,4 min hektar və

dövlət fondundan ayrılmış 80 min hektar torpaq 124 min torpaqsız və az torpaqlı kəndlilərin istifadəsinə verildi. Xalq Məclisi orduya rəhbərlik və ona nəzarət haqqında qanun layihəsini də bəyəndi. Qanun tətbiqi nəticəsində, Komissiya tərəfindən ordudan 2,5 min zabit xaric edildi. "Zveno" təşkilatının nümayəndəsi D.Velçev Hərbi nazir vəzifəsindən azad olundu və həmin vəzifəyə BFP(k)-nin üzvü Q.Damyanov təyin olundu. Parlament tərəfindən 1946-cı ildə qəbul edilmiş qanunlar Kommunist Partiyasının mövqeyini xeyli möhkəmləndirdi.

1946-cı ilin iyulunda Xalq Məclisi dövlət idarəçiliyi forması haqqında məsələnin referenduma çıxarılması haqqında qərar qəbul etdi. Müxalifət partiyaları bundan hökumət əleyhinə təbliğat kampaniyası kimi istifadə etdilər. Onlar K.Georgiyevin kabinetini qeyri-demokratik, birpartiyalı və diktator hökuməti kimi xarakterizə etməyə başladılar. Bununla yanaşı, onlar Bolqarıstanda republika idarə formasının yaradılması uğrunda çıxış edirdilər. 1946-cı il sentyabrın 8-də sovet qoşunlarının ölkədə olması şəraitində Bolqarıstanda referendum keçirildi. Rəsmi məlumata əsasən, 4509354 nəfər səsvermə hüququ olan ölkə əhalisinin 91,63%-i referendumda iştirak etmiş, onların 92,72%-i monarxiya qurluşunun devrilməsi və respublika elan olunmasına tərəfdar olmuşdur. Monarxiya tərəfdarları referendumun nəticələrini şübhə altına alaraq bunun sovet ordusunun ölkədə olması ilə birbaşa əlaqəli olduğunu bildirdilər.

Buna baxmayaraq, 1946-cı il sentyabrın 15-də Xalq Məclisi Bolqarıstanı Xalq Respublikası elan etdi (BXP), çar ailəsi

ölkəni tərk etdi. Növbədə BXP-nin yeni konstitusiyası haqqında məsələ dururdu ki, bunu da Böyük Xalq Məclisi qəbul etməli idi. Böyük Xalq Məclisinə 1946-cı il oktyabrın 27-nə təyin olunmuş seçkilərə hazırlıq siyasi mübarizənin kəskinləşməsinə səbəb oldu. Nəzarət Şurasındakı ABŞ və Böyük Britaniya nümayəndələri ölkədə həqiqi azad seçkilərin keçirilməsi məsələsini irəli sürdülər. SSRİ isə Bolqarıstan hökumətinə, ABŞ və Böyük Britaniya rəyindən asılı olmayaraq, seçdiyi siyasi kursa əməl etməyi tövsiyə edirdi.

SSRİ-nin müdafiəsinə arxalanan Vətən Cəbhəsi seçkiqabağı kampaniyaya özünün hazırladığı yeni Konstitusiya layihəsinin təbliği əsasında başladı. 1946-cı il oktyabrın 27-də keçirilən seçkilər nəticəsində Vətən Cəbhəsi Böyük Xalq Məclisində 367 yer (275 yer BFP(k), 69 yer BƏXİ, 8 yer "Zveno" Xalq ittifaqı, 9 yer BFSDP, 1 yer müstəqil namizəd), müxalifət koalisiyası isə 99 yer aldı. 1946-cı ilin noyabrında formalaşmış hökumətdə 20 nazir portfelindən 10-nu kommunistlər aldılar. Baş nazir postunu 1945-ci ilin noyabrında SSRİ-dən vətənə qayıtmış G.Dmitrov tutdu. O həm də Böyük Xalq Məclisi tərəfindən yaradılmış Konstitusiya komissiyasının sədri idi.

Dimitrov Georgi Mixayloviç 1882-ci ildə Perniksk vilayətinin Kovaçevsk kəndində yoxsul sənətkar ailəsində doğulmuşdur. 1902-ci ildə BFSD Partiyasının, 1903-cü ildən onun "sıx sosisalistlər" bolşevik qanadının üzvü olmuşdur. 1909-cu ildən BFSD (sıx sosialistlər) Partiyası MK-nin üzvü olmuşdur ki, bu partiya 1919-cu ildə BKP-ya çevrilmişdir. 1923-cü

ildə sentyabr silahlı üsyanının rəhbərlərindən biri kimi, barəsində ölüm hökmü çıxarılmışdır. Əvvəlcə, Yuqoslaviyaya, sonra SSRİ və Almaniyaya qaçmışdır. 1933-cü il fevralın 27-də faşistlər tərəfindən Reyxstaqı yandırmaq iddiası ilə həbs edilmiş, 1933-cü ilin sentyabr-dekabr aylarında Leypsiq məhkəmə prosesində bəraət almışdır. Sovet vətəndaşlığı alan G.Dmitrov 1934-cü il fevralın 27-də SSRİ-yə gələrək, 1935-ci ildə Kominternin İcraiyyə Komitəsinin katibi seçilmişdir. 1943-cü il mayın 15-də Komintern buraxıldığı üçün o, ÜİK (b)P MK-nın Beynəlxalq (xarici) şöbəsinin rəhbəri təyin olunmuşdur. Sovet ordusu Bolqarıstanda kommunist rejimini bərqərar etdikdən sonra – 1945-ci il noyabrın 6-da G.Dmitrov Bolqarıstan Nazirlər Sovetinin sədri təyin edilmişdir. 1949-cu ilin yanvarından ictimaiyyətdən təcrid edilən G.Dmitrov rəsmi məlumata əsasən, SSRİ-də diabetdən vəfat etmişdir. 1990-cı ildə Bolqarıstanda kommunist rejimi yıxıldıqdan sonra onun cənazəsi saxlandığı mavzoleydən çıxarılaraq, dəfn edilmiş, 1999-cu ilin avqustunda isə mavzoley dağıdılmışdır.

1947-ci ilin fevralında Parisdə Bolqarıstanla sülh müqaviləsi imzalandı. SSRİ-nin bütün cəhdlərinə baxmayaraq, Bolqarıstan Antihitler koalisiyası üzvü statusunu almadı, lakin ərazi itkisinə də məruz qalmadı. Onun sərhədləri 1941-ci il yanvarın 1-dək olan sərhədlər çərçivəsində saxlanıldı. Müqavilənin qüvvəyə minməsindən sonra, Sovet qoşunları və fəaliyyətini dayandırmış Nəzarət Komissiyasının nümayəndələri 90 gün ərzində Bolqarıstanı tərk etməli idi. Bundan istifadə edən müxalifət BFP(k)-nin ləğvini, onun antifaşist

təşkilatı elan olunmasını tələb etdi. ABŞ Senatı sülh müqaviləsini təsdiq edən kimi Bolqarıstan hakimiyyəti N.Petkovun həbsi barədə sərəncam verdi. 1947-ci ilin sentyabrında Paris sülh müqaviləsi qüvvəyə mindikdən sonra BƏXİ-nin lideri N.Petkov barəsində çıxrılmış ölüm hökmü icra edildi. Müxalifətçi BƏXİ liderini ABŞ və Böyük Britaniyanın diplomatik müdaxiləsi, bir sıra ictimai xadimlərin, hətta Leypsiq məhkəməsində G.Dmitrovun müdafiəçisinin əfv barədə müraciətləri də xilas etmədi.

Petkov Nikola Dimitrov 1893-cü ildə Sofiyada anadan olmuş, 1922-ci ildə Sorbonna Universitetinin hüquq fakültəsini əla qiymətlərlə bitirmiş, BƏXİ-nın nümayəndəsi kimi Vətən Cəbhəsinin təşkilində iştirak etmişdir. 1944-cü il sentyabrın 9-da baş tutan çevrilişdən sonra 1944–1945-ci illərdə Vətən Cəbhəsinin birinci hökumətində portfelsiz nazir olmuş, kommunistlərin siyasətinə etiraz əlaməti olaraq istefa vermişdir. Parlament demokratiyasının, Bolqarıstanın SSRİ ilə deyil, Qərblə yaxınlaşmasının tərəfdarı olmuşdur. 1947-ci il iyun ayının 5-də kommunist rejimini tənqid etdiyi üçün həbs olunaraq avqustun 16-da casusluqda ittiham edilmiş, barəsində ölüm hökmü verilmişdir. Sentyabrın 22-də ölüm hökmü icra olunmuş, 1990-cı il yanvarın 15-də ölümündən sonra bəraət almışdır.

Kommunistlər Bolqarıstandakı sovet qoşunlarına və SSRİ-dən olan məsləhətçilərin fəaliyyət göstərdiyi təhlükəsizlik orqanlarına arxalanaraq, Milli Cəbhədəki müttəfiqlərini, tədricən, müxalifətə keçməyə məcbur edir və siyasi fəaliy-

yətdən kənara sıxışdırırdılar. Onlara qarşı müxtəlif saxta işlər və bəhanələr adi hal almışdı. Bu şəraitdə ətrafına faşist qruplaşması toplaması bəhanəsi ilə BƏXİ Partiyası buraxıldı. Tezliklə onun taleyini BFSDP də yaşadı və partiyanın bir sıra xadimləri həbs olundu.

Müxalifət partiyalarını təmsil edən deputatlardan təmizlənmiş Böyük Xalq Məclisi 1947-ci il dekabrın 4-də BXR-in Konstitusiyasını qəbul etdi. Konstitusiyaya görə, ölkədə qanunverici hakimiyyət Xalq Məclisinə, icra hakimiyyət Nazirlər Kabinetinə, yerli hakimiyyət isə 3 il müddətinə seçilən sovetlərə və onların icraiyyə komitələrinə məxsus idi. Xalq Məclisinin sessiyaları arasındakı dövrdə bütün hakimiyyət onun Rəyasət Heyətinə verildi.

1948-ci ildə fevralın əvvəllərində Vətən Cəbhəsinin 2-ci konqresi keçirildi. Konqresdə beş partiyanı birləşdirən Vətən Cəbhəsinin kütləvi ictimai təşkilata çevrilməsi qərara alındı. May-avqust ayında BFSDP-nin BFP (k) ilə birləşməsi baş verdi. Eyni zamanda, “Zveno” Xalq İttifaqı və Radikal Partiyası Vətən Cəbhəsinin tərkibinə daxil olaraq, orada əriyib getdi. BFP (kommunist) 1948-ci ildə Bolqarıstan Kommunist Partiyasına çevrildi, onun hakim rolunu BƏXİ-də qəbul etdi. Kommunist Partiyasının rəhbərləri Bolqarıstanın burjua demokratiyası yoluna qayıtmasına yol verməyəcəklərini açıq bildirdilər. Ölkədə formalaşan ikipartiyalı sistemdə Kommunist Partiyası hakim siyasi qüvvə kimi mövqeyini qoruyub saxladı.

Bolqarıstanda hakimiyyətini möhkəmlədən Kommunist Partiyasının rəhbərliyi İ.V.Stalin tərəfindən müəyyənləşdirilmiş

kursu həyata keçirməyə hazır olan və özlərini onun öyrənciləri sayan şəxslər idi. Bəziləri uzun illər SSRİ-də yaşamış, Kommunist İnternasionalında işləmişdilər və SSRİ-də artıq həyata keçirilmiş sosializm quruculuğu planını öz ölkəsində tətbiq etməyə hazır idi. Bolqarıstanda sosializmin İ.Stalin modelinin qəbulu iqtisadiyyatın əsaslı surətdə dağılması ilə müşayiət olunurdu. Aqrar və aqrar-sənaye ölkəsi olan Bolqarıstan sürətlə sənayeləşdirmə, ilk növbədə, ağır sənaye yaratmaq siyasəti yeridirdi. Bu məqsədlə, BFP(kommunist)-nin 1948-ci ildə çağırılmış V qurultayında sovet modeli nümunəsidən istifadə etməklə 2–3 beşillik ərzində Bolqarıstanın modernləşdirilməsi prosesinin başa çatdırılması nəzərdə tutulurdu. Sənayeləşdirmə yolu ilə sənaye və kənd təsərrüfatı arasındakı fərqi sənayenin xeyrinə dəyişdirmək, kənd təsərrüfatını kooperativləşdirmək, dövlət bölməsini bütün sahələrdə şəriksiz hakim bölməyə çevirmək, partiyanın ideologiyasını dövlətin rəsmi siyasətinə çevirmək, fəhlə sinfinin hakim rolu şərti ilə cəmiyyətin yeni sosial strukturunu yaratmaq və s. irəli sürüldü. 1947-ci il aprelin 1-də müharibədən sonra ölkənin xalq təsərrüfatının bərpası və inkişafını nəzərdə tutan 1947–1948-ci illərə dair ilk ikiillik plan qəbul edildi. Bu planın yerinə yetirilməsi nəticəsində 1948-ci ilin sonunda sənaye məhsulunun həcmi 1939-cu illə müqayisədə 7,5% artdı.

1947–1948-ci illərdə sənaye müəssisələri və bankların milliləşdirilməsi, həmçinin xarici və daxili topdansatış ticarətinin dövlətin inhisarına verilməsi haqqında qanunlar qəbul edildi. Bütün bunlar sosializmin əsaslarının qurulmasını

nəzərdə tutan proqramın reallaşdırılmasına zəmin yaradırdı. 1949-cu ildə qəbul edilmiş 1949–1953-cü illər üçün beşillik planda sənayenin yüksək sürətlə inkişafı, elektrikləşmənin həyata keçirilməsi nəzərdə tutulmuşdu. 1948–1952-ci illərdə ÇSSR-nin köməyi ilə Bolqarıstanda 15 elektrik stansiyası, ADR-in köməyi ilə bir neçə sellüloz-kağız kombinatı tikilib istifadəyə verildi. Beşillik planın yerinə yetirilməsi sayəsində Bolqarıstan aqrar ölkədən sənaye-aqrar ölkəsinə çevrildi. 1949–1953-cü illərdə 700-ə qədər müəssisə yenidən quruldu, tikildi və istifadəyə verildi. Yeni istehsal sahələri – maşınqayırma, qara və əlvan metallurgiya müəssisələri işə salındı, ölkənin elektrikləşdirilməsi başa çatdırıldı. Bu sahədə SSRİ Bolqarıstana kredit, xammal, texnika və ixtisaslı mütəxəssislərlə hər cürköməklik göstərməklə yanaşı, həm də onun iqtisadi inkişafını istiqamətləndirirdi.

Sənayeləşdirilmənin həyata keçirilməsinin mənbələrindən biri aqrar bölmənin ictimailəşdirilməsi idi. 1948-ci ilin ortaları üçün kənd təsərrüfatının kooperativləşdirilməsi prosesində ciddi irəliləyiş olmadığından, partiya rəhbərliyi hərəkətə keçdi. 1949-cu ildə Bolqarıstanda kollektivləşdirmə prosesi başladı. Bu iş kəndlilər üzərində zor tətbiq etmək, onları fərdi təsərrüfatdan imtinaya məcbur qoymaqda müşayiət olunurdu. BKP MK-nın hazırladığı qolçomaqlıqdan salma proqramına əsasən, bir çox halda kəndlilər qanunsuz həbs və cərimələrə məruz qalırdılar. Ölkədə kooperativləşmənin repressiya və güc metodları tətbiq etməklə həyata keçirilməsi əhali arasında gərginliyin artmasına şərait yaradırdı. 1949-cu ilin aprelində 900 yeni

torpaq əmək kooperativləri təsərrüfatları (TƏKT) yaradıldı, ictimai təsərrüfatın xüsusi çəkisi 4-5%-dən 12%-ə yüksəldi.

1949-cu ildə yerli sovetlərə seçkilərdən sonra BKP kəndlilərlə əlaqədar siyasətində bir sıra dəyişikliklər etdi. Kənd təsərrüfatı məhsullarının satınalma qiymətlərinin yeni qaydası tətbiq olunaraq, məhsulun bir hissəsini azad surətdə satılmaq üçün kəndlilərin sərəncamında saxlanıldı. Bütün çətinliklərə baxmayaraq, 1953-cü ildə ümumi təsərrüfatların 60%-ni kooperativlər təşkil edirdi. Eyni zamanda, aqrar bölmənin ictimailəşdirilməsi prossesi aşağı sürətlə gedirdi. Bunun nəticəsində, kənd təsərrüfatı istehsalı müharibədən əvvəlki səviyyəyə yalnız 1952-ci ildə çatdı. Sənayeləşdirmə və kənd təsərrüfatındakı dəyişikliklər sayəsində Bolqarıstanın partiya və dövlət rəhbərliyi ölkənin aqrar ölkədən sənaye-aqrar ölkəsinə çevrildiyini təsbit edərək, istehlak malları istehsalının inkişaf etdirilməsi vəzifəsini irəli sürsələr də, bu, qısamüddətli oldu və 1956-cı ildə ondan imtina edildi.

1946–1956-cı illəri əhatə edən onillikdə sənayenin intensiv inkişaf etdirilməsi ilə əlaqədar olaraq, bolqar cəmiyyətinin sosial strukturunda da dəyişiklik baş verdi, fəhlələrin sayı 18,7 %-dən 27,7%-ə çatdı, kəndlilərin sayı isə 64,5%-dən 35,8%-ə düşdü. 1958-ci ildə keçirilmiş BKP VII qurultayı Bolqarıstanda sosialimin maddi-texniki bazası yaradıldığını və mülkiyyətin iki əsas formasının – dövlət və koopreativ formalarının bərqərar olduğunu elan etdi.

1959-cu ildə ölkənin "iqtisadi inkişafının sürətləndirilməsi" kursu qəbul edildi. Onun reallaşdırılması üçün zəruri

şərtlərin yaradılması məqsədilə inzibati-ərazi islahatı keçirildi. 12 dairə, 93 icma və təqribən 2 minə yaxın icma şuraları əvəzinə, 28 dairə və 994 icma yaradıldı və onlara iqtisadi vəzifələrin həyata keçirilməsi üçün geniş müstəqillik verildi. İdarəçiliyin sahə prinsiplərindən ərazi prinsipinə keçirilməsi ilə bir sıra nazirlik işini yenidən qurdu. Eyni zamanda Texniki Tərəqqi Komitəsinin yaradılması nəticəsində çoxlu sayda elmi-texniki institutlar meydana gəldi ki, onlar texnika və texnologiyanın təkmilləşdirilməsi, istehsal proseslərinin təşkili ilə məşğul olurdular. İkinci beşillik plan 1953–1957, üçüncü beşillik plan 1958–1962-ci illəri əhatə etmişdir. 1957-ci ildə ölkədəki kəndli təsərrüfatlarının 86,5%-i (996 min) əmək koorpeativlərində birləşmişdi. 1960-cı ildə Kremikovda metallurgiya, noyabrda Burqasda neft-kimya kombinatlarının tikintisinə başlandı və 1963-cü ildə istismara verildi. Üçüncü beşillik plan vaxtından əvvəl, yəni 1961-ci ildə yerinə yetirildi.

Kənd təsərrüfatının yenidən qurulması Bolqarıstanda kooperativ təsərrüfatların böyüməsinə səbəb oldu. Birləşmiş Torpaq Əmək Kooperativləri Təsərrüfatlarının (TƏKT) hər birinə, orta hesabla, 4200 hektar torpaq sahəsi düşürdü. Əvvəllər maşın-traktor stansiyalarına məxsus olan texnika da onların ixtiyarına verildi. Bütüb bunlar kənd təsərrüfatının modernləşdirilməsi üçün baza yaradılmasına xidmət edirdi. Kənd təsərrüfatı məhsullarının dövlətə satışı sistemi də dəyişdirildi və bu iş müqavilələrlə tənzimlənirdi. Nəticədə, kooperativ müəssisələrlə dövlət müəssisələri arasındakı fərqlər silindi, vahid satınalınma qiymətləri tətbiq olundu. Bu tədbirlərə

baxmayaraq, kənd təsərrüfatının inkişafında əsaslı dönüş yaranmadı. Kənd təsərrüfatının ümumi məhsulu 1960-cı illərin əvvəllərində 1939-cu il səviyyəsindən qismən yüksək idi. Bu, ölkə rəhbərliyini kooperativ üzvləri üçün minimal əməkhaqqı tətbiq etməklə yanaşı, məhsulların satınalma qiymətlərini artırmağa məcbur etdi, həmçinin 1962-ci ilin oktyabrında Kanada ilə saziş imzalanaraq, ölkəyə taxıl idxalına başlandı.

1960-cı illərin birinci yarısında ölkə rəhbərliyi "ictimai istehsalın intensivləşdirilməsi" siyasətinə keçdi. Bu kurs 1966-cı ildə rəsmən təsdiq edildi. Bunun üçün bir sıra sahələrin mexanikləşdirilməsinə, köhnə avadanlığın yenisi ilə əvəz edilməsinə başlanıldı. Elmi işçilər, mühəndislər və mütəxəssis-praktiklərin daxil olduğu xüsusi "texniki tərəqqi" adlı briqadalar təşkil edildi. Elmi institutları konkret istehsalat problemlərinə yönəltmək məqsədilə Texniki Tərəqqi Komitəsi Elm və Texniki Tərəqqi Komitəsinə çevrildi.

1961–1965-ci illəri əhatə edən dördüncü, 1966–1970-ci illəri əhatə edən beşinci beşillik ərzində Bolqarıstanda "Moskviç-408" sovet modeli əsasında yığılan "Balkan" avtomobil zavodu işə salındı. 1966–1970-ci illərdə milli gəlirin orta illik artım sürəti 8,75% təşkil etdi. 1971–1975-ci illərdəki altıncı beşillikdə isə bu göstərici 7,8% oldu. Bolqarıstanda yüksək texnoloji elektron sənayesi sürətlə inkişaf edərək, İZOT kombinatı, "Praves" zavodu tikilib istifadəyə verildi. 1956–1970-ci illərdə ölkədə şəhərlərin sayı 112-dən 172-yə çatdı.

1979-cu ildə Bolqarıstanda "yeni iqtisadi mexanizm" konsepsiyası tətbiq olundu. İslahat əmək məhsuldarlığının artırıl-

masını, məhsulun keyfiyyətinin yüksəldilməsini, məhsulların dünya bazarlarında rəqabətə davam gətirməsini, mərkəzləşdirilmədən imtina edilməsini, bazar iqtisadiyyatı elementlərindən istifadə olunmasını nəzərdə tuturdu. Həm də islahatda əsas şərt kimi "Dövlət – mülkiyyətçi, əmək kollektivi – mülkiyyətin sahibi" prinsipi irəli sürüldü. Bu siyasətin uğurlu nəticələri 1980-cı illərin əvvəllərində özünü göstərdi. 1975-ci ildə Qərbi Almaniya və Portuqaliya ilə on il müddətində iqtisadi əməkdaşlığa dair müqavilələr imzalandı, iri beynəlxalq konsernlərlə sazişlər bağlandı və s. ABŞ, Yaponiya, Skandinaviya bazarlarına yol tapılması, həmçinin sovet neftinin ixrac edilməsi nəticəsində Bolqarıstan 80-cı illərin əvvəllərində Qərb ölkələrinə olan borcunu xeyli azalda bildi. Belə ki, 1982-ci ildə Bolqarıstanın valyuta borcu 2 dəfə azaldı. 1980-ci ildə ölkə ixracatının 70,8%-i sosialist ölkələrinin, o cümlədən 49,9%-i SSRİ-nin payına düşürdü. Eyni zamanda, Sovet İttifaqı Bolqarıstana aşağı qiymətlərlə xammal göndərirdi.

Lakin iqtisadiyyatın canlanmasında istiqamətlənən meyil heç də möhkəm deyildi. 1984-cü ildə Bolqarıstan enerji böhranının ilk təzahürü ilə üzləşdi. Mərkəzi və Cənub-Şərqi slavyan dövlətləri ilə müqayisədə Bolqarıstanla SSRİ arasında iqtisadi cəhətdən daha sıx bağlılıqlar var idi. Belə ki, 1973-cü ildən 1985-ci ilə kimi Bolqarıstan SSRİ-dən 400 milyon rubl yardım almışdır. Bolqarıstanın yüngül sənaye, toxuculuq, kənd təsərrüfatı məhsulları Sovet bazarını doldururdu. Lakin M.S.Qorbaçov yenidənqurması Bolqarıstanın iqtisadiyyatının böhranına səbəb oldu. 1985-ci ildə iqtisadiyyat sərt qənaət

rejiminə keçirildi, çünki yüzlərlə müəssisə zərərlə işləyir, istehsal olunan məhsulun maya dəyəri artır, keyfiyyəti isə aşağı düşür, idxal ixracı çox-çox ötüb-keçirdi. Bürokratik sistem, sərt mərkəzləşdirilmiş planlaşdırma iqtisadiyyatın səmərəli inkişafına əngəl törədirdi. İstehsal kooperativlərinin və dövlət təsərrüfatının birləşdirilməsi yolu ilə yaradılan nəhəng aqrosənaye kompleksləri əhalinin ərzaqla, sənayeni xammalla təchiz etməyə qadir deyildi. 1985-ci ildən başlayaraq, Bolqarıstan xaricdən taxıl, kartof, soğan və başqa ərzaq məhsulları gətirməyə məcbur oldu. İqtisadiyyatın səmərəliliyinin aşağı düşməsi əhalinin yüksək olmayan həyat səviyyəsinin daha da aşağı enməsinə, korrupsiya və rüşvətxorluğun artmasına gətirib çıxardı.

BKP-nın 1986-cı ildə keçirilən XIII qurultayı yeni heç bir şey təklif edə bilməsə də, "yeni iqtisadi mexanizmə" keçilməsinin və elmi-texniki inqilabın nailiyyətlərinin tətbiqinin vacibliyini önə çəkdi. 1989-cu ildə milli gəlir kəskin surətdə azaldı, xarici borc 11,5 milyard dollara çatdı, inflyasiya çoxaldı, gündəlik tələbat mallarının çatışmazlığı, işsizlik yarandı. İqtisadi çətinliklər cəmiyyətdə ruh düşgünlüyünə, daxili vəziyyətin gərginləşməsinə səbəb oldu.

Sovet qoşunlarının Bolqarıstana daxil olduğu İkinci Dünya müharibəsinin sonlarından başlayaraq, 1944–1948-ci illəri də əhatə edən Xalq Demokratik İnqilabı dövrü mühüm siyasi, sosial və iqtisadi dəyişikliklərdən sonra öz yerini sovet nümunəsi üzrə sosializm cəmiyyəti quruculuğuna, yəni "real sosializm" uğrunda mübarizəyə verdi. İndi Bolqarıstanın qarşısında duran əsas vəzifə bilavasitə sosializm qurmaq idi. İ.Stalinin

sosializmə yaxınlaşdıqca, sinfi mübarizənin kəskinləşməsi haqqında nəzəriyyəsinə əsaslanan Bolqarıstan rəhbərliyi ölkədə Moskvadan idarə olunan cəza sisteminin tətbiqinə başladı. Çoxlu sayda görkəmli partiya və dövlət xadimləri, sıravi partiya üzvləri cəzalandırıldı. Sosial-demokratlarla birləşdikdən sonra, Kommunist Partiyasında təmizləmə aparıldı.

1949-cu ildə G.Dmitrov SSRİ-də məlum olmayan səbəblər üzündən öldü. Köhnə kommunist, İ.B.Titonun dostu, Yuqoslaviya və Bolqarıstanın vahid Cənubi slavyan dövlətində birləşdirilməsinin tərəfdarı olan G.Dmitrovun ölümü ilə Bolqarıstanda repressiyalar son həddə çatdı. 1949-cu ildə BKP MK-nın Siyasi Bürosunun keçmiş üzvü, Baş nazirin müavini Trayço Kostov və "onun qrupu"nun məhkəmə "tamaşası" başladı. T.Kostov Bolqarıstanı amerikan və ingilis müstəmləkəsinə çevirmək cəhdində, "İ.B.Tito və faşist güruhu" ilə əlaqəyə girərək, ölkənin suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini ləğv etmək, Bolqarıstanı Yuqoslaviyaya və ilk növbədə, Priney vilayətini yuqoslav Makedoniyasına birləşdirmək cəhdlərində və digər cinayətlərdə günahlandırılaraq, ölüm cəzasına məhkum edildi. Bu ittihamlar həqiqətdən çox uzaq idi və saxta sənədlərə əsaslanırdı. T.Kostov üzərində qurulmuş məhkəmə G.Dmitrovun ölümündən sonra hakimiyyət uğrunda gedən mübarizənin hadisələrindən yalnız biri idi. 1950-ci illərin əvvəllərində məhkəmələr siyasi cinayətə görə ildə 280 ölüm hökmü çıxarmışdı. Partiyaya rəhbərlik edən möhkəm stalinist Vilko Çervenkov 1950-ci ildə həm də hökumətə başçılıq etməyə başladı.

BKP-nin həyata keçirdiyi təmizləmə nəticəsində 1951-ci ilin aprelinə qədər onun üzvlərinin sayı 100 min nəfərə qədər azaldı. Partiyadan çıxarılanların çoxu əmək düşərgələrinə göndərilmişdi ki, onların arasında MK-nın 13 üzvü, Siyasi Büronun 6 üzvü və 10 nazir var idi. Bütün bu repressiyalar həm daxili, həm də xarici siyasi vəziyyəti mürəkkəbləşdirdi. ABŞ-ın Bolqarıstandakı səfirliyinin keçmiş tərcüməçisi ilə bağlı məhkəmə işinin qurulması və onun Amerikanın xeyrinə casusluqda günahlandırılması 1950-ci ildə iki ölkə arasında diplomatik münasibətlərin kəsilməsi ilə nəticələndi.

İ.Stalinin ölümündən sonra SSRİ-də baş vermiş dəyişikliklər BKP rəhbərliyini öz əvvəlki siyasi xəttinə yenidən baxmağa məcbur etdi. 1953-cü ilin sentyabrında V.Çervenkov Yuqoslaviya, Yunanıstan və ABŞ-la əlaqələrin nizama salınmasına hazır olduğunu elan etdi. 1954-cü ildə əmək düşərgələri ləğv olundu, bir sıra kateqoriyalardan olan fəhlələrin maaşları artırıldı, gündəlik tələbat mallarının qiymətləri aşağı salındı.

BKP-nin 1954-cü ilin fevral-martında çağırılmış VI qurultayı Baş katib vəzifəsini ləğv edib, onun yerinə 3 nəfərdən ibarət katiblik yaratdı. Qurultay 1951-ci ildən Siyasi Büronun üzvü olan Todor Jivkovu (1911–1998) BKP MK-nın Birinci katibi seçdi. Jivkov Todor Xristov 1911-ci ildə Pravesdə kəndli ailəsində anadan olmuş, Botevqradda orta məktəbi bitirmişdi. Nəşriyyatda çalışmışdır. İkinci Dünya müharibəsi dövründə antifaşist müqavimət hərəkatının iştirakçısı kimi, Yanko partiya ləqəbi ilə tanınırdı. 1948-ci ildən Bolqarıstan KP MK-nın

üzvü, 1954-cü ildən Birinci katibi, 1971-ci ildən, eyni zamanda Dövlət Şurasının sədri olmuşdur. Tarixə M.S.Qorbaçov yenidənqurmasının əleyhdarı kimi düşmüşdür. 1989-cu il noyabrın 10-dan dinc inqilab nəticəsində hakimiyyətdən uzaqlaşdırılmışdır. 1992-ci ildə dövlət xəzinəsini zərərə uğratdığı üçün 7 il azadlıqdan məhrum edilsə də, 1996-cı ildə Ali Məhkəmənin qərarı ilə azad edilmişdi. 1998-ci ildə vəfat etmişdir. Cinayət əməllərilə bağlı ona qarşı qaldırılan iddialar ölümündən sonra ləğv edilmişdir.

1956-cı ilin aprelində BKP MK plenumu Sov.İKP-nin XX qurultayının ardınca rəhbərlik üsulu və metodu kimi şəxsiyyətə pərəstişi tənqid etdi və partiyadaxili həyatın “Lenin prinsiplərinin” əsasında bərqərar edilməli olduğunu, həmçinin əmək kollektivlərinin və ictimai təşkilatların müstəqillik təşəbbüskarlığının inkişaf etdiriləcəyini bildirdi. Yaranmış vəziyyətdə kadr dəyişikliyi aparıldı. V.Çervenkov Baş nazir vəzifəsindən istefa verdi. Onun yerini “V.Çervenkov terroru”nun qurbanı A.Yuqov tutdu, V.Çervenkov isə onun müavini təyin edildi. Eyni zamanda, özünü N.S.Xruşşovun sədaqətli tərəfdarı kimi göstərən T.Jivkovun mövqeyi xeyli möhkəmləndi.

1956-cı ilin aprel plenumu “sosializmin qələbəsi”nin zəmini kimi, sənayeləşdirmənin sürətli inkişafı, kənd təsərrüfatının kooperativləşdirilməsinin başa çatdırılması vəzifələrini ön plana çəkdi. BKP MK-sı daxili və xarici vəziyyəti nəzərə alaraq, sosial sahəyə diqqət yetirməyə başladı. Kooperativ üzvlərinə Torpaq əmək kooperativləri təsərrüfatlarında (TƏKT) əldə etdikləri əlavə gəlirlərlə yanaşı, təqaüd almaq hüququnun

verilməsi, təqaüdlərin və minimum əməkhaqlarının artırılması, iş həftəsinin 48 saatdan 44 saata endirilməsi və s. nəzərdə tutulurdu. Bu tədbirlərin həyata keçirilməsini 1956-cı ilin oktyabrında Macarıstanda başlamış həyəcanlar sürətləndirdi. Bolqarıstanda açıq narazılığın olmamasına baxmayaraq, hakimiyyət orqanları Daxili İşlər Nazirliyi qoşunlarını döyüş hazırlığına gətirdi, xüsusi fəhlə dəstələri yaratmağa başladı. Partiya yığıncaqlarında dövlət idarəlrindən "düşmən elementləri" təmizləmək şüarları səslənirdi.

"İqtisadi inkişafın sürətləndirlməsi" siyasətinin uğursuzluğu 50-ci illərin sonlarında ölkə rəhbərliyində ziddiyyətləri kəskinləşdirdi. Sov.İKP-nin XXII qurultayında N.S.Xruşşovun XX qurultayda səsləndirilən fikirlərlə müqayisədə İ.Stalinin fəaliyyətini daha kəskin tənqid etməsi Bolqarıstan rəhbərliyində açıq qarşıdurma üçün bir siqnal oldu. BKP MK-nın plenumlarında və müşavirələrdə buraxılmış bütün səhvlər şəxsiyyətə pərəstiş dövrünün lideri V.Çervenkovun ünvanına yazıldı, 1961-ci ildə o, baş nazirin müavini vəzifəsindən azad edildi, 1962-ci ildə BKP MK-nın üzvlüyündən çıxarıldı və partiya sıralarından xaric edildi.

"Kollektiv" rəhbərlikdə qüvvələr nisbətinin pozulması T.Jivkov və A.Yuqov arasında qarşıdurmaya şərait yaratdı. Qurultaya hazırlıq ərəfəsində keçirilmiş MK-nın iclasında A.Yuqov SSRİ-nin təklif etdiyi Bolqarıstanın 20 illik iqtisadi inkişaf planını, həmçinin SSRİ-nin Kuba və Çinə qarşı siyasətini tənqid etdi. T.Jivkov təcili Moskvaya uçaraq, Sovet rəhbərliyinin və şəxsən N.S.Xruşşovun onun tərəfini saxla-

masına nail oldu, A.Yuqov Nazirlər Sovetinin sədri vəzifəsindən və Mərkəzi Komitənin tərkibindən azad edildi.

1962-ci ilin noyabrında BKP-ni VIII qurultayı ölkənin inkişafına dair 20 illik (1961–1980-cı illər) perspektiv planını, yəni sosializm quruculuğunun başa çatdırılması və tədricən, kommunizmə keçmək planın təsdiq etdi. Qurultaydan sonra T.Jivkov hökumətin başçısı seçildi, hətta N.S.Xruşşovun hakimiyyətdən uzaqlaşdırılması da T.Jivkovun vəziyyətinə təsir etmədi, çünki 1964-cü ilə qədər o, hakimiyyətini xeyli möhkəmlətmişdi. T.Jivkovun hakimiyyətdə möhkəmlənməsi 1965-ci ildə rejimdən narazı olan bir sıra zabitlər üzərində məhkəmə işi qurulmasına şərait yaratdı. Sofiya qarnizonun rəisi general-mayor S.Anet, bir qrup keçmiş hərbçi və partizan, tədricən, avtoritar liderə çevrilən T.Jivkovu hakimiyyətdən uzaqlaşdırmağa cəhd etsələr də, buna müvəffəq olmadılar. Qəsdin üstü açıldı və iştirakçılar məhkəmə məsuliyyətinə cəlb olundular.

Bolqarıstanda T.Jivkovun avtoritar liderliyinin formalaşması, partiya və dövlət elitasının özlərini “sahib” kimi aparması, inzibati-amirlik iş metodunun bərqərar olması ölkədə dissident hərəkatı doğurdu. Sosial-demokrat P.Dertliyev, filosof J.Jelev, şairə B.Dmitrova, yazıçı-satirik R.Ralin Bolqarıstanda dissident hərəkatının tanınmış nümayəndələri kimi mövcud kommunist rejiminə qarşı mübarizə aparmışlar. Ümumiyyətlə, 1945-ci ilə kimi Bolqarıstanda mövcud olan “Tərbiyə-əmək yataqxanaları” adlandırılan düşərgələrdən, təqribən, 23,5 min nəfər şəxs keçmişdir.

1971-ci ildə Bolqarıstanın yeni Konstitusiyası qəbul edildi. Ali hakimiyyət orqanı – Dövlət Şurası yaradıldı. 1971-ci ildə T.Jivkov özündə qanunverici və icraedici orqanların funksiyalarını birləşdirən, bütövlükdə ölkənin daxili və xarici siyasətinə rəhbərlik edən Dövlət Şurasının sədri oldu. Yeni Konstitusya BXR-ni sosialist dövləti, BKP-ni isə hakimiyyətin və cəmiyyətin rəhbər qüvvəsi elan etdi. Qanunvericilik yolu ilə təsbit edildi ki, BXR yeni mərhələyə – inkişaf etmiş sosializm cəmiyyəti mərhələsinə daxil olmuşdur. Bu mərhələdə məhsuldar qüvvələrin inkişafına və istehsal münasibətlərinin təkmilləşdirilməsinə, istehsalın ixtisaslaşdırılmasına, elmi-texniki tərəqqinin nailiyyətlərinin isttehsalata tətbiqinə, Qarşılıqlı İqtisadi Yardım Şurası (QİYŞ) üzvü olan ölkələr ilə inteqrasiyanın dərinləşdirilməsinə xüsusi önəm verilməsi planlaşdırlırdı. T.Jivkov dövlətin rəsmi başçısı seçiləndən sonra, Baş nazir vəzifəsinə S.Todorovu təyin etdi. S.Todorov 1989-cu ilə qədər müxtəlif vəzifələrdə olmasına baxmayaraq, partiya və dövlət rəhbərliyində mövqeyini qoruyub saxlaya bilmişdi. İstisna yalnız 1977-ci ildə olmuşdu ki, bu ildə də bir sıra partiya funksionerləri öz vəzifələrindən və 38,5 min. üzv BKP sıralarından xaric edilmişdir. Bu aksiya, əslində preventiv, yəni öncədən qarşısını alma xarakteri daşıyırdı, liberallaşma meylinin qarşısını almaq üçün atılmış addım idi və cəmiyyətin liberallaşmasına mane olmağa yönəlmişdi. Heç də təsadüfi deyildir ki, 1977-ci ilin dekabrında gənc yazıçıların üçüncü milli konfransındakı nitqində T.Jivkov ilk dəfə açıq şəkildə dissidentlik haqqında söz açdı. Baxmayaraq

ki, bu dövrdə narahatlıq üçün hər hansı bir əsas yox idi. Belə ki, həyat səviyyəsinin yüksəlməsi, xüsusilə sosial sahədə görülən tədbirlər, elm, mədəniyyət, təhsil və idman sahəsində qazanılmış nailiyyətlər bolqar cəmiyyətinin daha çox birləşməsinə şərait yaradırdı.

1980-ci illərin əvvəllərində Bolqarıstan bir sıra beynəlxalq miqyaslı problemlərlə üzləşdi. Bolqarıstanın xüsusi xidmət orqanlarının papa II İohan Pavelə sui-qəsd etməkdə iştirak etməsi, həmçinin qeyri-qanuni silah və narkotik maddələr ticarəti ilə məşğul olması iddiası əsasında ABŞ 1982-ci ildə Bolqarıstanı "terroru maliyyələşdirən dövlətlər sırasına" daxil etdi.

1984-cü ildə Bolqarıstanın özünün başının üstünü terror aldı. T.Jivkov ölkəni gəzərkən, Plovdiv şəhərinin dəmir yolu vağzalında və Varna şəhərinin aeroportunda, digər şəhərlərin küçələrində 30 adamın həyatına son qoyan bombalar partladı. Heç kim bu terror aktlarına görə məsuliyyəti öz üzərinə götürmədi. Sübut olmasa da, terror aktlarının Bolqarıstanda müsəlman əhalisinin zorakı assimilyasiyasından, yəni "bərpa prosesindən" narazı olan qüvvələrin işi olduğu ehtimal edilirdi. Belə ki, 1984-cü ildə Bolqarıstan hakimiyyəti bolqar türklərinin assimilyasiyasına başladı. Bəyan edilirdi ki, Bolqarıstanın bütün müsəlman əhalisi etnik bolqar kökündən gəlir və osmanlıların hakimiyyəti dövründə zorla islamlaşdırılmışdır. Odur ki, millətin "bərpa prosesinə" kömək etmək məqsədilə müsəlmanlar öz slavyan adların qəbul etməyə borcludurlar. 1984-cü ilin sonu – 1985-ci ilin əvvəlində 850 min nəfər

slavyan adı qəbul etməyə vadar edilmişdi. Dövlət səviyyəsindəki kampaniyaya, əsasən, türk dilindəki nəşrlər və radio verilişləri ləğv edilir, şəhər və kəndlərin türk adları bolqar adları ilə əvəz olunurdu. Hətta Varna ətrafında “türk dilli müştərilərə xidmət etmirik” yazılan elanlar belə asılmışdı. Milis və təhlükəsizlik orqanları əməkdaşları türkləri təqib edir, kitabxana və kitab mağazalarından türk dilindəki ədəbiyyatı müsadirə edirdi. 1985-ci ildə Pavel-Bani ətrafındakı 11 kənddə 2000 türk qəbri dağıdılmışdır. Bolqar türklərinin hakimiyyətin assimilyasiya siyasətinə qarşı müqaviməti toqquşmaya səbəb oldu. 1985-ci ildəki qarşıdurma nəticəsində, 50 nəfər müsəlman türkü öldürüldü, bir çox adam əmək düşərgələrinə göndərildi.

Bolqar türklərinə qarşı dövlət səviyyəsində tətbiq edilən bu milli ayrı-seçkilik siyasəti nəticəsində T.Jivkovun kommunist rejiminin dağılması sürətləndi. Bu şəraitə məhəl qoymayaraq yaranmış vəziyyəti “sosializmin inkişafının dönüş mərhələsi” kimi xarakterizə edən ölkə rəhbərliyi 1987-ci ildə islahatların yeni paketini hazırladı. Lakin islahatdakı natamamlıq, xüsusilə SSRİ-də baş verən hadisələrin təsiri həyatın bütün sahələrində, o cümlədən siyasi sahədəki dəyişikliklərin qarşısını ala bilmədi.

T.Jivkov ölkədəki gərginliyi aradan qaldırmaq üçün 1988-ci ildə MK adından partiyanın rəhbər orqanlarını vaxtaşırı yeniləşdirmək məqsədilə mandat sisteminin tətbiqi, mövcud seçki mexanizminin dəyişdirilməsi, birdən çox namizədin qeydə alınması və s. təkliflərlə çıxış etdi. Beləliklə də T.Jivkov

başda olmaqla, partiya və dövlət rəhbərliyi ölkədə demokratik yeniləşdirməyə hazır olduqlarını nümayiş etdirdi. Lakin patiya və dövlət rəhbərliyinin planında ölkədə müxalifətin fəaliyyətinə yer verilməsi nəzərdə tutulmurdu.

1989-cu il mayın sonunda Paris şəhərində Avropa təhlükəsizlik və əməkdaşlıq konfransının işə başlaması ərəfəsində Bolqarıstanın müsəlman liderləri müsəlman əhalisinin hüquqlarının pozulmasına etiraz əlaməti olaraq, aclıq elan etdilər. Baş verənləri şərh edən T.Jivkov bildirdi ki, kapitalist Türkiyəsinə meyl edən etnik türklər ölkəni tərk edə bilərlər. Avqust ayına kimi təmkinli davranan Türkiyə hakimiyyəti sərhədi bağlayan vaxt artıq 344 min nəfər Bolqarıstanı tərk etmişdi. Türkiyə ilə Bolqarıstan arasında baş vermiş qarşıdurmada ABŞ Türkiyəni müdafiə etdi, Bolqarıstan isə təcrid vəziyyəti ilə qarşı-qarşıya qaldı. Bolqarıstan rəhbərliyi yaranmış vəziyyətdə ölkənin ictimai-siyasi sistemini təkmilləşdirməsi sahəsində iş aparıldığını sübut etməklə, beynəlxalq aləmdə itirilmiş nüfuzu özünə qaytarmaq istəyirdi. Bu məqsədlə hökumət ekoloji forumun Sofiyada keçirilməsinə nail oldu. Lakin 1989-cu ilin oktyabrında ekoloji forum reallaşan zaman Bolqarıstanın hüquq-mühafizə orqanlarının əməkdaşları xarici jurnalistlər qarşısında nümayişçiləri döydülər. Bu hadisə hakimiyyətin yuxarı dairələrində onsuz da gözlənilən qarşıdurmanı kəskinləşdirdi. 1989-cu il noyabrın 10-da T.Jivkov BKP MK-nın Baş katibi və Dövlət Şurasının sədri vəzifələrindən istefa verdi. Keçmiş Xarici İşlər naziri P.Mladenov BKP MK-nı Baş katibi seçildi. Yeni Baş katib inzibati-amirlik

sisteminin dağılmasını və ölkədə vətəndaş cəmiyyətinin yaradılmasını partiyanın əsas vəzifəsi elan etdi.

İkinci Dünya müharibəsindən sonra beynəlxalq münasibətlərin inkişafında yeni mərhələ başladı ki, qarşıda duran əsas vəzifələrdən biri dinc tənzimləmə məsələlərini həll etmək idi. Bu məqsədlə qalib dövlətlər belə bir razılığa gəldilər ki, hər bir məğlub dövlətlə sülh müqaviləsini onunla müharibə aparmış və barışıq imzalamış dövlətlər imzalayacaqdır. Razılaşmaya müvafiq olaraq, 1947-ci il fevralın 10-da Bolqarıstanla sülh müqaviləsi imzalandı və sentyabrın 15-də qüvvəyə mindi. Müqavilənin girişində müharibə vəziyyətinə son qoyulmasından bəhs edilir və müttəfiqlərin Bolqarıstana BMT-yə daxil olması üçün ona kömək etməsi nəzərdə tutulurdu. Nəticədə, 1955-ci ilin dekabrında Bolqarıstan BMT-yə qəbul olundu. Sosializmin dünya sisteminə çevrilməsi nəticəsində SSRİ-nin beynəlxalq mövqeyi daha da möhkəmləndi və Sovet dövləti Şərqi Avropa ölkələrinə, o cümlədən Bolqarıstana beynəlxalq aləmdə köməklik göstərirdi.

Odur ki, Bolqarıstanın müdafiəçisi rolunu oynayan SSRİ və qonşu Yuqoslaviya ilə əlaqələrin intensiv inkişaf etdirilməsinə Bolqarıstan xüsusi önəm verirdi. 1944-cü ilin payızında Bolqarıstan və Yuqoslaviya arasında yuqoslav-bolqar Cənubi slavyan federasiyasının yaradılması məsələsinə həsr olunmuş danışıqlar başlandı. 1947-ci il 30 iyul – 1 avqustda baş tutan hökumətlərarası danışıqlarda bir neçə saziş imzalandı, həmçinin dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında müqavilənin şərtləri hazırlandı.

1948-ci ilin yanvarında G.Dmitrov xarici jurnalistlər qarşısında Şərqi Avropanın bütün "xalq demokratik" ölkələrinin federasiyasının yaradılması perspektivləri və gömrük birliyinin formalaşdırılması haqqında bəyanatla çıxış etdi. Bəyanatda göstərilirdi ki, Kommunist Partiyasının rəhbərliyi altında partizan dəstələrinin qələbə qazanacağı təqdirdə, Yunanıstan da buraya qoşula bilərdi. Bu hadisə, həmçinin Bolqarıstan və Yuqoslaviya rəhbərliyinin digər fəaliyyətləri fevralın 10-da Moskvada keçirilən üçtərəfli müşavirədə müzakirə olundu. Nəticədə, xarici siyasi məsələlərdə qarşılıqlı məsləhətləşmələrə dair sovet-yuqoslav və sovet-bolqar protokolları imzalandı.

İ.Stalin müşavirədə Bolqarıstanın və Yuqoslaviyanın təxirə salınmadan vahid federasiyada birləşmələrini təklif etdi. Lakin Yuqoslaviya KP MK-nın Siyasi Bürosunun fevralın 19-da keçirilən iclasında İ.Broz Tito bu ideyanı rədd etdi. 1948-ci ilin ortalarında Yuqoslaviyanın SSRİ və qonşu ölkələrlə, həmçinin Bolqarıstanla münasibətləri kəsildiyindən, Cənubi slavyan federasiyasının yaradılması haqqında məsələ birdəfəlik tarixə qovuşdu.

1948-ci il martın 18-də Bolqarıstan SSRİ ilə dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə bağlandı. Müqaviləyə görə, tərəflər düşmən koalisiyalarda iştirak etməməli, qarşılıqlı maraq doğuran bütün beynəlxalq məsələlər üzrə məsləhətləşməli və beynəlxalq hüquq prinsipləri əsasında əməkdaşlıq etməli idi. Bu müqavilə qarşılıqlı razılıq əsasında sonradan vaxtın artırılması şərtilə 20 il müddətinə

imzalanmışdı. 1948-ci il yanvarın 16-da Rumıniya, aprelin 23-də Çexoslovakiya, mayın 29-da Polşa, iyulun 16-da Macarıstanla Bolqarıstan arasında dostluq, əməkdaşlıq və qarşılıqlı kömək haqqında müqavilələr bağlandı. Bununla da sosialist ölkələrinin əməkdaşlığı həmin müqavilələr əsasında həyata keçirilməyə başlandı.

1973-cü ilin iyulunda BKP MK Plenumu "BXR-də inkşaf etmiş sosializm mərhələsində SSRİ ilə hərtərəfli əməkdaşlığın və yaxınlaşmanın əsas istiqamətləri"ni təsdiqlədikdən sonra T.Jivkov elan etdi ki, Bolqarıstan və Sovet İttifaqı "vahid orqanizm" kimi fəaliyyət göstərəcəkdir. Bununla belə, bu dövrdə Bolqarıstanın partiya və dövlət rəhbərliyi daxili və xarici siyasətdə, xüsusilə regional siyasətdə sərbəst və müstəqil fəaliyyəti ilə diqqəti cəlb edirdi.

1964-cü ildə Bolqarıstanın Yunanıstanla münasibətləri normallaşdı. 1969-cu ilin oktyabrında bağlanan bolqar-türk sazişinə əsasən, 1969–1979-cu illəri əhatə edən 10 il ərzində daimi yaşamaq üçün Bolqarıstandan Türkiyəyə 50 minə yaxın etnik türk köçürüldü.

Bolqarıstanla Yuqoslaviya arasında münasibətlər uzun müddət gərgin olaraq qalırdı. Bunun başlıca səbəbi "Makedoniya məsələsi" deyilən məsələ ilə bağlı idi. 1963-cü ilin mart plenumunda BKP MK, faktiki olaraq, Makedoniya Xalq Respublikasını tanıdı və bildirdi ki, Priney Makedoniyasının əhalsi bolqar millətinin ayrılmaz tərkib hissəsidir, Yuqoslaviyanın bu ərazini Makedoniya milli azlığı elan etməsi BXR-in daxili işlərinə kobud şəkildə qarışması deməkdir. 1968-ci ildə

Bolqarıstan Elmlər Akademiyasının Tarix İnstitutu "Makedoniya məsələsi" adlı arayış hazırlayaraq təsbit etdi ki, Makedoniya Respublikasının əhalisinin üçdə iki hissəsi "öz mənşəyi etibarilə" bolqarlardan ibarətdir. Yuqoslaviya tərəfindən tələb edildi ki, "tarixi həqiqətlərin saxtalaşdırılmasını dayandırsın, Priney vilayətinə hər hansı iddiadan imtina etsin, orada yaşayan əhaliyə özünün milli mənsubiyyətini azad surətdə müəyyən etmək və bildirmək hüququ verilsin". 1980-cı ildə İ.Broz Titonun ölümündən sonra bolqar-yuqoslav münasibətlərində yaxınlaşma hiss olundu, 1980-ci illərin əvvəllərində iki ölkə arasında ticarətin həcmi xeyli artdı, sərhəd şəhərlərində dostluq mitinqləri təşkil edildi və s.

1960-cı illərin ortalarında Bolqarıstan Qərbi Avropa ölkələri ilə əlaqələrini genişləndirməyə başladı. 1970-ci illərdə AFR, Finlandiya, İtaliya, Böyük Britaniya, Fransa, Hollandiya və başqa ölkələrlə iqtisadi və elmi-texniki əməkdaşlığa dair sazişlər bağlandı.

Bolqarıstanın xarici siyasətinin mühüm istiqamətini inkişaf etməkdə olan ölkələrlə əlaqələrinin möhkəmləndirilməsi təşkil edirdi. Belə ölkələrdən biri olan Liviya SSRİ və ADR-dən sonra Bolqarıstanın üçüncü ticarət tərəfdaşı idi. Bolqarıstan beynəlxalq aləmdə nüfuzunu möhkəmlətmək məqsədilə, 1970-ci illərdə dəfələrlə müxtəlif beynəlxalq forumlar keçirmək təşəbbüsündə oldu. 1981-ci ildə Sofiyada Balkan ölkələri rəhbərlərinin yüksək səviyyədə görüşünün keçirilməsi, Balkanları nüvə silahından azad bölgəyə çevirmək məsələsinin müzakirəsi təklif edildi.

1980-cı illərin əvvəllərində BXR 116 dövlətlə diplomatik, 112 dövlətlə ticarət və 132 dövlətlə mədəni əlaqələr saxlayırdı. Lakin belə geniş əlaqələrə baxmayaraq, Bolqarıstan 1980-ci illərin əvvəllərində xarici siyasətdə çətikliklərlə üzləşməyə başladı. Bolqarıstan terror aktlarının törədilməsində, narkotik maddələrin və silahların gizli satışında – qaçaqmalçılıqda günahlandırılırdı. 1982-ci ildə ABŞ Bolqarıstanla narkotik maddələrin istehsalı və satışı üzərində nəzarət məsələlərinə dair əməkdaşlığı kəsdi. 1980-ci illərin ortalarında Türkiyə ilə də münasibətlər kəskinləşdi. Sovet-bolqar münasibətlərində də "soyuqlaşma" baş verdi. Bu, T.Jivkov hakimiyyətinin süqutu ilə nəticələndi ki, bununla da Bolqarıstan tarixinin böyük bir mərhələsi başa çatmış oldu. 1980-ci illərin sonu – 1990-cı illərin əvvəllərində Bolqarıstanda Kommunist Partiyasının hakimiyyətinə son qoyuldu, ölkədə çoxpartiyalı sistem yaradıldı, bazar iqtisadiyyatına və demokratiyaya əsaslanan cəmiyyət quruculuğuna başlandı.

# X FƏSİL

## BOLQARISTAN RESPUBLİKASI. 1989–2025-ci İLLƏR

1980-ci illərin sonlarına doğru Şərqi Avropanın sosialist ölkələrini bürümüş böhran Bolqarıstanı da əhatə etmiş, ölkə iqtisadi və sosial-siyasi çətinliklərlə qarşılaşmışdı. Teodor Jivkovun tarixə çevrilmiş hökmranlığı dövründə məhsul qıtlığı və inflyasiyanın artması ilə bərabər, milli münasibətlər sahəsindəki uğursuz siyasət, xüsusilə türklərə qarşı ayrı-seçkilik, onların hüquqlarının tapdanması ölkədəki kommunist rejiminin süqutu ilə nəticələndi. 1989-cu il noyabrın 10-da BKP MK plenumu T.Jivkovu Baş katiblikdən azad etdi, "mühafizəkar qanad"ın nümayəndələrini partiya rəhbərliyindən uzaqlaşdırdı.

1989-cu ilin dekabrında yenilənmiş BKP MK Plenumu özünün "sosializm seçiminə" sədaqətini təsdiq etdi. Plenum həmçinin cəmiyyətin vaxtı çatmış tələbatına uyğun dəyişikliklər etmək zərurətini müzakirə edərək, yeni seçki qanununun hazırlanması, 1990-cı ilin mayından gec olmayaraq parlament seçkilərinin keçirilməsi, iqtisadi sahədə islahat aparılması üçün qanunverici baza yaradılması haqqında qərar qəbul etdi.

Ölkədə onlarca siyasi təşkilat yaranmağa başladı, əvvəllər mövcud olmuş partiyalar, o cümlədən Sosial-Demokrat Partiyası fəaliyyətini bərpa etdi. Çoxpartiyalı sistem və parlamentli demokratiya uğrunda çıxış edən bir sıra partiya və təşkilatlar, o cümlədən BƏXİ (N.Petkov), BSDP, Radikal-Demokrat Partiyası və "Ekoaşkarlıq" ("Экогласность") Demokratik Qüvvələr İttifaqında (DQİ) birləşdi. Antikommunist mövqeyində duran bu təşkilat BKP-nin ölkənin ictimai-siyasi sistemində yeri və rolu haqqında məsələ qaldırdı. 1990-cı ilin yanvarında Xalq Məclisi müxalifətin təzyiqi altında BKP-nin cəmiyyətdə və dövlətdə rəhbər qüvvə olduğunu təsbit etmiş 1971-ci il Konstitusiyasının birinci maddəsini ləğv etdi.

1990-cı il yanvarın 16-da ilk dəfə çağrılan dəyirmi masada nümayəndələr partiya və dövlət strukturlarının bölünməsi, parlament seçkilərinin keçirilməsi, çoxpartiyalılıq əsasında Böyük Xalq Məclisinin çağırılması məsələlərini müzakirəyə çıxardılar. Dəyirmi masanın (yanvar–mart 1990-cı il) çağırılmasına səbəb 1989-cu ilin dekabrında Bolqarıstanın müsəlman əhalisinin hüquqlarının bərpa olunması haqqında qəbul edilmiş qərar ətrafında baş verən hadisələr oldu. Bu qərarın əleyhdarları çoxsaylı etiraz aksiyasına başladılar və bunun kuliminasiya nöqtəsi 1990-cı il yanvarın 7-də Sofiyada keçirilən mitinq oldu. Xalq Məclisinin sədri S.Todorov qarşıdurmanın qarşısını almaq məqsədilə BKP, DQİ, dini qruplar və türk azlıqlarının nümayəndələrindən ibarət Ümumxalq Milli Barışıq Komitəsi yaratmaq təklifi verdi.

BKP-nin 1990-cı il yanvarın 30-dan fevralın 2-dək davam edən növbədənkənar XIV qurultayı sosializm cəmiyyətinin yeniləşdirilməsini partiyanın başlıca vəzifəsi elan etdi və partiyanın rəhbər rolundan imtina etdi. T.Jivkov və onu əhatə edən adamlar BKP-dən xaric edildilər, partiya özü isə adını dəyişərək, Bolqarıstan Sosialist Partiyası (BSP) oldu. Daha sonra BSP marksizmdən imtina etdiyini və proletariat diktarurası ilə demokratiya anlayışlarının bir araya sığmadığını bildirdi, totalitar rejim illərində zərər çəkənlərin hamısından üzr istədi. Qurultay yeni hökumətin – "milli razılıq" hökumətinin təşkil edilməsi təklifini irəli sürdü.

Andrey Lukanov başda olmaqla yeni hökumət – Nazirlər Şurası yaradıldı. Bu hökumət, ilk növbədə, muzdlu işçi qüvvəsindən istifadə edilməsində qoyulmuş məhdudiyyətləri ləğv etdi, ticarət və xidmət sahələrində sahibkarlığın canlanmasına şərait yaratdı. Əldə edilmiş razılığa əsasən, 1990-cı il aprelin 3-də Dövlət Şurası buraxıldı. Parlament Böyük Xalq Məclisi çağrılanadək prezident səlahiyyətlərinin icrasını Pyotr Mladenova tapşırdı. Parlament siyasi partiyalar, seçkilər haqqında qanunları da təsdiq etdi ki, burada etnik və dini zəmində partiyaların yaradılmasına icazə verilmirdi.

BSP özünü demokratik dəyişiklikləri sona çatdırmağa qadir olan yeganə qüvvə hesab edirdi. DQİ-nin seçkiqabağı platforması isə əsl fəaliyyət proqramı idi və burada Bolqarıstanda bazar iqtisadiyyatının yaradılması, azad mənəvi mədəniyyətin, demokratik parlamentarizmin, hüquqi dövlətin, vətəndaş cəmiyyətinin formalaşması əksini tapmışdı.

1990-cı ilin iyununda Böyük Xalq Məclisinə seçkilər keçirildi. Seçkilərdə səslərin 47%-ni qazanmış BSP parlamentdə 400 yerdən 211, DQİ 144, BƏXİ 16, Bolqarıstan müsəlmanlarının marağını müdafiə edən Hüquq və Azadlıqlar Uğrunda Hərəkat 23 yer aldı. Seçkilərdə qələbə qazandıqdan sonra real idarəedici partiya kimi BSP qarşısında prespektivlər açıldı. Bu partiya həm də Böyük Xalq Məclisində çoxluq təşkil etdiyindən 1990-cı ilin aprelində P.Mladenovun yenidən prezident seçilməsinə nail oldu.

Müxalifət dərhal hücuma keçdi – DQİ-nin lideri Jelyu Jelev seçkiləri "azad, lakin əyri" adlandırdı. 1990-cı il iyunun 12-də Sofiyanın ali təhsil müəssisələri üçgünlük "işğal" tətilləri keçirdi, paytaxtda çadır şəhərciyi quruldu. DQİ əsas zərbəni P.Mladenova qarşı yönəltdi. O, 1989-cu ilin dekabrında nümayişçilərə qarşı güc tətbiq olunmasının əsas təşkilatçısı elan edildi. P.Mladenovun özünü doğrultmaq cəhdi nəticə vermədi və o, 1990-cı ilin iyulunda prezident postundan istefa verdi. Avqustun 1-də Böyük Xalq Məclisi bu vəzifəyə keçmiş dissident, DQİ lideri Jelyu Jelevi seçdi. Lakin BSP əleyhdarları ilə onun tərəfdarları arasındakı ziddiyyətlər cəmiyyətdə gərginlik mənbəyi olaraq qalırdı. 1990-cı il noyabrın 15-dən ölkə Bolqarıstan Respublikası adını qəbul etdi.

1990-cı ilin payızında iqtisadi problemlər yenidən önə çıxdı. 1990-cı ilin birinci yarısında istehsal 1989-cu ilin göstəricilərinə nisbətən 10% aşağı düşdü, inflyasiya 108%-ə çatdı, işsizlərin sayı xeyli çoxaldı. Sentyabrda əsas ərzaq məhsullarının bölüşdürülməsində kupon sistemi tətbiq olundu. İran

körfəzindəki böhran da ölkənin vəziyyətinə mənfi təsir göstərdi. BMT-nin qərarına əsasən, Bolqarıstan İraqla əlaqələri kəsməli oldu və nəticədə 1990-cı ildə oradan 600 min ton neft ala bilmədi. 1990-cı ilin martında Bolqarıstan xarici borclarını, iyun ayından isə ona əlavə olunan faizlərin qaytarılamasını dayandırdı. Eyni zamanda A.Lukanov hökumətinin ABŞ və BVF-nin yardımı ilə hazırladığı proqram layihəsini nə DQİ, nə də BƏXİ qəbul etmədi.

1990-cı ilin noyabrında DQİ Böyük Xalq Məclisinə A.Lukanov hökumətinə etimad göstərməmək təklifi verdi. Lakin bu təklif müdafiə edilmədiyindən, DQİ fraksiyası parlamenti tərk etdi. Bundan sonra Həmkarlar İttifaqları da parlamentə eyni təkliflə müraciət etdi. Həmkarlar İttifaqları tərəfindən ümumi tətil elan olundu. Noyabrın 29-da A.Lukanov istefaya getməyə məcbur qaldı. 1990-ci ilin dekabrında bitərəf Dimitri Popov başda olmaqla koalisyon hökumət təşkil edildi. BSP hökumətdə əsas vəzifələri itirdi və həlledici siyasi qüvvə kimi mövqeyi zəiflədi.

İslahatın keçirilməsinə şərait yaratmaq məqsədilə D.Popovun kabineti tətil və nümayişlərin keçirilməsinə 200 günlük qadağa qoydu, qiymətlər sərbəst buraxıldı, Bolqarıstan Xalq Bankını dövlətin nəzarətindən çıxardı. Həmçinin kənd təsərrüfatında kollektiv təsərrüfatların ləğv edilməsinə və kiçik müəssisələrin özəlləşdirməsinə dair qanun layihələri hazırlandı. D.Popov kabinetinin addımları Avropa İttifaqı tərəfindən müdafiə olunurdu və bu qurum islahatları davam etdirməsi üçün Bolqrıstana 13 milyon dollar ayırdı. 1991-ci

il iyulun 12-də Bolqarıstanın yeni Konstitusiyası qəbul olundu. Bolqarıstan unitar, demokratik və hüquqi dövlət elan edildi. Dövlətin başçısı prezident ümumi, birbaşa seçki əsasında 5 il müddətinə seçilirdi. 240 deputatdan ibarət bir palatalı ali qanunverici orqan – Xalq Məclisi 4 il müddətinə seçilirdi. Konstitusiyaya görə, icraedici orqan Nazirlər Şurası idi ki, bu da Baş nazir və nazirlərdən təşkil olunurdu. Konstitusiyaya nəzarət orqanı kimi Bolqarıstan Konstitusiya Məhkəməsi təsbit edildi. Yenə həmin il oktyabrın 13-də yeni Xalq Məclisinə seçkilər baş tutdu. Seçkilərdə 38 partiya iştirak edirdi. Yalnız üç partiya namizədlərini parlamentə keçirə bildi. 240 yerdən 110-nu DQİ, 106 yeri BSP və 24 yeri Hüquq və Azadlıqlar Uğrunda Hərəkat aldı. Seçkilərin nəticələri göstərdi ki, Bolqarıstanda partiyaların çox olmasına baxmayaraq, BSP və DQİ daha çox tərəfdara malikdir.

1991-ci ilin noyabrında Filip Dmitrov başda olmaqla, yeni hökumət təşkil edildi. Hökumətin tərkibinin böyük əksəriyyəti Demokratik Qüvvələr İttifaqının nümayəndələrindən ibarət idi. 1992-ci ilin yanvarında ölkədə ilk birbaşa prezident seçkiləri keçirildi. Seçicilərin 53%-nin səslərini toplayan J.Jelev prezident seçildi. 1992-ci ilin sonunda F.Dmitrovun kabinetini J.Jelevin keçmiş müşaviri, professor Lyuben Berov başda olmaqla yeni hökumət əvəz etdi. L.Berov hökumətinin qarşısında əvvəlki hökumətin qarşısında duran vəzifələr – iqtisadiyyatda islahatların keçirilməsi, ölkəyə kreditlərin cəlb edilməsi dururdu. L.Berovun "peşəkarlar" hökuməti özəlləşdirmə, xüsusi və xarici kapital qoyuluşuna dair əvvəlki hökumətin

qəbul etdiyi qanunları həyata keçirməyə başladı. 1947– 1962-ci illərdə müsadirə olunmuş müəssisələr əvvəlki sahiblərinə qaytarıldı. Lakin islahtın keçirilmə surəti çox aşağı idi. 1994-cü ilin yanvarına qədər torpaqların yalnız 46%-i şəxsi mülkiyyətə keçmişdi. İqtisadiyyatda anarxiya və bununla əlaqədar, mütəşəkkil cinayətkarlıq baş alıb gedirdi. Serbiya və Çernoqoriyaya qarşı BMT sanksiyalarına qoşulması Bolqarıstanın çətinliklərini daha da artırdı.

Radikal addımlar atması və dözülməzlik şəraiti bir çox tərəfdarlarının DQİ-dən uzaqlaşmasına səbəb oldu. Bu, özünü 1994-cü ildə keçirilmiş parlament seçkilərində göstərdi. Nəticədə, BSP 43,5%, DQİ isə cəmi 24,23% səs topladı. BSP lideri Jan Videnovun başçılıq etdiyi yeni hökumət əsas ərzaq məhsullarının qiymətlərini aşağı salmalı, kommunal xərcləri azaltmalı, bolqar-sovet münasibətlərini nizama salmaqla bolqar mallarının Rusiya Federasiyasının bazarlarına yol tapmasına şərait yaratmalı, ölkənin yanacaq-energetika problemlərini həll etməli idi. Lakin 1995–1996-cı illərdə böhranın əlamətləri daha da gücləndi, milli valyuta iflasa uğradı, inflyasiya 1996-cı ildən 310%-ə çatdı, elektrik enerjisi və benzinin qiymətləri artdı, ölkədə həyat səviyyəsi kəskin şəkildə aşağı düşdü.

J.Videnov hökumətinin qarşısında duran vəzifələri həll edə bilməməsi özünü 1996-cı ilin noyabrında keçirilmiş prezident seçkilərində göstərdi. Birləşmiş Demokratik Qüvvələri – DQİ-ni, Xalq İttifaqı (BƏXİ və 1990-cı ildə bərpa edilmiş Demokratik Partiyanı), Hüquq və Azadlıqlar uğrunda Hərəkatı təmsil edən Pyotr Stoyanov ölkənin prezidenti seçildi.

Bundan sonra, Birləşmiş Demokratik Qüvvələr BSP hökumətinin istefaya göndərilməsi və növbədənkənar parlament seçkilərinin keçirilməsini tələb etdilər. 1997-ci ilin aprelində keçirilən parlament seçkilərində BSP məğlub oldu və qələbə çalan Birləşmiş Demokratik Qüvvələr (BDQ) bütün aparıcı mövqeləri ələ keçirdi.

Seçkilərdən sonra yaradılmış hökumətin başçısı vəzifəsinə BDQ lideri İvan Kostov təyin olundu. İ.Kostov 1989-cu ildən sonra parlamentin tam səlahiyyət müddətində hökumətə rəhbərlik edən ilk Baş nazir oldu. İ.Kostov hökumətinin fəaliyyəti maliyyə sisteminin stabilləşməsi ilə bağlı iqisadi vəzifələrin təxirə salınmadan həll olunmasına, istehsal sahələrinin yenidən qurulmasına, özəlləşdirmənin başa çatdırılmasına, bir sözlə, Bolqarıstanın NATO və Avropanın digər təşkilatlarına (Bolqarıstan 1992-ci ildən Avropa Şurasının üzvü idi) daxil olmaq üçün zəruri zəmin yaradılmasına yönəldilmişdi. Nəticədə, qısa müddətdə infilyasiyanı aşağı salmaq, büdcə kəsirini azaltmaq, iqtisadi dirçəlişə nail olmaq mümkün oldu. 1999-cu il iyulun 5-də milli valyutanın denominasiyası, yəni kağız pulların adının və nominal dəyərinin dəyişdirilməsi həyata keçirildi, bir yeni lev 1000 köhnəsini əvəz etdi. 1998–2002-ci illərdə ümumi daxili məhsulun orta illik artımı 4,1%-ə çatdı ki, 1990–1997-ci illərdə bu göstərici mənfi 4,6% təşkil edirdi. İ.Kostov hökuməti 1990-cı ildən başlanan özəlləşdirməni yekunlaşdırdı. 2000-ci ilin iyununda dövlət mülkiyyətində olan müəssisələrin yarıdan çoxu, sənaye müəssisələrinin isə 82,2 faizi mülkiyyət formasını dəyişdirdi. Xüsusi bölmənin

çəkisi ümumi daxili məhsul istehsalında, təqribən, 70%-ə çatdı. Bununla yanaşı, kabinet korrupsiya qalmaqalı ilə üzləşdi və Baş nazir 1999-cu ilin dekabrında kabinetin 10 nazirini dəyişməyə məcbur oldu. 2000-ci ilin sentyabrında Baş nazirin özü də zərbə altına düşdü, səbəb isə onun arvadının rəhbəri olduğu "Gələcək Bolqarıstan" fondu ətrafında baş vermiş qalmaqal idi.

Cəmiyyətdə BSP və DQİ-nin nüfuzu kəskin şəkildə aşağı düşdü. Narazı qüvvələr bundan istifadə etdilər. Onlar ölkəni 1946-ci ildə məcburi tərk etmiş və 2001-ci ildə Bolqarıstana qayıtmış sabiq çar Simeon Saksen-Koburq-Qotskinin ətrafında birləşdilər. Simeon seçicilərə varlı və ədalətli biznesmen, korrupsiyanın qatı əleyhdarı, geniş beynəlxalq əlaqələrə malik şəxs kimi təqdim edilirdi. II Simeon aktiv siyasi fəaliyyətə başlayaraq Milli Hərəkat adlı siyasi təşkilat yaratdı. Təşkilat həm də diqqəti cəlb edən sosial yönümlü proqram hazırladı. Proqramda əhalinin həyat səviyyəsinin yüksəldilməsi, 800 gün ərzində iqtisadiyyatın sağlamlaşdırılması, korrupsiya və mütəşəkkil cinayətkarlıqla mübarizənin gücləndirməsi, siyasi həyatda şəffaflığın bərqərar edilməsi və s. nəzərdə tutulurdu. Bu yeni siyasi təşkilat 2001-ci ildə keçirilən parlament seçkilərində qalib gəldi, II Simeon Bolqarıstanın Baş naziri oldu.

Bundan sonra keçirilən prezident seçkilərində Milli Hərəkat öz namizədini irəli sürmədi. 2001-ci ilin noyabrında seçicilərin qeyri-fəallığı şəraitində keçirilən prezident seçkilərində BSP nümayəndəsi Georgi Pırvanov ölkənin prezidenti oldu.

Simeonun kabineti xarici siyasətin əsas vəzifələrini həyata keçirə bildi. Bolqarıstan 2004-cü ilin martında NATO-ya daxil oldu. 2005-ci ilin aprelində prezident G.Pırvanov və Baş nazir Simeon Avropa İttifaqına qoşulmaq haqqında müqaviləni imzaladılar. Daxili həyatda iqtisadiyyatın stabilləşməsi baş verdi, ölkənin kredit reytinqi artdı, infilyasiya və işsizlik azaldı. Lakin Simeonun hökuməti bolqar əhalisinin bütün sosial məsələlərini həll etmək gücündə deyildi. Bu, 2005-ci ildə keçirilən parlament seçkilərinin nəticələrində özünü daha bariz bir şəkildə göstərdi. Seçkilərdə sol Bolqarıstan Sosial-Demokrat Partiyası, sosialist-demokratların siyasi hərəkatının yaratdığı "Bolqarıstan Naminə Koalisiya" – 82, II Simeonun Milli Hərakatı (İSMH) – 53, Demokratik Partiya İttifaqı (DPİ) – 34 deputat yeri qazandı. 2005-ci ilin iyulunda Bolqarıstan parlamenti 119 nəfər deputat səsinə qarşı 120 nəfər səslə BSP-nin rəhbəri Sergey Stanişevi Baş nazir təsdiq etdi. 2006-cı il noyabr ayında keçirilən prezident seçkilərində G.Pırvanov yenidən seçicilərin səslərinin əksəriyyətini alaraq, ikinci dəfə Bolqarıstan Respublikasının prezidenti seçildi. Beləliklə, 2005-ci ilin avqustundan 2009-cu ilin iyuluna qədər sosialist Sergey Stanişevin koalisiyon hökuməti fəaliyyət göstərdi. Kabinetin tərkibinə, eyni zamanda sabiq Baş nazir Simeonun "İkinci Simeon" Milli Hərəkat Partiyasının və Əhməd Doğanın Hüquq və Azadlıq uğrunda Hərəkat Partiyasının nümayəndələri də daxil olmuşdular.

2009-cu ildə Bolqarıstan parlamentinə növbəti seçkilər keçirildi. Seçkilərdə Boyko Borisovun liberal-mühafizəkar

Vətəndaşlar Bolqarıstanın Avropa İnkişafı Uğrunda Partiyası (GERB) ölkə parlamentindəki 240 deputat yerindən 117 yerə sahib olaraq böyük uğur qazandı. İyulun 5-də baş tutan seçkilərdə BSP-nin Bolqarıstan uğrunda Koalisiyası 40 mandat, SDP 38 mandat, Hücum ("Атака") 21 mandat, Göy koalisya ("Синяя коалиция") 15 mandat, İntizam, Qanunçuluq və Ədalət 10 mandat qazandı. 2009-cu il iyulun 27-də B.Borisov yeni hökuməti təşkil etdi. Yeni Baş nazirin hökuməti Bolqarıstanın Avropa ilə inteqrasiyası və Şimali Atlantika ilə əməkdaşlıqda iştirakı tərəfdarı idi. Bolqarıstanda elektrik enerjisi qiymətlərinin artırılması ilə başlayan güclü etirazlar şəraitində Boyko Borisovun kabineti 2013-cü il fevralın 19-da istefa verdi, fevralın 21-də parlament hökumətin istefasını təsdiq etdi.

2014-cü il parlament seçkilərində Bolqarıstanın Avropa İnkişafı Uğrunda Partiyası 32,67% səs qazanaraq, qələbə çaldı. Onun əsas rəqibi Bolqarıstan Sosialist Partiyası 15,4% seçici səsi toplaya bilmişdir. Hüquq və Azadlıq Uğrunda Hərəkat isə 14,84% mandata sahib olmuşdur. Qalib partiyanın lideri Boyko Borisov seçkilərdə 8,89% səs yığmış İslahatçı Blokun nümayəndələrinin iştirakı ilə koalisiyon hökumət quraraq, ona başçılıq etdi.

2012-ci ildə Bolqarıstan Respublikasında prezident seçkiləri oldu, Rosen Asenov Plevneliyev ölkə prezidenti seçildi. Parlament respublikası olan Bolqarıstanda 2016-cı ildə növbəti prezident seçkilərində 5 il müddətinə Rumen Radev prezident seçilmişdir. Yeni seçilmiş, heç bir partiyanı təmsil etməyən Rumen Georgiyev Radev 2017-ci il yanvarın

22-də rəsmi olaraq Bolqarıstanın beşinci prezidenti kimi vəzifəsini icra etməyə başladı. 2021-ci ilin 14–21-i noyabr seçkilərində Rumen Radev ikinci dəfə beş il müddətinə ölkə prezidenti seçilmişdir. Bolqarıstan Konstitusiyasına əsasən prezident silahlı qüvvələrin ali baş komandanıdır. İdarəetmə formasına görə Bolqarıstan Parlament respublikasıdır. Ölkədə son üç ildə yeddi parlament seçkisi təşkil edilmişdir ki, 2024-cü ilin oktyabrındakı seçkini GERB partiyası qazanmışdır. Partiya 240 nəfərlik Xalq məclisinə 69 deputat göndərmişdir. 2025-ci il yanvarın 16-da ölkənin Xalq məclisi Rosen Jelyazkovun başçılığı altında mərkəz sağ koalision hökuməti qurmuşdur.

2016-cı ilin rəsmi məlumatlarına əsasən, Bolqarıstan Respublikasının əhalisi 7101859 nəfər, ərazisi isə 110993 $km^2$ təşkil edir. İnzibati bölgüyə görə, Bolqarıstan 28 vilayətə, onlar isə 264 icmaya bölünmüşdür. Ümumdünya bankının məlumatına əsasən 2023-cü ildə Bolqarıstanda 6,447 milyon əhali yaşayırdı, ərazisi isə 110,994 $km^2$ təşkil edirdi.

Ölkənin milli valyutası bolqar levidir. Bolqarıstan hökuməti 2010-cu ildə Bolqar levini avro ilə əvəz etməyi planlaşdırırdı. Lakin Xorvatiya, Çexiya, Polşa, Macarıstan kimi, Bolqarıstan da nəzərdə tutulmuş müddətdə avroya keçməkdən imtina etmişdir.

Keçid dövründə Bolqarıstanın əsas iqtisadi göstəriciləri, o cümlədən daxili ümumi məhsul istehsalının həcmi, sənaye və aqrar bölmənin məhsul istehsalı, xarici və daxili ticarət, əhalinin məşğulluğu aşağı düşmüşdür. Artıq 2000-ci ildən

başlayaraq, Bolqarıstanda bazar iqtisadiyyatına keçilməsi ilə əlaqədar iqtisadi və təssərrüfat vəziyyəti sabitləşməkdədir. Ölkənin ümumi daxili məhsul istehsalı həcmi 2003-cu ildə 5%, 2005-ci ildə 6% artmışdı. İnflyasiya 2000-ci ildəki 10,3%-dən, 2003-cü ildəki 2,4%-ə düşdü. Əvvəlki illərdən fərqli olaraq, ağır sənaye deyil, emal və qida sənayesi sahələri ön plana keçdi.

1991-ci ildən 1996-cı ilə kimi Bolqarıstana 831 milyon dollar həcmində investisiya qoyulmuşdur. 1997-ci ildən başlayaraq ölkəyə cəlb edilən inestisiyaların miqdarı artaraq 2004-cü ilə kimi 2,5 milyard ABŞ dolları həcmində olmuşdur. 2004-cü ildə Bolqarıstan iqtisadiyyatına 3,47 milyard, 2005-ci ildə 2,3 milyard ABŞ dolları həcmində investisiya cəlb edilmişdir. 2014-cü il məlumatlarına əsasən, Bolqarıstanın ümumi daxili məhsul istehsalı 128,63 milyard dollar, sənaye istehsalının artımı isə ildə 1,7% təkil etmişdir.

İqtisadiyyatın artımı son illərdə sürətli deyil, amma sabitdir. 2019-cu ilin ikinci rübündə iqtisadiyyat 3,5% artmışdır. Bolqarıstanın makroiqtisadi göstəriciləri də diqqəti cəlb edir, belə ki infilyasiyaya 3%-dən çox olmayıb, özəl bölmənin payı dövlət bölməsi üzərində xeyli dərəcədə üstündür, borc nisbətən aşağıdır. Ölkədə yoxsulluğun səviyyəsi 22%-dən çoxdur. Bolqarıstanda örta illik əməkhaqqı 7400 avrodur ki, bu da Aİ-nin 15 min avro səviyyəsində olduğundan iki dəfə aşağıdır.

2000-ci illərin əvvəllərindən Bolqarıstanın sənayesində sabit artım diqqəti cəlb edir. İstehsalın həcmi 2002-ci ildəki

0,6% yerinə artaraq 2004-cü ildə 5,2% təşkil etmişdir. Sənayenin strukturunda köklü dəyişikliklər olmuşdur. Əzraq malları, içkilər və tütün məmulatlarının istehsalı əsas sahələrə çevrilmişdir. Bolqarıstanın yanacaq-energetika balansının strukturunda 2004-cü il məlumatına əsasən neft və neft məhsulları 24,3%, təbii qaz 14,8%, kömür və liqnitlər 38,1%, atom enerjisi 20,1%, su enerjisi 2,7% təşkil etmişdir. Enerji resurslarının 70%-i, o cümlədən neft, qaz, daş kömür, nüvə yanacağı Rusiyadan idxal edilir. 2004-cü il məlumatına əsasən ölkədəki elektrik stansiyalarının müəyyən edilmiş gücü 9515MVt-dır. XXI əsrin əvvəllərində elektrik enerjisi istehsalı demək olar ki, əvvəlki səviyyəsinə çatmışdır, belə ki, 1989-cu ildə 42,6 milyard kvt-s, 2004-cü ildə 41,6 milyard kvt-s olmuşdur.

Ölkə sənayesində əlvan metalurgiya daha uğurla inkişaf edir. Özəlləşdirilmiş iki əsas metallurgiya kombinatlarında "Kremikovski" SC-i Sofiyada, "Stomana" SC-i isə Pernikdə yerləşir.Plovdiv və Kırcalıda qurğuşun əritmə və sinkəritmə kombinatları fəaliyyət göstərir. Panagüriş, Pirdop şəhərlərinin rayonlarında saflaşdırılmış qurğuşun istehsal olunur. Bolqarıstan iqtisadiyyatının əsas sahələrindən biri olan kənd təsərrüfatının inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindəndir. 2003-cü il məlumatına görə kənd təsərrüfatı torpaqları 5,3 milyon hektar, yaxud ölkə ərazisinin təqribən 48 faizini tutur. Şumluq torpaqların əsas massivləri Dunay düzənliyində və Yuxarı Frakiya ovalığında, bağlar və üzümlüklər əsasən Stara-Planina və Rodop dağlarının şimal hissəsində, həmçinin Küstəndil çuxurunda çəmləşmişdir. 2004-cü ildə bu torpaq-

lardan 5, 7 milyon ton taxıl, o cümlədən 3,3 milyon ton buğda, 1,4milyon ton qarğıdalı, 1 milyon ton arpa yığılmışdır. Eyni zamanda ölkədə texniki bitkilər, tütün, şəkər çuğunduru, pambıq, günəbaxan əkilir, bostançılıq və bağçılıq mədəniyyəti üstün yer tutur. Heyvandarlıq sahəsində 2004-cü ildə 2,4 milyon baş davar, 701 min baş qaramal, 945 min baş donuz, 21 milyon ev quşu yetişdirilmişdir.

Aqrar bölmə təsərrüfatlarının 65,9%-i xüsusi bölmənin payına düşür. Kənd təsərrüfatı məhsullarının istehsalının 28,8 %-ni isə kooperativlər verir. İqtisadiyyatdakı dəyişikliklər əhalinin strukturuna da təsir etmişdir. 2003-cü ildə Bolqarıstan əhalisinin 74,8%-i xüsusi bölmədə çalışırdı. Sənaye və kənd təsərrüfatında çalışan işçilərin sayı aşağı düşmüş, bunun müqabilində, xidmət sahələrindəki işçilərin sayı artmışdır.

Bolqarıstanda nəqliyyat iqtisadiyyatın əsas sahələrindəndir. Bolqarıstanda bütün nəqliyyat sahələri, o cümlədən quru, hava, boru, dəmir yol, su və s. geniş inkişaf etmişdir. Onların hər biri xüsusi infrastruktura malikdir. Coğrafi baxımdan ölkə Avropaya gedən yolların üzərində yerləşir. Şimali Afrika, Yaxın Şərq, Kiçik Asiyadan gələn quru yolları Bolqarıstanın ərazisindən keçərək Avropaya uzanır. Avtomobil nəqliyyatı əsas vasitə kimi 19611 km şosse yoluna malikdir. 2012-ci ildə ölkənin dəmir yolları 6938 km təşkil etmişdir. Bolqarıstan Rumıniya, Serbiya, Yunanıstan, Türkiyə kimi qonşu dövlətlərlə dəmir yolu xəttinə malikdir. Ölkədə 8 əsas hava limanı mövcuddur.

Bolqarıstan Respublikasında İnternet geniş yayılmışdır. 2011-ci il rəsmi məlumatına əsasən, şəhərlərdəki evlərin 54,1%-də, kənd yerlərindəki fərdi evlərin 18,1%-də kompüter var. Onların, müvafiq olaraq, 51,4 və 16,4%-i İnternetə bağlana bilir. Dunay bankının məlumatına görə Bolqarıstan əhalisinin 2023-cü ildə 80,4%-i internet istifadəçisidir.

2003-cü il məlumatına əsasən, 15 yaşdan yuxarı olan ölkə əhalisi arasında savadlılıq 98,6% təşkil edirdi. Bolqarıstan Respublikasında təhsil 1991-ci ildə qəbul edilmiş Xalq Təhsili haqqında Qanun, 1995-ci ildəki Ali Təhsil haqqında Qanun və 1999-cu ildəki Peşə Təhsili və Təlimi haqqında Qanunla idarə olunur. Bolqarıstanda 1998-ci ildən 12 illik təhsil pilləsi olmaqla təhsil sistemi dörd pillədən, məktəbəqədər, əsas (ibtidai və orta təhsilin aşağı pilləsi), orta və ali təhsil pilləsindən ibarətdir. Məktəbəqədər təhsilə 3–7 yaşlı uşaqlar cəlb edilir. Uşaqlar 7 yaşından I sinifə qəbul olunur. I–IV siniflər ibtidai, V–VIII siniflər orta təhsilin aşağı, IX–XII siniflər isə orta təhsil pilləsini təşkil edir. İbtidai və orta təhsilin aşağı mərhələsindən ibarət olan əsas təhsil pilləsi icbaridir. Dövlət məktəblərində təhsil pulsuzdur.

Bolqarıstanda məktəbəqədər təhsil dövlət, bələdiyyə və ya özəl təhsil müəssisələrində həyata keçirilir.2003–2004-cü tədris ilindən uşaqlar məktəbəqədər təhsil müəssisələrində təhsil alması icbaridir. 2009–2010-cu tədris ilində Bolqarıstanda 2262 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərirdi. Bu müəssisələrədə 217,8 min nəfər uşağın təlim-tərbiyəsilə 19 mindən artıq pedaqoji işçi məşğul olurdu. Məktəbəqədər

təhsil müəssisələrinin 95%-i dövlətə məxsusdur. Lakin son illərdə özəl məktəbəqədər təhsil müəssisələrinin sayı artmaqda davam edir.

Qeyd edildiyi kimi əsas təhsil I–VIII sinifləri əhatə edir, icbaridir, dövlət məktəblərində, bələdiyyə məktəblərində və ya özəl məktəblərdə həyata keçirilir. Orta təhsil pilləsi IX–XII sinifləri əhatə edir.Ümumi orta təhsilə orta, ixtisaslaşmış və texniki peşə məktəblərində yiyələnmək mümkündür. Bolqarıstanda ümumi təhsil kuriklumu fənlər üzrə səkkiz istiqamətə bölünür: bolqar dili və ədəbiyyatı, xarici dil, riyaziyyat, informasiya texnologiyası, humanitar elmlər və ictimaiyyat, təbiət elmləri və ekologiya, musiqi və incəsənət, fiziki təhsil və idman. 2002–2004-cü dərs ilində ölkədə 2823 ümumtəhsil məktəbi fəaliyyət göstərirdi ki, bunların da 54-ü özəl məktəblər idi. İbtidai məktəblərdə 314 min, gimnaziya tipli məktəblərdə 330 min, IX–XIII siniflərdə 374 min oğlan və qız təhsil alırdı.

Texniki peşə təhsili müəssisələrinə texniki, peşə məktəbləri və peşə kollecləri daxildir. Texniki məktəblərdə təhsil müddəti 4–5 il, peşə məktəblərində 3 il, peşə kolleclərində 2 il davam edir. 2003–2004-cü tədris ilində Bolqarıstanda 34-ü xüsusi orta peşə məktəbləri olmaqla 504, məktəbdə 202 min nəfər şagird oxuyurdu.

Bolqarıstanın ali təhsil sistemində 228 min tələbəni əhatə edən 42 universitet, o cümlədən 7-si özəl, 9 kollec fəaliyyət göstərirdi. Kliment Oxridsk adına Sofiya Universiteti, Paisiya Xilendarsk adına Plovdiv Universiteti, Müqəddəs Kirill və

Mefodi adına Veliko-Tırnovo Universiteti, Sofiyadakı Q.S.Rakovski adına Hərbi Akademiya ölkənin ən böyük və tanınmış ali təhsil müəssisələrindən idi. 2009-cu il məlumatına əsasən ölkədə 47 universitet fəaliyyət göstərirdi ki, onlar da tələbələrinə bakalavr, magistr, doktor dərəcələri verirdi. Bakalavriatura səviyyəsi 4 il, magistratura səviyyəsi isə 1 il davam edir. Doktorantura səviyyəsinin tamamlanması fəlsəfə doktoru elmi dərəcəsinin təqdim edilməsilə nəticələnir. Universitetlərdə 4 əsas elm sahəsinin, humanitar elmlər, təbiət elmləri, ictimai elmlər, və texniki elmlərin müxtəlif istiqamətləri üzrə ixtisaslı kadrlar hazırlanır. 2012-ci ildə Bolqarıstanda 51 ali təhsil müəssisəsi fəaliyyət göstərirdi. Onlardan 37-si dövlət, 14-ü isə özəl ali məktəblər idi. Ali təhsil müəssisələri sisteminə universitetlər, xüsusi ali təhsil məktəbləri və kolleclər daxildir.

Bolqarıstanda əlavə təhsil imkanlarının artırılmasına, fasiləsiz peşə təhsil və təlimi, o cümlədən yaşlıların təhsil sisteminə xüsusi diqqət yetirilir. 2008-ci ildə Milli Fasiləsiz Təlim Strategiyasının qəbul edilməsi məhz bu sahədə qarşıda duran vəzifələrin həll edilməsinə yönəlib. İnsan Resurslarının inkişafı üzrə Fəaliyyət Proqramının (2007–2013) da məqsədi fasiləsiz təlimin genişləndirilməsi və keyfiyyətinin yüksəldilməsi vasitəsilə əhalinin həyat səviyyəsinin yüksəldilməsindən ibarətdir.

Avropa İttifaqının üzvü olan Bolqarıstan Avropa vahid təhsil məkanının formalaşmasında fəal iştirak edir. Bolqarıstan Avropa İttifaqının təhsil, elm, təlim sahəsində bir çox layihələrinə qoşulmuşdur.1999-cu ilin 19 iyun tarixində Avropa

Təhsil Nazirlərinin Müştərək Bəyannaməsini imzalayan 29 ölkədən biri də Bolqarıstandır.

1869-cu ildə əsası qoyulan Bolqarıstan Elmlər Akademiyası ölkənin ən yüksək elmi təşkilatıdır. Təbiət, texniki və sosial elmlər və humanitar elmlər sahələrində fundamental və tətbiqi tədqiqatlar aparan 68 institut, labaratoriya və digər tədqiqat bölmələri mövcuddur. Bolqarıstan Elmlər Akademiyası 48 ölkənin elmi təşkilatları ilə ikitərəfli müqavilələrə malikdir və 20-dən çox beynəlxalq hökumət və qeyri-hökumət təşkilatının üzvüdür.

2000-ci il məlumatına görə, Bolqarıstanda dispanserlər də daxil olmaqla, 288 xəstəxana mövcud idi. 2002-ci ildə hər 100 min nəfər əhaliyə 366 həkim, 2003-cü ildə 629 xəstə çarpayısı düşürdü. Dövlət səhiyyəyə ÜDM-in 4,7%-ni sərf edirdi. Tibb kadrları Sofiya və Varna universitetlərində, Plovdiv, Pleven, Staro-Zaqor kolleclərində hazırlanırdı.

Bolqarıstanda mədəni-maarif fəaliyyətinin mümkün qədər çox formalarını bir məkanda birləşdirən oxu zalları, yəni çitalişlər çox vaxt ictimai kitabxanaya malik olub, teatr kursları, rəqs, musiqi və xarici dil məktəbləri, maraq klubları təşkil edirdi. 2016-cı ilin yanvar ayına olan məlumata görə Bolqarıstanda 3614 oxu zalı fəaliyyət göstərirdi. 2025-ci il may ayına olan məlumata əsasən Bolqarıstanda 64 muzey vardır. Bolqarıstan Milli Tarix muzeyi, Etnoqrafiya muzeyi, Milli Hərb Tarixi muzeyi, Sofiya İncəsənət muzeyi, Milli Dəniz muzeyi, Regional Arxeologiya muzeyi, Plovdiv, Milli Təbiət Tarixi muzeyi və b. ən çox seçilən muzeylərdir.

Müstəqil Bolqarıstan Respublikasının İvan Vazov, Dimitr Dimov, Anton Donçev, Dimitr Talev və b. yazıçılarının yaradıcılığı bolqar, Balkan və dünya mədəniyyətlərinin bir hissəsini təşkil edir.

1989-cu ildə Berlin divarının yıxılması tədricən Şərq blokunun dağılması və bura daxil olan ölkələrdə sosializmdən kapitalizmə keçilməsi bədii ədəbiyyata da əhəmiyyətli təsir göstərmişdir. 90-cı illərin əvvəllərindən başlayaraq Ylii Kristevanın fransız dilindən Bolqar dilinə geniş şəkildə tərcümə edilmiş romanları ədəbiyyatı yeni müasir tərzdə müəyyənləşdirməyə çalışan bir çox bolqar yazıçı və şairlərinin yaradıcılığına iz qoymuşdur. Konstantin Pavlov, Boris Xristov, Dobromir Tonev, Ani İlkov, Yana Boukova, Kristin Dmitrova və b. yaradıcılığı buna misaldır.

Məşhur müasir bolqar ədəbi əsərlərinə Emiliana Stanevanın "Şaftalı oğrusu" ("Вор персиков"), Geo Milevin "Sentyabr", İvan Vazovun "Boyunduruğun altında" ("Под ярмом"), Elin Pelinin "Yel dəyirmanı" ("Ветряная мельница"), Dora Qabenin "Dərinliklər" ("Глубины") və b. kitabları nümunə göstərmək olar.

Tanınmış bolqar yazıçısı, tərcüməçi və ədəbiyyatşünas Angel İqov 2002-ci ildə qısa hekayələr toplusu olan "Yolda görüşlər" ("Встрече на дорогах") kitabı ilə debüt edərək ədəbi yaradıcılığa başlamışdır. Onun yaradıcılığında "Utancın qısa tarixi" ("Краткая история стыда") romanı xüsusilə seçilirdi. Digər bir bolqar yazıçısı, dramaturq və televiziya ssenaristi Georgi Qenevin "Partiya qərargahı" ("Штаб партии") romanında 1980–1990-cı illərdə Bolqarıstanın kom-

munist idarəçiliyindən demokratiyaya keçidi zamanı ölkədə cərəyan edən hadisələrdən bəhs edir. Bu əsər 2007-ci ildə Vika Fondunun ilin romanı mükafatını qazanmışdır.

Müasir bolqar ədəbi əlaqələrindən bəhs edərkən yazıçı Nikolay Xaytovun "Əcaib hekayələr" ("Divi razkazi") kitabını xüsusi qeyd etməliyik.

Bolqarıstanda 2008–2009-cu illərdə keçirilən "Böyük oxu" kompaniyası göstərirdi ki, İvan Vazovun "Boyunduruğun altında" ("Под ярмом"), Anton Dončevin "Seçim vaxtı" ("Час выбора"), Dimitar Dimovun "Tütün" ("Табак"), "Məhkum ruhlar" ("Осужденные духи"), Dimitr Talevin "Dəmir lampa" ("Железный светильник") romanları bolqar oxucuları arasında ən populyar olanlardandır.

Bolqar şairi, nasir, ədəbiyyatşünas alim Georgi Qospodinovun "Təbii roman" ("Естественный роман") əsəri Bolqarıstanda ən çox tərcümə olunan kitab olmaqla bərabər 2023-cü ildə Bukerov beynəlxalq mükafatına layiq görülmüşdür. İlk bolqar postmodernist romanın poetikası təbiət tarixinin keyfiyyətləri ilə səciyyələndirilir. Nəşr xarici ədəbiyyatı sevənlərin geniş kütləsinin xüsusi marağına səbəb olmuşdur. Bədii yaradıcılıq sahəsində XXI əsrin əvvəllərində bolqar həqiqətinin neqativ tərəflərinin, yəni ölkədəki korrupsiya, cinayətkarlıq və s. təhlili geniş yer tutur. Bu sahədə V.Zarevin yaradıcılığı diqqət cəlb edir. Q.Danilov, V.Mutafçievin bədii-sənədli çap əsərləri geniş şöhrət qazanmışdır.

1980-ci illərin sonu – 1990-cı illərin əvvəllərində kino sahəsində böhranı dəf edən sənətkarlar bir çox yeni məzmunlu

kinofilmlərə imza atdılar. Rejissorlar İ.Niçev 1991-ci ildə "Bay Qano Avropanı gəzir" ("Бай Гано едет по Европе"), 1995-ci ildə "Məhəbbət yuxugörmələri" ("Любовные сновидения"), L.Todorov 1996-cı ildə "Emilin dostları" ("Друзья Эмили") kinofilmlərini yaratmışdır. Sofiya Opera və Balet Teatrının bədii rəhbəri S.Tomov solistlər M.İlieva, D.Bedeva, D.Nikiforova, P.Kanev və digərlərinin iştirakı ilə 2004-cü ildə "C.Balançinin baletlər axşamı" ("Вечера балетов Дж.Баланчина") əsərini səhnələşdirmişdir.

2008-ci ildə rejissor Javor Gyrdev "Drıft" filmin çəkmişdir. Dram janrında olan filmdə 60-cı illərdə totalitar, qəribə şəhər olan Sofiyanın küçələrində cərəyan edən hadisələrdən bəhs edilmişdir. 2015-ci ildə son 100 ilin ən yaxşı bolqar filmi rejissor Lyudmil Staykov tərəfindən Anton Donçevin yazdığı "Zorakılıq vaxtı" ("Время насилия") romanının səhnələşdirilməsi olmuşdur.

XX əsrin sonu – XXI əsrin ilk onilliklərində Bolqarıstanın musiqi həyatı rəngarəng olmuşdur. Bolqar musiqi mədəniyyətinin simasını isə əsasən xalq musiqisi müəyyən etmişdir. Bolqarıstanın görkəmli bəstəkarları sırasında Asen Karastoyanov, Lazer Nikolov, Dimitar Xristov, Simeon Pironkov, Aleksandr İosifov və b. adlarını qeyd etmək olar. Bolqar vokal məktəbinin müğənnilərindən Spambarov Venkov, İvanka Miteva-Koralova, K.Stoyanova, S.Yonçeva və b. bolqar vokal məktəbinin ənənələrini davam etdirmişdir. Eyni zamanda drijor İvan Marinov, pianoçular Vençeslav Yankov, Anton Dikov, skripkaçılar Vladimir Avramov, Georgi Badev, Stoika

Milanova, Minço Minçev və b. musiqi tarixində öz imzalarını qoymuşdur.Məhşur bolqar musiqişünasları A.Karastoyanov, Venelin Krastev, Yelena Tonçeva, folklorşünas Stoyan Gujev bolqar musiqisində özünəməxsus yer tuturlar.

XX əsrin II yarısından Bolqarıstanda caz musiqiçiləri xüsusi şöhrət qazanmışdır. Pianoçu Milço Leviyev, fleyta ifaçısı Simeon Şerev və Teodosiy Stasov, müğənni Yıldız İbrahimova, nağara ifaçısı Xristo Yotsov onlara misaldır.

2008-ci ildə "Bistritskie Babuşki" folklor ansamblı UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs siyahısına daxil edilmişdir.

Bolqarıstanın mərkəzi musiqi ali təhsil müəssisəsi 1921-ci ildə təşkil edilmiş Dövlət Musiqi Akademiyasıdır ki, 1954–1995-ci illərdə Bolqarıstan Dövlət Konservatoriyası, 1995-ci ildən Panço Vladigerov Dövlət musiqi Akademiyası, 2006-cı ildən isə adı Panço Vladigerov adına Milli Musiqi Akademiyası olan təhsil ocağıdır. Varnada isə 1944-cü ildə musiqi məktəbi kimi meydana gələn 2004-cü ildən Dobri Xristov adına Milli İncəsənət Məktəbi adlanan təhsil müəssisəsi ümummilli şöhrətə malikdir.

Beynəlxalq müsabiqələr sırasına 1961-ci ildən keçirilən Sofiyada Boris Kristofun Gənc Opera müğənnilərinin müsabiqəsi, 1975-ci ildən keçirilən Varnada May Xor müsabiqəsi (1982-ci ildən Georgi Dimitrov müsabiqəsi), 1965-ci ildən keçirilən Qızıl Orfey estrada artistlərinin müsabiqəsi daxildir.

Ən böyük musiqi festivallarına 1926-cı ildən təşkil edilən (1966-cı ildən beynəlxalq) Varna yayı, Rusedə 1961-ci ildən

keçirilən Mart musiqi günləri, 1970-ci ildən keçirilən Sofiya musiqi həftələri, 1998-ildən təşkil olunan Emil Çakarovun xatirəsinə həsr edilmiş Burqas Opera və Klassik musiqi Festivalı misal ola bilər.

Bolqarıstanda idmanın akademik avarçəkmə, güləş, voleybol, bədii və idman gimnastikası, yüngül və ağır atletika, üzgüçülük, futbol, şahmat kimi növləri daha geniş yayılmışdır. 2024-cü il yanvarın 1-nə olan məlumata əsasən bolqar idmançıları olimpiyadalarda 230, o cümlədən 54 qızıl, 88 gümüş və 82 bürünc mükafatlar qazanmışdır. Bolqarıstan paralimpiyaçıları 2024-cü il yanvarın 1-də yay Paralimpiya oyunlarında 17 medal, o cümlədən 5 qızıl, 9 gümüş və 3 bürünc medal qazanmışdır.

Bolqarıstan tələbələri daim Ümumdünya universiadalarında iştirak edirlər. 2024-cü il yanvarın 1-nə olan məlumata əsasən tələbələr yay yarışlarında 135 medal, o cümlədən 42 qızıl, 43 gümüş, 50 bürünc medal qazanaraq iştirakçılar arasında 22-ci yeri tutmuşdular.

Bolqarıstanın tanınmış idmançılarından Mariya Qrozdeva 2000 və 2004-cü illərdə Olimpiyada oyunlarında tapançadan atəş açmaq üzrə 2 qızıl və 3 bürünc medallar qazanmışdır. O, ümumiyyətlə 7 Olimpiyadada iştirak etmişdir. P.D.Djadjarova-Neykova 2008-ci ildə akademik avarçəkmə üzrə, 2002, 2003-cü illərdə bədii gimnastika üzrə M.Qirova dünya çempionatının qalibi olmuşdur. 2005-ci ildə beynəlxalq qrossmeystr Veselin Topalov FİDE-nin Argentinada keçirilən şahmat çempionatının qalibi olmuşdur. A.Stefanova 2004–2006-cı illərdə şahmat

üzrə dünya çempionu olmuşdur. 20 yaşlı N.Salimova 2023-cü ildə dünya Kuboku yarışının finalçısı olmuşdur. 2006-cı ildə Sofiyada keçirilən samboçuların dünya çempionatında bolqar idmançıları 3 qızıl, 4 gümüş və 6 bürünc medal qazanmışdır. Qadınlar arasında Snejina Vasilyeva, Elitsa Rıjeva, kişilər arasında Georgi Georgiyev qızıl medal qazanaraq adlarını bolqar idman tarixinə yazdırdılar. 2007-ci ildə bolqar şəhəri Pravesdə keçirilən samboçuların Avropa çempionatında ev sahibləri 5 birinci, 4 ikinci və 3 üçüncü yerlərə sahib olmuşdur.

Konstitusiyanın 13-cü maddəsinə əsasən, Bolqarıstanda dini idarələr dövlətdən ayrı fəaliyyət göstərir, dini inanc məsələsində vətəndaşlar azad seçim hüququna sahibdirlər. Bolqarıstan Respublikasında tarixən mövcud olmuş din Şərqi pravoslav dinidir. Bolqarıstan əhalisinin 82,6%-i provaslavlığa, 0,5%-i protestantlığa, 12,2%-i islama, 0,6 faizi katolikliyə etiqad edir. Bolqarıstanın 2011-ci ildəki rəsmi siyahıyaalmasının nəticələrinə görə ölkə əhalisinin 78,2%-i özlərini dindar olaraq tanıyıb. Qeyd edildiyi kimi, Bolqarıstan kostitusiyasının 19-cu maddəsinə əsasən din azaddır, dini icmalar və qurumlar, eləcə də dini inanclar siyasi məqsədlər üçün istifadə edilə bilməz.

Bolqarıstan Respublikasının xarici siyasəti Avropa və Şimali Atlantika istiqamətli olmasına baxmayaraq, dövlət Rusiya Federasiyası ilə də sıx iqtisadi və digər əlaqələr saxlayır. Bolqarıstan 1996-cı il dekabrın 1-dən Dünya Ticarət Təşkilatının üzvüdür.

1996-cı il iyulun 7-də Sofiyada keçirilən Cənub-Şərqi Avropa ölkələri xarici işlər nazirlərinin görüşündə 4 sahədə əməkdaşlıq edilməsi nəzərdə tutulmuşdur. Buraya xoş qonşuluq münasibətlərinin sabitliyi və təhlükəsizliyi, onların daha da inkişaf etdirilməsi, iqtisadi inkişaf, humanitar, sosial və mədəniyyət məsələləri, hüquq məhkəməsi, cinayətkarlıqla mübarizə, terrorizm, qanuna zidd hərəkətlər, narkotik və silah alveri ilə mübarizə sahələrində əməkdaşlıq daxildir. Bu təşəbbüs Cənub-Şərqi Avropada Əməkdaşlıq Prosesi adlanır ki, 2007–2008-ci illərdə onun sədri Bolqarıstan Respublikası olmuşdur. Bolqarıstan 1992-ci ilin iyunundan Mərkəzi Avropa təşəbbüsünün müşahidəçisi, 1996-cı il iyunun 1-dən isə onun tamhüquqlu üzvüdür. Bolqarıstan həm də Qara dəniz İqtisadi Əməkdaşlığı Təşkilatının üzvü olaraq, 2009-cu il noyabrın 1-də 2010-cu il mayın 31-nə kimi onun sədri vəzifəsini yerinə yetirmişdir.

Bolqarıstan Respublikası 130 dövlətlə diplomatik münasibətlər qurub, 300 beynəlxalq və regional təşkilatlarla əlaqə saxlayır. Bolqarıstanın Avropada Fransa və Böyük Britaniya ilə dinamik diplomatik əlaqələri mövcuddur. 1999-cu ilin noyabrında bolqar Baş naziri İ.Kostov Fransada rəsmi səfərdə olmuş, bu zaman ikitərəfli əlaqələrə dair bir çox rəsmi sənəd qəbul edilmişdir. 1999-cu il mayın 17-də Böyük Britaniyanın Baş naziri T.Bleyr Bolqarıstana rəsmi səfərə gəlmişdir. Ölkələr arasında ticarət-iqtisadi münasibətlərin inkişafı ön planda olmuşdur.

Bolqarıstan Respublikasının xarici siyasət sahəsindəki ən böyük uğuru 2004-cü il aprelin 2-dən NATO-ya, 2007-ci il

yanvarın 1-dən Avropa İttifaqına üzv olamasıdır. Bu addım Bolqarıstan-Rusiya münasibətlərində soyuqluq yaratsa da, bunu aradan qaldırmaq mümkün olmuşdur. 2003-cü ilin martında Rusiya Federasiyasının Prezidenti V.V.Putin Bolqarıstana səfər edərək, dostluq və tərəfdaşlığı inkişaf etdirmək əzmində olduğunu nümayiş etdirdi. İki ölkə arasında əlaqələri möhkəmlətmək məqsədilə 10 ikitərəfli sənəd imzalandı. Xüsusilə yanacaq-energetika sahəsində əlaqələr önə çıxdı. Rusiya qazının 2010-cu ilə kimi Bolqarıstandan keçmək şərtilə Yunanıstan, Makedoniya, Serbiya, Qaradağ və Türkiyəyə nəql edilməsi ilə bağlı razılıq əldə edildi. Rusiya Federasiyası Bolarıstana qaz sahəsində əməkdaşlıq üçün 150 milyon dollar həcmində kredit ayırdı. Lakin 2014-cü il avqustun 18-də Bolqarıstan hökumətinin iqtisadiyyat və energetika naziri Vasil Stonov "Cənub axını" üzrə işlərin dayandırılmasına dair göstəriş verdi.

Bolqarıstanın MDB ölkələri ilə, o cümlədən Azərbaycanla əlaqələri inkişaf etməkdədir. Konkret olaraq, Azərbaycan Resublikasının Prezidenti Heydər Əliyevin 1995-ci il iyunun 29–30-da Bolqarıstan Respublikasına rəsmi səfəri və ölkə prezidenti Jelyu Jelevlə görüşü hər iki ölkənin dostluq əlaqələrindən xəbər verir. Bu görüş çərçivəsində Azərbaycan və Bolqarıstan prezidentləri iki ölkə arasında dostluq və əməkdaşlıq haqqında müqavilə imzaladılar.

1999-cu ilin dekabrında Bolqarıstan Respublikasının Prezidenti Peter Stoyanov Azərbaycana rəsmi səfərə gələrək, iki ölkə arasında münasibətlərin daha da inkişaf etdirilməsi

üçün şərait yaratdı. Bu səfər çərçivəsində ölkələrimizin elm, təhsil, mədəniyyət sahələrində yaxınlaşmasına xüsusi diqqət ayrılmışdır. Bu gün də Bolqarıstan–Azərbaycan əlaqələri inkişaf edib möhkəmlənməkdədir. Belə ki, 2015-ci ilin martın 4-də Sofiyada Bolqarıstan Prezidenti Rosen Plevniliyev ölkəsinə rəsmi səfərə gəlmiş dost Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə qəbul təşkil etmişdir. Görüşdə Azərbaycanın dövlət başçısı yüksələn xətt üzrə davam edən Azərbaycan–Bolqarıstan münasibətlərindən danışaraq, hər iki ölkənin gələcəkdə də strateji əməkdaşlığı davam etdirmək əzmində olduğunu vurğulamışdır. Bolqarıstanın dövlət başçısı iki dost ölkə arasında iqtisadi əməkdaşlığın əhəmiyyətini qeyd edərək, xüsusilə "Cənub Qaz dəhlizi"nin Bolqarıstan və Cənub-Şərqi Avropa üçün önəmli mahiyyət daşıdığını ifadə etmişdir. 2016-cı il martın 10–11-də IV Qlobal Bakı Forumu çərçivəsində hər iki dövlət başçısı yenidən bir araya gəldi. Martın 10-da keçirilən ikitərəfli danışıqlarda Azərbaycanla Bolqarıstan arasındakı strateji əməkdaşlığın yüksələn xətlə inkişaf etməsindən, enerji, əczaçılıq və başqa sahələrdə əməkdaşlığın perspektivlərindən ətraflı bəhs edilmişdir. 2017-ci il oktyabrın 13-də Bolqarıstan Respublikasının prezidenti Rumen Radev Azərbaycan Respublikasına rəsmi səfərə gəlmişdir. Qeyd etmək vacibdir ki, ticarət əlaqələri hər iki ölkələr arasında iqtisadi münasibətlərin mühüm hissəsini təşkil edir. İki ölkə arasında energetika sahəsində əməkdaşlıq strateji mahiyyət daşıyır. Bolqarıstan Cənub Qaz Dəhlizinin üzvüdür və bu layihə 7 ölkəni birləşdirir.

2022-ci ilin oktyabrın 1-də Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Bolqarıstana rəsmi səfəri baş tutmuşdur. Tarixi əhəmiyyət daşıyan səfər zamanı ölkə başçısının paytaxt Sofiya şəhərində Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimində iştirakı mühüm əhəmiyyət kəsb etmişdir. 2023-cü il martın 11-də Azərbaycanda səfərdə olan Bolqarıstan Respublikasının prezidenti Rumen Radevin prezident İlham Əliyevlə videokonfrans formatında görüşü baş tutmuşdur. Kontransda enerji, nəqliyyat, təbii qaz təchizatı, kənd təsərrüfatı və başqa sahələrdə əməkdaşlıqla bağlı müzakirələr aparılmışdır. Bütün bunlar bir daha Azərbaycanın Bolqarıstanla siyasi, iqtisadi və mədəni əlaqələrinin daim inkişaf etdiyini göstərir.

XXI yüzilliyin birinci rübündə Bolqarıstan Respublikasının xarici siyasətində dərin dəyişikliklər baş verdi, bununla da ölkə yeni dünya qaydası ilə yaşamağa və mübarizə aparmağa başladı.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

## Azərbaycan dilində

1. Baxşəliyev T.Ş. Slavyan ölkələri tarixi. 1917–2015. Ali məktəblərin bakalavriat səviyyəsi üçün dərslik. "Bakı Universitet" nəşriyyatı, 2016, 373 s.
2. Baxşəliyev T.Ş. Slavyan ölkələri tarixi. 1917–2015. Ali məktəblərin bakalavriat səviyyəsi üçün dərslik. Düzəliş və əlavələr 2-ci nəşr. "Şərq-Qərb", 2018, 872 s.
3. Baxşəliyev T.Ş. Rusiya tarixi ən qədim zamanlardan günümüzədək. Dərslik. Bakı, "Təhsil", 2021, 808 s.
4. Məmmədov H.N. Bolqarıstan tarixi. Dərslik. Bakı, "Elm və Təhsil", 2009, 272 s.
5. Vəliyev T.T., Şahmuradov A.Ş. Slavyan ölkələri tarixi (XIX əsrin ikinci yarısı–XX əsrin əvvəlləri) Bakı: Vətən nəşriyyatı, 2012, 565 s.

## Rus dilində

6. Авторитарные режимы в Центральной и Восточной Европе (1917–1990-е годы). М.: Институт славяноведение РАН, 1999, 237 с.
7. Валев Л.Б. Исследования по новой и новейшей истории Болгарии. М.: Наука, 1986, 256 с.

8. Власть и церковь в СССР и странах Восточной Европы, 1939–1958. М.: Ин-т славяноведения РАН, 2003, 380 с.
9. Волков В. К. Узловые проблемы новейшей истории стран Центральной и Юго-Восточной Европы. М.: Индрик, 2000, 367 с.
10. Волокитина Т.В., Мурашко Г.П., Носкова А.Ф. Народная демократия: миф или реальность? Общественно-политические процессы в Восточной Европы, 1944-1948 гг. М.: Наука, 1993, 342 с.
11. Восточная Европа на историческом переломе. Очерки революционных преобразований 1989–1990 гг. М.: Институт славяноведения и балканистики АН СССР, 1991, 339 с.
12. «Восточноевропейский социализм». Становление режима, попытки его модификации, причины краха. М.: Институт славяноведения и балканистики РАН, 1992, 198 с.
13. Гусейнова Л.Дж. Тоталитаризм в странах Центральной и Восточной Европы. 1945–1989. Баку.: МВМ, 2015, 344 с.
14. Движение Сопротивление в странах Центральной и Юго-Восточной Европы,1939–1945. М.: Радикс, 1995, 547 с.
15. Демократическое правовое государство и гражданское общество в странах Центрально-Восточной Европы. М.: Наука, 2005, 181с.

16. История южных и западных славян: В 2 т. Т. 2: Новейшее время: Учебник/ Под. ред. Г.Ф.Матвеева и З.С.Ненашевой. М.: МГУ, 2008, 368 с.
17. Краткая история Болгарии. С древнейших времен до наших дней. М.: Наука,1987, 558 с.
18. Кривогуз И.М. Крушение «реального социализма» в Европе и судьба освободившихся народов. М.: Синергия, 2001, 198 с.
19. Москва и восточная Европа. Становление политических режимов советского типа (1949–1953). Очерки истории. М.: РОССПЭН, 2002, 686 с.
20. Очаги тревоги в Восточной Европе. Драма национальных противоречий. М.: Институт славяноведения и балканистики РАН,1994, 329с.
21. Политические системы СССР и стран Восточной Европы, 20–60-е годы. М.: Наука,1991, 253 с.
22. Послевоенная Восточная Европа. Экономические ориентиры и политические коллизии. М.: Наука, 1995, 335 с.
23. Социокультурные процессы в странах Восточной Европы (после второй мировой войны). М.: Институт славяноведения и балканистики РАН, 1992, 314с.
24. Становление многопартийности в Восточной Евопе в 1990-е годы: (На материалах Болгарии, Венгрии, Восточной Германии, Польши, России, Словакии и Чехии ). М.: РАН,1996, 217 с.

25. Тоталитаризм. Исторический опыт Восточной Европы: «Демократическое интермеццо» с коммунистическим финалом,1944–1948. М.: Наука, 2002, 224 с.
26. Тоталитаризм. Исторический опыт Восточной Европы. М.: Наука, 1995, 222 с.
27. У истоков «социалистического содружества»: СССР и восточноевропейские страны в 1944–1949 гг. М.: Наука, 1995, 209 с.
28. Центрально-Восточная Европа во второй половине XX века: В 3 т. М.: Наука, 2000, 2002, 461 с.

**İngilis dilində**

29. Crampton R.J. A Short History of Modern Bulgaria. CUP Archive, 1987, 221 p.




СЪЕДИНЕНИЕТО ПРАВИ СИЛАТА






ПАИСИЙ
ХИЛЕНДАРСКИ



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev*
*Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevlə.*
*Sofiya. 30.09.2022-ci il*




*Bolqarıstan dunya xəritəsi*




*Bolqarıstan Respublikasının gerbi*



*Bolqarıstan Respublikasının bayrağı*




*Paisi Hilendarlı (1722–1773)*



*“Slovyan–Bolqar tarixi bolqar xalqı və çarları haqqında” kitab*



*Bolqarıstan Elmlər Akademiyası*



*Kirill və Mefodiy*



*"Gülxanə Xətti-Şərifi". 1839-cu il*


ЦАРИГРАДСКЇЙ ВѢСТНИКЪ.

*"Çariqrad xəbərləri" qəzeti (1848–1861)*





*Bolqarıstanın azad edilməsi. (1877–1878)*



# КОНСТИТУЦІЯ
## Болгарскаго Княжества

### Глава I.
### О территоріи Княжества.

1. Отчужденіе какой бы то ни было части территоріи Болгарскаго Княжества, а равно увеличеніе или расширеніе ея, можетъ быть произведено не иначе какъ съ согласія Великаго Народнаго Собранія.

2. Исправленіе границъ, поскольку оно не связано съ вопросомъ о пограничномъ населеніи, можетъ послѣдовать съ разрѣшенія Обыкновеннаго Народнаго Собранія. [ст. 85, п. 1].

3. Территорія въ административномъ отношеніи дѣлится на округа, околіи и общины. Устройство администраціи будетъ опредѣлено особымъ закономъ, на началахъ самоуправленія общинъ.

### Глава II.
### О существѣ и предѣлахъ Княжеской власти.

### Глава I.
### За територията на Княжеството.

1. Намаляванье или уголѣмяванье територията на Българското Княжество не може да стане безъ съгласието на Великото Народно Събрание.

2. Исправянье границитѣ, ако не става въ мѣста населени, може да бѫде разрѣшено и отъ Обикновенното Народно Събрание [Гледай чл. 85-й, т. 1].

3 Територията административно се дѣли на окрѫжия, околии и общини. Особенъ законъ ще се изработи за наредбата на това административно дѣление върху начала на самоуправление за общинитѣ.

### Глава II.
### Каква е Княжеската власть и каквы сѫ нейнитѣ прѣдѣли.

*Tırnovo Konstitusiyası. 1879-cu il*



*I Bolqar knyazı və çarı I Ferdinand. (1887–1918)*



*Birinci Balkan müharibəsi (1912–1913)*



*İkinci Balkan müharibəsi (1913)*



*Dmitri Blaqoyev. (1856–1924)*



*Bolqarıstan krallı I Ferdinand təbəələri arasında. 1915-ci il*



*Bolqarıstan I Dünya müharibəsində. (1915–1918)*



*Boris Klement Robert Mariya Piy Lui Stanislav Klavie Sakskoburqqotski. (1894–1943)*



*Aleksandr Stoimenov Stamboliyski. (1879–1923)*



*Ril monastrı*




*Bolqarıstan Xalq Məclisi*



*Kliment Orxidski adına Sofiya universiteti*



*Bolqarıstan II Dünya müharibəsində*




*Sənayeləşdirmə haqqında mif*







*Kollektivləşmə*




*“Dobriç” kinoteatrı*



*Mədəniyyət sarayı*





*Bolqarıstanda məhsul yığımı*



*Veliko Tırnovoda Şahzadə qalası*



*Burqas yaxınlığında neft emalı kombinatı. 1963-cü il*




*İvan Vazov adına Milli Teatr*



*Buzluca abidəsi*



*Bolqarların mədəni irsi*



*Vasil Levski adına Milli stadion*



*Bolqar milli geyimi*







*Zərif inqilab*





*Bolqarıstan 2004-cü il aprelin 2-si NATO-nun,*
*2007-ci il yanvarın 1-i Avropa İttifaqının üzvüdür*



*Bolqarların Olimpiadada uğurları. Paris, 2024-cü il*



*Bolqar futbol komandası*



*Sofiyada istirahət*

**Tahir Şamil oğlu Baxşəliyev**

**SLAVYAN ÖLKƏLƏRİ TARİXİ.
BOLQARISTAN 1800–2025**

Bakı, "Təhsil Nəşriyyat-Poliqrafiya" MMC, 2025

Dizayner: ***Səbinə Məmmədova***
Üzqabığı dizayneri: ***Əmiraslan Zaliyev***
Texniki redaktor: ***Sədaqət Ələkbərova***
Operator: ***Ülkər Məmmədli***

Çapa imzalanmışdır: 22.08.2025. Kağız formatı: 60x90 1/16
Fiziki çap vərəqi: 24,0. Sifariş: 65. Tiraj: 100.

"Təhsil Nəşriyyat-Poliqrafiya" MMC-nin
mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.

Bakı, AZ1052, Fətəli xan Xoyski küç., (121a) 149
Tel.: (+994 12) 567-81-28/29
tahsilpublishinghouse



Tahir Şamil oğlu Baxşəliyev 1951-ci il aprelin 26-da Beyləqan rayonunda anadan olmuşdur. 1967-ci ildə orta məktəbi əla qiymətlərlə bitirərək Bakı Dövlət Universitetinin Tarix fakültəsinin əyani şöbəsinə daxil olmuşdur. O, universitetin ilk Karl Marks təqaüdçülərindən biri olaraq 1972-ci ildə ali məktəbi fərqlənmə diploma ilə bitirmişdir. Təhsil Nazirliyinin Bölgü Komissiyasının qərarı uilə 1972-ci il avquştun 26-da ADU-nun «SSRİ tarixi» kafedrasında saxlanılmış və burada elmi-pedaqoji fəaliyyətini davam etdirmişdir. 1973-cü ildə «SSRİ tarixi» ixtisası üzrə universitetin aspiranturasına daxil olmuş, 1980-ci ildə namizədlik, 1991-ci ildə doktorluq dissertasiyasını müdafiə etmişdir. 1994-cü ildə «Türk və Qafqaz xalqları tarixi» kafedrası üzrə professor elmi adını almışdır. 1975–1977-ci illərdə ADU-nin komsomol komitəsinin katibi vəzifəsində işləmişdir. 1976–1981-ci illərdə ADU-nin «SSRİ tarixi» kafedrasının müəllimi, 1981–1987-ci illərdə baş müəllimi, 1987–1991-ci illərdə dosenti, 1991–1994-cü illərdə professoru olmuş, 1994–2000-ci illərdə «Türk və Qafqaz xalqları tarixi» kafedrasının müdiri vəzifəsində çalışmışdır. 1994-cü ildən 2000-ci ilə kimi Bakı Dövlət Universitetinin Tərbiyə işləri üzrə prorektoru vəzifəsində işləmişdir. 2014-cü ilin oktyabrından BDU-nun «Slavyan ölkələri tarixi» kafedrasının professorudur. O, BDU-nin və Tarix fakültəsinin Elmi Şurasının, D.054.03.02 ixtisaslaşdırılmış Doktorluq Şurasının, «Bakı Universitetinin xəbərləri», «Tarix və onun problemləri» jurnallarının, Təhsil Nazirliyi Elmi-Metodik Şurasının Rəyasət Heyətinin üzvü olmuşdur. Elmi fəaliyyəti keçmiş SSRİ, Türk və Qafqaz, Slavyan ölkələri tarixi ilə əlaqədardır. Professor Tahir Baxşəliyev Azərbaycan elmi və təhsilini Türkiyə, Rusiya, Polşa, Gürcüstan, Belarus və digər ölkələrdə təşkil edilmiş bir çox nüfuzlu yığıncaq, konfrans, toplantı və çalışmalarda, II və III Türk dövlət və topluluqları dostluq, qardaşlıq və iş birliyi qurultaylarında təmsil edərək elmi məruzələrlə çıxış etmişdir. Professor T.Baxşəliyev yerli və xarici nəşrlərdə dərc edilmiş 50-dən çox elmi işin, kitab, kitabça, dərslik, metodik vəsait, proqram və məqalənin müəllifidir. Müəllifin 2018-ci ildə «Slavyan ölkələri tarixi 1917–2015» (54,5. ç.v.), 2021-ci ildə «Rusiya tarixi ən qədim zamanlardan günümüzədək» (50,5 ç.v.) dərslikləri nəşr edilmişdir. Onun rəhbərliyi altında 20-dən çox magistr dissertasiyası müdafiə edilmişdir. T.Baxşəliyev «Türk dünyası tarixi», «Yaxın və Orta Şərqin tarixi», «Asiya və Afrika ölkələri tarixi», «Slavyan ölkələri tarixi» ixtisasları üzrə magistr dissertasiyası Müdafiə Şurasının sədri olmuşdur. Professor Tahir Baxşəliyev Bakı Dövlət Universitetində uzun illər səmərəli fəaliyyətinə, Azərbaycan elminin və təhsilinin inkişafındakı xidmətlərinə, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasındakı roluna, 2016/2017-ci tədris ilinin yüksək nəticələrinə görə BDU-nin Elmi Şurasının 07 iyul 2017-ci il tarixli qərarına əsasən Humanitar fakültələr üzrə «İlin müəllimi» fəxri adına layiq görülmüşdür. Professor T.Ş.Baxşəliyev Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin Tarix fakültəsinin nəzdində fəaliyyət göstərən ED2.20. Dissertasiya Şurasının sədr müavinidir. Tahir Baxşəliyev 1995-ci ilin aprel ayından Yeni Azərbaycan Partiyasının üzvüdür. O, Yeni Azərbaycan Partiyasının I qurultayının nümayəndəsi olmuşdur. Ailəlidir. Bir qızı, bir oğlu var.

Təhsil
NƏŞRİYYAT - POLİQRAFİYA

9 789952 576535

Tahir Baxşəliyev

SLAVYAN ÖLKƏLƏRİ TARİXİ